# XATUN VƏ KOMANDAN

**Məryəm Qurbanzadə**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:...................Xatun və Komandan**
**Müəllif:........................ Məryəm Qurbanzadə**
**Çap tarixi:................................................2024**
**Çap növbəsi:........................................Birinci**
**Tiraj:........................................................1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 55-18-77, 500-249,

ISBN 60-54-024518-58

**Ayətullah Xameneinin “Xatun və Komandan” kitabına yazdığı qeydlər:**

Allahın salamı olsun ixlaslı və fədakar döyüşçü Şəhid Əlirza Təvəssüli, həmçinin onun məhəbbətli və səbirli həyat yoldaşı, dəyərli Ümmul-Bənin xanıma.

Bu kitabda yazılan, əfqanlı mühacirlərin başına gələn hadisləri, etibar etdiyim ayrı bir qaynaqdan daha öncə eşitməmişdim. Bəziləri, həqiqətən çox narahat edicidir. Lakin bunu vurğulamaq istəyirəm ki, Fatimiyyun briqadasının cihad hərəkatı bütün əfqanlıların fəxr qaynağıdır.

Dekabr 2022

İlk səhifədə yazılan məktub, çox gözəldir və insanda öz təsirini buraxır.

**Şəhidlərin Allahının adıyla**

Səndən sonra, bir çox insan, sənin həyat hekayəni yazmaq istədi. Amma alınmadı və bacarmadı...

Mənim həyat hekayəmin yerinə, sənin qəhrəmanlıq hekayəni danışmaq istəmişdim, Əlirza, üzürlü say, olmadı...

Bu kitab, dəyərli və bacarıqlı dostum, Məryəm Qurbanzadə xanımla saatlarca söhbətimizin nəticəsidir.

Ümidvaram ki, bu kitab, gələcək nəsil üçün iftixar mənbəyi olsun və Fatimiyyunun şücaət və qeyrətini tarix boyu şiələrə çatdırsın.

Bir çox şeyi demədim, onları deməyə gücüm çatmadı və oxucunu da yormaq istəmədim...

Bunu nöqsanlarıyla bizdən qəbul et...

Sənsiz keçən illər, çox çətindir və yeganə təsəllim, mənə əmanət etdiyin yadigarlardır.

Bizə yardım et...

Qələbə aydınlığına az qalıb və dünyanın son müharibbəsini Məhdi (ə.f) tamamlayacaqdır. Həmin vaxtda səni təkrar görmək ümidiylə intizar bayrağını zirvədə saxlamışıq.

Bizim üçün dua et, Əbu Hamidim...

Tarix: sənsizliyin 5-ci ili
28.02.2020

Ümmul-bənin Hüseyni

# Birinci hissə:

## Birinci fəsil

Mən, Firuzə qızı Ümmül-bəninəm. Yay fəslinin ən isti günlərində, Əfqanistanın Bamiyan şəhərinin yaxınlığında dünyaya gəlmişəm. Doğma qəsəbəmiz Bənd-əmiri, görməmişəm. Lakin onun çaylar və bulaqlarını, Budda heykəlini və yaşıl təbiətinin gözəlliyini anamın həsrətdolu söhbətlərindən eşitmişəm.

Anam Firuzə, şeyx Əvəzin tək övladı idi. Mən dünyaya gələndə, rusların bölgədə yaratdığı müharibəyə görə, anam, qəsəbə əhalisi ilə birgə vətənini tərk edir və Xomeyni adıyla tanınan İran ölkəsinin sərhəddinə doğru yollanıb. Əmn-amanlıq ümidiylə didərgin düşən, təhlükədən canını qurtaran və var-yoxundan yalnız bir boğçayla vətənini tərk edən qaçqınların, ən kiçik üzvü mən idim.

Bamiyan şəhəri, mədənlər və yeraltı sərvətlərlə doludur. Bu sərvətlər, əhaliyə fayda yetirmək əvəzinə,

onların canının qatili və rusların bu sərvətə nail olmağı üçün, hücum səbəbi oldu.

Babam Şeyx Əvəz, yeganə övladı Firuzəni, körpə övladıyla o təhlükədə tək qoymağa könlü razı olmadı. Buna görə, atamı 30 nəfərlik karvanına qoşulub qaçmağa razı saldı. Müharibə və onun təhlükəsi, onların qohumlarının çoxunun canına qıymış və evlərini atəşə çəkmişdi. O vaxtlar, İranın lideri, zalım ölkələrə qarşı durmuş və bütün zəif xalqları qiyam və birliyə dəvət edirdi. Buna görə də, qaçmağa İrandan daha yaxşı hara ola bilərdi?!

Bizim karvan, addım-addım İrana yaxınlaşdı. Sistan-Bəluçestan sərhəddində, babam, İmam Xomeyninin şəkilini görən zaman, həyəcandan sevinc göz yaşları töküb həmin şəkilin altında mərsiyyə oxudu. Sonra da yol yoldaşlarına deyib ki, "nəvəmin ayağı düşərgəli idi, buna görə biz İrana sağ-salamt çatdıq. Mənim nəvəm, bu karvandakı hamıdan üstündür."

Firuzə xanım, yorğun və ac halda karvanla birgə İsfahan şəhərinin Badrud bölgəsinə qədər məni qucağında daşıyıb. Onların nə vəsiqələri, nə də pulları var idi. O vaxtlar, İranda müharibə başlamışdı. Amma bizim karvan, yad kimi davranmırdı və bəziləri əllərinə silah alıb, islam inqilabını müdafiə etdilər. Karvanımız, Badrudda bir neçə il yaşayıb işləyəndən sonra, İmam Rza (ə)-a olan eşqlərindən, Məşhədə yollandılar.

Atamı hamı Baqir usta deyə tanıyardı. Bəzən də ona Hacı Əxlaqi deyirdilər. O, tikinti işlərində fəhləliklə ailəsini dolandıran zəhmətkeş və çox az danışan biri idi. Özümü tanıyan zamandan, anam da həmişə işləyibdir.

Mən, müharibədə dünyaya gəlib, müharibədə böyümüşəm. Məscidlər və qərargahlardan döyüşçülərin

cəbhəyə getməsini görüb, səsucaldanlardan müharibənin həmasəli mahnılarını eşidəndə, cuşa gəlib qüvvətlənirdim. O döyüşçülərin simalarına baxanda, dünyanın ən yaxşı insanlarına baxdığımı hiss edirdim.

1989-cu ildə, Məşhədin Gülşəhr məhəlləsində 1-ci sinifə getdim. Evimiz, balaca bir otaq idi. Bir guşəsində qədim neft sobası, bir guşədə yatdığımız yorğan-döşək, digər guşədə də atamın düzəltdiyi taxta rəflər vardı. Rəflərin üstündə, İmam Xomeyninin şəkili, Quran və səccadə vardı. Anam rəflərin üstü üçün süfrə toxumuşdu. Hansı evə köçsək, bu taxta rəfini də özümüzlə daşıyırdıq. Evimizdə rəfin üstünə başqa şey qoymaq qadağan idi. Məhəlləmizdə tut ağacı olduğu üçün, adı Tut ağacı məhəlləsi idi.

Bacım Raziyə və qardaşım Rzanın dünyaya gəlməsi yadımda deyil. Amma Mərcan, Məsumə və Zəhra dünyaya gələndə, anamın yanında idim və uşaqları böyütməkdə ona yardım edirdim.

Bir neçə il sonra, Gülşəhrin bazar tərəfində, kiçik bir ev aldıq. Evin iki kiçik otağı və həyəti var idi. Atam Baqir usta, bir müddət sonra evə mətbəx və ayaqyolu tikdi. Uzun illər hamam üçün çölə gedirdik. 9 il həmin kiçik evdə yaşadıq. 6 uşaq idik və babam da iki arvadı ilə birgə bizimlə yaşayırdı. Maddi durumumuz çətin idi, amma yenə də atam, çörək pulu qazanırdı. Amma tək çörəyin pulunu.

Bacılarımla mənim məktəbə getməyimiz çətin idi. Məktəbimiz 3 növbəli idi, ilk növbə səhər 7-dən 10-a qədər, ikinci növbə 10-dan 1-ə qədər və üçüncü növbə 1-dən 4-ə qədər idi. Hər növbədə 4 şagird olurdu. Müharibə hələ davam edirdi və vəziyyət çətin idi, qaçqınlar üçün isə, daha da çətin idi.

Məktəbdə səliqəli və çalışqan şagird idim. Dərsə gedəndə çalışırdıq ki, ata-anamıza artıq yük olmayaq. Bir uniforma və ayaqqabını 3 il geyinirdim. Beş il oxudum və o müddətdə iki ayaqqabım və iki uniformam oldu. 3-cü sinifdə məktəb özü parça verdi və dərziyə verib uniforma tikdirdik. Hicablarımızı isə, nənəm əlində tikirdi. Çantamın fermuarını xarab eləməmək üçün, onu çox açmırdım.

Mənim kimi ucaboylu və arıq şagirdin yeri, həmişə sinifin son masası idi. Dərslərimi isə yaxşı oxuyurdum. İmla dəftərim 20 ilə dolu idi. Baxmayaraq ki, evdə qarderob çox az idi və artıq əşyaları atırdıq, amma imla dəftərini 1-ci sinifdən 5-ə qədər saxlamışdım. 3-cü və 4-cü sinifdə sinif nümayəndəsi idim və lövhəyə də çıxırdım.

Məktəbdə hamı, hətta müəllimələr və müdür, məni Ümmül-bənin çağırırdı. İnqilab münasibətlərində digər şagirdləri bir səslə şeir söyləmək üçün hazırlayır, özüm isə tək oxuyurdum. Şeir oxuyan uşaqları özüm seçir, düzənləyir və sinifi bəzəyirdim.

Rəngli qələm çox sevirdim. Ən böyük arzularımdan biri, 12 rəngdə qələm almaq idi. Birinci sinifdə oxuyanda, mənə rəngli qələm almadılar. Anam deyirdi ki, “bir neçə həftə məktəbə get, pulum olanda sənə rəngli qələm alacam.” O vaxt uşaqların əlindəki rəngli qələmlərə həvəs və həsrətlə baxa-baxa qalırdım.

Hər gün dərs bitən zaman, yanımda oturan qız Səliməyə deyirdim:

-Bu gün evə gedəndə görəcəm ki, anam mənə rəngli qələm alıb. Sabah da məktəbə rəngli qələmlə gələcəm.

Amma hər gün evə gedəndə, görürdüm ki, rəngli qələmdən xəbər-ətər yoxdur. Bir müddət sonra, atam 6 rəngli flomaster aldı. Narahat oldum və həvəsim öldü.

Özüm pul yığıb 12 rəngdə qələm almaq qərarına gəldim. Anamın verdiyi bir tümənlik xərclikləri gizlədib yığırdım.

Bir satıcı, məktəbin önündə, arabanın üstünə qələm və dəftər sərib satırdı. Hər gün satıcı qocadan qələmin qiymətini soruşurdum ki, bahalaşmadığına əmin olum. İkinci sinif olanda, artıq bir qutu rəngli qələm alacaq qədər pul yığmışdım, yəni 18 tümən. Arabaya yaxınlaşıb qocadan soruşdum:

-Bu rəngli qələmlər neçəyədir?

-Get burdan ay uşaq! Bunlar çox bahadır!

-Baha olsun! Mənim pulum var.

Pulu görənə qədər, qiymətini deməyə razı olmadı. Axır ki, bir il sonra, mənim də artıq rəngli qələmlərim oldu. Öz dünyamda sevincdən uçurdum. Qələmlərim kiçilməsin deyə, uzun müddət onların yontmadım. Hətta rəngləməkdə də ehtiyatlı davranırdım. Qələm qutusunu yavaş açıb bağlayırdım ki, kağızı yırtılmasın. Onu elə yerə qoyurdum ki, uşaqların əli çatmasın. İki il, o qələmlərlə yaşadım. Hətta çox kiçikləşəndə və onları əlimdə tutmaq mümkün olmayanda da, onları atmadım. Onları bacıma verib dedim ki, evdə rəsim çəkmək istəyəndə, bunlarla çək.

Təzə dəftər almaq mümkün deyildi, dəftərlərimizi ehtiyatla istifadə edirdik ki, vərəqləri tez qurtarmasın. Vərəqin ilk sətrindən üç sətir yuxarıdan yazmağa başlayıb, son xəttindən sonra da üç sətir yenə yazırdım. İlin axırında, təmiz qalan vərəqləri dəftərdən qoparıb, bir-birinə tikirdim və yeni təhsil ilində ona dərs yazırdım. Ruçka da çox baha idi. Küçədən ruçka içi tapmışdım və onu yay boyu istifadə etdim. Birinci sinifdən özüm üçün günlük tuturdum. Yazmaq və hər şeyi qeyd etmək, xoşuma gəlirdi.

Qonşu qızı Zəhrayla öz dünyamız var idi. Zəhranın anası bazara çox getməzdi, amma xalası çox zövqlü qadın idi. O, Zəhra üçün gözəl məktəb əşyaları, qəşəng xətkeşlər, rəngli qələmlər və güllü bəzəkli dəftərlər alırdı. Zəhranın dayısı itkin idi. Zəhra dünyaya gələndən 20 gün sonra, dayısı cəbhədə şəhid olmuş və nəşi tapılmamışdı. Onlar da bizim kimi çox uşaqlı ailə idilər və Zəhra da mənim kimi evin böyük qızı olduğu üçün çox məsuliyyətləri var idi. Zəhrayla məktəbə birgə gedir və dərs oxumaqda, həm də ev işlərində ciddi şəkildə yarışırdıq. Səhər saat 10-da bir-birimizi görəndə, öncə günlük raport verirdik: "mən qablarımı yudum, evi süpürdüm, paltar da yudum və s."

Həmişə Zəhra məndən öncə hazırlanıb, evimizin önündə məni gözləyirdi. Bizim sinif üstdə, Zəhragilin sinifi aşağı mərtəbədə idi. Üçüncü sinifdə, məktəbimiz dəyişildi. Suruş ibtidayi məktəbinin yalnız üçüncü sinifi var idi. Belə məktəblərdə rəqabət çətin idi. Misal üçün, inqilab mərasimlərində sinifimizi necə bəzəyəcəyimizi və ya hansı şeirləri oxuyacağımızı digər siniflərdən heç kim bilməməlidi.

Zəhrayla bəzən mübahisəmiz olur və küsürdük. Bir dəfə parlaq daş yığanda dalaşdıq. Hər birimizi daşı çəkişdirib, "əvvəl mən tapdım" deyirdik. Uzun müddət küsülü qaldıq. Artıq məktəbə tək gedirdik. Hətta məktəbin yarışlarında da eyni taqımda olmamağa çalışırdıq. Axır bir dəfə sinifin uşaqları bizi zorla bir yerə sürükləyib barışdırmışdılar.

Bir dəfə də, qumqumaya görə savaşdıq. İtən qumqumamı, küçənin başındakı satıcının əlində görmüşdüm. Zəhraya dedim ki, "sənin qardaşın qumqumamı götürüb bu adama satıbdır. Bundan

əminəm!” Zəhra, qardaşına töhmət atdığımı düşünüb çox incimişdi. Ertəsi gün anası qapımıza gəlib dedi ki, “uşaqlarım dəcəl ola bilər, amma oğru deyil!” Sonra da qumqumanı satıcıdan alıb, mənə vermişdi. Anam, çox əsəbləşdi. Mənə deyirdi ki, belə hallarda ilk ona deməliyəm.

Xülasə, bu davamız da uzun çəkdi. Hətta artıq anası da dostluğumuza imkan vermirdi. Küsülü olduğumuz vaxtlar, nə vaxt evlərinin önündən keçsəm, qapılarına qulağımı dayayıb Zəhranın səsini eşitməyi gözləyirdim.

1992-ci ildən 1997-ci ilə qədər, Əfqanistanda müharibə idi. Müharibə səhnələrini kiçik ağ-qara televizorumuzdan izləyir və həmvətənlərimiz üçün qüssələnirdik. Nənəm dayanmadan ağlayır və dua edirdi. Həmin illər, biz qaçqınların ən çətin illəri idi. İran dövləti, qaçqınları Əfqanistana qaytarmaq qərarına gəlmişdi. Həmin illərdə, əfqanlı olduğumuz üçün, çox acı sözlər eşidirdik. O illərdə, İran dövləti, çox sayda əfqanistanlını, müsibətli və bəlalı vətənə qaytardı.

Yük maşınları, əfqanlıları, ev əşyaları ilə birgə zorla götürüb gömrüyə aparır və təxliyə edirdi. Evin kişisinin işdə olmasına, ananın çörək almağa getdiyinə və ya uşağın məktəbdə olmasına etina etmirdilər. Evdə kim varsa hamısını zorla yük maşınının arxasına midnirib aparırdılar. Dəfələrlə, bir uşaq məktəbdən qayıdıb evlərinin boş olduğunu və ailəsinin orada olmadığını görmüşdü və ya bir kişi işdən qayıdıb boş və dağınıq evlə qarşılaşıb, oradaca infarkt keçirib ölmüşdü.

Sənədi olan əfqanlı ailələrin vəziyyəti bir az daha yaxşı idi. Amma onlar da gecə təşvişlə yatıb gündüz qorxuyla oyanırdılar. Onların kişiləri yaxalanmaq qorxusundan işə getmirdi. Atam savadsız idi, amma sənədə əhəmiyyət

verirdi. Deyird ki, "uşaqların təhsilinə görə sənədimiz olmalıdır." Budur ki, həmişə oturum icazəsi alırdı. Baxmayaraq ki, baha başa gəlirdi, amma yenə də pulunu ödəyirdi. Lakin bəzi ailələr, bəlkə səhlənkarlıqdan və ya yoxsulluqdan oturum icazəsi almırdılar.

Həmin illərdə, kişilər evdən çıxmağa qorxurdu. Qadınlar çörək almağa gedir və tez evə qayıdırdılar ki, əfqanlıları tutub aparanlar onları görməsin. Hər an, gəlib ailə üzvlərini ev əşyalarıyla birgə gömrüyə göndərmə ehtimalı var idi.

Mənim atam da artıq işə getmirdi. Ondan əvvəl, evdə pendir çörək tapılırdısa, artıq o da yox idi. Qapı döyüləndə, öncə atamla babamı evin damına göndərib, sonra qapını açırdıq. Babam həmişə evdə Ayətəl-kürsü oxuyub evi qoruyardı. Gecələr küçəyə çıxıb orada da dua oxuyur və sonra evə qayıdıb deyirdi ki, "küçədə də oxudum, sabah küçənin əhalisinə də heç nə olmaz inşallah." Belə dua oxuyub evi qorumaq, bizim uşaqlıq aləmimizdə çox dəyərli və önəmli idi.

Ev, qadın işləri ilə dolanırdı. Atam da bizimlə birgə oturub püstə soyur və yun döyürdü. Anam mağazalardan qabıqlı püstə alıb, onu soymaq qarşılığında pul qazanırdı. Kisə-kisə püstə alıb, ailəcə oturub püstə soyurduq. Qarşılığında 12 tümən pul alırdıq. Biz uşaqlar, dərs yazır, həm də püstə soyurduq. Anam hər birimizə bir qab verirdi. Əvvəl payımıza düşən püstəni soyub, sonra dərs yazmağa və ya oynamağa gedə bilərdik.

Atam, bina tikintisində işləyən kişi, çox məzlumca bir güşədə oturub püstə qırırdı. Onun tək istirahəti, dəstəmaz almaq üçün çölə çıxmaq idi. Sonra yenə evə qayıdıb püstə soyur, qabıqlarını kisəyə tökür və kisələri anbarın küncünə düzürdü. Bu işi də, çox diqqətlə görürdü, hətta bir qabığı

da əldən vermir və hamısını yığırdı. Bu qabıqlar qışda sobamızın odunu olurdu. Artıq neft almaqdan canımız dincəlmişdi. Belə soba yandıranda tüstüsü çox olurdu, amma pulsuz idi. Anamın da çaydanı həmin sobanın üstündə qızğın qalırdı, yeməkləri də onun üstündə bişirirdilər.

Bütün bu çətinliklər, axırda atamı Əfqanistana qayıtmaq fikrinə sövq etdi. Çox adam da qayıtmışdı. Oradakı müharibə, təhlükə və kasıbçılıq vardı, amma İranda yaşadığımız problemlər də asan deyildi. Çətinlik varsa, harada olduğunun nə önəmi var? Evi satmaq qərarına gəldik. Mən dördüncü sinifi təzə bitirmişdim. Anam isə Əfqanistana geri dönməyə razı deyildi. Ağsaqqallar gəlib orta yol tapmağa çalışırdılar. Tayfamızın ağsaqqalı atamı nəsihət edir və deyirdi ki, “axı sizin şəxsiyyət vəsiqəniz var! Nəyə görə getmək istəyirsiz?! Orada müharibə hələ davam edir. Sizin 5 qızınız var! Onları düşünün.” Qocaların nəsihətinə görə, atam, bir müddət köçmək fikrindən daşındı.

Mən həmin il, məktəbə getmədim. 5-cı sinifə gedəcəkdim, amma anam deyirdi ki, “gör nə vəziyyətdəyik! Dərs oxuyub nə olacaqsan?! Hələ atanın fikrindən daşındığı məlum deyil. Əfqanistana gedəcəyiksə, dərs sənin nəyinə lazımıdr?!” Bu səbəbdən, həmin il təhsili buraxdım.

### Xatunun xatirə dəftərindən bir yazı (Məktəb)

12 ildir ki, sentyabr ayının gəlişi və məktəblərin açılışı ilə birgə, əfsuslar və həsrətlərim də mənə hücum çəkir! Təhsili buraxdığım ilk illərdə, sinif yoldaşlarımı, əllərində təzə kitablarla, məktəbə gedərkən görürdüm. Onlar elm

öyrənib savadlı olurdular. Əvvəllər, məktəbə getməməyin acı bir zarafat olduğunu və bir müddət sonra yenə məktəbə gedəcəyimi düşünürdüm. Amma bir ay keçdi və həqiqəti qəbullandım. Özümə deyirdim ki, "ey fərasətsiz! Sənə məktəb, parta və lövhə yaraşmır! Ən yaxşısı elə budur ki, ananın yanında qalıb uşaq böyüdüb ev təmizləyəsən!" Amma yox, bu çox böyük zülümdür! Mən buna boyun əyməyəcəyəm! Anam və atamın xəbəri olmadan, gizlicə gedib müxtəlif məktəblərə yazılmağa çalışdım. Lakin məktəbin açılışından 47 gün keçibsə, hansı məktəb yeni şagird götürər ki?! Üstəlik bizim məhəllə kimi qələbəlik bir yerdə! Ay Allahım! Bu müdürlərin könlünə rəhm sal və qapımı aç!

Anam, növbəti təhsil ilində məni məktəbə yazacaqdı. Yeni təhsil ili başladı və mən çanta, uniforma və şalvarımı da hazırlamışdım. Amma anam, məktəbin məni götürmədiyini dedi. O gecə, ürəyimdə dünyanın qəm-qüssəsi ilə yatdım. Ertəsi gün yenə məktəbə yollandım. Məktəbin ən zəif və savadsız şagirdləri, mənə təhqiredici və tərəhhümlü baxışlarla baxırdılar. Halım çox pis oldu. Amma mən buna dözüb, sinifə girdim. Müəllimə sinifə daxil olub, bir-bir şagirdlərin adını oxumağa başladı. Adlar sona çatdı, amma mənim adım oxunmadı. Müəlliməyə bunu deyəndə, adımı axtardı amma tapmadı. Sonra da məni müdürün otağına yolladı. Müdür, məktəbə yazılan şagirdlərin siyahisinə baxıb, adımı tapmadı. Sonra da mənə dedi ki, "sən bu məktəbə yazılmamısan, qızım. Get və sabah ananla gəl." Müdür bunu deyəndə, sanki başımdan qaynar su töküldü! Bir an, dünya gözümdə qaraldı. Özümü ələ alıb, evə qayıtdım. Evdə isə, anama çox yazığım gəldi. Mənə görə çox çətinlik çəkirdi. O vaxt anladım ki, anam mənim qeydiyyatım üçün heç məktəbə

müraciət etməyib. Bunu anladığımı da heç ona bildirməmək qərarına gəldim.

Ertəsi gün, bacılarım və qardaşım məktəbə hazırlanıb gedəndə, anam məndən soruşdu ki, “sən niyə getmirsən?” Mən də cavabında dedim:

-Dünən səni də məni də nə qədər danladılar! Lazım deyil.

Anam heç nə demədi. Atama yardım etmək vaxtı idi. Anam ona yardıma getdi, balaca bacım yatmışdı və mən də tək idim. Birdən, asılan uniformama və atamın məktəb üçün mənə aldığı təzə çantaya gözüm sataşdı. Onları göz önündən götürəcəkdim ki, məktəbdəki uşaqların mənə tərəhhümlə baxdıqlarını xatırladım. Həmin anda ağlamağım tutdu.

Məktəbin başlamasından 20 gün ötürdü. Mən sinifdə parta arxasında olmaq yerinə, bir neçə gün əvvəl sərilən döşəkdə yatmışdım. Hərarətim qalxmışdı və şiddətli baş ağrım var idi. Hətta bir stəkan su da içə bilmirdim. Ailəm, xəstəliyimə görə çox nigaran və narahat idi. Mən isə, hər dəfə gözümü açanda, məktəbi xatırlayıb daha da pisləşirdim.

Xülasə, uzun zaman xəstə idim. Sağalandan sonra da, evdən çıxmağa çəkinirdim. Qorxurdum ki, evdən çıxsam, sinif yoldaşlarımı görərəm. Buna görə də çölə çox az çıxırdım. Bir gün, özümə boş vaxtlarımda edə biləcəyim, əyləncəli bir məşquliyyət tapmaq qərarına gəldim. İncə sənət dərslərinə getməyə başlayıb özümü bekarçılıq və qəm-kədərdən xilas etdim.

İndi artıq 12 ildir ki, məktəblər açılır və ilk zəngin səsi şillətək üzümə dəyir. Vallah dərsi, məktəbi, qara lövhəni və hər tərəfə tökülən melləri çox sevirəm! İmtahanlar üçün can atıram. Bu il də qiyabi dərs oxuyub imtahanlara daxil

olmağı düşündüm. Belə, azından uşaqlarım, analarının savadsızlığından utanmazlar və mən gün boyu onlardan çətin kəlmələrin mənasını soruşaraq, onları bezdirmərəm.

# İkinci fəsil

Atam, ipəkqurdu işinə başlamışdı. Baramaları evə gətirirdi. Onlardan ip düzəldirdik. İri qazan qaynar suya baramanı tökürdük. Sonra suyu ələkdən keçirib təmizləyirdik. Çətinliklə o qədər barama və sap içindən ip ucu tapıb şpindelə bağlayırdıq. Şpidel, elektrikə bağlıydı. Şpindel dolanda, kələf düzəldirdik. O da düyünlənməməliydi.

Bizim düzəltdiyimiz ip, ipək kimi zərif olmurdu. Bunun da səbəbini bilmirdik. Atam, işin çəmini tuta bilmirdi və düzəltdiyimiz ip, yaxşı satılmırdı. Nəticədə gəlirimiz yaxşı deyildi. Bir il yarım belə işlədik. Üstəlik, çox zəhmətli və ağır iş idi. Həm də məktəbə getməmək üçün, qohum-qonşuya deyə biləcəyimiz yaxşı bəhanə idi. Evdə qalıb atama kömək edib ev işləri də görməliydim.

Atam, tikinti ustası idi. Evdən çıxa bilmədiyi üçün, evin içində tikinti işlərinə başladı. Divarı söküb, başqa yerdə divar tikirdi. Anbar düzəldir, hamam tikirdi. Otaqları boyayırdı. Boya düzəltməkdə, özünəməxsus tərzi vardı. Duzu əhənglə qarışdırıb boya düzəldirdi. Otaqları boyamaq, bizim ailəmizdə, bayram qabağı ev

təmizliklərindən biri idi. Başda bir müddət boya təmiz və səliqəli görünürdü, amma zamanla axır və paltarlarımıza dağılırdı.

Məktəbə getmədiyim həmin iki il müddətində, atam 5 min tümənlə mənə Marşal tikiş maşını, 1200 tümənlə də ütü və ucuz parçalar aldı. Dərzilik kursuna gedirdim. Kursun 5-ci ayında, Novruz bayramı oldu. Anam həvəslə parça aldı və dedi ki,  uşaqlara paltar tikim. Bayram təmizliyi də etməliydik.

Ramazan ayında, əmim rəhmətə getdi. Xanımı da bir müddət sonra evləndi və uşaqlarını ər evinə aparmadı. Onun oğullarını, balaca əmim öz oğulları ilə birgə Quma apardı. Qızı Fatiməni də mənim atam Məşhədə gətirdi və oldu ailəmizin altıncı qızı. Fatimə, bizim hamımızdan daha gözəl və şirindilli idi. Bacım Zəhra ilə yaşıd idi və ekiz kimi görünürdülər. Anam Fatiməyə öz qızı kimi davranırdı.

Məktəbə getmək həsrəti ömür boyu ürəyimdə qaldı. Amma kitab və jurnal oxuyub, xoşuma gələn cümlə və şeirləri dəftərimə köçürürdüm. Günlük xatirələrimi yazır və bir neçə saat sonra hamısı yırtırdım ki, bacılarım yazdıqlarımı oxumasınlar. Bəzən boş vaxtlarımda televizorun qarşısında oturub verlişlərdən və ya söhbətlərdən maraqlı şeyləri dəftərə köçürürdüm. Evimizə savadlı qonaqlar gələndə, yazdıqlarımı onlara göstərirdim ki, səhvlərimi desinlər. Davamlı yazı yazmaq nəticəsində, xəttim gözəl oldu. Heç kim inanmırdı ki, bu gözəl xəttin sahibi, yalnız 4-cü sinifə qədər dərs oxuyub.

Evin bütün işləri, mənim öhdəmə idi. Bacılarım azyaşlı və məktəbli idilər. Anam isə yalnız evə bazarlıq edir və mənə arxayın idi. Buna görə də bütün mərasimlərə, imam məclislərinə və qohum qonaqlıqlarında iştirak edirdi.

Hətta ən balaca bacım Zəhraya süd verib, sonra onu bizə tapşırıb evdən çıxırdı. Zəhranı mən böyütmüşəm. Onu çimizdirir, altını dəyişdiri və yatızdırırdım. Dostlarımın evinə gedəndə də onu özümlə aparırdım. Bir dəfə süfrə başında Zəhra gəlib qucağımda oturdu və "mənə də yemək ver" dedi. Həmin vaxt atam anama dedi ki, "bu uşağın anası sanki sən deyilsən heç!"

Bu macəralar və giriftarçılıqlarla yamaşı, müxtəlif elçilərlə də uğraşırdım. Bizim adət-ənənəmizə görə, bir qız məktəbə getmir və evdə işləyirsə, demək ki, o evliliyə hazırdır. Adətən, neçə yaşında olması da önəmli deyil. Bəzən elçilərin yaşı məndən çox böyük olurdu. Misal üçün beşinci sinifə getmədiyim ilk il, yaşlı bir qohumumuz elçiliyimə gəldi! Bu qədər rahat! Heç kim də qarşısını almamışdı! Anam, buna çox əsəbləşmişdi. Hətta atamın fikrini də soruşmayıb, özü onu geri qaytarmışdı.

Bir müddət sonra, başqa elçi gəldi. Balaca əmim, atama məktubda yazmışdı ki, "qızını bunlara vermə". Çünki öncədən əmim onların qızını istəməyə gedəndə, onlar da qızlarını əmimə verməmişdilər. Əmim deyirdi ki, "bizi adam yerinə qoymadılar! İndi niyə qızımızdan xoşları gəlib?!" Bizə, onların ağzının payını verməyi tapşırmışdı!

Həmin elçilər, Məşhədə və bizim evə 7-8 uşaqla qonaq gəldilər. Bir neçə gün bizim evdə qalıb, Məşhəddəki qohumlarına da baş çəkdilər. Elçilik barəsində danışacaqları gün, uşaqlarını böyük qızın evində qoyub, kürəkənləriylə elçiliyə gəldilər. Yay fəsli idi və biz həyəti döşəmişdik. Mən də otaqdan çıxmağa utanırdım. Ondan əvvəl, bəy oğlanla oyun da oynamışdım! Atam ədəbli şəkildə onlara yox cavabı vermişdi. Atamın məni ərə verəcəyindən elə qorxmuşdum ki, otaqda titrəyirdim. Anam otağa gəlib məni o vəziyyətdə görəndə, mənə

acıqlanıb dedi ki, “nə xəbərdir?! Atan, hələ razılıq verməyib. Əgər razılıq versə, əmin bizə düşmən kəsilər. Həm də biz səni uzağa vermərik, özü də elə uşaqlı ailəyə! Məgər zorladır?!” Atamgil elçilərə, “qızımız hələ azyaşlıdır və ərə getmək yaşı deyil” deyə cavab vermişdilər. Onlar yox cavabına baxmayaraq, evimizdə yenə 2-3 gün qaldılar.

Evin bişir-düşür işini də mən edirdim, amma ərzaqı nə qədər istifadə edəcəyimi gec öyrəndim. İlk dəfə plov bişirəndə, suyu çox oldu və duzu az. O qədər plov, şorba olmuşdu! Lakin, heç kim məni danlamadı. Paxlalı yeməklərdə də lobiya və noxudlar bişmirdi. Ət əzilirdi, amma noxud daş kimi qalırdı. Fərqli yollarla bişirməyə çalışırdım, amma xeyri yox idi. Atam yeməyin lobiyalarını ayrırıb deyirdi ki, “sənin lobiyaların mənim mədəmi nasaz edir!” Kükünü yaxşı öyrənmişdim, amma badımcan yeməklərini yandırırdım. Atam badımcanı çox istəyirdi. Əfqanistan yeməklərinə darıxanda, nənəm bizim mətbəxin yeməklərini bişirirdi. Bizim mətbəxin yeməklərinin çoxu, un və xəmirlə bişirilir. Su və un, əfqan yeməklərinin əsas ərzaqıdır. Nənəmin yeməkləri misilsiz dadlı olurdu. Mən onun kimi bişirməyə çox çalışırdım, amma dadı və rəngi fərqli olurdu.

1993-cü ildə atamın ipək qurdu işi uğurlu olmadığı üçün, o işi buraxıb balaca dükan açdı. Az miqdarda pul yığmışdı. Dükanın yolu, evə çox uzaq idi. Əvvəllər, gəlirini və alacaqlarını da hesablaya bilmirdi. ilk 2-3 ay, bizdən biri onunla gedib kömək etməliydi, əks halda ziyanı karından daha çox olurdu. Həm də o, fars dilindəki sayıları yazıb oxuya bilmirdi, yalnız latın sayılarını bilirdi.

17 yaşıma az qalmışdı və ardıcıl elçilər gəlirdi. Çoxu da fəhlə və ya bina boyaçısı olurdu. Kitab və jurnal

oxuduğum üçün, özüm üçün bəzi meyarlar nəzərdə tutmuşdum. Həmişə öz ağlımda elçilərdən sual soruşurdum və nə cavab verəcəkləri maraqlı gəlirdi. Əslində o sualları soruşmağa bir dəfə də imkan olmadı! Atam, soyuq və ciddi idi. Elçilər haqda, heç vaxt fikirimizi soruşmurdu. Elçilərlə anam məşğul olurdu. Bu haqda danışmağa qətiyyən icazəm yox idi. Atam kimsəni bəyənsə idi, mən də həmin adamı bəyənməliydim! 1-2 dəfə də bəyəndikləri olmuşdu, amma məni məcbur edəcək qədər çox bəyənməmişdi.

Kitab oxuyan kişilər, çox xoşuma gəlirdi. Evlənəcəyim şəxsin savadlı olması və kitab oxuması, mənim meyarlarımdan biri idi. Digər meyarım, qohumluq əlaqələrində mənə qarışmaması idi. Evlənəndən sonra, mənə deməsin ki, filan yerə getməməlisən ya filankəslə get-gəl etməməlisən. Mən, ətrafımdakı dostlarım və qohumlarıma bağlı idim və yeni evlənənlərin xanımlarına qadağa qoyduğunu görəndə, bu mənim acığıma gəlirdi. 3-cü meyar da, dərs oxumağıma və təhsili davam edib attestat almağıma razı olması idi. Dindar və namaz qılan olması da şərtlərimdən biri idi. Nənəm deyirdi ki, "başı üstə Allahı görsün, namazında-niyazında olsun, çəkən-içən və dostbaz olmasın. ana quzusu da olmasın!" Bu şərtlər və meyarlarla, 18 elçiyə yox cavabı deyib yola salmışdıq.

**Xatunun xatirə dəftərindən bir yazı**

Ürəyim istəyir ki, dünyanın son zəngindən və qiyamətin imtahanından öncə, Allahın müəllim olduğu sinifdə şagird olum. O vaxt, ağlımın dörd bir yanında qalan min bir sualı və başa düşmədiyim ömür dərslərini, dünyanın ilk və son müəllimi olan tanrıdan soruşardım.

İstəyirdim ki, Allahdan könül haqda soruşum. Göz yaşının müəmmasını, zikir deməyin sirrlərini, ah çəkmənin və təvəssül duasının əzəməti barədə sual vermək istəyirdim.

Ürəyim istəyirdi ki, səmaya qalxan pillələri necə tapacağımı Allahdan soruşum və görüm yeddinci göyə qalxan nərdivanın neçə pilləsi var?!

Bilmək istəyirdim ki, qeyb aləminin pərdəsi nə rəngdədir və onun arxasındakı həqiqət necədir?

Kaş ki, bilseydim eşq vur ürək, Allah üstə gəl insan, şəhid bərabər əbədiyyətin cavabı nə olur?

Kaş ki, cəsarətim olsaydı və Allahdan, eşqin neçə heca olduğunu soruşa bilsəydim. Çünki, bir heca olmadığına əminəm.

Ürəyim istəyirdi ki, dünyadakı ilk dostluğun, ilk təbəssümün və ilk mehribanlığın tarixini bilim.

xatirə tarixi: 11.07.2001

# Üçüncü fəsil

2000-ci ilin avqust ayında, mənim 19 yaşım vardı. Bir gün, qonşumuz Aliyənin anası, əlində balaca şəkillə evimizə gəlib dedi:

-Bu, qardaşım Seyid Əmirin dostunun şəkilidir. Həzrəti Rəsul korpusunda işləyir. Yaxşı insandır. Çox imanlıdır, amma kasıbdır. Heç varlı olmaq həvəsində də deyil. Yaxşı və imanlı oğlan olduğu üçün, dostları onu evləndirmək istəyirlər.

Anam, atamla danışıb fikir söyləyəcəkdi. 3 gün sonra, Aliyənin anası yenə gəlib dedi:

-Qardaşımın dostu, iş üçün səfərə getdi. Ona tapşırdıq ki, tez qayıtsın. İndi İranda deyil, Əfqanistandadır. Qayıdan kimi, özüylə birgə elçiliyə gələcəyik.

Oğlanın şəkili, bizdə qaldı. O vaxtlar, Taliban hücum etmişdi. Həmin vaxtda, babam da ikinci arvadının qohumlarından mənə elçi tapmışdı. Atam isə babamın qohumlarına razılıq verməmişdi. Anamın əmisi qızı da bir elçi tapmışdı. O, digərlərindən daha varlı və evin tək oğlu idi, amma yenə atam razılıq verməmişdi.

Atam, Aliyənin anasının gətirdiyi şəkilə baxıb qaşlarını qaldıraraq dedi:

-Bax bu oğlana qızımı verərəm!

Atamın bu sözü, həyatımızda baş verən ən qəribə şeylərdən biri idi! Çünki həmin adamı tanımadan, ana-atasının kim olduğunu bilmədən və nə işlədiyini öyrənmədən, bir tək şəkilə əsasən ondan xoşu gəlmişdi. Mən də şəkili saxlayıb, evimizə bu gün-sabah elçi gəlmələrini gözləyirdim. Bu gün-sabah deyə-deyə, 5 ay keçdi! Aliyənin anası, o gedən getdi və qonşu olmağımıza baxmayaraq, biz tərəfə gəlmirdi. Makyaj kursu və ilkin yardımlar təlimləriylə özümü məşğul edirdim. Amma ürəyimdə təlatum idi. O 5 ay müddətində, makyaj kursundan 2-3 nəfər nişanlandı. Hər dəfə biri nişanlananda, şəkili əlimdə tutub giləylənərək onunla danışırdım. Həmin şəxsin mənim həyat yoldaşım olacağından əmin idim. Görüşəndə bir-birimizi bəyənməmə ehtimalı, heç ağlımın ucundan da keçmirdi!

5 aydan sonra, Aliyənin anası gəlib dedi ki, "oğlan səfərdən qayıdıb, siz icazə versəniz, qızı istəməyə gələk." Atam da razılıq verdi.

Evimiz iki mərtəbəli idi. Hər mərtəbədə iki otaq vardı. Həyətdən, iki pillə aşağıda birinci mərtəbə idi, 10-12 pillə də qalxıb ikinci mərtəbəyə gedirdik. Evin bir salonu da var idi. Elçi gələndə həmişə aşağı mərtəbədə bacılarımla gizlənib, işıqları söndürüb və oradan bəyə baxırdıq. Artıq şəkildəki oğlan gələcəkdi. Mən çox həyəcanlıydım ki, görəsən bu axşam xeyirlə sona çatacaq ya bir-birimizə qismət olmayacayıq?!

Qonaqlar gəldilər. Öncə Aliyənin atası, Seyid Əmir, Əhmədi bəy və sonra şəkildəki oğlan evə girdi. Çox ağırbaşlı və başı aşağı idi. Əlində nə gül, nə də şirniyyat

var idi. 5 ay gözlətdikdən sonra əli boş gəlməsinə narahat oldum. Düşündüm ki, onun püxtəlik və yetkinliyinin yanında, mən çox uşaq görünürəm. Bunu, bacılarım da hiss etmişdi.

İlk elçilik qonaqlığında, yalnız kişilər tanış oldular. Yanlarında qadın gəlməmişdi. Bizim ailədən də qadınlar qonaqlarla oturmadı. Kişilər öz aralarında anlaşsaydı, növbəti dəfə qadınları da gələcəkdi. Uzun söhbətdən sonra, gələn cüməyə yenə görüş təyin oldu.

Raziyə, ilk görüşün nəticəsini mənə bildirəcəkdi. Atam demişdi ki, "yaxşıdır, mən razıyam." Anam isə qarışmamağa çalışırdı, çünki öncəki elçiliklərdə atamla mübahisəsi olmuşdu. Anamın nigarançılığının səbəbi, həmin oğlanın o şəhərdə tək olması və onun haqqında araşdıracağımız kimsənin olmaması idi. Digər nigarançılığı da, oğlanın hələ də Əfqanistana get-gəl etməsi idi. Əfqanistanda başqa arvadının olmasından qorxurdu. Püxtəliyi və ağırbaşlılığı ilə, evli olması düz gəlirdi. Lakin Seyid Əmir və digərləri, subay olduğunu və öncədən də evlənmədiyini deyirdilər.

Növbəti gəlişdə, Seyid Əmirin xanımı da gəldi və qadınlar da qonaqlara qarışıb, daha səmimi tanışlıq oldu. Mənim çay aparmağıma icazə vermədilər, anam qonaqlara çay verdi. Seyid Əmirin xanımı bəhanəylə mətbəxə girib, mənim fikirimi bilmək üçün ağızımı aradı. Sonra da anamdan soruşdu ki, "siz nə düşünürsünüz? Hacı nə deyir? Bu elçiyə boşuna yox deməyin, yaxşı adamdır. Sizin qızınız da artıq uşaq deyil." Digər elçilərdən də xəbəri olduğu üçün, deyirdi ki, "qızı buna verin."

Oğlanı ətraflı tanıtdırmaq üçün yanlarında xanım da gətirmişdilər. Xanım da bizə onların neçə qardaş olduğunu, harda yaşadığını və nə işlədiyini dedi.

Camaatdan soruşub araşdırmaq üçün də bir neçə nəfərin ünvanını verdilər. Hətta dalaşdığı və küsülü olduğu birinin də ünvanını vermişdi ki, ondan da oğlanın necə insan olduğunu soruşub və arxayın olaq.

Əlirza Təvəssülinin 4 yaşı olanda, atası rəhmətə gedib. Özü deyirdi ki, "Mən, atamın 70 yaşında dünyaya gəlmişəm." Ailənin 11-ci uşağı idi. 6 qardaşı və 4 bacısı vardı. 10 yaşında, anası da dünyasını dəyişmişdi. Yetimçilik və müxtəlif problemlərlə böyümüşdü. Özündən böyük qardaşlarının da hər birinin 5-6 uşağı vardı və hər biri, öz həyatıyla məşğul idi. Bacı-qardaşlarının çoxu, Əfqanistanda yaşayırdı və tək 2-3 nəfəri İranın Qum və Tehran şəhərlərində yaşayırdılar. Məşhəddə heç kimi yox idi, amma özü, orada ailə qurmağa çox həvəsli idi.

Bir mühacir üçün, ailəsinin bütün üzvlərinin bir yerdə olması və parçalanmaması, böyük üstünlük sayılır. Bizim ailə belə idi. Baxmayaraq ki, maddi baxımdan problemlər və sıxıntılar çox idi, amma ailə bütün idi. Atam, çəkən və içən deyildi, qardaşım problemli deyildi, ya da anam uzaqda deyildi.

Əlirza, ailəmizi bəyənmişdi. Ruhani və dindar, atamın abırlı insan olmasını, anamın evin dirəyi və bacılarımın savadlı və bilikli olması xoşuna gəlmişdi. Təvəssülilərin qohumları, təxminən 70-80 nəfər idilər. O, atası və anasının ölümündən sonra, qardaşlarının evində böyümüşdü. Əslində o İranda, həqiqi bir mühacir idi. Buna görə də Əfqanistana get-gəl etmək, onun üçün asan idi. İranda və Əfqanistanda bağlılıqları yox idi. Onun vəziyyətinə ən uyğun kəlmə, cihad və döyüşçü həyatı idi.

Elçilik get-gəli, təxminən 40 gün çəkdi. Hər dəfə gəlirdilər və daha çox tanış olurduq. Nəhayət, bizim bir-birimizi görmə vaxtı gəlib çatdı. Beşinci gəlişlərində,

Seyid Əmirin xanımının israrıyla, ailəm görüşə razılıq verdi. Yoxsa, atam buna imkan verməzdi. Bu dəfə də həmişəki göy pəncək-şalvarıyla gəlmişdi. Babamla atam, onu araşdırmağa getmişdilər. Hətta bir dəfə anam, Aliyənin anasını and verdirərək soruşdu ki, "sən həqiqətən bunun yaxşı adam olduğuna inanırsan? Başqa arvadı yoxdur?"

Beşinci gəlişlərində, oturub onunla danışmalıydım. Hər dəfə o evimizə gələndə və ya evdən çıxanda, mən onu izləyir və səsini də eşidirdim. Seyid Əmirin xanımı mətbəxə girib anama dedi ki, "sən qızını hazırla, mən də gedib Əlirzanı gətirəcəm." Mənə də dedi ki, "get, hazırlan."

Mənim hazırlanmağım uzun çəkmirdi. Təzə don geyinib, evdəki tək ağ çadranı başıma atdım. Baxmayaraq ki, makyaj kursuna gedirdim və makyaj eləməyi bacarırdım, Aliyənin anası da gözümə qələm çəkməyimi demişdi, amma onunla sadə halımla görüşməyi tərcih etdim. Mən otağa girmədən əvvəl, nənəm otağa girib onunla salamlaşmışdı. O vaxta qədər, nənəm onu görməmişdi.

Anam və Seyid Əmirin xanımıyla birgə, otağa daxil oldum. Biz girən kimi, ayağa qalxıb hörmətlə salam verdi və yenə yerinə oturdu. Bir saniyədən də az bir müddətdə, gözüm gözünə sataşdı. Seyid Əmirin xanımı dedi ki, "tez oturub söhbət edin və anlaşın, mən hacıdan zorla razılıq almışam." Sonra da anamın əlindən tutub otaqdan çıxdı.

Sobanın yanında, iki dizi üstə oturmuşdu. Gözünü xalçadakı naxışlardan qaldırmırdı və başı aşağı idi. Mən də gedib qarşısında oturdum. Dərhal söhbətə başlayıb dedi ki, "buyurun, Əxlaqi xanım." Mən də ona dedim ki, "xeyr, öncə siz başlayın." O da özünü tanıtdırmağa başladı, sanki

ömrünün ən önəmli söhbətini edirdi. Dediyi hər sözü, həmin an əzbərləyirdim. Hətta bir kəlməsini də unutmamışam!

-Mən Əlirza Təvəssüliyəm. 1972-ci ildə dünyaya gəlmişəm. (Dərhal hesabladım və məndən 7 yaş böyük olduğunu anladım). Hal hazırda Həzrət korpusunda işləyirəm. 7 qardaşıq, 5 nəfər sağdır və 2 nəfər dünyasını dəyişib. 4 bacımdan da yalnız biri yaşayır. Bir neçə qardaşım, Qumda yaşayırlar. İnşallah qismət olsa, nişana gələcəklər və tanış olacaqsınız. Mənim üçün əqidələrim, çox dəyərlidir. O əqidələr üçün, son damla qanadək döyüşəcəyəm və məsuliyyət hissi olduğu müddətcə, müharibədə iştirak edəcəyəm. Sonra nə vaxt Allah məsləhət bilsə və müharibə sona çatsa, digər insanlar kimi işə gedəcəyəm. Hər nə iş olsa da işləyəcəyəm! (Burada etiraf etdi ki, heç bir sənəti profesonal şəkildə bacarmır.) Yeri gəlsə qarolçu dayanar və çörək pulu qazanaram və səni xoşbəxt etmək üçün, əlimdən gələni əsirgəmərəm. Arxayın ol inşallah.

İkinci dəfə olaraq, yenə göz-gözə gəldik. Baxışları normal idi, xüsusi bir məna yox idi. Sözlərində də yeniyetmə həyəcanı və abartmaq yox idi. Çox aram və xülasə şəkildə lazım olan izahatı vermişdi və artıq mənim növbəm idi.

-Mən ailənin ilk övladıyam və özümə görə məsuliyyətlərim var. Təhsilim çox deyil, amma kitab və jurnal oxumağı çox istəyirəm. Hal hazırda da makyaj və ilkin yardımlar kursuna gedirəm. Dərziliyə də getmişəm. Lakin imkan olsa, təhsilimi davam etdirməyi çox istəyirəm.

Bu sözümə təbəssüm edib dedi:

-Mənim ailə həyatında planladığım şeylərdə, təhsil alıb inkşaf etmək ən önəmli məsələdir.

Uzun müddət ağlımı məşğul edən sualı soruşmalı idim, ona dedim:

-Siz indiyə qədər məni görməmişdiniz! Heç məni tanımırdınız. Niyə buraya qədər gəlib və məni seçdiniz?!

-Mən araşdırdım. Dindar bir ailənin dediklərindən sonra, yaxşı seçim olduğunuza əmin oldum. Allaha təvəkkül. Mənim üçün hicab, çox önəmlidir. Cəmiyyətdə olan hicaba diqqətli olmaq lazımdır. İslami adətləri yerinə yetirmək, mənim üçün çox mühümdür. Bunu da bilin ki, cihad uğrunda həmişə fəaliyyət edəcəm və hara lazım olsa gedəcəm, sonra bunu bilmədiyinizi deməyin.

Bir yolla, mənə deyirdi ki, bir döyüşçü ilə yaşamağı gözə alırsan ya yox?

Həmin il yazdığım meyarları deyəcəkdim ki, qapı döyüldü və “zamanınız sona çatdı” dedilər.

Əlavə vaxta ehtiyac yox idi. Allahın düzəldəcəyi iş, artıq düzəlmişdi və mən, başı aşağı və alnı yaralı olan o kişi ilə arxayın halda evlənməyə razılıq verdim. Başqalarına, onu niyə seçdiyimi izah edə bilmədən, onu öncədən tanımadan və bilmədən, pulsuz və imkansız biriylə evlənmək qərarı almışdım. Evlənəcəyim şəxs, məhz özü idi, müharibə onu püxtələşdirmiş və xəmirin təhlükəli səfərlərlə yoğurmşdu.

**Xatunun xatirə dəftərindən bir yazı:**

**Ey məktubumun sahibi!**

Milyonuncu dəfə olaraq dua edirəm ki, hardasansa sağlam və Allahın amanında olasan!

Baxmayaraq ki, hətta adını da bilmirəm və səni heç tanımıram, amma bu az müddətdə sənə bağlanmışam və yalnız səni xatırlamaqla aramlıq tapıram.

Səni düşünərək təbəssüm edir, yatır, gəzir və yaşayıram.

Səni düşünəndə bu qədər aramlaşıb özümü yaxşı hiss etdiyim üçün, artıq əminəm ki, sən məni kamilləşdirəcək olan həyat yoldaşımsan.

Buna görə də mənə haqq qazandır ki, qorxmadan, çəkinmədən və sədaqətlə, səni sevdiyimi deyim və bu mənim istədiyim tək şeydir.

Tarix: 04.10.2001

## Dördüncü fəsil

Yavaş-yavaş qohumlar da bildi ki, hacı Əxlaqi, qızını bir döyüşçüyə verib. Amma onun işi haqda biz heç kimə heç nə deməmişdik. Özü də bu barədə danışmamışdı. Lakin qohumlar başqa adamlardan öyrənmişdilər ki, hacı Əxlaqinin kürəkəni Komandirdır[1]. Sonra atam hamıya dedi ki, kürəkəni həzrəti Məhəmmədin korpusunda işləyir. Həzrəti Məhəmməd Rəsulullah korpusunu, müharibə və təhlükəyə qarşı təşkil etmişdilər. Bu təşkilatın üzvləri, Talibana qarşı döyüşə gedib Əfqanistan xalqını qoruyurdular.

Bir dəfə mehriyyə və hazır mehr haqda söhbət açıldı. Bizim adət-ənənəmizə görə, elçilikdə qızın ailəsi razılıq verəndə, hazır mehr adlı bir miqdar pul, qızın ailəsinə verilməlidir. Bu pul, nağd şəkildə kəbin kəsiləndə təqdim olunur və qızın ailəsi onu cehizə xərcləyir.

Əlirza, mehriyyə haqda özümlə danışmaq üçün, atama rəvayət, hədis və ayə oxuyurdu. Amma atam razı olmurdu.

---

[1] Əfqan dilində komandir deməkdir.

Əlirza deyirdi ki, mehriyyənin miqdarını, qıza aid məsələdir və özü təyin etməlidir.

Əlirza elə məntiqli danışmışdı ki, babam deyirdi:

-Bu çox bilmişdir! Təmiz molladır!

Axırda da onları razı saldı və dedi ki, "qoyun özü müəyyənləşdirsin, mehriyyə onun haqqıdır."

Kəbindən bir gün əvvəl, mənimlə mehriyyə haqda danışmaq üçün evimizə gəldi. Həmişəki pencək-şalvarını və ağ köynəyini geyinmişdi. Mənim də yadımdan çıxmışdı ki, mehriyyə haqda hələ qərar alınmayıb və hazırlıqsız idim. Atam da evdə deyildi. Özüylə bir fotoaparat da gətirmişdi. Mənə dedi ki, "bu kamera sizdə qalsın, bununla şəkil çəkin. Başqa kimsə şəkil çəkmək istəsə, qoymayın." Sonra da mehriyyə haqda danışmağa gəldiyini dedi. Həmin anda, atam çöldən gəldi. Əlirza atama yenə ayə və hədis oxuyurdu:

-Peyğəmbər (s) buyurub ki, ümmətimin ən yaxşı qadınları, mehriyyəsi az olanlardır. Həzrəti Zəhra anamızın da mehriyyəsi su idi. Ağır mehriyyə, xoşbəxtçiliyə səbəb olmur və s..

Sonra da məndən soruşdu ki, "sizin mehriyyəniz nə qədər olsun?"

Mən də düşünmədən dərhal dedim:

-14 məsum niyyətinə, 14 ədəd onluq qızıl.

-Yaxşıdır, amma bu qadının qiyməti deyil, qadının qiyməti, həqiqətən ödənməzdir. Qadının dəyəri üçün heç bir məbləğ təyin etmək mümkün deyil. Amma 14 ədəd onluq qızıl, mənim üçün çətindir! Mehriyyə belədir ki, qadın nə vaxt istəsə, onu vermək lazımdır. Bu səbəbdən, bu məbləği siz istəsəniz, mənim onu əldə etməyim çətindir. Mümkünsə bir qədər azaldasınız.

Atam, mehriyyənin nağd 500 min tümən olmasını istəyirdi. Amma mən fikrimi dəyişmədən, yenə 14 ədəd onluq qızıl istədim. Əlirza başını aşağı salıb qısa bir sükutdan sonra dedi:

-Razıyam. Dua edirəm ki, öhdəsindən gəlim inşallah.

Artıq onu düşünməyin günah olduğunu hiss etmirdim. Bir döyüşçünün gəlini olacağıma sevincli idim. O, savadlı, imanlı, möhkəm əqidəli və qadına hörməti olan ixlaslı bir döyüşçü idi.

Kəbin süfrəsi sərildi, çox gözəl və təmtəraqlı idi. Aliyənin anasının güzgü və şamdanını süfrəyə qoyduq. Mən özümə güzgü və şamdan almadım. Kəbindən bir gün öncə, evimiz qarışıq idi. Hər kəs, bir işlə məşğul idi. Mən də özümə paltar tikirdim. Anam demişdi ki, “ bacılarınla nə geyinəcəksinizsə, sən tikməlisən.” Mən də sini rəngdə parça alıb, Fatimə, Zəhra və Məsuməyə eyni köynəyi, Mərcana isə açıq çəhrayi parçayla köynək tikdim. Tikiş işi, gecəyə qədər çəkdi və bitəndə qızlara dedim ki, götürün və özünüz ütü çəkin.

O gecə, gözümə yuxu getmədi. Yanvar ayı idi və kəskin soyuq vardı. Yanvarın 30-u mehriyyə söhbəti olmuşdu, 31-i qohumlarla birgə bazarlığa getmişdik. Əlirza, soyuq havada bu qədər insanı bazara apardığımıza narahat olmuşdu. Amma anam deyirdi ki, “bu bizim adət-ənənəmizdir. Qohum da gəlməli və fikir söyləməlidir!”

Bir yandan da mən ailənin ilk gəlin köçən qızı olduğum üçün, anam deyirdi ki, “biz hamının toyunda iştirak etmişik, qoy qohumlar da gəlib bizim toyda iştirak etsin.” Bəy tərəfdən, Seyid Əmirin xanımı və Aliyənin anası gəlmişdi. Səhər saat 10-da bazara getdik və günorta saat 1-də evə qayıdıb, nahara anamın bişirdiyi bozbaşı yedik. Sonra saat 4-də yenə bazara qayıtdıq.

Başda qızılları aldıq. 3 qızıl qolbaq, qalın boyunbağı və sırğa. Toplamda, 280 min tümən etmişdi. Bəzi şeyləri almamağım, Seyid Əmirin xanımının xoşuna gəldi. Hava soyuq idi, amma palto və qış geyimi almadım. Toyda geyinməyə ağ ayaqqabı da almadım. Gəlin ayaqqabısını, bir gecəlik, dostumdan borc alacaqdım. Makyaj əşyaları da yalnız 3 ədəd aldım. Aliyənin anası, Əlirzanın maddi durumunu nəzərə aldığıma sevinmişdi. Bəy üçün də alver edəndə, Əlirza saat götürmədi. Yalnız qəhvəyi rəngdə pencək-şalvar və ağ köynək aldı. Üzüyü də bizim israrlarımıza görə götürdü. Deyirdi ki, "mən qızıl üzük taxmıram, haramdır." Amma mən, götürməsinə israr etdim. Düşündüm ki, evlənəndə sonra gəlib dəyişər və özümə onun puluyla qızıl alaram. Üzüyü 19 minə aldıq.

Hər yer qar və buz idi. Əlirza evin önündəki buzu sındırırdı. Lakin bir neçə dəqiqə sonra, yenə hər yeri buz bağlayırdı. Bizə deyirdi ki, "mən hərbiçiyəm, buzda necə yeriyəcəyimi bilirəm, siz yeriyəndə, ehtiyatlı olun!" Amma bunu deyə-deyə bir dəfə sürüşdü!

Seyid Əmirin bacısı, xərci azaltmaq üçün, nişan makyajı üçün evimizə gəldi. Gəlinliyi də, iki ay əvvəl evlənən dostumdan borc aldım. Gəlinliyi uzun qol idi. Nişanın kişi qonaqlar üçün, qonşu evini hazırladıq. Adətə əsasən, kəbin kəsiləndə, bəyi "şah" etmək lazımdır. Gəlinin anası, bəyə hazırladığı geyim xonçasını bəzəyib kişilər tərəfə aparmalıdır. Kişilər də bəyin köhnə paltarlarını çıxarıb, əyninə bəy geyimini geyindirirlər. Sonra da bir ağsaqqal və ya ruhani, bir kasa suya dua və Ayətəl-kürsü oxuyub suya üfürüb suyu barmağıyla bəyin paltarlarına gəzdirir.

Bu adət yerinə yetiriləndən sonra, bəylə birgə nişan otağına getdik. Orada da tort kəsib, bal yeyib və nişan

üzüyünü taxıb şəkil çəkdirdik. Yaxın qohumlardan da bir neçə nəfər bizimlə birgə gəldi. Mən, Əlirzanın yanında oturdum. O, rahat idi, mən isə utanırdım. İstəyirdim ki, bir yerdən çarşab tapıb, başıma atım. Üzüyü barmağıma taxmaq istəyəndə, əlimi əlində tutub saxladı! Əlləri soyuq idi, amma sümüyümə qədər isindim. Davamlı özümə xatırladırdım ki, "bax! Hər şey baş verdi və sona çatdı! Həmin şəkildəki şəxs, indi buradadır. Allahın hökmü ilə sənə ən yaxın adam artıq odur. Bir ömür onun yanında olacaqsan. Ölənə qədər səninlə yaşamaq istəyir. Sevin! Bu utanmaq və həya səni ondan uzaqlaştırmasın. Bax, otaqda çox sayda qadın var, amma yalnız sən, onu sevə bilərsən! Buna görə də indidən ona məhəbbətini göstər!"

Qonaqlar tortu kəsib şəkil çəkəndə, Əlirza süfrədən bir mandarin və bıçaq götürdü. Meyvənin qabığını soyub, yarısını mənə verdi. O vaxt yadıma düşdü ki, mən səhərdən indiyə qədər heç nə yeməmişəm! Buna görə də meyvə çox ləzzətli gəldi.

**Xatunun xatirə dəftərindən bir yazı:**

Həmişə dua edirdim ki, həyat yoldaşım, Allaha olan inancını, həyatımızın dirəyi qərar versin.

Həmişə və hər yerdə ürəyində Allah qorxusu olsun.

Allah bəyənən əxlaqa sahib olsun.

İstəyirdim ki, həmişə aramızda davranış və səliqə mövzularında anlayışı olsun. Allaha şükür ki, indiyədək elədir.

İstəyirdim ki, həyat yoldaşım, mənim həm də örnəyim olsun. Çünki mən, çox qüsurluyam və örnəyə ehtiyacım vardı və elə də oldu.

Kənizi olduğum bu insandan daha yaxşı örnək ola bilməzdi!

Çox istəyirdim ki, evlənəcəyim kişi, vətənsevər olsun və dərdli vətənimiz uğrunda heç olmasa bir addım atmış olsun və Allaha şükür ki, o elədir.

Bəlkə düşünürsünüz ki, onun işi belə olduğu üçün, vətənsevər olmuşam, amma xeyr, mən əvvəldən də vətənimi çox sevirdim.

O, sadəcə vətənsevər deyil, həm də cihad və döyüş əhlidir.

Allah təala mənə qismət edib ki, ixlaslı və imanlı bir mücahidin qulluğunda durum, beləliklə mənim də onun savabında payım olar.

Bundan gözəl nə ola bilər?!

Lakin bəzən Əfqanistanın müharibəsinin uzun illər çəkdiyini və hələ də davam etdiyini xatırlayıram  və düşünürəm ki, müharibənin naxoşluqları çoxdur... Şəhid olmaq, itkin düşmək, əlil olmaq , əsir düşmək, didərginlik və min cürə bədbəxtçiliyi də var...

Tarix: 4.10.2001

# Beşinci fəsil

Nişan günü, kişi qonaqların oturduğu tərəfdə, bizim həyatımızı dəyişə biləcək hadisələr baş verirmiş. Bir nəfər, atamın yanında oturmuş və qulağına pıçıldayırmış ki, "qızını niyə tanımadığın və yollarda olan birinə verdin?! Əfqanistanda arvad-uşağının olmadığına necə inandın?! Nəyinə güvənmisən?! Nəyə əsasən razılıq vermisən?! Toydan sonra ilk dəfə Əfqanistana gedəndə, arvad-uşağıyla qayıtmayacağına necə inanırsan? Bəlkə də Əfqanistana gedib heç qayıtmayacaq!"

Atam, həmin şəxsin sözlərinə görə çox tədirgin və nigaran olub. Bir yandan da Əlirza hazır mehri də tam ödəməmişdi. Adətə görə, bəy nişanda qonaqların qarşısında pulu gəlinin atasına verməlidir. Əlirza sözünü tutmadığı üçün, atam narahat olmuşdu.

Nişan sona çatdı və qonaqlar dağılışdı. Əlirza da bizim evdə idi, amma atamın qanı qara olduğu üçün, sakitcə oturmuşdu. Mən tez paltarımı dəyişib əl-üzümü yudum və axşam yeməyi üçün yardım etdim. Yemək süfrəsini sərdik. Kişilər üstdə və qadınlar aşağı mərtəbədə idilər. Əlirzanın qardaşı oğlu Hacı Əhməd, nişan üçün Qum şəhərindən

bizə gəlmişdi. O və Əlirza, gedəcək yerləri olmadığı üçün, bizim evdə qaldılar. O, Əlirzadan bir neçə ay kiçik idi, amma evli və uşaqlı idi. O vaxt ailəsi Qumda idi və avtomobil qəzasına görə ayaqları sarğılı idi.

Heç kimin deyib gülməyə cürəti yox idi. Oradaca atam Əlirzaya dedi:

-Tez nə lazımdırsa edin və öz evinizə köçün. Gələn həftəyə qədər, ev tapıb döşəyin və gedin evinizə!"

Hamımız donub qaldıq. Axı bir həftəyə kim toy edə bilərdi?! Başda, 6 ay ilə 9 ay arasında qərar alınacaqdı, indi isə atam cəmi bir həftə vaxt verdi!

Əlirzanın ürəyində nişan sevinci, atamın bu sözüylə yox olmuşdu. Atama dedi:

-Axı mənim hələ hazırlığım yoxdur, hacı! Əlimdə nə qədər pul varsa, xərcləndi. İndi ev tutub əşya almağa bir qəpiyim də yoxdur. Hələ qardaşlarım da toya Qumdan gəlməlidir. İndi bilirsiniz ki, şəxsiyyət vəsiqələri verilir, onlar şəhərdən çıxa bilməzlər. Bu problemləri, siz bizdən də yaxşı bilirsiniz.

-Mən bilmirəm! Tez işinizi sahmana salıb evinizə gedin! Sabahdan ev axtarmağa başla və bir həftəyə evlənin!

Nişan gününün şirinliyi getdi və problemlərin acılığı və sərdliyi başladı. Hamının qanı qaralmışdı. Əlirzayla oturub danışmağıma da imkan olmadı. Atam, onunla eyni süfrədə oturmağa da qoymurdu. İşıqları çox tez söndürdülər və kişilər üst mərtəbədə yatmağa getdilər. Qəmlənmişdim, həyatımın ən gözəl günlərinin daha yaxşı keçəcəyini düşünmüşdüm. Atam, zarafat etmirdi. Heç vaxt heç kim, onu fikrindən daşındıra bilməmişdi.

Səhər tezdən, kişilər getdilər. Əlirza fikirli idi. Dizini qucaqlayıb divara yaslanmışdı və bir neçə dəqiqədən bir, başını silkələyirdi. Ona çox yazığım gəldi. Mənə dedi:

-İndi mən nə edim Bənin?! Mənim pulum yoxdur, kimdən borc alım?! Nişan üçün çox borc aldım. Bu bir həftədə, Allah özü bizə kömək olsun! Varlılar bir həftəyə toy edə bilməz, qaldı ki, mənim kimi yoxsul və didərgin biri! Necə toy edib ev tutum?!

Naharı da yedik. Nahardan sonra Əlirzayla otaqda oturmuşduq. Nişan süfrəsi toplanmışdı. Ona dedim ki, “mən gedim qabları yuyum.” Ayağa qalxıb getmək istəyəndə, əlimi tutub mehriban səslə dedi:

-Qabları boş ver, gəl mənim yanımda otur.

Artıq qəm-kədərimi ona danışa biləcəyimi bir olduğunu düşündüm və buna görə, dünəndən qalan göz yaşlarım axmağa başladı. Gözlərimdən yaş axa-axa qarşısında oturub dedim:

-Axı bu az vaxtda biz nə edə bilərik?! Atam niyə başa düşmür?! Hələ heç nə başlamadan, mən yorulmuşam.

-Yox, belə demə. Biz həyatımıza təzə başlamışıq, güc-qüvvəmiz də çoxdur. Bu problemlərin öhdəsindən də gələcəyik. Sən narahat olma. Mən, hacının belə əsəbiləşəcəyini bilsəydim, daşın altından da olsa, hazır mehri tapıb gətirərdim. Allah böyükdür, İmam Rza (ə) özü işimizi düzəltsin.

Axşam olmadan, pis xəbər aldıq. Əfqanistanda anamgilin qəsəbəsinə hücum olmuş və anamın qohumlarından 8 nəfər şəhid olmuşdu. Babamla anam, yasa batdılar. Hamı bizim kəbini, evin ilk gəlin köçənini və ilk kürəkənini unutdu.

Kəbinimizin ikinci günü, yas məclisi tutdular. Anam həmin vəziyyətdə, bizi də düşünüb deyirdi:

-Qohumların qırxına görə, bəlkə atan şeytan atından düşə və bir həftədə toy etməyi unuda!

Elə də oldu. Atam, toyu ertələyəcəyinə qanı qara idi, amma heç nə demirdi. Kəbindən 3 gün sonra, şəhidlərin mərasimi idi. Hamı getmişdi. Anam Əlirzayla mənə dedi ki, "siz də hərəmə gedin, amma atandan öncə evdə olun!"

Əlirzanın həyatımdakı varlığına sevincli idim. O, heybətli və güclü kişi idi və işinə rəğmən, əslində çox məhəbbətli və mehriban ürəyi vardı. Mənə çox məhəbbət göstərirdi. Sanki, ürəyindəki məhəbbətdən bir zərrə də gizli qalmasını istəmirdi. Hər dəfə yoldan keçəndə, əlimi tuturdu. Bu, sadə bir hərəkət deyildi. Əslində o, belə anları qənimət sayıb məhəbbətini göstərirdi.

Hərəmdə, dua edib Allaha yalvarması, məni ağlatdı. Nə qədər nigaran olduğunu görürdüm. Kaş ki, pul adlı şey dünyada olmasaydı. O vaxt, sevinc və xoş anların ömrü belə qısa olmazdı. Həyatımın ən gözəl namazını, həmin gün, Əlirzanın arxasında qıldım. Hay-küy və problemlərə baxmayarq, mən onunla fəxr edirdim. Artıq ayağım yerə möhkəm basırdı. Əlirzaya dedim:

-Sən mənim yanımda olanda, sanki buludlar üstündəyəm.

Gülüb dedi:

-İnşallah ki, həmişə səni qoruya bilim və daim mənə yaslana biləsən.

Bir birimizdən ayrılıb qadınlar tərəfə getdim. Zərihin yanında dua oxuyub Əlirzaya görə Allaha şükür etdim. Görüşəcəyimiz yerə çatanda, o demədən əvvəl, mən ona "Allah qəbul eləsin" dedim. Atamın qorxusundan, evdən çıxıb ziyarət edib qayıtmağımız, cəmi bir saat oldu. Amma evə qayıdanda, tərslikdən, qapını atam açdı! İkimiz də donub qaldıq, mən isə çox utandım. Atam, Əlirzanın

uzanan əlini ikrahla tutub salamlaşdı. Yenə otaqda ikimiz oturanda, mənə təvəkkül və birliyimizdən danışdı. Sonra da dedi ki, "İmam Rzaya, səni mənə qismət etdiyi üçün təşəkkür etdim. Bu problemlər də həll olacaq. Həyatın eniş-yoxuşu çoxdur. Mən səhv edib hacını əsəbləşdirdim. Zamanla könlünü alacağam."

Bir həftə sonra, atam Əlirzaya dedi:

-Mən hər dəfə evə gələndə səni burada görmək istəmirəm! Bu mənim xoşuma gəlmir. Dur get qohumlarının evinə!

Əlirza da mülayimliklə dedi:

-Mənim Məşhəddə heç kimim yoxdur, hacı! Ya otelə ya da Əfqanistana getməliyəm. Dostlarımın evində qalmaq mənə, həm də sizə yaraşmaz. Mənə deyərlər ki, sən evləndin, niyə qaynatanın evində qalmırsan?

Anam da ortada qalmışdı, əslində Əlirzanı məndən də çox istəyir və ona hörmətlə yanaşırdı, amma atam evdə olanda, kürəkəniylə danışmağa qorxurdu! Atam evdə olmayanda, onunla deyib gülürdülər. Əlirza gülməli olmayan lətifələri maraqlı şəkildə danışırdı və ona gülməmək mümkün deyildi. Başına gələn gülməli əhvalatları və səfərlərini bizə nağıl edirdi. Babam və nənəmlə isə Əfqanistan haqda danışırdı. Görürdüm ki, 7-8 gün müddətində, hamının ürəyində özünə yer etmişdi. Raziyə ilə Mərcan, bəzən onun zarafatlarından təəccüblənib ona deyirdilər ki, "Sən nə yaman şeylər bilirsən, görünüşündən belə zarafatcıl olduğun heç bilinmir!"

Bəzən mətbəxdə olanda yanıma gəlib mənimlə danışırdı. Sonra da yeməklərin gizlicə dadına baxıb məni güldürürdü. Yoldaşımın ailəmizdə belə sevimli olmasına qürrələnirdim. Hamının yanında məni "Beri" səsləyirdi.

Bizim dilimizdə, beri gəlin deməkdir. Fürsət tapdıqca mənə onunla yaşamağın necə olduğunu deyirdi. Bir dəfə belə dedi:

-Sən hazırlıqlı olmalısan, mənimlə yaşamaq, asan deyil. İşimə görə, bəzi günlər sənin yanında olmayacam, həm də böyük ailədən olduğum üçün, hamının səndən gözləntiləri var.

Qardaşı uşaqlarının şəkillərini göstərib deyirdi:

-Sən artıq mənə çox hörməti olan 80 nəfərin əmisi arvadısan! Əlirza Təvəssülinin xanımına yaraşan şəkildə davranmalısan.

Atam evdə olmayanda, səliqəli və fərqli geyimlər geyinirdim. Çox az makyaj edirdim. Evimiz adamla dolu idi, 4 bacım və bir qardaşım, babam və iki arvadı, xalam və anamın yanında çox da baxımlı ola bilmirdim. Əlirza da ailə yığıncaqlarında, sadə olmağı bəyənirdi. Yalnız səhər atam işə gedəndə birlikdə vaxt keçirirdik. Səhər yeməyini ikimiz birgə yeyirdik və heç kim səhər yeməyində bizi narahat etmirdi.

Əlirzanın ailəmə verdiyi hədiyyə pul, rəfin üstündə qalmışdı. Axır bir gün babam dedi:

-Siz artıq ev axtarmağa başlamalısınız, bu pulun bir hissəsini atana saxla, qalanını da götürün və evinizə nə lazımdırsa almağa başlayın.

Biz də bazarlığa başlayıb lazım olanları yavaş-yavaş almağa başladıq. Yalnız çox zəruri əşyaları almalıydıq. Ən çətin iş isə, ev tapmaq idi. Üstəlik pulun olmayan vaxtında!

Əlirzanın işinin xüsusi qanunları yox idi. Əslində o, İranda olduğu vaxtda, məzuniyyətdə sayılırdı. Bəzən iclası olanda gedirdi. Çox vaxt, ev axtarırdı. Evlərin kirayə qiyməti də ümidverici deyildi.

Hələ bir nəticə əldə etməmişdik. Bir gün əmim, qayınanasının yas məclisi üçün, Qumdan Məşhədə gəldi. Nikbəxt bibim də onlarla birgə gəldi. Bizim nişana onları dəvət etmədiyimiz üçün, atam Əlirzaya dedi ki, "sən burada olmasan məsləhətdir."

Atamın Əlirzayla belə davranmasından utanır və tək qalanda ağlayırdım. Gələcəkdə, təkrarlanmayan bu günlərin həsrətini çəkmək istəmirdim, amma həyat bizi həsrətə doğru sürükləyirdi. Əlirza, əmimgilin bizdə qaldığı bir həftə-on gün müddətində, İsfahandakı bacısı evinə və ya Qumdakı qardaşıgilə getməyə qərar verdi. Qonaqların çatacağı həmin gün, bizimlə sağollaşıb bilet almağa getdi. Qapıda dedi ki, "istəyirsənsə, bacıma bir hədiyyə al. Mən də bunu, Bənin yolladı deyərəm. Belə, xətrin əziz olar. Bu gecəni Əhmədi bəyin evində qalacam."

Qürub vaxtı küçəmizə gəlmişdi. Evdə heç kim yox idi. Qardaşım Rza gəlib dedi ki, "bacı, Təvəssüli gəlib. Küçənin başında səni gözləyir."

Qardaşıma dedim:

-Evə gəlsin.

Atamla qonaqların evdə olmadığını biləndə, gəldi. Onun hələ getmədiyini görəndə sevincdən qanad açıb uçacaqdım, tez pillələrdən ona doğru qaçdım. Mənə dedi:

-Sabah axşamüstü üçün bilet aldım. Hacı evdə olmadığı üçün, səni görmək istədim. Niyə hacı məni incidir? Kaş ki, birgə gedə bilsəydik.

Axşam yeməyini hazırlamışdım. Ona, bir qab makaron yeməyi çəkdim və yanında oturdum. Bacısına hədiyyə aldığım hicabı verdim. Mənə dedi ki, "hövsələn varsa, qardaşım qızlarına da məktub yaz. Oraya gedən kimi məni dövrəyə alıb səndən danışmağımı istəyəcəklər. Mən də

məktubunu verərəm, həm də şəkilini göstərərəm. Çox sevinəcəklər.”

Mən də qısa bir məktub yazıb, onu yola saldım.

Yanında 40 dəqiqə oturub, tez-tez yemək yeməsini izlədiyim üçün, ürəyim bir qədər rahatlıq tapdı. Birlikdə olduğumuz vaxtların toplamı 12 saat oldu və mən bunun artmasına sevinmişdim.

**Xatunun xatirə dəftərindən bir yazı:**

Şükür sənə İlahi!

Ərimi işindən uzaqlaştırmaq icazəsini özümə vermirəm.

Çünki o, işinə çatmaq üçün çox əziyyət çəkib. Həm də işini çox istəyir. Amma nə vaxt missiya üçün səfərə gedəcəyini deyir, bədənim qorxudan titrəyir.

Qorxuram ki, gedib yaralı qayıtsın! Ya da Allah göstərməsin, ona nəsə olsun!

Nə edim?! 20 ildən sonra, Allah mənə bu insanı qismət edib və bir-birimizə çatmışıq. Qorxuram ki, naməlum müharibəyə görə gözəl həyatımdan və xoşbəxtliyimdən məhrum qalım, bu mənim ən böyük qorxumdur!

Onunla həyatımızdan cəmi 33 gün keçib və indi yazmağa cürətlənmişəm. Çünki dinləyənim yoxdur. Allahdan və imamlardan yardım istəyirəm ki, evlilik həyatında düzgün davrana bilim, həmişə bir-birimizə önəm verək, fədakarlıq edək və bir-birimizə xatir bəzi şeylərə göz yuma bilək.

## Altıncı fəsil

Əlirza gedəndən iki gün sonra, Aliyənin atası gəldi və Əlirzadan mənə bir yazı və çek verdi. Kağızda yazmışdı ki, "bu çek səndə qalsın, get onunla ev əşyaları al."

Bibimin bizim evdə olmasını fürsət bilib bir top parça və iki kisə yun aldım. Anamla bibim mənə döşək və balış düzəltdilər. 3 gün ərzində 3 döşək və bir neçə balış düzəltdik. Tikişləri özüm atırdım. Əlirza döşəkləri görəndə dedi:

-Bunlar çox yumuşaq və rahatdır! Mən daş-qaya üstə yatmağa öyrəşmişəm, bunlarda rahat yata bilmərəm.

Qab-qacaq almağa da bibimlə getdik. Özüm, qənaətlə xərcləməyə çalışırdım, bibim də davamlı xatırladırdı ki, "evlənəndən sonra, lazım olanları yenə alarsan, indi ərinin pulu bitsə, borc almaq məcburiyyətində qalacaq. Sonra özün də əziyyət çəkəcəksən, pulunu istəyənlər qapınıza dayanacaq."

Əlirza bir həftə sonra qayıtdı, amma əli boş idi. Səfərə getmə səbəblərindən biri, ev kirayələmək üçün borc almaq idi. Axırda, problemini cəbhə yoldaşlarına demək məcburiyyətində qaldı. Onlar da evin depozitinə kömək

edəcəklərinə dair söz verdilər. Evin depoziti üçün, 800 min tümən pul yığdıq. Dar bir küçədə, iki otaqla və kiçik salonu olan bir ev kirayə etdik. Ev, çox çirkli idi, amma tələsirdik və daha yaxşısını tapmaq mümkün deyildi.

Bir gün dərsdən təzə qayıtmışdım, anam da cehiz alıb evə gəlmişdi. Həmin anda, Əlirza da evə girdi. Mətbəxə gəlib bizə dedi:

-Xəbəri eşitdiniz?

-Yox, səhərdən evdə deyildim, radyonu da açmamışam.

-Heyif! Kaş ki, özün eşidərdin!

Məsumə ilə anam da maraqla xəbərin nə olduğunu bilmək üçün, ona qulaq asırdılar. Bizim həvəslə dinlədiyimizi görüb dedi:

-Milli medai, səhər saat 10-da önəmli bir xəbəri dünyaya çatdıraraq dedi ki, Əfqanistan vətəndaşı, Məhəmməd Hüseyn oğlu, Əlirza Təvəssüli bəy, Baqir qızı Ümmül-bənin Hüseyni xanımla evlənibdir!

O qədər güldüm ki, yemək yaddan çıxdı və yanmış badımcan qoxusu evi bürüdü. Kəbin kəsiləndən bir ay sonraya qədər, lazım olan əşyaların çoxunu almışdıq. Əlirza tək idi və kişilərin görəcəyi işləri yalnız edirdi və buna görə yubanırdı. Tək qardaşı oğlu hacı Əhməd var idi və o da avtomobil qəzasının zərəri ilə məşğul idi.

Cehizləri, iki Vanet maşınıyla apardıq. Əslində bir vanetə də yerləşərdi, amma camaat görsün deyə geniş düzdülər. Cehizimin ən dəyərli parçaları, soyuducu və qarderob idi! Suviner və bəzək əşyalarım yox idi. Evimin tək ziynət əşyası, divardan asılan bir toxuma işi idi ki, qohumdakı qızları yığıb bir neçə günə toxumuşduq. Pərdəmi də özüm tikdim və çox da gözəl alınmadı. Sonra özüm də yerində asdım.

İş, çox idi. O müddətdə Əlirza hər gün az yatırdı. Mən də düz-əməlli bir tikə yemək yeməmişdim. Dayanmadan işləyirdik. Zənnimcə biz, öz toyunda bir neçə fəhlə qədər işləyən tək gəlin ilə bəy idik!

Cehiz daşımaq, xınayaxdı və toy, hamısı bir gün yarımda baş verdi. Yorğunluqdan toyda yıxılıb yatmaqdan qorxurdum! Dincəlmək üçün yeganə ümidim, gözəllik salonundakı oturacaq idi! Salona gələn gəlinlərin, niyə orada yuxuya getdiklərini təzə anlamışdım!

Toy yeməyi üstə söz-söhbət yaranmışdı. Əlirzanın qonaqları uzaq yoldan gəlib gecə qalmağa yerləri yox idi. Buna görə də, Əlirza, toyda nahar verilməsini istəyirdi. Amma toyda nahar vermək mənim ailəmə qəribə və qeyri adi gəlirdi. Ailəm deyirdi ki, "biz dədə-babadan, toyda axşam yeməyi verildiyini görmüşük! Kim nahar verib ki, biz də ikinci olaq?!" Əlirza isə geri çəkilmir və çox israr edərək deyirdi:

-İndiyə qədər nə dediniz, razı oldum. Bir dəfə də siz məni başa düşün.

Sonunda o deyən oldu.

Hacı Əhmədin xanımı xınanı gətirdi. Xına gecəsi üçün özümə tələsik tikdiyim və enli alınan yaşıl donumu götürüb gözəllik salonuna getdik. Çox sadə və tələsik makyaj edib geri qayıtdıq.

Əlirza, o 40 gün müddətində, 40 il qədər yorulmuşdu. Amma xına gecəsi deyib gülürdü. Xınayaxdını sevdiyi məlum idi. Xına haqda da imamlardan hədis oxuyurdu. Baxmayaraq ki, makyajı bəyənmirdi, amma xına yaxmaqdan xoşu gəlirdi.

Adətə əsasən, qohumlar xına götürəndə, gəlinin çantasına pul qoymalıdırlar. Hamı, bu adətə əməl edir. Çünki, xınanın pulunun bərəkətli olduğunu düşünürlər.

Əlirza, Hacı Əhmədin xanımını oğlan adamı olaraq tanıtdırmışdı. Gəlin, bəy tərəfdən hədiyyəsini almadan öncə, əlindəki xınanı açmamalıdır. Mən də ovucumu açmırdım. Amma sonra hacı Əhmədin xanımı, əlimə bahalı bir üzük verdi! Üzüyü Əlirzayla 6 min tümənə almışdıq.

Qohumlardan az adam gəldiyi üçün anam narahat idi. Gecə oldu və qonaqlar dağılışdılar. Son 40 gündə olduğu kimi, kişilər üst mərtəbədə, qadınlar da aşağı mərtəbədə yatmalı idilər. Əlirza bu şəraitə dözür və mən də buna görə ona minnətdar idim.

Əsas, toy idi və ertəsi gün olacaqdı. Məndən soruşdu ki, "bu gün xoş keçdi?" Mən də sevincli halda "bəli" dedim.

O da gülüb dedi ki, "bağışla yanında ola bilmədim. Bunu bil ki, sən sevinəndə mən də sevinirəm."

Mənim toyum, Leyla və Məryəmin toyu ilə eyni vaxta düşdü. Üçümüz də gözəllik kursunda təlim alırdıq. Üçümüz də toy makyajı üçün həmin salona getdik. Məryəm və Leyla çox sevincli və qıvraq idilər. Ərləri də həqiqətən gözəl geyinmişdilər. Ağ pencək-şalvar və ağ ayaqqabı. Toyları çalğılı və gəlin maşınları da bahalıydı! Leylanın ərinin ayaqqabı sexi var idi. Hər dəfə salona gələndə, təzə ayaqqabı geyinirdi.

Mən artıq hazır idim və bəyimin maşınla gəlməyini gözləyirdim. Qədir xum gecəsi idi və hər tərəf işıqlarla bəzənmişdi. Əlirzanın o gecə yoldakı izdihama görə gec gəlməsi, normal idi. Qış fəslinin qısa günləri isə toyun tez başlamasına səbəb olmuşdu.

Nəhayət, Əlirza, Aliyəgilin maşınıyla gəldi. Bəylik pencək-şalvarını geyinmişdi. Tam bir bəy olmuşdu. Üzümə baxıb dayandı. Mixək gülünün buketini əlimə verib çarşabımı başıma atdı. Çarşabım davamlı sürüşürdü.

Çarşabımın sürüşməməsi üçün xanımlardan sancaq istədi. Ona öncədən demişdim ki, salona gələndə mənə gül gətirsin. O da demişdi ki, "mən özüm güləm!"

Ayaqqabılarım rahat deyildi. Yolu da buz bağlamışdı. Əlirza qolumdan möhkəm tutmuşdu. Dodaqaltı deyinirdi ki, "axı bu nə ayaqqabıdır geyinmisən?! İndi sürüşsən mən nə edəcəm?!"

Mənim toyuma, birgə böyüdüyümüz uşaqlıq dostlarım Süheyla, Səlimə, Əşrəf və Fatimə gəlmişdi. Suheyla, Əfqanistanın Kabil şəhərindəndir. O, geyindiyi pencək-ətəklə və taxdığı qızıllarla toyda hamının diqqətini çəkirdi. Gülüb qulağına pıçıldadım:

-Deyəsən mən gəlinəm ha! Hamı sənə baxır!

Ata evi ilə sağollaşma vaxtı gəlib çatmışdı. Ötən 40 gün müddətində, bu anı fikirləşməyə heç fürsətim olmamışdı. Sanki, ata evindən həmişəlik köçdüyümü təzə anlamışdım! Ağlamaq istəyirdim. Gəlin köçən zaman, atam, babam və kərbəlayi əmim gəldilər. Çarşabımı başıma atmışdım. Anamla bacılarım, qapının ağızında dayanmış və ağlayırdılar. Əlirza yanımda dayanmışdı və ata eviylə sağollaşmağı gözləyirdik. Məni də ağlamaq tutmuşdu. Əlirza zarafata qulağıma dedi:

-Sən niyə ağlayırsan?! Bunların qızı gedir, amma sən ər evinə gedirsən! Sən sevinməlisən!

Ağlar gözlə gülməyə başladım.

Atam yaxınlaşıb ilk dəfə olaraq Əlirzanın üzündən öpdü və onu qucaqladı. Sonra məni də öpdü. Adətə görə, belimə pendir-çörək, ət və xurmalı dəsmal bağladı. Əlirzayla mənim əlimdən tutub, qəmli səslə dedi:

-Qızımı xoşbəxt edəcəyinə söz ver!

O da həmişəki həyalı halıyla dedi:

-Baş üstə, inşaAllah.

-Mən bu gün qızımı sənə verdim. Söz ver ki, nə vaxt evinizə gəlsəm, qızımın xoşbəxt olduğunu görüm.

-Baş üstə, baş üstə.

Bunu eşidəndən sonra, əlimi Əlirzanın əlinə verib dedi:

-Gedin, Allah və imam Rza (ə) amanında...

Babam da gəlib, alnımdan öpdü. Ardınca hamımız üzü qibləyə dayandıq və babam, İmam Zaman (ə.f)-in sağlamlığı və bizim xoşbəxtliyimiz üçün dua oxudu. Hamı amin dedi. Anam bizi üzərlikdən keçirdi və ata evindən hərəmə doğru yollandıq.

Hərəmdən öz evimə çatanda, adətə görə, gəlinin ayağının bərəkətli və bəyin həyatına düşərgəli olması üçün, qurbanlıq qoyunun qanından ayaqqabıma vurdular. Sonra ayaqqabımı ayağımdan çıxarıb, içinə düyü və buğda doldurdular. Ardınca da öz evimə girdim. Axşam və xiftə namazını qılıb Əlirzanın quraşdırdığı sobanın yanında oturdum və gözlərimi yumdum.

Gözlərimi açanda nəşəli və qıvraq halda sobadan uzaqlaşdım. Saat 11 idi. Tam 4 saat yatmışdım! Yorğunluq canımdan çıxmışdı. Axşam yeməyinin süfrəsi hələ yerdə idi. Əlirzanı görmədim, bildim ki, qonşulara şirniyyat verməyə gedib. Anam oyandığımı görüb dedi:

-Get özünü bəyə göstər, səni axtarırdı.

Əlirza məni görən kimi dedi:

-Öldüm səni axtarmaqdan! Haradaydın? Niyə axşam yeməyi yemədin?

Köməkləşib anam, bacılarım və Hacı Əhmədin xanımıyla işləri bitirdik. Gecə vaxtı, hamı sağollaşıb getdi. Əlirza deyirdi:

-İndi namazımın iki rəkəti, subay şəxsin namazının 70 rəkətinə bərabəridir və buna görə Allaha şükür edirəm. Bu, sənin həyatımdakı varlığına görədir.

**Xatunun xatirə dəftərindən bir yazı:**

Xəlvət və sükutda yalnız oturmuşam.

Bu sükutu aradan qaldırmaq üçün, qələmi əlimə alıb, vərəqin ağ sinəsinə yazıram.

Arzularımdan, xəyllarımdan, həyatımdakı yaxşılıqlardan, gözəllikdən və düşüncələrimi yazmaq istəyirəm.

Bunların hamısı, yalnız bir adda xülasələnir. Yalnız bir şəxsdən ibarətdir, tək bir sevdiyim var, adı Əlirzadır.

O, ürəyimin döyüntüsüdür. Hər yerdə və hər anda məni dəstəkləyən insan.

Özüm üçün, ətrafımdakı insanlar üçün, cəmiyyət və xalqımız üçün faydalı olmağıma kömək olur.

Heç nəyi məndən əsirgəmir və təşviqi ən gözəl şəkildə yerinə yetirir.

O, həqiqi mənada arzularımdakı insandır.

Tarix: 1.11.2001

## Yeddinci fəsil

Öz evimə girən kimi, bütün problemlər unuduldu. Artıq gileylənməyə vaxt yox idi. Əlirzanın vaxtı az idi və hər an Əfqanistana çağrılması mümkün idi. Ötən 40 gündə anlamışdım ki, rahat və asan həyatım olmayacaq. Ürəyim istəyən hər şeyi almağa da imkan yox idi. Özüm də istəmirdim ki, zəruri olmayan şeylər alım. Təmtəraqlı əşya almağı qətiyyən düşünmürdük. Bir yandan da Əfqanistandakı müharibə, davamlı onu özünə çəkirdi. Amma o haqda mənimlə danışmırdı.

Bir dəfə soruşdum ki, "mənə Əfqanistan müharibəsindən və orada nə işlədiyin barədə danış." O da cavabımda demişdi ki, "danışacaq söz çoxdur, danışsam uzun çəkəcək, amma buna vaxtım yoxdur, həm də danışmağı məsləhət görmürəm."

Dilxor olub dedim ki, "yəni mənim, bunu bilməyə ləyaqətim yoxdur?!"

Başını inkar əlaməti olaraq yelləyib demişdi ki, "belə demə, biz indiyə qədər etdiklərimizi Allaha xatir etmişik. Dua et ki, həqiqətən elə olsun. Mənim səndən çox gözləntilərim var, Bənin."

Zamanla, Əlirzanın bədənindəki qəlpə yerləri gözümə görünürdü. Alnında, sinəsində, dizində və bir neçə yara da belində var idi. Belində qəlpə olduğunu, ev əşyalarını daşıyanda öyrənmişdim. Üzünü sıxırdı və ağrıdığı məlum olurdu. O vaxt demişdi ki, "belimdə xırda qəlpələr var." Özü də onları çox istəyirdi!

Adətən ağır yatır və yeməklərim yanırdı! Özümə təəccüblənirdim ki, hər gün 10 nəfərə yemək bişirirdim, indi isə 2 nəfərlik yeməyi yandırıram. Əlirza, yeməyin yanmasına heç nə demirdi, amma ağır yatmağım onu nigaran etmişdi. Həmişə deyirdi ki, "ayıq yatmalısan! Mən səhər gedib axşamüstü gəlirəm. Bütün günü səni fikirləşirəm ki, birdən yatıb qalarsan və nəsə olar!"

Əlirza, evə təsəvvür etdiyimdən daha çox bağlı idi. Səfər və müharibə adamı, artıq sevgidolu bir həyat yaşayırdı. Təkcə bir qadına olan sevgi deyil, evinə olan sevgini də yaşayırdı. Evimizdə ətirli və rəngarəng yeməklərin iyi olmasa da, məhəbbət və sədaqət var idi. 27 il öz evi olmayan Əlirza üçün, bizim evimiz dünyanın ən yaxşı yeri olmuşdu. Buna görə də işdə olmayanda, evdə olmağı hər yerdən üstün bilirdi. Bir yerə yaslanıb tum çırtlayaraq kitab oxuyurdu. Bəzən kitabda oxuduqlarını mənə də nağıl edirdi. Tumu elə çırtlayırdı ki, ona deyirdim:

-Tum çırtlamaq yarışı keçirilsə, sən dünya üzrə ilk qalib olarsan!

Heç vaxt da oturmazdı, adətən bir yerə yaslanıb uzanardı. Zarafata deyirdim:

-Təvəssülilər oturmağı bacarmır, tək yaslanıb uzanırlar. Sən normal otursan, yer şoka düşər!

Əlirza ilə savad baxımdan fərqli idik. Onun kimi Quraan oxumağı bacarmırdım. Dünyadan, partiyalardan

və cərəyanlardan olan məlumatım onu qədər deyildi. Hətta Əfqanistan cəbhələri haqda da onu qədər bilmirdim. Əlirza təklif etdi ki, mühacirlər üçün olan həzrəti Zeynəb (s) hövzəsinə yazılım. Attestatım olmadığı üçün, məni qəbul etmədilər. Amma əhkam və təfsir kimi bəzi dərslərdə iştirak etməyə icazə verdilər.

Yavaş-yavaş bir döyüşçünün həyatındakı yerimi tapırdım. Aramızdakı fərqliliklər, bizim aramızda məsafə yaratmamalı idi. Buna görə də, hövzə dərslərini ciddiyyətlə davam edirdim. Öyrəndiklərimi dəftərə yazırdım. Əlirza mənim üçün kitab alırdı və tapşırırdı ki, mütləq oxuyum. Hətta namazlarım da fərqli olmuşdu. Namazı, Əlirza kimi təvazökarlıqla qılmağa çalışırdım. Onun kimi boynumu bir tərəfə əyib, çiyinlərimi aşağı salıb, qünutda bağlı gözlərlə dua oxumaq istəyirdim.

Səhər açılandan sonra yatmaqdan acığı gəlirdi. Sübh namazından sonra yatmırdı, məni də yatmağa qoymurdu. Gün çıxan vaxtı yuxu nə qədər şirin olsa da, oyaq qalmalıydım. O saatda, Əlirza Ziyarəti Aşura zümzümə edirdi, mən də Quraan oxumağa çalışırdım.

Bizim toyumuzdan bir müddət sonra, Novruz bayramı oldu və qohum get-gəli başladı. Mən təzə gəlin olduğum üçün, qohum evinə getmək xoşuma gəlirdi. Əlirza işdə olmadığı saatlarda qonaqlığa gedirdik. Əlirzanın heybəti, hər yerdə məni başı uca hiss etdirirdi. Hara getsək ona çox hərmət edir və Allah yolunda cihad etdiyi üçün ona çox dəyər verirdilər.

Bir müddət sonra da Məhərrəmlik başladı və Əlirza, imam Hüseyn (ə)-ın qiyamı haqqında mənə bilmədiyim şeylər danışırdı.

İlk dəfə birlikdə səfərə çıxmağımız, İmam Xomeyninin mərasimində iştirak etmək üçün idi. Yay fəsli idi və bir

neçə avtobus eyni məqsədə doğru yollanmışdı. Avtobusda kondisioner yox idi və isti çox əziyyət edirdi. Əlirza hər yerdə buzlu su axtarırdı. Avtobus, hər dəfə dayananda, o da düşür və soyuq meyvə suyu alıb məni də içməyə məcbur edirdi. Mənim yanımda az otururdu. Davamlı müxtəlif adamların yanında oturub hal-əhval tuturdu. mənə deyirdi ki, "avtobusun sərnişinləri məni tanıyırlar. Yalnız sənin yanında oturub, təzə gəlin-bəy kimi pıçıldamağımız ayıb olar."

Ona dedim:

-Nə yaxşı ki, bal ayı səfərimizə, İmam Xomeyni ziyarəti qismət oldu.

Təbəssüm edib dedi:

-Belə düşündüyün üçün minnətdaram. Sən belə danışanda, evinizə elçi gəlib səninlə evləndiyim üçün daha da çox sevinirəm. Həmişə belə qal.

Əlirzanın qohumlarını da görüb tanış olmaq üçün, Tehrandan Quma yollandıq. Hamısı bizi məhəbbətlə qarşıladılar və səfərin yorğunluğunu unutduq. Bizi səmimi qəlbdən qarşılayır və Əlirzanın ailə qurduğu üçün davamlı şükür edirdilər. Ona nə qədər hörmətlə yanaşdıqlarını görürdüm. Onun dediyi kimi, mən də ona yaraşan şəkildə davranmalıydım.

Evimizə qayıdanda, şimaldan qayıtdıq. Dəniz kənarında da şəkil çəkdik. Əlirza şəkilin arxasına mənim üçün şeir yazdı.

Evliliyimizdən 6 ay keçmişdi. Əlirza səfər haqda heç nə demirdi. Düşünürdüm ki, bəlkə səfərləri bitdi və bir daha getməyəcək. Onun işindən baş açmaq istəyirdim. Səhər haraya gedir və nə iş görürdü ki, günorta geri gəlirdi? Atam və qohumdakı digər kişilər, səhər tezdən gedib axşam yorğun-arğın gəlirdilər. Buna görə də Əlirzanın işi

mənə maraqlı idi. Əslində, qohumlarımıza da maraqlı idi. İndiyə qədər bir əfqanlının dövlət işçisi kimi səhər gedib günorta qayıtdığını görməmişdik. Üstü başı təmiz işə gedib və təmiz qayıdan əfqanlı görməmişdik. Əfqanlı kişilər, işə gedəndə əllərində mütləq fəhləlik əşyaları, usta çəkici ya da boyaçı fırçası olurdu. Əlirza isə ütülənmiş və səliqəli pencək-şalvarda gedib gəlirdi. Evliliyimizin ilk ilində, məzuniyyəti 6 ay çəkdi. Həmin vaxtda, qorxduğum çətinliklərdən xəbər yox idi. Özü deyirdi ki, xatunlar kimi yaşayırsan. Nişanlı vaxtındakı təzyiqli və yuxusuz günlərin əksinə, onunla doya-doya danışmağa vaxtım olurdu və bu həyatımızın ən yaxşı cəhəti idi.

6 ay sonra payız fəslinin bir günü, evə girən kimi dedi:

-Xatun! Tez gəl. Məni səfərə yola salmalısan!

Məzuniyyəti artıq bitmişdi. Özü dediyinə görə, missiya səfəri bir neçə ay çəkəcəkdi. İşi müharibə ilə əlaqədar idi və nə vaxt qayıdacağı məlum deyildi. Müharibə səfəri, bir kişinin gedəcəyi ən pis səfərdir. Yalnız gedişi öz əlindədir. Amma şəhərini tərk edəndən sonra, bir daha qayıtması üçün yalnız dua etmək lazımdır. Əlirza, sanki məhz bu səfər üçün doğulmuşdu.

Əlirzanın bütün əşyası, bir çanta, bir neçə qış paltarı və telefon nömrələrini qeyd etdiyi kiçik dəftər idi. Rəcəbgilin telefon nömrəsini də həmin dəftərə yazdım. Rəcəb, Evində telefon olan ən yaxın qonşumuz idi. Rəcəbin ev nömrəsini dost-tanışa vermək üçün, ondan icazə almışdıq.

Payız havası, Əfqanistan dağlarında, qışın üzünü ağ edər. Dağlıq bölgələrdə üzlərini şalla bağlayıb, yanaqları şaxtadan qızaran döyüşçülərin şəkillərini görmüşdüm. Əlirza da elçiliyə gələndə, üzündə və əllərində şaxtanın qızartısı görünürdü.

Niyyət etmişdim ki, çərşənbə hərəmə gedim. Əlirzanın sağ-salamat qayıtması üçün və övladımızın olması üçün dua etdim. Bizim ölkəmizdə, uzun müddət uşağın olmamasına yaxşı baxmırlar. Bir müddət sonra, hamı uşaq istəyir. Baxmayaraq ki, təzə evlənmişdik, amma qohum-qonşunun mənə olan baxışlarında, hamiləlik əlamətləri axtardıqlarını anlayırdım.

Bizim məhəllədə, Quraan dərsləri təşkil olurdu. Əlirza tapşırmışdı ki, Quraan oxumaq və təcvid öyrənmək üçün bu dərslərdə iştirak edim. Özü Quraanı elə səhvsiz oxuyurdu ki, ondan səhv tutmaq mənim üçün bir arzu olmuşdu. Quraan dərslərində, yoldaşımın sağ qayıtması üçün və bütün övlad arzusunda olanların arzusuna çatması üçün dua edirdim. Zamanımı, anama yardım etməklə keçirirdim. Nə vaxt bacılarım Əlirzanı xatırlasalar, onunla fəxr edirdim. Kəşku yeməyini yeyəndə, Raziyə deyirdi ki, "Əlirzanın yeri məlum. O da kəşku çox istəyirdi." Ya Əlirzanın sevdiyi serial başlayanda, Mərcan onu xatırlayırdı. Hələ bir il olmamışdı ki, yad Əlirza, ailəmizdə özünə yer etmişdi.

Bir gün Rəcəbin evindən bir nəfər gəlib, Əlirzanın zəng etdiyini dedi. Zəngini çox gözləmişdim. Başda çox səmimiyyətlə halımı soruşdu, sonra isə çox ciddi halda dedi:

-Yaxşısınız inşallah? Qohumlar və dostlar necədir?

Hazırladığım gözəl sözləri deməyə macal vermədi! Rəcəbin ailəsi və anama görə, həm də telefon dinləmə ehtimalı olduğu üçün, ehtiyatla danışmalıydıq.

Anam ondan bir daha nə vaxt zəng edəcəyini soruşanda, anama dedi:

-Bilinmir, söz verə bilmərəm. Ümumi telefonlar bizə uzaqdır və nə vaxt telefon tapacağımı da bilmirəm.

Amma məktub yaza biləcəyimizi demişdi.

Hacı Əhməd də Əfqanistana gedəcəkdi. O, torpaq alveri ilə məşğul idi. 20 gündən bir Əfqanistandan gəlib işlərini yoluna qoyub qayıdırdı. Əfqanistanda ərzai yaxşı satılmırdı. Onun da işi yaxşı getmirdi. Evlərini boşaltmışdılar və Əlirzanın olmadığı müddətdə, gəlib bizim evdə qalacaqdılar. Otaqlardan birini onlar üçün boşaltdım. Xanımı və oğlu bizim evə gəldilər, hacı Əhməd isə Əfqanistana yollandı.

Xanımı, mənə Əlirzadan danışırdı. Əlirza, Əfqanistanda kitablarını sandıqda saxladığını deyirdi. Deyirdi ki, Əfqanistanda onlar evlənəndə, evlərində bir sandıq kitab var idi. Kitabların, Əlirzanın olduğunu bilmişdi. Əlirzanı da yalnız adıyla tanıyırmış. O vaxt hələ onu görməmişdi, amma sandıqda olan 200 kitabın hamısını oxumuşdu.

Artıq Əlirza gec zəng edirdi. 1-2 dəfə yenə zəng etdi və həmin ciddiyyətlə danışdı. Bir dəfə də Musəvi bəyin evinə zəng elədi. Cavab verməyə anamla birgə gedirdim. Orada da anamı ağlamaq tutdu. Musəvi bəy təəccüblənib dedi:

-Təvəssüli bəyin nə yaxşı qayınanası var! Gör kürəkənini nə qədər istəyir!

Əlirzanın sənəd işlərini, Hacı Əhməd həll edirdi. Bir dəfə mənə dedi:

-Əlirzaya məktub göndərmək istəyirsənsə, ver ofisə aparım. Oradan Əfqanistana gedənlər çoxdur.

Mənim məktubum hazır idi. Onun üçün kiçik bir güzgü də almışdım. Məktubda yazmışdım ki, "bu güzgüyə bax, özünü gör. Sən həmin şəxssən ki, mənə tez-tez zəng edəcəyini söz vermişdi? Bax gör dəyişilməmisən?!"

**Komandirin məktubu:**

Məktubunu almaq üçün dəli kimi qaçırdım və çatanda dedim:

Mərhəba ey gözü yolda olanların məktub çatdıranı.

De görüm, nə yazıbdır qurban olduğum yarım?

Canım mənim! Sənin dəyərli məktubun əlimə çatdı və gül üzlümün əl yazısını görəndə, şövqdən elə xumar oldum ki, yuxuda olduğumu sandım!

Amma yuxu olmadığını gördüm.

Bu mənim nazlı cananımın əl yazısıdır!

O, bacarıqlı əllərlə mənim darıxan könlümə məktub yazıbdır!

O, məcnun aşiqinə, özündən bir xəbər yollayıb!

Gül xanımım! Kəlmələr məndən qaçır! Dəxlisiz yazıramsa, məni bağışla. Belə dəlilik etməyim, sevincli olduğum üçündür! Çünki bəzi dəliliklər, uzun müddətlidir.

Məktubunu gözümə qoyub öpdüm. Hamının gözündən uzaqda onu qoxladım və hələ də nazlı əllərinin ətri burnumdadır. Hələ də məktubunun hər kəlməsi, mənə aramlıq bəxş edir.

Ey ən yaxın dostum! Bu məktubu, 12.10.2001 tarixində, otağımın fənərinin az işğı altında yazıram. Sənin mehriban məktubunun cavabı gecikdiyi üçün, məni üzürlü say, çünki daha tez yazmaq mümkün deyildi.

# Səkkizinci fəsil

Evimizi boş qoymamağa öyrəşmişdim. Əslində, boş deyildi. Hacı Əhmədin xanımı və oğlu bizim evdə idilər. Amma öz otağımızın işığının da həmişə yanmasını istəyirdim. Gün boyu çöldə olsam da, axşam mütləq evimə qayıdırdım. Anam, bacılarım və nənəm də anlamışdılar ki, Əlirza olmayanda da mən mütləq öz evimdə olmalıyam. Evimdə tək qaldığım saatları, heç nə ilə dəyişmirdim. Həmin boş vaxtlarımda məktub yazıb, namaz qılıb təvəssül duası oxuyurdum.

Bəzən, Əfqanistandakı mücahidlərin əməliyyatları haqda xəbər eşidirdim. Onlardan bəzilərini televizor da göstərirdi. Artıq 3 ay idi ki, Əlirza getmişdi və payız fəslinin tamamını Əfqanistanda keçirdi.

Dekabr ayının ortaları idi, Hacı Əhmədin xanımıyla oğlu, öz otaqlarında idilər. Mən də səccadəmi sərmiş dua kitabımı oxuyub “ya qiyasəl-mustəqisin” zikr edirdim. Birdən qapının səsi gəldi. Bilirdim ki, hacının oğlu qaçıb qapını açacaq. Çəkələyinin şap-şap səsini də eşidirdim. Anamın gəldiyini düşündüm. Amma uşaq birdən qışqırdı:

-Muştuluq, muştuluq! Əmi gəlid! Əmi gəldi!

Əlirza gəlmişdi. Heç nə demədim. İxtiyarsızca göz yaşlarım axmağa başladı. Namaz çarşabım başımdan sürüşdü. Əlirza içəri girib gülə-gülə dedi:

-Yeni il mübarək!

Çantasının ağır olduğu bilinirdi. Qayıdış bileti, Tacikistandan idi və oradakı xristianların yeni ili olduğu üçün, onlar kimi "yeni il mübarək" deyirdi! Əfqanistanlı paltarının üstündən, qalın palto geyinmişdi və üzü şaxtadan qızarmışdı. Hacı Əhmədin xanımı salamlaşıb hal-əhval tutdu, sonra da oğlunun əlini tutub dedi:

-Biz atangilə gedək və muştuluq alaq!

Onlar tez qayıdacaqdıla. Mən isə hələ də göz yaşı tökürdüm. Heç nə deyə bilmirdim. Əlirza zarafata deyirdi:

-Niyə ağlayırsan? Narahat oldunsa qayıdım!

-Şaxtadan qızarmış üzü, qan qoymuş gözləri, çatlamış dodaqları və quruyan əlləri, ondan geriyə yorğun və bitkin bir insan buraxmışdı. Namazını qıldı. Mən də ona yemək hazırlamağa getdim. Pomidorlu yumurta istədi. Çox acmışdı və deyirdi:

-Evə gəlib sənin bişirdiyin yeməyi yemək üçün, səhərdən heç nə yeməmişəm.

-Kaş ki, xəbər etsəydin və yaxşı yemək hazırlasaydım. Təyyarə bu qədər yormamalıdır, niyə belə yorğunsan?

-Bizim məzuniyyətin başlayacağı zaman bilinəndə, o vaxt işlər təzə başlayır! 2-3 gün qaça-qaçda olmalıyam ki, tez işləri bitirim və gələ bilim. Kaş ki, atangil sabah gəlsə idi, indi çox yorğunam.

Amma atam, anam və bacılarım yarım saat keçmədən gəldilər. Evi səs-küy bürüdü. Hamı onun gəlişinə sevincli idi. Çay içdik və söhbət etdik. Əlirza yorğunluqdan göz-qaş edirdi ki, ailəmi yola salım.

Ertəsi gün, sağ qayıtdığı üçün, İmam Rza ziyarətinə gedib təşəkkür etmək istədi. Birgə getdik və ziyarətdən sonra görüşəndə, yenə mən ondan öncə “Allah qəbul eləsin” dedim. Hərəmdən sonra, anamgilə getdik. Hamı ondan səfər hədiyyəsi gözləyirdi. O da deyirdi:

-Orada raket, qumbara və güllə var, bunları gətirə bilmərəm. Qəlpələri gətirmək də qadağandır! Ziyarətgah da yoxdur ki, möhür və təsbeh alım! Mən də özümü sizə hədiyyə gətirdim!

Anamgildə yadıma düşdü ki, gecə çantasını heç açmadıq. Evə qayıdanda çantasını açdıq. Hamısı rəngi qaçmış və köhnəlmiş qalın qış paltarları idi. Əlimə al qırmızı məxmər parça verib dedi:

-Bununla özünə don tik.

Çarşab üçün tapşırdığım kimi, qara parça da almışdı. Hərat şəhərinin qara çarşablarının keyfiyyəti məşhurdur. Baxmayaraq ki, əfqanlı qadınlar qara çarşab geyinmir və rübənd bağlayırlar, amma qara çarşab parçaları çoxdur və keyfiyyətlidir. Parçanın naxışı gözəl idi. Onu anama saxladım ki, kürəkənin ona hədiyyəsi olsun.

**Xatunun xatirə dəftərindən bir yazı:**

Şaban ayının 15-ci axşamıdır və saat 9-dur. Bir neçə dəfə toy şəkillərimizin albomunu əvvəldən axıra baxıb, 16.03.2001 tarixinə qayıtdım və həmin gözəl günü dəfələrlə xatırladım. Ondan əvvəl də 1.02.2001 tarixindəki nişan şəkillərinə baxmışdım. İlk şəkilimiz, həmişə üzümdə təbəssüm yaradır. Bir şəkildə, pillələri qalxdığım yerdə qəfil məni çəkiblər. Digər şəkil, anamladır. Hər bir şəkil, sevincdolu anları qeydə alıb və hər birini ayrıca sevirəm.

Şəkillərdə yanımda olan və ay kimi parlayan şəxsi sevirəm.

O, təkdir, bir dənədir və yekdir.

O, Əlirzadır.

Bilirəm, özü də bilir və ikimiz də bilməliyik ki, onsuz yaşaya bilmərəm.

Albomumun 3-cü səhifəsindəki şəkildə, ikimiz Quraanı tutmuş, Nur surəsini oxuyuruq.

Həmin Quraana and olsun ki, ömrümün son anına qədər onu belə sevəcəm.

Albomu vərəqlədikcə, xatirələr daha da şirinləşir.

Ən çox sevdiyim şəkil isə, bir-birimizin gözünə baxdığımız şəkildir.

Ya da, kölgəmin güzgüyə düşdüyü şəkil. Əlirza deyirdi ki, bu şəkili çox istəyirəm, bu şəkildə iki arvadım var!

Kəbin süfrəsinin başında, əl-ələ tutmuşuq, kameraya baxırıq və gələcəyə dair ümidliyik. Üzümüzdə hamının görə biləcəyi səmimiyyət var. Hətta dumanlı düşən axrıncı şəkilimiz də gözəldir. Bəyimin “şah olma” mərasiminin gözəl və maraqlı şəkillərini də sevirəm. O şəkildə, qayınatası geyim xonçasını açır və kürəkəninə bəy pencəyini geyindirir. Onun oradakı gözəl təbəssümü, mənə həmişə təskinlik bəxş edir.

# Doqquzuncu fəsil

Artıq iki il idi ki, övlad payı gözləyirdik. Bu müddətdə Əlirza daim səfərdə olurdu. 40 gün İranda, 3 ay Əfqanistanda idi. Bəzən də bir ay İranda, 4 ay Əfqanistanda olurdu. Mən də bu şəraitə öyrəşmişdim. Uşaq olmadığı üçün, camaat söz-söhbət edirdi, özüm nigarançılıq çəkirdim və anam narahat idi. Amma Əlirza heç nə demirdi. Yalnız ata olmağı çox istəyirdi və bunu gizlədə bilmirdi. Bir dəfə ondan soruşdum:

-Əgər uzun müddət uşağımız olmasa, problem də məndən olsa, o vaxt nə edərsən?

Gülüb dedi:

-Belə demə, günahdır. Allah təala, nə vaxt məsləhət bilsə, onda olacaq. Amma 15 il səni gözləyərəm, uşağın olmasa, onda ikinci arvad alaram! Əslində o halda, sən özün məni evləndirməlisən! Zarafat edirəm. Mənim səfər şəraitimə görə, bu çox normaldır. Gec olmayıb. Həm də sən özün hələ uşaqsan!

Mən hələ uşaq idim?! Hələ işindən baş açmadığım üçün və özü də sual soruşmağıma icazə vermədiyinə görə, məni uşaq görürdü? Ya da siyasət haqqında gülməli suallar

verdiyim üçün uşaq idim? Güləndə uca səslə gülür və şikayətlənməyə başlayanda dayanmırdım, ya hələ düzgün şəkildə qonaq qarşılaya bilmədiyim üçün uşaq idim?!

Əlirzanın yaşı 30-u keçmişdi və yaşıdları bir neçə övlad sahibi olmuşdular. Müalicə üçün içdiyim dərmanlar, məni əsəbi etmişdi. Əlirza evdə olmurdu ki, əsəbi olmağım onun üçün problem yaratsın. Dayım qızı Məhtab, həmin günlərdə yanımda idi. Mənimlə həkimə gəlir, analizlərdə yanımda olur və həmişə mənə ürək-dirək verirdi. Gecə də yanımda qalırdı.

100-cü dəfə analiz verəndə, cavab yenə mənfi idi. Hər şey, sonoqrafiya ilə aydın oldu. Sonoqrafiya həkimi, soyuqqanlı halda dedi:

-Sən ki, hamiləsən, xanım! Həm də təxminən 40 günlük!

Sevincdən nə deyəcəyimi bilmirdim. Bir an qanad açıb uçacaqdım.

Əlirza Əfqanistanda idi. Ata olacağını bilsə idi, bir bölgəni azad etmək qədər sevinəcəkdi. Hacı Əhmədin xanımı xəbəri biləndə nəsihət edib deyirdi:

-Çox ehtiyatlı olmalısan, daha qaçmamalı və tullanmamalısan! Ağır əşya da qaldırmamalısan!

Əlirza həkimə gedəcəyimi bilirdi. Leylanın evinə zəng edəndə, ona həkimə gedəcəyimi demişdim. Leyla, toyumuz eyni gündə olan dostumdur. Bizim küçəyə köçmüşdülər. Leylanın evi, Əlirza ilə danışmağa ən yaxşı yer idi. Orada rahat idim. Baxmayaraq ki, Əlirza davamlı deyirdi ki, "telefon arxasında uşaqlıq etməyəsən ha! Uşaq-uşaq danışmayasan! Darıxmışam, canım-cicim sözlərini telefon arxasında demə! Onlarca insan səsimizə qulaq asır!"

Axşam, Leylanın evinə zəng elədi. Bilirdim ki, həkim cavabını bilmək istəyir. Amma məni utandırmamaq üçün soruşmurdu. Özüm söhbəti açıb dedim:

-Kaş ki, burada olardın. Həkimə gedib analiz cavabını alanda çox narahat oldum. Kaş ki, yanımda olardın.

-Qismət deyilmiş, eybi yoxdur! Allahın məsləhətini dəyişmək olmaz.

Gülməyə başlayıb dedim:

-Zarafat elədim. Xeyirli olsun! Ata olursan!

O da gülməyə başladı və səsindəki yorğunluq aradan getdi, dedi:

-Mübarəkdir! Mübarəkdir! Özünə çox diqqət et! Hərəmə get, müstəhəb əməllərini artır.

Qısa zamanda İrana gəldi. İlk cümləsi də bu idi:

-Qızım necədir? Qızımla anasının halı yaxşıdır?

Ona dedim:

-Qız olduğunu kim dedi? Hələ ki, bilinmir.

-Yox. Qız olacağına əminəm.

Sonra da rəvayət və hədis oxudu. Deyirdi ki, qadının səadəti, ilk övladının qız olmasıdır.

Artıq Əlirza gəlmişdi və çətin qanunlarını tətbiq etməliydim. Səhərlər yatmaq istəyəndə, qoymurdu. Səhər yeməyini də bütöv yeməli idim. Yumurtanı südün içinə əlavə edib bal ilə zorla mənə içirirdi.

Qoxuları uzaqdan hiss edirdim. Xüsusilə də, atamgilin tut ağacındakı yaşıl böcəklərin qoxusunu! Qoxunu hiss edəndə, otaqda bir böcəyin olduğunu anlayırdım. Aqressiv olmuşdum və öz əlimdə deyildi. Əfqanlı ailələrin çox bişirdiyi bozbaşın iyindən də acığım gəlirdi. Həmişə üşüyürdüm. Nə vaxt baxsan, əynimdə jaket vardı. Hətta bəzən ədyala bürünürdüm. İsti paltar geyinməyəndə,

qarnım ağrayır və nabat çayı içirdim. Əlirza məni bu halda görəndə deyirdi:

-Uşaq üçün ürəyin gedirdi! Bax, uşaq sahibi olmaq belədir!

Əlirzanın Əfqanistana növbəti səfərində, qardaşı Şir Məhəmməd, avtomobil qəzasında rəhmətə getdi. Əlirzaya demək istəmirdik, çünki eşidəndə çox qəmlənəcəkdi. Ona, bibim ərinin xəstə olduğunu deyib Quma yollandıq. Hər şeyi hazırlamışdım, hətta Qum biletimizi də almışdım ki, Əlirza çatan kimi yola düşək.

Evə çatanda, yorğun, sevincli, həm də şübhəli idi. Bu yersiz səfərin səbəbinin bibim əri olmasına inanmamışdı. Deyirdi ki, “elə bilirdim ki, böyük qardaşıma nəsə olub!”

Həmin səfərdə, hamiləliyin dördüncü ayında idim. Ət və soğan qoxusu, qaytarmağıma səbəb olurdu. Süfrə başında otura bilmirdim. Tək Əlirza nə halda olduğumu bilirdi və mənə “bir azca döz" deyirdi. Həmin halda qohumlara hamiləlik xəbərini vermək, yaxşı olmazdı. Tərəvəz, kartof və qatıqla doymağa çalışırdım. İlk dəfə olaraq, Təvəssüli ailəsinin bütün üzvlərini, bir arada gördüm. Əlirzaya təskinlik verməyə imkanım olmurdu. Ölən qardaşı onun üçün yaxın dost kimi idi. Deyirdi ki, “yeniyetməlik dövrünün çox vaxtını, onun evində keçirmişəm.” Təzə evləndiyimiz vaxtlarda da deyirdi ki, “o, sənin qayınatan hökmündədir, mənim üçün çox əziyyət çəkib.” Hamı qərara gəldi ki, ölən qardaşın uşaqlarına hər ay pul göndərsinlər. Pulu toplayıb göndərməyin məsuliyyəti isə, Əlirza ilə mənə düşdü. Hər ay mən pulu banka aparıb onların hesabına köçürürdüm və pulun köçürüldüyünü onlara bildirirdim. Mənim vəziyyətim ağırlaşdıqca, Əlirzanın qonaqlıqları da azaldı. Məni nəzərə

alırdı. Çox deyinirdim və o bundan xilas olmaq üçün daha az qonaqlıq təşkil edirdi.

Həmin əsnada, 11 Sentyabr hadisəsi ilə Əfqanistanda bəzi dəyişiliklər baş verdi. Əslində o, bir hadisə deyildi. Dəqiq planlaşdırılmış müsəlmanlara qarşı bir media müharibəsi idi. Bu planla, Amerika Əfqanistanda qalmağa yaxşı bəhanə tapmışdı.

11 Sentyabr hadisəsindən sonra, Amerika Korpusu hədələmiş və həzrəti Məhəmməd təşkilatının dərhal məhv olmasını tələb etmişdi. Həmin təşkilatın döyüşçüləri, əhalini qorumaq uğrunda, öz canlarından və rahatlıqlarından imtina etmişdilər. Həmçinin onlar, müharibə məsələlərində, Əfqanistan xalqı arasında ən bilikli insanlar idilər və əhali də onları çox istəyirdi. Döyüşçülər, əmniyyət məsələləri uğrunda, təşkilatı aradan qaldırmağa razılıq verdilər və hər kəs öz normal həyatına döndü.

Əlirzanın cəbhə yoldaşlarının çoxu, Əfqanistanda qalıb təcrübə və ixtisaslarına əsasən dövlət işində vəzifə aldılar. Əlirzaya da bəzi işlər təklif olurdu, amma heç biri ona uyğun deyildi. Masa arxasında oturub kağızlarla işləmək, onun ruhiyyəsinə uyğun deyildi. Üstəlik Əfqanistan idarələrində, rüşvət vermədən və almadan, iş irəliləmirdi. O vaxt, Əfqanistanda 4-5 ay qaldı. Təşkilatın məhv olması, üzvlərin işsiz qalmasına bərabər idi. Mən də yoldaşımın işsiz qaldığı üçün, nigaran idim. Axı o, başqa iş bacarmırdı!

Əlirza səfərdən qayıdandan sonra, artıq işsiz idi. Mədəniyyət mərkəzində başını qatır və dini ya da hərbi dərslərdə iştirak edirdi. Artıq hamiləliyin 5-ci ayında idim. Əlirzanın işsiz qaldığını dost-tanış bildi. Hətta evimizi boyamağa gələn boyaçı deyirdi:

-Camaat deyirlər ki, Təvəssüli bəy işsiz qalıb və evdə oturur, amma mən bu neçə gündə heç onu evdə görmədim!

-Biz də heç onu evdə tapmırıq. Vaxtı olmur, yoxsa boya və təmir işlərini özü edərdi.

Uşağımızın qız olduğu məlum olandan sonra, onun üçün nəsə toxumaq, mənim ən böyük əyləncəm olmuşdu. Toxuduqlarımı Əlirza görəndə, əlinə alıb bir qədər baxdıqdan sonra deyirdi:

-Səncə bir az balaca deyil?! Mənim qızıma bunlar dar gəlməyəcək?!

Uşaq üçün qarderob və beşiyi anam aldı. Uzun müddət yolunu gözlədikləri ilk nəvə üçün, çox həvəsli idilər. Amma Əlirza deyirdi:

-Anan uşağın əşyalarını almasın. Öz uşağımdır, özüm bacardığım qədər nə lazımdırsa alacam.

Bu söz, anamın xətrinə dəymişdi və deyirdi:

-Biz nəsə alanda, sevinmək yerinə narahat olur, niyə belə edir?!

Hacı Əhməd, ev almaq istəyirdi. İki ailə birlikdə yaşamağa davam edəcəkdi. Biz də kiçik evimizi boşaldıb, Hacı Əhmədin evinə köçdük. Aldığı evin böyük bir otağını bizə verdilər. Mətbəx, qonaq otağı və salon isə müştərək işlənəcəkdi.

Hamiləliyin son günlərində, anam uşaq əşyalarını gətirmək üçün qonaqlıq verdi. Fatimiyyə günlərinə[1] də az qalmışdı. Uşağın əşyalarının önündə, iki toyuq qurbanlıq etdik və təvəssül duası oxuduq. Qonaqlara aş bişirmişdik. Fərqli hədiyyələr gətirmişdilər. Uşaq üçün çaydandan, qızıl üzük, paltar və oyuncağa qədər hər şey vardı.

---

[1] Xanım Fatimeyi Zəhranın şəhadət günlərinə Fatimiyyə deyilir.

Yeməkdən sonra, qonaqlar və bacılarım, əşyaları düzüb otağı bəzədilər.

Qonaqlar gedəndən sonra, Əlirza bir-bir əşyalara baxıb hələ dünyaya gəlməyən qızı ilə danışırdı. Hər şeyi yoxlayırdı ki, qızını incitməsin. Hətta uşaq üçün tikdiyim dəsmalı da bəyənməyib yumuşaq olmadığını demişdi. Sonra da dedi:

-Həkim tapşırıb ki, çoxlu piyada gəzəsən. Bu vəziyyətlə küçədə rahat gəzə bilməzsən. Gəl həyətdə bir az gəz.

Həyət elə böyük idi ki, Hacı Əhmədin oğlu Murtaza, ayaqyoluna velosipedi ilə gedirdi! Əlirza gəlib həyətdə dayanır və deyirdi:

-Tez ol Bənin xanım! Ayağa qalx və gəz!

Bir neçə addım mənimlə gəlib, sonra dayanırdı. Mən yavaş gedəndə deyirdi:

-Tez-tez get pinqivin xanım!

Bu vəziyyət, hər axşam təkrarlanırdı. İyul ayının son günlərində, uşaq çantasını hazırladım. Bir kağıza da vəsiyyətnamə yazıb Quraanın arasına qoydum. İçində Əlirza və ailəmdən halallıq istəmiş və bəzi tapşırıqlar etmişdim. Onlardan biri, məhəllə marketinə 3 min tümənlik borcum idi. Demişdim ki, Əlirza ödəsin. Uşağın ağzına ilk dəyən şeyin, İma Hüseyn (ə) türbətinin olmasını istəmişdim.

Fatimiyyə günləri başlamışdı. Əlirzanın Həzrəti Fatimə (s.a)-a fərqli hörməti var idi. Uşağı da Fatimə adlandırdı.

Fatimənin dünyaya gəlməsinə bir neçə gün qalmış, Əlirza, 2-3 günlük Əfqanistana getməli oldu. Tez qayıdacağına dair söz verdi. Dedi ki, "həkim, uşağın dünyaya gəlməsinə 18 gün qaldığını deyib, mən isə 3 gün sonra qayıdacam." Səhər tezdən, çantasına bir neçə şey qoyub onu yola saldım. Çamadan aparmayanda və əl

çantası ilə gedəndə, tez qayıdacağını anlayırdım. O gedəndən sonra, mən də uzanıb yatdım. İki saat sonra, qorxulu səslə yuxudan dik atıldım. Çox qorxmuşdum. Tez ayağa qalxdım. Murtazanın anası da evdə deyildi. Bildim ki, gələn səs, qonşu evin təmir səsidir. Otağa qayıtdım. Bir az sonra, qapı döyüldü. Yoldaşımın qohumlarından yaşlı bir kişi, arvadı və 12 yaşlı oğluyla Əfqanistandan bizə qonaq gəlmişdi. Onlara çay qoydum. Xoş söhbət insanlar idilər. Amma sancıdan otura bilmədim və otağıma getdim. Bir neçə dəqiqə uzanıb yenə qonaqların yanına qayıtdım. Bir az sonra, özləri halımın yaxşı olmadığını anlayıb, ayağa qalxdılar, "yoldaşına salamımızı çatdır" deyib, getdilər.

Onlar gedəndən sonra, küçənin başındakı marketə gedib oradan anama zəng elədim. Dedim ki, "biri yanıma gəlsin." Məsumə bacım gəldi. Get-gedə halım pisləşir və nəfəsim daralırdı. Bilirdim ki, səsə qorxduğum üçün belə oldum. Hacı Əhmədin xanımı gəldi və uşaq çantasını alıb dərhal xəstəxanaya yollandıq. Əlirza hələ İrandan çıxmadan öncə, Fatimə dünyaya gəldi. Deyilənlərə görə, uşaq dünyaya gələndə, ilk baxışda anasına ya atasına oxşadığı aydın olur. Fatiməni ilk görəndə, atasına bənzədiyini gördüm. Əlirza yanımda deyildi, o vəziyyətdə olan bir qadın üçün, uşağın atasının yanında olmamasından daha pis nə ola bilər?! Səhər Əlirza getdi, axşamüstü, qızı Fatimə dünyaya gəldi. Ürəyim istəyirdi ki, yanımda olsun və nazlı qızını görsün. İlk övladımız, 3 ildən sonra, 23.07.2003 tarixində dünyaya gəldi. Babam, qulağına azan oxudu. Bir neçə gün sonra, Əlirza xəbəri telefonda eşidib və çox sevinmişdi. İkimizin də səhhətimizdən əmin olandan sonra, dərhal irana qayıdacağını bildirdi.

Uşaq artıq 12 günlük idi və hələ onun üçün ad qoyma adətini yerinə yetirməmişdik. Adətə əsasən, adını şokoladlı balaca bağlamalarda, qohum-qonşuya paylamalıydıq. Kağıza, Fatimiyyə günləri və Həzrəti Zəhra (s.a) haqqında bir yazı yazıb, kart düzəltdik. Mətn bu idi:

"Salam olsun sənə ya Fatimeyi-Zəhra! Əziz övladımız Fatimə, dünyaya gəldi!"

Bağlamaları Məsuməyə verdim və o hamısını payladı. Telefonda Əlirzaya dedim ki, uşağın adının şirniyyatını payladım və Fatimə adını yazdım.

Əlirzanın yanımda olmamasının yalnız bir yaxşı cəhəti var idi, uşağın qulağını deşdirə bilmək! Xəbəri olsaydı, mane olar və deyərdi ki, "qızımı incitməyin!"

Özüm uşağı 23 günlüyündə yaşlı bir qadının evinə aparıb qulağını iynə sapla deşdirdim.

**Xatunun xatirə dəftərindən bir yazı:**

Ya pənc Ali-Əba!

Bismillah deyib, kursa yollandım. Ürəyimdə deyirdim:

-Sənə ümidvaram, ey Allah! Şükür ki, belə yığıncaqlara ayağım açıldı və məni buna laiq gördün!

Özün hacətimi ver, çünki səndən başqa heç kimə ümidim yoxdur. Bu günahkar və həqir bəndəni, üzü qara etmə!

Məni, ana olmaqdan məhrum etmə!

İlahi, axı sən bağışlayansan! Bizə nəzər sal və hacətimizi yerinə yetir!

İlahi! Bir an, fərqli dünyada olduğumu hiss etdim. Sanki, gözəlliklər və yaxşılıqlar içində üzürəm!

Buludlar üzərində gəzdiyimi və dünyanın pisliklərindən uzaqda olduğumu hiss edirdim.

Qucağımda gözəl təbəssümlü bir körpə var idi. Körpəylə mən, çox xoşbəxt idik!

İlahi! Şükür sənə, ilahi! Bol nemətlərinə görə şükür! Onu var etdiyin üçün və mənə ana olmaq nemətini verdiyini üçün, minlərcə şükür olsun sənə!

Ey gözəl Allahım! Qələmin aciz olduğu gözəl sözlərimi necə yazım? Dilimin aciz olduğu halda, sənin lütfü-kərəmini necə vəsf edim?! Sanki onunla mən də yenidən dünyaya gəldim!

Axşam otağımda tək olanda, yoldaşımın o anın sevincini mənimlə yaşamasını və üzündəki təbəssümü görməyi arzuladım. Nəzir boyuna aldım və ilk fürsətdə ona zəng elədim.

Ürəyimdə bütün övlad arzusunda olanlara, xəstələrə və duaya ehtiyacı olanlara dua etdim. Həmçinin yoldaşımın səfərdən sağ qayıtmasını, üzünün daim gülməsini və bu gözəl əmanəti evimizə aparmağı Allahdan istədim. İlahi Amin.

# Onuncu fəsil

Artıq Əlirza səfərdən qayıtmalıydı. Geciksəydi, sənədlərində problem yaranacaqdı. Telefonda anama demişdi:

-Uşaq dünyaya gələndə orada olmadığım üçün narahatam. Onu görən ilk şəxs, mən olmalıydım.

Artıq bizim evdə də telefon var idi. Hər dəfə Əlirza zəng edəndə, telefonda uşağın nəfəs almaq səsini dinləyirdi. Fatimə artıq 40 günlük idi. Evin işlərini mən görürdüm və artıq adətə əsasən, uşaq üçün bişirilən "Koççe" aşını bişirməli idim. Bu aş, uşaq 40 günlük olanda və ilk dəfə evdən onu çıxarmaq istəyəndə bişirilir. Koççə aşı, noxud və kəllə paçadan hazırlanır. 40 ədəd buğda və bişmiş noxudu iynə ilə sapa salırıq və uşağı sapın altından keçirirk. Koççə aşını qablara süzüb, qonşu və qohuma göndərdik. Adətə görə, hətta əgər koççənin qabı birdəfəlik olsa, qabı boş göndərmək olmaz. İçinə şokolad, noğul və ya əsginas qoyurlar.

Əlirza, koççə günündə gəlib çatdı. O müddətdə 40 günlük uşağının nəfəs səsləri ilə təsəlli tapan əfqanlı döyüşçü, qollarını açıb 3 kilo yarımlıq balaca körpəsini ilk

dəfə olaraq qucağına aldı. Qucağına uşaq, necə də yaraşırdı! Uşağa da atası yaraşırdı! Mehriban və güclü bir atası vardı. Görünüşü məni qədər dəyişməmişdi. Saqqalı həmişəki kimi az və səliqəli idi. Əlini çəkəndə də daranmış olurdu. Həmin gün üçün tikdiyim sini köynəyimi geyinmişdim. Öncəkindən daha uzunboylu görünürdüm. Amma sevincim çox qısa sürdü. Əlirzanın quru və qanlı öskürək səsi, üç nəfərlik sevincimizi aradan qaldırdı. Ağır vəziyyətli olduğunu uzun müddət gizləyə bilmədi. Üzü qışa gedirdi, amma onun öskürəkləri havanın soyuqluğu ilə əlaqədar deyildi. Allergiyası tutmuşdu, amma həmişəki allergiyadan qat-qat ağır idi. Kabil şəhərinin hava çirkliliyi öz təsirini buraxmışdı.

Əlirza, Fatimə üçün hər iş görürdü. Onu çimizdirir, paltarını dəyişir və çəkinmədən bezini də yuyurdu. İki gündən bir, həyətdəki paltar ipi, kiçik və rəngarəng bezlər və uşaq paltarlarıyla dolurdu. Yatanda, uşağın yerinin rahat olmasını dəfələrlə yoxlayırdı. Kompüterdə alçaq səslə Quraan oxudurdu ki, uşaq onun səsiylə yatsın. Fatiməni, atanın gülü çağırırdı.

Bir gün, Əlirzanın qızdırması çox pis qalxdı. Payız havasında, evin istiliyinə dözmür və həyətdə yatırdı. Vəziyyəti də ağırlaşmışdı və içdiyi suyu da qaytarırdı. Burun çəpərinin əyriliyi, allergiya, çirkli hava, səfərdəki zərərli və ədviyyatlı qidalar, hamısı əlbir olub, onu xəstəxanalıq etdi. Həkim, əməliyyat olmasını dedi. Nəfəs yolu iltihab etmişdi. Sinuslarını əməliyyat etməliydilər. Burun çəpərinin əyriliyi də həmin əməliyyatla yontulacaqdı.

Mənim də halım pis oldu və daha xəstəxanada qala bilmirdim. Anam və qardaşım Rza, xəstəxanada onun yanında qalırdılar. 20 gün çəkdi. 3 nəfərlik ailəmiz, hələ

pis vəziyyətdə idi. Ata xəstəxanada, ana halsız və naxoş, uşaq isə nənə və xalaların qucağında idi.

Əlirza xəstəxanadan çıxanda, çətin pəhrizə başlamalıydı. Ona xatir, süfrəmizi hacı Əhmədgilin süfrəsində ayrıca sərmək istəyirdim. Amma Əlirza dedi:

-Bir evdə olduğumuz müddətdə, eyni süfrəyə əyləşəcəyik. Mən öz pəhrizimin yeməyini yeyəcəm, siz də öz yeməyinizi yeyin.

Bir aydan çox, pəhriz etdi. Üzü çox şişmişdi və hər dəfə dəstəmaz alanda, ağrayırdı. Başını çox tərpətməməliydi. İşə də gedə bilməzdi. Öskürək səsi çox bərk idi və bəzən Fatimə səsə dik atılırdı.

Onun iş görməsinə, ağır bir şey qaldırmasına və çox tərpənməsinə imkan vermirdim. Tutulmuş səslə deyirdi:

-Axı sənin vəziyyətin məndən də pisdir! Sənin özünün istirahətə ehtiyacın var.

Analizə gedəndə ac qarın olmalıydı. Hətta su da içməməliydi. Bu da qızdırmasını qaldırırdı və davamlı ayağını suya qoymalı olurdum.

Bir müddət sonra, Fatimə də qrip oldu. Əlirza deyirdi:

-Qızım da atasıyla eyni dərdi çəkir!

Gecəni səhərə qədər Əlirzanın ayağını suya qoyurdum, Fatiməni də qucağımda gəzdirirdim. Bəzən anam köməyə gəlirdi. Əlirzanın sudurğa keçirməsindən qorxurdum. Özlüyümdə düşünürdüm ki, Əfqanistanın soyuğu və istisindən əldən-ayaqdan düşməyən qüvvətli insan, indi evin bir küncündə ah-nalə çəkir!

Bir müddət sonra, sağaldı və rəngi-ruhu özünə gəldi. Amma çox arıqlamışdı. Zəif və halsız olmuşdu. Qaldıra biləcəyi ən ağır şey, Fatimə idi. Onu da məhəbbətindən qaldırırdı. Yoxsa qolları, bir stulu tərpətməyə və ya balışı qaldırmağa da taqətsiz idi.

Xəstəliyinin əzab-əziyyəti ilə yanaşı, müalicəsinin xərci də bizim üçün ağır idi. O vaxt, işi və gəliri də yox idi. Əlirzanın cəbhə yoldaşı Xodadadi bəy, yaralanmışdı və əlil arabasında gəzirdi. Onun xanımı iranlıydı və sənəd işlərini bizdən daha yaxşı bilirdi. O, iş yoldaşlarına demişdi ki, Əlirza təşkilatın işləri ucbatından bu xəstəliyə yoluxubdur. Buna görə, müalicə üçün bir dəfə cəmi 130 min tümən yardım etdilər. Fatimə üçün hələ qoyun qurbanlıq etməmişdik. Anam, babam və nənəm Kərbəladan qayıtmışdılar. Onları da evimizə dəvət etməliydik. Bizim adətlərə əsasən, kimsə səfərdən qayıdanda və ya yaslı olanda, qohumların hamısı onu bir-bir evlərinə dəvət etməlidir. Bu adətə, ev yolu deyirik.

Artıq 3-4 il idi ki, Hacı Əhmədgil ilə eyni evdə yaşayırdıq. İlk gündən, evin bazarlığını xanımlar edirdi və pul, soyuducunun üstündə olurdu. Kim bazarlıq etsə, həmin puldan götürüb bazara gedirdi. Süfrəmiz, işıq və su pulu, yuyucularımız və demək olar ki, hər xərcimiz bir idi. Yalnız hansısa ailə çöldə yemək yeyəndə və ya özünə nəsə alanda ayrı xərc olurdu. Bu, həmin ailənin öz öhdəsinə olurdu.

Bəzən hiss edirdik ki, hacı Əhmədin ailəsi, daha rahat xərcləmək istəyirlər. Bəzən çöldən kabab almaq və ya çöl yeməyi yemək istəyirlər. Görürdük ki, bizə görə, bir çox istəklərindən imtina edirlər. Evləri ayırmaq zümzüməsi duyulanda, mən də buna mane olmadım. Artıq hər ailənin yolunun ayrılma zamanı gəlmişdi.

Əlirza sağaldı və 1-2 dəfə yenə iş səfərinə yollandı. Maddi durumumuzun çətinliyini, hamı anlamışdı. Hətta bəzən eşidirdim ki, qohum-qonşu deyir:

-Təvəssüli işə getmir axı! Hardan pul tapıb yemək alırlar?! Axı o, həmişə evdədir!

Heç görmürdülər ki, Təvəssüli, 3 ay evdə deyil və yalnız bir ay evdə olmağı gözlərinə batırdı. Amma cihadi işlər dayananda və Əfqanistana da bir daha getməyəndə, söz-söhbətlər daha artmışdı.

**Xatunun xatirə dəftərindən bir yazı:**

Haraya gedirsən?

Haraya gedirsən ey cihad və fədakarlığın ayaqları yalın könüllüsü?

Haraya gedirsən ey eşq yolunda başından və canından keçən?!

Haraya gedirsən? Haraya tələsirsən ey sevdiklərindən bağlarını qoparan?!

Haraya gedirsən atınla, ey əlində bayraq olan?

Haraya gedirsən ey canını önəmsəməyən, güclü döyüşçü?!

Gedirsən, çünki zaman azdır... Odur ki, ayaq yalın qaçırsan!

Tez çatmaq istəyirsən qənimətinə, sənin üçün dəyər və əqidə olan qənimətlərə..

Gedirsən ki, mübarizə və cihadını bir və tək Allah qəbul etsin!

Gedirsən, əslində sən həmişə oradasan, yuxuda və ayıq halda da ruhun oradadır!

Həmişə ruhun oradaydı və cismin burada.

Bir an olsun, oranı unutmadın və bütün zamanlarda oradasan.

Gedirsən və mən bilirəm ki, nə oraya, nə də buraya bağlısan!

Sənin üçün bağlanmamaq asandır...

Gedirsən və bilirsən ki, qaçaraq gedənlər də gec qala bilər!

Cihad atına minmiş gedirsən...

Ümidvaram, zülmə uğramış diyarlarda, İslamın müqəddəs bayrağını, sən və sənintək mücahidlər, mavi səmada dalğalandırsın!

Tarix: 2.10.2001

## On birinci fəsil

Əlirza tam sağalandan sonra, iş axtarmağa başladı. Bir neçə nəfər zəng edirdi. Axırda da Əlizadə bəylə fəhləlik işinə başlamaq qərarına gəldi. Əlizadə də gənc idi və işə təzə başlamışdı. Onun dostu və cəbhə yoldaşı idi. Cihad səfərlərinə də birgə gedərdilər. Fəhləlikdən sonra da bir neçə dəfə birgə Əfqanistana getdilər. Bu səfərlərdə, Əlizadə uşağının paltarını da özüylə aparırdı ki, uşağına darıxanda onu qucaqlasın. Uşağının şəkilini də həmişə yanında tuturdu. Mən də Əlirzaya dedim:

-Sən niyə Fatimənin paltarını və ya şəkilini özünlə aparmırsan? Çox gözəl deyil bir atanın belə etməsi?

Eynəyinin üstündə mənə tərs-tərs baxıb dedi:

-Mən belə hərəkətlər bacarmıram. Düzdür ki, qızımı çox sevirəm və ürəyim gecə-gündüz onun üçün döyünür. Amma belə hərəkətlər etmərəm. Sən özün məni yaxşı tanıyırsan. Belə mənasız hərəkətlər etmirəm.

Əlirza işə özüylə lapatka və digər əşyaları aparmayacaqdı. Yalnız iş paltarı və nahar yeməyini özüylə aparırdı. Bir neçə gün işə gedəndən sonra, dedi:

-Fəhlələrin işi xoşuma gəlmir. Çox vaxtlarını boşuna keçirirlər. Günəmüzd işlədikləri üçün, işi bitirmək yerinə boş-boş vaxt itirirlər ki, gün bitsin.

Bu məsələyə görə, digər işçilərlə mübahisəsi olmuşdu.

Toz-torpaq və mel tozu onun üçün zəhər hökmündə idi və ciyərlərində yenə problem yaranmışdı. 2 həftə işə gedi, 3-cü həftə yatalaq olurdu. Həmin iki həftədə qazandığını da həkimə və müalicəyə xərcləməli olurduq. Davamlı bunu fikirləşirdim ki, Əlirza öz sahəsində necə də faydalı və müvəffəq idi. İndi isə düyü kisəsindəki paltarını və naharını əlinə alıb divar hörür və kərpic daşıyırdı. Bina boyamağa da dostu Məhdəvi bəylə başqa yerə gedirdi. Məhdəvi bəy, Əlirzanın fəhləlikdə çox əziyyət çəkdiyini görüb onu boya işinə apardı. Həm də ona işi öyrədəcəkdi. Məhdəvi günlük 4 min tümən pul verirdi. Bu pulu da çox görürdü və deyirdi ki, "sən indi şagirdsən, şagirdə yalnız get-gəl pulu verərlər." Əlirza həftəfə 24 min tümən pul qazanırdı. Boya işi, fəhləlikdən daha asan idi, amma yenə də ciyərləri əziyyət olurdu.

Evin alverini mən edirdim. Özüm nə lazım olduğunu daha yaxşı bilirdim. Əlirzanın heç vaxtı da olmurdu. Özü də əli aza gəlmirdi. Hər şeydən çox alırdı. Mənə qənd lazım olanda, iki qənddanlıq alırdım. Düyü lazım olanda, ucuz düyüdən tapıb bir kg alırdım. Bir həftənin bazarlığını bir dəfəyə edə bilmirdim. Az gəlirin çarəsi, az-az almaqdır. Nahara nə lazımdırsa, təkcə onu alırdım. Axşam yeməyinə bir neçə kartof və ya badımcan alıb gəlirdim. Amma Əlirza hər şeydən çox alırdı. Yarım kg ət yerinə, iki kg alırdı. Bir kg xiyar və kartof yerinə, 4-5 kg alırdı. Onu əli dolu görəndə, hirslənirdim. ona deyirdim:

-Pulunun hamısını xərclədin?! Hələ həftənin axırına 5 gün qalıb! Sabahı da fikirləş!

Bir yandan iştahı da açılmışdı. Davamlı soyuducunu açıb bir şey götürüb yeyirdi. Allaha şükür edirdim ki, ev kirayəsinə görə problemimiz yoxdur. Yoxsa bir qırıq çörək və bir stəkan su ilə günümüzü keçirməli olardıq!

Bir gün, sini rəngdə uşaq arabasıyla evə gəldi. Deyirdi ki, ikinci əldir, amma təzə görünürdü. Hətta sellofanı da açılmamışdı. Onu, 11 min tümənə almışdı. Bilmirdim deyinim, yoxsa canına dua edim! Amma qarşımızda çətin bir həftə var idi və cəmi 13 min tümənlə yaşamalıydıq.

Uşaq arabası, mənə çox yardım etdi. Onu sürəndə də yaxşı yerdən gedirdim ki, təkəri xarab olmasın. Özü arabanı asfaltdan sürəndə deyirdi:

-Buranı mənim qızım üçün asfalt ediblər. Gör necə də təmiz və qəşəngdir! Fatimə xanıma özəl bir yol!

Avtomobillər, qırmızı işığa görə dayananda, deyirdi:

-Fatimə xanıma hörmət olaraq dayandılar! Fatimə xanım yol keçəndə hamı dayanmalıdır!

Əlirza yeniliklərdən qorxmurdu, amma mən, hər şeyi ölçüb-biçməliydim. Mən davamlı əgər-amma edirdim. O isə riski gözə alırdı. Səfərləri də elə idi. Təşkilatın mədəniyyət mərkəzindəki işləri üçün, Tehrana yollandı. Bu qədər iş təcrübəsinin səmərəsiz qalmayacağına hələ ümidi vardı. Nənəm gəlib gecəni yanımda qalırdı. Əlirza tək qalmağımı istəmirdi, uşaqdan ötrü nigaran olurdu, həm də sübh namazımın qəza olmasını istəmirdi.

Bir axşam, Əlirza Tehrandan Hacı Əhmədə zəng edib dedi:

-İndi hamı Kərbəlaya gedir, gəl biz də gedək!

Ramazan ayının ikinci həftəsi idi. Mənə də dedi ki, "hacıya qoşul sən də gəl!" Mən də dedim:

-Hara gəlim üç aylıq uşaqla?! Üstəlik pulumuz da yoxdur!

Kərbəla səfəri 10 gün çəkdi. Onunla Kərbəlaya getmədiyimə peşman olmuşdum. Qayıdanda da qəfil çatdılar! Gecə yarısı xəbər vermədən gəlmişdilər. Çox təəccüblənmişdik, xəbərsiz olduğuna da çox əsəbləşdim. Biz çöl qapısı üçün parça yazdırmış və hazırlıq görmüşdük. Onlar da dedilər ki, "nə olacaq ki?! Sabah hamı bizi görəcək!" Axşam yeməyi yemədən və çay içmədən gedib yatdılar. İkimiz otaqda tək qalanda əlini uzadıb dedi:

-Tez ol kərbəlayinin əllərindən öp, təbərrükdür!

Əlirza boş vaxtlarını evin bağçasında keçirirdi. Özü müxtəlif güllər alıb həyətə əkirdi. Fatiməyə də qalın paltar geyindirib maneji ilə bağçaya aparıb deyirdi:

-Qızım gəlsin atasının gül əkməyinə baxsın.

Bağçanı da sulayanda, Fatimənin paltarı və maneji islanıb palçığa batırdı. Mən şikayətlənəndə mənə deyirdi:

-Biz torpaqdan yaranmışıq və torpağa qayıdacayıq. Qoy uşaq da torpaqla dostlaşsın.

Fatimənin bir yaş ad günündə, qadın qonaqlığı verdim və Əlirza məcburən küçədə qaldı. Hamı gəlmişdi və qələbəlik idi. Hətta tortdan da ona qalmadı. Fatimə dil açmışdı və şirindilli olduğu qədər, bir o qədər də iştahsız olmuşdu. Əlirza onunla çox vaxt keçirirdi, amma atasına bağlı deyildi. Bəzən səhər yuxudan duranda, görürdü ki, ata yoxdur və gedib. Bəzən bir həftə səfərdə olurdu. Əvvəllər Qum və Tehrana gedirdi. Bir müddət sonra Gonabad, Təbəs və Şiraza da səfər etdi. Orada da bina tikintisində işləyirdi. 1-2 həftə işləyib sonra pis halda evə qayıdırdı.

Fatimənin əziyyəti və ağlaması hər gün artırdı. Qucaq quşu olmuşdu və yerdə qalmırdı. Hamı onu qucağına alırdı, amma mən ona acıqlanırdım ki, özü yerisin. O da

atasına məndən şikayətlənirdi. Əlirza da gülüb nıç-nıç edərək ona deyirdi:

-Məni üzürlü say! O, sənin anandır və mən ona heç nə deyə bilmərəm!

Əlirza, qohumları arasında futbol sevən tək insan idi. Olimpiyatları da həvəslə izləyirdi. Qarşısına bir qab dolu tum qoyub, bir yerə yaslanıb televizorun qarşısında otururdu. İlk on dəqiqədə, tum qabığından bir dağ düzəlirdi.

**Komandirin məktubu:**

Əziz həyat və yol yoldaşım, Ümmül-bənin can!

Mənim həyat daxmamın nurlu işığı! Sənsiz necə də qaranlıqdı o daxma, əzizim, salam!

Aşiq qəlbimin dərinliyindən, sədaqətli salamımı sənə çatdırıram. Eşqim, sınmış qələmin ucundan kağıza axır ki, səndən başqasını düşünmədiyimi sübut etsin! Sən, yeganə şəxssən ki, qəlbimin "bura giriş qadağandır" darvazasından adlamısan və o ərazilərin hamısını öz əlinə keçirmiş, başqalarına yer buraxmamısan.

Mən qəlbimin darvazasına "giriş qadağandır" yazmışdım.

Sənin eşqin gəldi və gülərək dedi: "mən oxumaq bacarmıram!"

Sənin həyatıma gəlişin, mənə öz varlığımı unutdurdu.

Xacə Şirazın dediyi kimi:

Sinəmdəki fəza yarımın eşqilə dolubdur
və hətta özümə də yer qalmayıbdır...

Tarix: 22.10.2001

# On ikinci fəsil

Bir gün, Əlirza Hacı Əhmədə dedi:

-Burada mənlik iş yoxdu, Əfqanistana köçmək istəyirəm. Bəlkə orada iş tapa bildim.

Hacı da dedi:

-Əslində mən də ail-uşağı oraya aparıb bu evi satmaq istəyirəm.

Beləliklə, veşimi yığıb heç ömrümdə görmədiyim vətənimə yollanmalıydım.

Murtazanın məktəbi qurtaranda, Hacı Əhməd, ailəsi ilə birgə Əfqanistana yollandı. O böyük evdə Əlirza, Fatimə və mən tək qalmışdıq. Əlirza fəhləlik və boya işlərinə hələ də gedirdi. Çətinliklə işləyir və bir müddət sonra yenə halı pisləşib evdə yatalaq olurdu. Evdə olduğu müddətdə, psixologiya və ya dini kitablar oxuyur, ya da komputerlə işləyirdi. Bəzən də birgə film izləyirdik.

Bəzən, Kuhsəngiyə[1] gedirdik. İtgin şəhidlərin məzarlığı dağın başındaydı və biz də oraya qədər dırmanırdıq.

---

[1] Məşhəd şəhərində gəzməli dağlıq bölgə

Qürub vaxtı dağ başında olmağa çalışırdıq. Əlirza o vaxtı orada olmağı çox istəyirdi. Bəzən şəhidlərin məzar daşına baxıb deyirdi:

-Bax, Bənin, bu şəhidin cəmi 19 yaşı varmış!

Hətta mən hamilə olduğum vaxtlarda da, qürub vaxtı dağ başında olmaq istəyirdi. Məni o vəziyyətdə dağ başına dırmandırırdı.

Əfqanistana qayıdacağımızı qohumlar bildilər. Əlirza anamı razı salmağa çalışır və deyirdi:

-İndiyədək ailə-uşaqla getmək məsləhət deyildi. Amma indi, iş üçün gedirəm və inşallah vəziyyətimiz yaxşılaşacaq. Bənin və Fatimə olmadan, orada qalmaq çətin gəlir. Onların yanımda olmağı, mənə güc-qüvvət verir.

Özüm də getmək istəyirdim, amma bir yandan da nigaran idim. Tək təsəllim, artıq bir ailə kimi bir yerdə yaşayacağımız idi. Əfqanistanda artıq əmn-amanlıqdı. Əlirza mənə Əfqanistandakı Cəbrayıl bölgəsindən danışırdı. Onların qohumlarının çoxu, Hərat şəhərində həmin məhəllədə qalırdı. Məhəllə, Hərat avtovağzalına yaxın idi. Mənə orada yaşamaq xəyalları, xoş təssürat bağışlayırdı. Həmin məhəllədən nağıl etdiyi gözəlliklər və aramlıq, İrandan və ailəmdən ayrılmağı asanlaşdırırdı. 15.09.2004 tarixində, sübh namazından sonra, avtomobillə Əfqanistana yollandıq. Anam və bacılarım gözləri yaşlı qaldı və biz oradan uzaqlaşdıq. Hətta səbrilə tanınan nənəm, çox narahat idi. Mən, vətənə olan həsrət və özləmi, anamla atamın gözündə görə bilirdim. Baxmayaraq ki, həmişə deyirdilər:

-Heç vaxt oraya qayıtmayacayıq.

Hamıdan çox, nənəm vətənə üz döndərmişdi. Gənclikdə orada çəkdiyi qəm-qüssəsini hələ unuda bilməmişdi.

Yolda, Əlirza davamlı sərin meyvə suyu və dondurma alırdı. Deyirdi:

-İç, yoxsa istidən qarın ağrısına düşərsən!

Nahar yeməyimizi, anam hazırlamışdı. Yolda avtomobilin içində yedik. Bir neçə dəfə yolda düşün əl-üzümüzü yuduq. Əlirzanın susuzluğu aradan getmirdi. Buzlu su alıb başına çəkirdi.

Yolda, mənə qardaşı uşaqlarından danışırdı. Orada su və elektrik olmadığını və insanlar balon qazın üstündə yemək bişirdiyini deyirdi. Özü ön oturacaqda oturmuşdu, biz isə arxada. Sürücü Əfqanistanlıydı və bizim adətə görə, kişinin arxada oturmağı yaxşı deyil.

Gömrükdən keçəndə, ürək döyüntülərimin səsini eşidirdim. 4 gözlə hər tərəfə diqqətlə baxıb, vətənimin bütün ayrıntılarını yadda saxlamaq istəyirdim. Doğma vətənimin bəxş etdiyi aramlıq və təskinliyi bütün vücudumla hiss edirdim. Fəxr edərək həvəslə hər tərəfə baxırdım. Yolda, 8-9 yaşlı uşaqlar, yolumuzu kəsib pul almaq üçün yalvardılar. Gömrüyün metal zəncirlərini adladıqdan sonra, rahatlaşdım.

Eşitmişdim ki, o metal zəncirləri adlayandan sonra, artıq vətəndəsən. Baxmayaraq ki, yoxsulluq, müharibə, xəstəlik və təhlükə var, amma vətəndə özünü daha rahat hiss edirsən. Artıq heç kim sənin oturma icazəni soruşmur, sənəd işləri sənə problem yaratmır və orada əfqanlıları tutub aparan yoxdur. Fikrinin rahat olması, ən dəyərli duyğudur. Vətəndə, artıq fikrin rahat və arxayındır. Baxmayaraq ki, müharibə hələ davam edir.

Zənnimcə, bu, Əfqanistan torpağının xüsusiyyətidir ki, insana təskinlik bəxş edir. Bir qaçqının gördüyü ən rahatlıq bəxş edən torpaq, öz vətəninin torpağıdır. Hətta əgər ömrünün 25 ilini başqa ölkədə keçirmiş olsa da...

Qəzəni, Qəndəhar və Vurdək şəhərlərini adladıq. Keçdiyimiz yolların hamısı daş-qayalıq və asfalt olmayan yolla idi. Düz yollar, İranda qalmışdı. Evlər, saman və palçıqdan hörülmüşdü. Bəzi nisbətən yaxşı yerlərdə, evlər kərpicdəndi. Günün sakit vaxtında məqsədə çatdıq və küçədə heç kim yox idi. Sünnülərin yaşadığı bölgələrdən də keçdik. Əlirza, adladığımız hər bölgəni mənə dəqiq tanıtdırırdı. Mən, həmişəki kimi, qara çarşab taxmışdım. Əlirza da əfqan geyimi geyinmişdi. Əfqanlı qadınlar, Borqe çarşabı taxırlar. Onu tikmək üçün, 7 metr ipək parça lazımdır və tikişində incəsənət məharətləri də istifadə olunur. 7 metri incə şəkildə büzürlər və baş hissəsinin eni bir papaq qədər olur. Borqe çarşabı, rəngarəng olur, amma ən çox istifadə olunan rəng, açıq kül rəngidir.

İrandan gedənlər, həmin qara çarşabla tanınırlar. Hərat sakinləri dindarlardılar və şəhərdə sünnü ilə şiə bir arada yaşayır. İki məzhəbin arası da yaxşıdır. Bu şəhərin sakinləri, əslən əcəmi və aryanlıdırlar. Havası da təxminən Məşhəd kimi qurudur. Məsafəsi Məşhədlə çox deyil. İranın Məşhəd şəhərindən Hərata, 6 saatlıq yoldur. Hərat, əfqanlı mühacir şiələr üçün Məşhəd kimidir. Mühacirlərin çoxu da Cəbrayıl məhəlləsində yaşayırlar. Sentyabr ayının istisində çölə çıxan az sayda insanları diqqətlə izləyirdim. Avtomobil irəliləyirdi, amma Əhməd Abada çatmaq bilmirdi! Nəhayət avtomobil, kərpiclə tikilmiş bir evin qarşısında dayandı.

Hacı Əhmədlə xanımı, bizi o evdə gözləyirdilər. Nahar da hazırlamışdılar. Evə girəndə, hər yerin toz-torpaq olduğunu gördüm! Xalaçalar, mətbəx, nalçalar və hər yer toz içində idi! Evin neçə aydır süpürülmədiyini düşünürdüm. Ev 75 kvadrat metrlik idi. Mətbəxi mebelsiz idi və içində sink, qaz və balon var idi.

Nahar yeyib, sonra da çay içdik. Hava, çox isti idi. Evdə su ilə işləyən sərinkeş var idi. Nahardan sonra, küləyin səsi ucaldı. Həratın 120 günlük küləyi məşhurdur. Külək dayanmadan əsirdi və özüylə toz-torpağı gətirirdi. Elə külək əsib toz-torpaq bürüdü ki, artıq göz-gözü görmürdü! Evin o qədər tozlu olmasının səbəbini artıq anlamışdım. Anladım ki, burada ev süpürmək, mənasızdır. Küçə, prospekt və həyət toz-torpaqla doluydu və hər dəfə külək əsəndə, toz-torpaq evə də girirdi. Küləyin yaxşı cəhəti budur ki, oranın həşəratını öldürür və adamın canı onlardan və zəhərlərindən dincəlir. Evlərin hamısında, su quyusu vardı və suyu motorla çəkib tanka doldururdular. Tank da, turbayla mətbəxə qoşulmuşdu. Həyət, mozaika daşları yerinə, sementlə döşənmişdi. Hacı Əhməd də həmişəki zarafatcıl halıyla dedi:

-Gördün ki, bura daha yaxşıdır?! Belə gözəllik heç görmüşdün?

Əlirza da sevincli idi və qürur hissi duyurdu. Evimin rahatlıq və aramlığını buraxıb, onunla yaşamağı tərcih etməyim və məhz ona xatir, hər yerə getməyə razı olmağım, ona xoş təssürat bəxş etmişdi. İkimiz də qorxularımıza qələbə çaldığımız üçün, nəticədən razıydıq. Əlirza daim belə deyirdi:

-Hər şeyin qorxusu, özündən daha pisdir!

Qəmsiz gülərüz insanlar, rəngarəng geyimlər, laklı dırnaqlar, sadə yeməklər, toz-torpaqlı yollar və kərpicli evlər mənə sevimli və şirin gəlirdi. Uşaqların əlində, istər küçədə və ya evdə, həmişə bir tikə çörək vardı. Əlirza deyirdi:

-Buradakı uşaqlar daha aktivdilər. Ya oynayır, ya da işləyirlər. Buranın suyu-torpağı da təmiz və pakdır. Hər şey tez həzm olur və adam tez-tez acır.

Əlirza tez işə başladı. Təzə tikilmiş bir şəhərcik vardı. Suyu və torpağına əl dəyməmişdi və təmizdi. Torpağı Hacı Əhməd və onun şəriklərinin idi. Orada bina evləri tikməyi planlayırdılar. Sənəd və idari işlərini Əlirzaya tapşırmışdılar. səhər gedib, axşam gəlirdi. Həmişə də əlində bir neçə çəllək təmiz suyla gəlirdi. Evin quyusu mel dadı verirdi və ondan içmək olmurdu.

Hacının xanımı İrana qayıtmalıydı. Məktəblərin açılışına az qalmışdı. Bir gün mənə dedi:

-Buranın bazarlarının qiymətləri yaxşıdır. Malları da çox fərqlidir. Gəl birgə gedək, mən hədiyyəlik parça alacağam. Belə, mən bazara tək getmiş olmaram, sən də bazarın yolunu öyrənmiş olarsan.

Hərat əhalisi, tacirdirlər və mağazaları heç vaxt boş olmur. Hər mağazada da, hər şey tapmaq mümkündür. Parçaları, ayrı-ayrı düzmürlər. Hamısını bir yerə üst-üstə atırlar.

Rəngarəng parçalar gördüm. Gipur, atlas, məxmər, kəşmiri parça və misilsiz qara parçalar vardı. Mən heç nə almadım, amma İrana gedəndə hədiyyə aparmağa bəzi parçaları yadda saxladım. Borqe çarşabı taxan xanımlar, bazarda gəzirdilər. Fatimə onları görəndə qorxurdu. Qulağıma deyirdi:

-Ana, oğru!

Bir xanım onu eşitdi və çarşabını qaldırıb bizə təbəssüm etdi. Orada qərib olduğumuzu anladı. Əlirzaya Fatimənin qorxduğunu deyəndə, dedi:

-Yazıq uşaq haqlıdır! Əli, ayağı və üzü olmayan bir şeyin yeridiyini görür! Qorxmayıb neyləsin uşaq?!

Əlirza balon qaz, suqızdıran və quyu motorunun necə işlədiyini mənə göstərdi. Atamın qohumu, bizə qonşu olan Həlimi bəyin ailəsi ilə get-gəl etməyə başladıq. Onun iki

arvadı vardı. İkisi də eyni evdə yaşayırdılar. İlk arvadının gəlini və kürəkənləri , ikinci arvadın isə, azyaşlı 5 uşağı vardı. Evimizin soldan qonşusu isə Əkvan bəy idi. O, varlı və tacir kişi idi. Əkvan bəy, 3 oğlu və gəlinləri ilə birgə yaşayırdı. Onun gəlinlərindən biri, Leylanın bacısı idi. Toyumuz eyni günə düşən həmin Leyla. Qohumlarımız, bir-bir bizi görməyə gəlirdilər. Hadi əmi, Baqir əmi, Sara bibi və Əlirzanın qardaşı uşaqları yoldaşları ilə birgə bizə gəlib sonra da evlərinə dəvət edirdilər.

Hava, üzü qışa gedirdi. Anama çox darıxırdım. Fatimə də darıxırdı. Davamlı deyirdi:

-Nənəmgilə gedək!

Ona deyirdim:

-Nənəgil çox uzaqdadır!

O isə cavabımda deyirdi:

-Qaça-qaça getsək, tez çatarıq!

Anamın səsi, ağlımda əks-səda edirdi. Hətta bəzən məni səslədiyini hiss edirdim. Arxama dönüb baxanda, görürdüm ki, məni səsləyən yoxdur!

Kimsəsizlik, çox əzabverici idi. Hələ də maddi durumumuz düzəlməmişdi. Baxmayaraq ki, Əlirza işləyirdi. Amma gəliri yox idi.

Bir müddət sonra, ikinci uşağa hamilə olduğumu hiss etdim. Ginekoloqa müraciət etdim. Həkim, pəncabi[1] geyinmişdi və Hərat ləhcəsilə danışırdı. Pəncabinin üstündən də, ağ uniforma geyinmişdi. Klinikası, imkanlı idi. Ödənişi də çox bahaydı. Leylanın bacısı Zəhra dedi:

-Bu həkim, İrandan təzə gəlib! Acığını da xəstələrə tökür!

Analizin cavabını həkimə göstərəndə dedi:

---

[1] Yerli geyim. Enli şalvar və dizdən olan köynək.

-Xanım, sən hamiləsən!

Evə qayıdanda, axşam olmuşdu. Əlirza nigaran halda məni qarşıladı. Əlimdəki şirniyyat qutusunu görəndə, nigarançılığı sevincə dönüşdü. Hadi əmi ilə eltim, hamilə olduğumu öyrənəndə, ev işlərində mənə kömək etmək üçün oğulları Xadim  Hüseyni bizə göndərdilər. Xadim Hüseyn, 4-cü sinif şagirdi idi. Zirək, qıvraq, cəld, işgüzar və ədəbli uşaq idi. Həm də çox utancaq və mehriban idi. Əlimi, ağdan-qaraya vurmağa imkan vermirdi. Evi süpürür, qabları yuyur, bazarlığa gedir və Fatimə ilə oynayırdı.

Qış girəndə, yanacaq olmadığı üçün, Hərat məktəbləri tətil olur. Bu səbəbdən, uşaqlar, yay fəslində məktəbə gedir. Xadim Hüseynin məktəbi də tətil idi. Əlirzaya dedim:

-Yazıqdır bu uşaq, mənim çox da işim yoxdur. De ki, gəlməsin.

Əlirza nıç-nıç edib dedi:

-Bizim xatuna yaxşılıq yaramır! İnsanlar, sənə yaxşılıq etməyə çalışırlar, sən isə, uşaq gəlməsin deyirsən!

Əlirza, ikinci uşağın gəlişinə sevincli idi. Onu, Əfqanistanın düşərgəli olmasına bağlayırdı. Mənə deyirdi:

-Vətənimizin necə də düşərgəli torpağı var! Heyif ki, müharibədir. Müharibə olmasaydı, yaşamağa dünyanın ən yaxşı yeri olardı. Buranın torpağı, sənin pis niyyətinə qarşı çıxdı!

Əslində, uşaqların arasında bir neçə il fasilə olmasını düşünmüşdüm ki, Allah məsləhət bilmədi. Əlirzanın da pis niyyət dediyi bu idi.

Anama tez-tez zəng edirdim. Özüm üçün xırda pul yığıb Xadim Hüseynə verirdim ki, mənə kontur alsın. Orada o qədər evdə qalmışdım ki, bazara necə gedəcəyimi

bilmirdim. Bir dəfə yumurta almağa gedəndə, satıcıdan bir kg yumurta istədim. Satıcı da gülüb soruşdu:

-İranlısan?

Sonra anladım ki, orada yumurtanı ədədlə satırlar, kilo ilə deyil. Amma çox şey də İrandakı kimi idi. Hətta bəzi markalar, İrandan gəlirdi. Çox vaxt Əlirza ilə qardaşı evindən qayıdanda, birgə bazara gedirdik. Hacı Əhmədin avtomobilini sürürdük. Əlirza mənə deyirdi:

-Sən xatun kimi avtomobildə əyləş, nə istəsən, mən sənə alıb gələrəm.

Əlirza, qohumları və qardaşları ilə eyni ölkədə yaşadığı üçün özünü yaxşı hiss edirdi. Rəngli geyimlər geyinən qohumdakı azyaşlı uşaqları görəndə üzü gülürdü. Bəzən işdən qayıdanda, özüylə 8-9 nəfər azyaşlı uşaq da evə gətirirdi. Onlar, qardaşlarının oğulları və nəvələri idilər. Yol üstü onları avtomobilinə mindirib, tətil olduğunu bəhanə edərək onları evə gətirir və əyləndirirdi.

Uşaqları evə gətirəndə, onlara yeməli şeylər verməyi də unutmurdu. Yol üstü meyvə alırdı, ya da makaron və kartof qızartmağımı istəyirdi. Həftə sonları, süfrəmizin ətrafı uşaqla dolu olurdu. Əlirza da, ən az uşaqlar qədər əylənirdi. Uşaqların anası icazə versəydi, hər gün bizə gələrdilər! Gecə bizim evdə qalanda, yastıq azlığını paltar boğçasıyla həll edib, hamısını xalça üstündə yatızdırırdıq! Uşaqlar, bacarıqlı idilər, özləri hər iş görə bilirdilər. Mən yalnız yemək hazırlayırdım. Bizim onlara yer sərmək və ya yer yığmağımıza macal vermirdilər və hər işi özləri edirdilər. Fatimə də evdə bu qədər uşaq görəndə, çox sevinirdi.

Ramazan ayı gəlib çatmışdı. İmsak hazırlıqlarını Əlirza edirdi. Çay süzür, yemək qızdırır, süfrəni də sərib, sonra məni oyadırdı. Elektrik olanda, televizoru da yandırırdı.

İmsakı həmişə az və tələsik yeyirdi ki, azandan öncə ibadət edə bilsin. Səhər duası, Ziyarəti-Aşura və Əbə Həmzeyi Sumali duasını oxuyurdu.

Krosnu, rahat və keyfiyyətli şəkildə dalğaları tuturdu. Amma onu İrana tənzimləmişdik. Ailələrin əksəri, xüsusilə də Ramazan ayında, İran televiziyasını izləyirdilər. Baxmayaraq ki, İran televiziyası, il boyu heç bir dəqiqədə əfqan ləhcəsilə bir şey yayımlamırdı!

Bəzən qonaqlıq və ya iftara dəvət olduğumuz vaxtlarda, krosnuda digər verlişləri də görürdük. Xəbərlər, puştu dilində olurdu. Mən o dili anlamırdım, amma Əlirza anlayırdı.

Bir gün bələdiyyədən evimizə gəlib dedilər ki, qaldığımız ev, tikiləcək olan yola mane olub və sökülmədən əvvəl boşalmalıdır. Davamlı evə xəbərdarlıq göndərilirdi və bəzən elektriki də kəsirdilər. Məcburən Hacının evini boşaltdıq. Başqa çarə yox idi. Əlirza, Həlimi bəyin yanına gedib, ona dedi:

-Mənim xanımım, qohumluqla yanaşı, sizin ailə ilə çox dostlaşıb. Mümkünsə evinizdə bizə bir otaq verin.

O da böyük və geniş evindən bizə bir otaq verdi. Otağın bir guşəsinə yorğan-döşək və qab-qacağımızı düzdüm. Bu, Həratda qaldığımız ikinci ev idi. Qonağımız olanda da, həmin otaqda qarşılayırdıq. Əlirzanın kişi qonağı olanda, evin başqa otağında otururdular.

Əlirza axşam olmadan evə qayıdırdı. Hava soyuq idi, həm də axşamlar get-gəl qadağan idi. Yollarda və küçələrdə elektrik kəsilirdi və qaranlıq olurdu. Nəticədə, qaranlıq olmadan hamı evinə qayıdırdı. Zəruri işi olanlar da, əlkin və ya fənərdən istifadə edirdilər. Əlkin, elektrikli fənər idi. Keçmiş zamanda, əlkin də neftlə işləyirdi. Gecələr Fatiməni həyətdəki ayaqyoluna aparanda,

əlkindən istifadə edirdik. Divardakı kərtənkələlər, işıqdan qaçırdılar. Bəziləri yerində qalanda, Fatimə qorxurdu.

Həliminin ailəsi, çox qonaqpərvər və mehriban idilər. Bəzən dadlı turşu qoyub, mənə də bir qab verirdilər. Evdə yemək bişirəndə də, mənə bir qab yemək və turşu verib deyirdilər:

-Burada özünü özgə kimi hiss etmə.

Mənə müxtəlif əfqan yeməkləri gətirirdilər. Amma bozbaşdan acığım gəlirdi. Yağlı bozbaşlar, xoşuma gəlmirdi. Hamı da yalnız bozbaş yeyirdi. Biz də sevmədiyimizi deməyə utanırdıq. Bozbaşdan elə iyrənmişdim ki, kimsə evinə bozbaşa dəvət edəndə, getmirdim. Əlirzanın qardaşları və qardaşı uşaqları isə, bozbaşı sevmədiyimi bilirdilər.

İrana çox darıxırdım. Əlində çamadan olan yolcu görəndə, ürəyim əsirdi. İmam Rza (ə) ziyarətinə və hərəminə çox darıxmışdım. Bu şövqün tək əlac yolu, məktub yazmaq idi. İrana get-gəl çox idi və məktubu aparan tapmaq olurdu. Bacılarım da bəzən məktub yazırdılar.

**Bir məktub:**

Ən isti salamlarımı sizə göndərirəm, əzizlərim Fatimə atası, Fatimə anası və canım Fatimə!

Ümidvaram ki, canınız sağ və sağlamdır. Bizim halımızı da bilmək istəsəniz, Allaha şükür, Allahın lütfü və İmam Rza (ə) sayəsində yaxşıyıq və canınıza dua edirik.

Sən necəsən? Buradan getdiyin gün, yaxşı deyildin. Özünü pis hiss edirdin. De görüm, indi necəsən? Oranın insanlarına, havasına-suyuna və yalnızlığa öyrəşə bildin?

Orada, nə çətin gəldi və nə asan idi, hamısını bilmək istəyirəm!

Balaca Fatimə, nənə-babasından uzaq qalmağa necə öyrəşdi? Xalaları və dayısına darıxır, ya yox? Heç demir ki, babamın mağazasına aparın məni? Buraya darıxıb ağlamır? Əgər ayrılığa və bizsizliyə öyrəşibsə, şükür! O, yaxşı olsa, biz də yaxşıyıq. Biz hər gün sizi xatırlayır və tez qayıtmağınıza dua edirik. Məktubumun cavabında, nə vaxt qayıdacağınızı yaz. Artıq gecdir, imsaka durmaq üçün, tez yatmalıyıq. Yeri gəlmişdkən, orada Ramazan ayı necədir? Bizi də dualarınızda unutmayın.

Allah amanında qalın və görüşmək ümidiylə.

Raziyə

Gecə saat 11.48

Tarix: 8.10.2005

## On üçüncü fəsil

Bir gün Əlirza gəlib dedi:

-Fitir bayramı tətili üçün İrana gedirik.

Sanki dünyalar mənim olmuşdu! Elə sevindim ki, ixtiyarsızca ağlamağa başladım. O da başını silkələyib dedi:

-Ay xatun! Elə ağlayırsan, elə bil ki, burada səni əsir tutmuşduq! Qayıtmağa necə də sevindin! Nə xəbərdir?! Ailəsindən uzaq düşən ilk insan sən deyilsən. Bir səfərə getmişdin və indi də qayıdırsan. Get veşini yığ.

Səfərimizə qalan bir həftəni, bayram qabağı insanların sevincini izləməklə keçirdim. Hamı bayram təmizliyi edir və bayrama təzə paltar tikirdi. Xadim Hüseynin bacısı, məharətli dərzi idi. Cəmi 15 yaşı var idi, amma işi çox təmiz idi. Özü üçün tikiş maşını almış və ailəsi ilə qohumlara rəngarəng geyimlər tikirdi. qoz-fındıq və şirniyyat bazarı da adamla qaynayırdı.

Əfqanistanda, insanlar, bir ilə nə qədər pul xərcləyirsə, Fitir bayramında da bir o qədər pul xərcləyirlər. Ən böyük qonaqlıqlar, Fitir bayramı qonaqlığıdır. Böyük süfrələr

sərilir, qoz-fındıq və müxtəlif şirniyyatlar düzülür və qonaqlar dəvət olunur.

Əlirza, soğan qabığı rəngdə bir parça alıb, kişi dərziyə verdi ki, onun üçün əfqan köynək-şalvarı tiksin. Paltarı dərzidən alıb geyinəndə, qardaşı oğlu Mustafa ona dedi:

-Qollarının rəngi niyə ayrıdır, əmi?!

Bir qol, başqa parçayla dəyişik düşmüşdü və rəngi çox bənzər olduğu üçün biz də anlamamışdıq.

Hərata getdiyimiz gündən, əfqan geyimini əynindən çıxarmadı. Əfqan geyimindən 2-3 dəst varı idi və rəngləri açıq olduğu üçün, tez-tez dəyişirdi. Parçalarının materialı elə idi ki, sabunla təmizlənir və tez parlayırdı. Həm də asan ütülənirdi. Əlirza ütülənməmiş paltar geyinmirdi. Mən, bayrama paltar almadım. Mənim bəyəndiklərim, baha idi. Ucuz olanlar da, ya ölçüsü düz gəlmirdi, ya da xoşuma gəlmirdi. Hamiləliyi bəhanə edib dedim:

-İndi paltar istəmirəm. Sonra alarıq.

Pəncabi pencək-ətək dəsti bəyənmişdim və qiyməti 120 min tümən idi. Maddi durumumuz, bunu almağa imkan vermirdi. Nağd və müəyyən maaşımız da yox idi. Əlirzaya bir neçə ay işlədikdən sonra maaş yerinə, bir hissə torpaq vermişdilər. Günlük lazım olanları da çətinliklə alırdıq. Əlimizdə düz-əməlli bir pulla qayıtmaq arzusu çin olmadı.

Yüngül bir çamadanla, İrana yollandıq. Məşhədi yenidən görmək, çox gözəl duyğu idi. Ailəmə danışacağım çox əhvalatlar vardı. İkinci uşağımızın yolda olması, iki arvadı və çox sayda uşağı olan qonşunun evində yaşamaq, Əlirzanın iş həyatı və vətən haqqında bilmədiyimiz yeniliklər haqqında danışmağa həyəcanlıydım. İranda gözümə dəyən ilk divar yazısı, "əssəlamu əleyki ya Məsumə" idi. Göz yaşlarım axmağa başladı. Bu yazılara darıxmışdım. Həratın divarlarında belə yazılar olmurdu və

mağazalarla taksilərdən daha çox əfqan mahnıları eşidilirdi. Əlirza, soyuqqanlıydı. Geri qayıtdığımıza məni qədər həyəcanlı deyildi. Səfərindən faydasız olmağına narahat deyildi. Heç nə planladığı kimi irəliləməmişdi, amma aram görünürdü. Hələ də vəziyyətimizin yaxşı olacağına ümidi vardı. Gömrüyü keçəndən sonra mənə dedi:

-Bax, Məşhəddə bir müddət qalandan sonra, geri qayıtmaq istəyəndə inad etmə! Həmişəlik qalmağa anana boş ümidlər vermə! Bayramı ailənlə keçir və sonra yenə qayıdacayıq!

İstəyirdim deyəm ki, "güya nə fərqi var?! Evimizdən didərgin düşüb qonşu evində qalmaqdan başqa, səfərin nə xeyri oldu? Daha da pis vəziyyətdə geri qayıdırıq, üstəlik ikinci uşaq da yoldadır! Bu səfərin bizə xeyri olmadı!"

Biz, əlimizdən gələni edirdik, amma gerisi Allahın əlindəydi. Əlirzanın razılıq və təslimiyyətini göründə, mənim də ürəyim rahatlayırdı. Özlüyümdə düşünürdüm ki, Bu kişi və bu mehriban təbəssümlər olduğu müddətcə, pulumuz olmasa da, arxa-dayağım var.

Mən ona güvənirdim. O da Allaha güvənirdi. Sanki dünya da mənimlə həmfikirdi ki, o, fəhləlik üçün doğulmamışdı! Bir ömür mücahid və döyüşçü olan biri, birdən necə həyat onu fəhlə edə bilərdi?! Əlirzanın bacardığı ən yaxşı şey, komandirlikdi. Amma artıq onu etməyə macal yox idi. Bir az dincəlib anamla söhbət etdikdən sonra, Əlirza məni səslədi və hərəmə getmək üçün hazırlaşmağımı istədi. Yolda düşdük və uzaqdan İmam Rza (ə)-ın qızıl günbəzini görəndə, hönkür-hönkür ağlamağa başladım. Yenə hərəmə gəlmək qismət olduğuna sevincdən ağlayırdım. Əlirza məni sakitləşdirməyə çalışır və yerə yıxılmamaq üçün qolumdan tutmuşdu.

Fitir bayramının tətilini 2-3 həftə uzatdıq. Qohum evinə gedib hərəmi də bəzən ziyarət edirdik. Axşamlar, bir arada oturub söhbət edirdik. Mən onlara Əfqanistan əhvalatından, anamla bacılarım da İranda baş verən yeniliklərdən danışırdılar. Anbardakı veşlərimizi çölə töküb, yenidən səliqəylə yerinə yığdıq. Bəzi şeyləri atdım və digərlərini də özümlə Əfqanistana aparmağa kənara qoydum.

Bəzi günlər, Əlirza yox olurdu. Səhər evdən çıxırdı və bir daha tapılmırdı. Axrıncı həftəni, səfər hazırlığıyla keçirdik. Bir neçə kg tərəvəz aldıq. Xüsusilə də Əfqanistanda tapılmayan tərəvəzlərdən. Əfqanistandan daha ucuz olduğu üçün, bir qutu yumurta da aldıq. Bir neçə balıq kanservası, yuyucu toz və qış paltarı da götürdük. Əlirza çox tapşırmışdı ki, qış paltarlarının hamısı götürüm, hətta rəngi qaçmış koftaları da! Həratın qışı, soyuq və amansızdı. İrandakı kimi də yanacaq və peç yox idi. Qaz qəti şəkildə yoxdu. Yalnız peçə qoşulan balon tapmaq olurdu. Bəzən evin içində iki qalın şalvarı üst-üstə geyinirlər. Jaket və kurtka da tək çöldə geyinilmir və evin içində də geyinirlər. Soba evi qızdırır, amma ona odun tapmaq çətindir. Üstəlik tüstüsü də pisdir. Belə bir qış üçün, hazırlıqlı olmalıydıq.

Əlirzanı çox az görürdüm. Bir dəfə Raziyə bacımın evində Əlirzayla aramızda mübahisə yarandı. Amma ondan başqa aramızda söz-söhbət olmadı. Orada da günah məndə idi. Bayram paltarım olmadığı üçün, bacımın krem rəngdə ipək köynəyini geyinmişdim. Qonaqlara çay verəndə, qolum köynəyin altından görünmüşdü. Bir neçə dəqiqə sonra, məni otağa çağırdı. İçəri girən kimi, qolumu möhkəm çimdiklədi. Qolum çox ağramışdı. Sonra da dedi:

-Sənə çox lazımdır ki, bu köynəklə qonaqlara çay verəsən?! Ev yiyəsisən ya qonaq?!

Ona dedim:

-Qolumu tək sən görmüsən. Sən çox diqqətlə baxırsan. Başqa kimsə fikir verməyibdir.

Otaqdan əsəbi halda çıxdı. Mən də narahat idim. Əlimdə izi qalan çimdiyə görə deyil, onu əsəbləşdirdiyimə görə narahat idim. Qonaqlığın axrına kimi, mətbəxdə yardım edib oradan çıxmamağa çalışdım.

Artıq Əfqanistana qayıtma vaxtı gəlib çatmışdı. Anam çox nigaran idi. Anam Əlirza, mən, Fatimə və yolda olan balaca üçün qəmlənmişdi. Həmişəki tapşırıqlarını etdi və sonra daha yaxşı günlər ümidiylə Əfqanistana yollandıq.

Bu dəfə, Həlibi bəyin evindəki otağa kirayə ödəməyə başladıq. Aylıq 5 min tümən kirayə ödəməyə anlaşdıq. Süfrələrimiz ayrı idi. Hacı Əhmədin evindəki kiçik soyuducu və qaz balonunu da otağa qoyduq. Mətbəxdəki qazdan istifadə etməyə icazə vermişdilər, amma mən öz otağımızda qaz balonuyla yemək bişirirdim. Belə, otaq da isinirdi, mən də daha rahat idim. Qaz balonunun altına bir parça sərmişdim və o parça mənim mətbəxim olmuşdu. Yanında da qab-qacaq və ayran çəlləyi vardı.

Əlirza səhər gedib, axşam qayıdırdı. Evdəkilər də belə rahat olurdular. Evdə qadın və qız çox idi. Hər arvadın 4 qızı və 1 oğlu vardı. Hacı Həliminin bir arvadı, qumlu idi. Hacı, illər öncə, Əlirzayla dost idi və birgə Kərbəlaya getmişdilər. Gecələr oturub söhbətləşirdilər. Xadim Hüseyn də həftə sonları bizə gəlib baş çəkirdi. Digər qohumlar nadirən bizə gəlirdilər, daha çox biz onların evinə gedirdik. Həlimi bəyin ilk arvadı, Bolanı[1] bişirəndə,

---

[1] Xəmirlə hazırlanan əfqan yeməyi

məni də köməyə çağırırdı. Bir gün əvvəl deyirdi ki, "sabah bolanı bişirəcəm, sən də yemək bişirmə. Köməyə gələrsən."

Xəmiri hazırlayıb, tərəvəzlə kartofu nazik xəmirin arasına qoyub yağda qızardırdı. Bolanını bişirəndə, mütləq iki nəəfər köməkləşməlidir. Yoxsa, yanmış yağın iyi hər tərəfi bürüyəcək və bolanılar da yanacaq.

Hacı Həliminin arvadlarının əlaqəsi bir-biriləri ilə yaxşı idi və yola gedirdilər. Orada olduğumuz 4 ay müddətində, nadirən mübahisə etdiklərini gördüm. Bir dəfə, qızlarının ad gününə görə mübahisə etdilər, amma biz qarışmadıq. Əlirzaya deyirdim:

-Bax, iki arvadlı olmaq belədir!

O da gülüb deyirdi:

-Yox, bəzən də həyatın dadı-duzudur!

Soyuducumuz, elektriklə işləyirdi. Elektrik də davamlı kəsilib qoşulduğu üçün, soyuducu iylənməyə başladı. Anama yazdığım məktubda ona dedim ki, mənə soyuducuya qoyulan qoxuya qarşı kapsul alıb göndərsin!

Əlirzanın hesabatı düzgün irəliləmirdi. Hadi əmi də deyirdi ki, "Əlirza nə qədər qaçırsa, daha da az əldə edir!" Daha oranın çətin şəraitinə dözümü qalmamışdı. Ona pul və torpaq verəcəklərini deyirdilər, amma daha vədə ilə yaşamağa gücü qalmamışdı. 4 ay boyu kəskin soyuq, çətin şərait və yoxsulluqla yaşadıq. Bədənimin zəiflədiyini və ikinci uşağı dünyaya gətirməyə yetərli gücümün qalmadığını hiss edirdim.

Həratda parlament seçkilərinin bitməsini gözlədik. Qohumların əksəri deyirdilər ki, Əlirza gedib namizəd olsa, seçkini o qazanar! Əlirza isə qəbul etmirdi. Deyirdi ki, "namizəd olmağın məsuliyyəti və şərtləri çoxdur. Mən bacarmaram. Reklam və təbliğata verəcək pulum da

yoxdur. Onlar, reklama yüklü miqdarda pul xərcləyəndə, bilirlər ki, seçkilərdən sonra, neçə qatını əldə edəcəklər! Nə çoxlu xərcləmək və pulsuz nahar, axşam yeməyi və benzin vermək mənlikdir, nə də qalib gələndən sonra oğurluq və rüşvət almaq! ”

Əfqanistanda, namizəd rekalmı üçün yüklü miqdarda pul xərclənir. Şəkil və afişalarla yanaşı, rekalm məqsədli bahalı qonaqlıqlar da təşkil edirlər. Seçkilər zamanı, camaatın kefi kökdür! Nahara bir namizədin, axşam yeməyinə digər namizədin qonağı olurlar. Hətta 1-2 nəfər evlərini satıb reklama xərclədilər, sonra da seçilmədilər!

Əlirza ağ köynəyini geyinib Hacı Əhmədi cip maşınını sürəndə, camaat onun namizəd olduğunu düşünürdülər. Eynilə onlara bənzəyirdi. Belə geyinmək ona çox yaraşırdı. Özlüyümdə düşünürdüm ki, “heyif! Belə təcrübəli və bacarıqlı insan, indi mühasib işləməlidir! Heyif ki, bu ölkə öz övladlarının bacarıq və istedadını görüb onlardan faydalanmır! Heyif ki, bu əhali öz vətənlərinin sərmayələrindən faydalana bilmirlər!”

Xülasə, Əlirza namizəd olmadı. Rüşvət və karrupsiya ilə idarə olunan sistemə dözümü yox idi. Bəzi idarələrdə, çox açıq şəkildə insanlara deyirdilər ki, “filan işinizi yola salmaq üçün, bizə 200 rupiyə verməlisiniz!” İdarələrdə işləyən bəzi insanlar, məhz buna görə, çox varlı idilər. Çox az sayda insan da əqidəsinə görə rüşvət almır və maddi durumu yaxşı olmurdu. Əlirza rüşvət verməməyə çalışır və belə işlərdən uzaq dururdu. Sadə bir sənəd işi üçün, iki ay yubanırdı, amma rüşvət vermirdi.

Artıq İrana qayıtmalıydıq. Artıq oğlan olduğu müəyyənləşən ikinci övladımızın dünyaya gəlməsinə iki ay qalmışdı. Bu dəfə uşağın adını özüm seçmək istəyirdim.

Amma Əlirza qarşı çıxıb dedi:
-Yox, sən qəribə ad qoyacaqsan! Mənim oğlumun adı ağır və gözəl olmalıdır!
-Yox, qəribə ad qoymayacam! Həmid Rza necədir?
Bir qədər düşünüb dedi:
-Əlirza oğlu, Həmid Rza, yaxşıdır!
Əlini belinə qoyub şahlar kimi dedi:
-Bəyəndik! Adını Həmid Rza qoyarıq! Həmid, yəni yaxşı və bəyənilən! Yaxşıdır!
Getmədən öncə, Hacı Əhmədin evinin xalçalarını yumalıydıq. Əlirzanın qardaşı oğulları yardıma gəldilər və Əlirzayla birgə xalçaları yudular. Amma xalçanı sərən zaman, Əlirzanın belinə təzyiq oldu və onurğası tərpəndi. Ardınca da şiddətli bel ağrısı vardı. Hamı deyirdi ki, damar burxulub. Mən isə, belindəki qəlpələrdən olduğunu düşünürdüm. Novruz bayramına 3 həftə qalmışdı və Əlirzanın bel ağrısı amanımızı kəsmişdi. Dözümsüz olmuş və daim ah-nalə edirdi. Bütün əşyaları tək başına toplamalıydım. Oturub qalxmaq mənə də çətin idi, amma başqa çarə yox idi.
Bazara gedib bir çarşab və bir neçə ağ böyük baş örtüyləri aldım. Nisbətən baha və ipək parçadandılar. Kənarları əl ilə toxunmuşdu. Bahalı və ənənvi bir hicab aldığıma sevincli və həvəsli halda evə qayıtdım. Amma Əlirzanın bel ağrısından nalə çəkdiyini görüb, narahat oldum. Yanında əyləşib ona demək istəyirdim ki, “Bu da çox sevdiyin vətən! Niyə belə acımasızdır? Sən bu torpaqlarda yaralanmısan, axı niyə səninlə belə davranır?”

**Bismillahir-rəhmanir-rəhim**
Baba, nənə, ana, ata və Rza bəy sizləri salamlayır!

Ümid edirik ki, halınız yaxşıdır və sağ-salamatsınız. Hamımız, hər an sizi dua edir və Allahdan istəyirik ki, həmişə müvəffəq, başı uca və sağlam olasınız. Hamı, böyükdən tutmuş kiçiklərə qədər, sizdən gileylidirlər! Niyə?! Çünki nə zəng edir, nə məktub yazır və nə xəbər yollayırsınız! Heç bir şey!

Ana, sizi görməyə günləri sayır və deyir ki, "qabaq zəngləşərək darıxırdım sizə, qaldı ki, indi heç zəng də etmirsiz!" Nənə də sizi görməyi çox arzulayır.

Məsumə, Zəhra və Fatimə, nə vaxt xoş bir an yaşasalar deyirlər ki, "Əlirza bəyin yeri məlum." Ata da söylənərək deyir ki, "Görəsən, biz kürəkəni fikirləşdiyimiz qədər, o da bizi fikirləşir?!" Ana da cavabında deyir ki, "mütləq, mütləq fikirləşir!"

Məktubumuzun sonunda ana qısa bir şeir söyləmək istəyir:

Qəfəs dardır, içində uça bilmirəm mən
Vətən uzaqdır, getsəm də çata bilmirəm mən
İlahi, vətən güllərini sənə tapşırmışam mən
Oğlumu vətəndə sənə əmanət etmişəm mən
Darıxmışam, darıxmışam ilahi
Darıxmaqdan ürək dözmür ilahi

Ən son, sizə bir qədər yeməli şeylər göndərmişik. İnşaAllah ki, sevinc və səhhətlə yeyəsiniz.

Raziyə

# On dördüncü fəsil

Az olan əşyalarımızı yığdıq. Qohumların hamısı, Əfqanistandan getməyimizə narahat idilər. Eltim, Mustafanın anasıyla çox səmimi olmuşduq və oradan getməyimizə elə narahat idi ki, heç köməyə də gəlmədi. Hamı Əlirzanı çox istəyirdi və onun getməyinə qanları qaraydı. Nəhayət, gəldiyimiz yolu, əvvəlkindən də daha az pul ilə qayıtdıq. Bu dəfə, hətta qalmağa evimiz də yox idi. Məcburən, atamgilin evinə getdik.

Atamın təzə evi, 4 otaqlıydı. İki otaq atamın idi, iki otaq da babamın. Babam, bir otağı bir arvadıyla qızına vermişdi, digər otağı da ikinci arvadına. Qonaq otağı üst mərtəbədə idi. Aşağıdakı otağın da yarısı bacılarımın, digər yarısı da anbar olmuşdu. Əlirza bel ağrısına görə, pillədən qalxıb düşə bilmirdi. Məcburən, aşağıdakı otaqda qalmalı olduq. Bacılarım gecəni nənəmin otağında qalırdılar. Orada da Əlirzaya iş tapılmadı. Bel ağrısıyla, ağır iş görə bilməzdi. Evin bir guşəsində döşəyi həmişə yerdəydi və qohum-qonşu hamı ona baş çəkməyə gəlirdi. Otaq o qədər rütubətli idi ki, döşəyi də nəmlənmişdi.

Hamıdan çox, anam bu vəziyyətə görə nigaran idi. Davamlı da deyirdi:

-Bu nə vəziyyətdir axı?! Camaat kürəkənə baş çəkməyə gəlir, amma otağın halına bax!

Əfqanistandan qayıdanda öyrəndim ki, Hacı Əhmədin qardaşıyla evli olan bacım Raziyə də hamilədir. İkimizin də son günlərimiz idi, amma ortadakı fərq bu idi ki, o, öz evində idi, mən isə anamgilin evindəki yarı otaqdaydım! Heç bir gəlirimiz də yox idi. Baxmayaraq ki, atamgilin evində yeyib-içirdik, amma çox təzyiq altındaydıq. Bir hamilə qadının istəkləri və arzularını özümə rəva bilmirdim. Heç kimdən də heç nə gözləmirdim. Amma hər şeyə rəğmən, uşağım üçün nigaran idim ki, xəstə və ya az çəkiylə dünyaya gəlməsin. Günlük üç dəfə yeməkdən başqa, nadir hallarda Əlirzanın dostlarının gətirdikləri kampotdan da yeyirdim.

Anamgilin evinin şəraiti məni qəhərləndirirdi. Evlənmək çağında olan bir neçə qız, babam və arvadları və qızı, anamla atam və biz, hamı balaca bir evdə yaşayırdıq. Onların özlərinə də bəs qədər otaq yox idi, qaldı ki, bizə. Qardaşım Rza isə hamıdan çox əziyyət çəkirdi. Gənc idi və ayrıca otağı olmalıydı, amma bu, mümkün deyildi. Bəzən boğaza yığılanda Fatiməyə deyirdi:

-Niyə atan bir şey fikirləşmir?!

Əlirza bel ağrısını bəhanə edib otaqdan çıxmırdı ki, göz önündə olmasın. Hətta narahatçılığımı görməmək üçün, məndən də qaçırdı. Gündüzləri otaqda tək qalırdı. Bəzən səhərdən axşama qədər otaqdan çıxmırdı. Kitab və jurnalla başını qatırdı.

Əlirzanın davranışları, depressiyada olanlar kimi olmuşdu. Yaz aylarında, axşamüstü həyətdə hamımız

oturub deyib güləndə də otağından çıxmırdı. Həmişə hamını şənləndirən və lətifələri ilə güldürən şəxs, artıq otağın guşəsindən tərpənmirdi. Qəsdən də pəncərinin altında otururdu ki, həyəti görməsin.

Əlirza şikayətlənmir və narazılıq da etmirdi. Yanız sakit oturub heç nə danışmırdı. Fatimə olmasaydı, yəqin ki, gün boyu 10 kəlmə də deməzdi. Bəzən düşünürdüm ki, hər şeyi boş verib və həyatımızı vecinə almır. Ona deyirdim ki, "ayağa qalx və bir şey elə! Həyatımızı sən düzəltməlisən!"

Cavabımda deyirdi:

-Nə edim? Sən çilədən çıxdın güya nə oldu?! Səbr eləmək lazımdır, səbr!

Əlirza qorxaq insan deyildi, amma bel ağrısı amanını kəsmişdi. Qohumlar deyirdilər ki, "Əlirza bəy həmişə müdür işləyib deyə, indi fəhləliyə dözümü yoxdur! Buna görə işə getmir!" Amma mən bilirdim ki, belə deyil. Çünki qardaşım Rza da iş tapa bilmirdi.

Həmin ilin Novruz bayramında xoş xatirəm yoxdur. Həmişəki qohum evlərinə get-gəl başlamışdı. Yazın gəlişinə də sevincli deyildim. Bəsən güzgüylə danışır və deyirdim ki, "kim depressiyadadır, mən ya Əlirza?!" Güzgü cavabımda deyirdi ki, "sən Əlirzanın ümidisən! Onunla danışmasan və onu güldürməsən, o səndən də tez sarsılacaq! Üstəlik indi atanın evində yaşadığı üçün, ona minnət qoyma, pis davranma və onun kişilik qürurunu əzmə! İndi otaq guşəsində yatalaq ola bu kişi, bir günlər dağlarda komandir idi!"

Novruzdan iki ay sonra, Əlirza Qənbəri bəylə, kompüter kursu açmaq qərarına gəldi. Yerini Rəcayi məhəlləsində təyin etmişdilər. Bir neçə kompüteri kreditlə aldılar və təlim üçün müəllim də tapdılar. "No Avaran"

təlim kursunun açılış gününə mən gedə bilmədim. Halım yaxşı deyildi.

Raziyə bacım ilə yoldaşı Əlinin evinə gedəndə, gecəni də orada qalırdıq. Əlirzanın qardaşı oğlunun evi idi və orada ayağını rahat uzada bilirdi. Bir gecə, səbəbsizcə yuxum qaçdı. Başımı balışa qoymuş və dayanmadan göz yaşı tökürdüm. Bədənim də yorğun və halsız idi. Didərginlik həyatımdan əl çəkmirdi. Naşükürlük etməkdən çox qorxurdum. Davamlı dua edirdim ki, Allah mənə naşükürlük etməməyə kömək olsun və o vəziyyətdən üzü ağ çıxa bilim. Dua edirdim ki, uşaqlarım çətinlik və yoxsulluqla böyüməsinlər.

Həyətə getdim, ayaq üstə qalmağa halım yox idi. İndi yenə pinqivin xanım olmuşdum, amma Fatimənin dünyaya gələn vaxtdakı kimi sevincli və həvəsli deyildim. Belə bir şəraitdə dünyaya gələn ikinci uşağıma yazığım gəlirdi. Zümzümə edirdim ki, "İlahi, uşağıma kömək ol, bizə kömək ol. Qarşımıza bir yol qoy." Otağa qayıdanda gördüm ki, Əlirza da oyanıb. Səssiz ağlamışdım, amma o, hiss edib oyanmışdı.

Halım yaxşı deyildi. Artıq hamiləliyin 9-cu ayı və 9-cu günü idi amma uşağın dünyaya gəlmə əlamətləri yox idi. Bir gün günortadan sonra, özüm xəstəxanaya getmə qərarına gəldim. Babamın otağının qapısı önünə getdim. İçəridə çay içirdilər. Qəmli və gözü yaşlı halda dedim:

-Halal edin. Xəstəxanaya gedirəm.

Quraanın altından keçib Əlirza və anamla birgə İmam Hadi xəstəxanasına yollandıq.

Gecə yarısı, uşaq dünyaya gəldi. Ağ-appaq, yumru göz və qarınqulu bir oğlumuz olmuşdu. Dünyaya gələn kimi də ağlamağa başlayıb əlini ağzına aparırdı. Ondan da ac, mən idim. Çox zəifləmişdim. Hətta ağzımı tərpədib

danışmağa da halım yox idi. Axşamüstü saat 4-dən xəstəxanaya gəlmişdim və o saata qədər hətta su da içməmişdim. Çöldən kimsənin mənə xurma və ya nabat gətirməsini gözləyirdim, amma xəbər verdilər ki, "gözləmə, ananla yoldaşın evə gediblər! Heç kim sənə heç nə gətirməyəcək!" İşçilər, mənə bir stəkan çay gətirdilər. Yanımdakı yataqlardan birinin yanında, çörək kisəsi var idi. Pis halımla özümü çörək kisəsinə çatdırıb, quru çörəklərdən yeməyə başladım. Sanki çörək cənnətdən gəlmişdi və onunla da özümə gəldim!

Sonra Əlirza mənə dedi ki, 2-3 saat gözləyiblər amma məndən bir xəbər olmayıb. Onları içəri də buraxmayıblar. Məcburən o da anamı razı salıb və evə qayıdıblar. Bel ağrısına görə ayaqüstə qala bilmirdi. Anama demişdi ki, "bizim burada qalmağımızın xeyri yoxdur. Onun ağrısını da azaltmayacaq."

İşçilərə onların nömrəsini vermişdim ki, zəng edib uşağın dünyaya gəlməsini bildirsinlər. Həmid Rzayla ac və incikli vəziyyətdə tək qalmışdıq. Oğluma deyəcək çox sözüm vardı, ona deyirdim:

-Dünyaya gəlməyə niyə tələsdin, oğlum? Səni çətinliklə dolu dünyaya gətirdiyimiz üçün bizi bağışla. Axı niyə gəldin? Biz sənin gəlişinə hazırlıq görməmişik. İnşallah ki, ayağın düşərgəli olsun və həyatımıza xeyir və bərəkət gətirsin.

Səhər, Əlirza gəldi. Qəlbim sınmışdı və gileyli idim. Ağlamaq istəyirdim. Amma anamın qarşısında büruzə vermədim. Onlarla gülürdüm. Uşağı da anamın qucağına verdim. Əlirzanın üzündəki sevinc və fərəh, gecə olanları unutdurdu. Orada mənə dedi:

-İndi Allahdan sonra, arxamda dağ kimi oğlum var. Sağ olasan, nə gözəl oğul verdin mənə!

Qohumlar və dostlar uşağa baş çəkməyə gəlirdilər. Uşağa gələn hədiyyələr arasında əsginas olanda, bizə kömək olurdu. Bəzən min tümən və ya 2 min tümənlik əsginasları uşağın qundağına qoyurdular və mən onunla nə istəyirdimsə alırdım.

Həmin vaxtlarda, bibimlə qızları da Məşhədə gəlib atamgilin evində qaldılar. Evin cəmiyyəti daha çox olmuşdu. Bibim xoş söhbət və təcrübəli insan idi, oturub bizə keçmişdən və gələcəkdən əhvalatlar nağıl edərdi.

Həmid Rza və Raziyənin oğlu Ehsan üçün, müştərək əqiqə mərasimi tutduq. Əli, iki qoyun almışdı. Bizim payımıza düşən, 160 min tümən idi və sonra ödəyəcəyimizi demişdik. Əlirzanın qardaşları, uşağı görməyə Qumdan gəldilər. Bizim vəziyyətimizi görüb, narahat oldular. Önümüzdə heç nə deməsələr də, sonra bildim ki, Əlirzanı danlayıblar.

Bir gün Əlirza dostunun elçiliyi üçün evdən sevincli halda çıxdı. Onun sevincli olmasına mən də sevinirdim. Bir müddət idi ki, dostunun elçiliyinə görə evdən çıxır, gecəni də kursda qalırdı. Bibim mənimlə zarafatlaşıb dedi ki, “Bənin! gözünü dörd aç! Bəlkə ərin elə özü üçün elçiliyə gedir!”

Mən də gülüb cavabında dedim:

-Yox bibi can! Bizə çörək pulu tapmırdı, qaldı ki, ikinci arvad!

Əlirzaya bibimin zarafatını deyəndə, ürəkdən gülüb dedi:

-Hə, bəlkə də ikinci arvad aldım!

Artıq 5 ay idi ki, anamgilin evində idik. Həmid Rzanın 40 günü olmuşdu. Bibimin də gəlməsindən bir ay keçmişdi. Anamın səbri məni utandırırdı. 5-6 ay kürəkəni və qızının həyatını idarə edib, hətta bir kəlmə də narazılıq

etməmişdi. Bəzən bacılarım Fatimədən şikayətlənib bu vəziyyətdən yorulduqlarını deyəndə, ya da Rza gileylənəndə, anam hamısını sakitləşdirməyə çalışırdı.

Atam isə, bibimlə söhbətə başı qarışmışdı. Evdə qonaq olduğu üçün, bizi yola verirdi. Evdə olduğu günlərdə, hərəmi bəhanə edib bibimlə evdən çıxırdı. Mən də Əlirzanın qoruyucusu olmuşdum. Kimsə ağızını açıb onun haqqında bir söz deyəndə, dərhal onu müdafiə edir və vəziyyətini başa salırdım. Onun yanında olmağa və ona dəstək olmağa çalışırdım.

Evin bir hissəsini, bacılarımın dərzilik əşyaları məşğul etmişdi. Bir tikiş maşını almış və sexlərdən aldıqları sifarişləri sırayla tikirdilər.

Bir gecə, səhərə qədər Əlirzayla danışdım və ona razı saldım ki, gedib dostlarından pul borc alsın. Artıq atamgilin evindən getməliydik və özümüzə başqa yer tapmalıydıq. O günə qədər, qolbaqlarım və boyunbağımı saxlamışdım, amma artıq onları satmalı və ev depoziti üçün pula çevirməliydik.

Bir aylıq Həmid Rza ilə, hər gün ev axtarırdıq. Düşünürdüm ki, kursun yaxınlığında bina evi olsa daha yaxşıdır. Beləliklə, onun iş yerinə yaxın olacaqdıq. Amma Əlirza dedi ki, kirayəsi az olan evlərə baxmalıyıq və bu, uzaq və şəhər kənarındakı evlər demək idi.

Qızıllarımı 700 minə satdım. Əmimə də zəng edib ondan da 500 min borc aldım. Harda dost-tanış görsəm, onlardan da 100-200 tümən borc istəyirdim. Bizləri verir, bəziləri də vermirdilər. Bəlkə də düşünürdülər ki, “Allah bilir nə vaxt qaytarar!”

Nəhayət, atamın dostlarından biri, atamgilə yaxın bir ev tapdı. Əslində o vaxta qədər, o evi anbar kimi istifadə etmişdilər. Buna görə də, çox köhnə və bərbad vəziyyətdə

idi. Otaqların divarları dəlik-deşik idi və meli yerə tökülmüşdü. Hər tərəf qap-qara və çirk içində idi. Başqa çarəmiz yox idi. Pulumuza ancaq belə bir ev tutmaq mümkün idi. İki milyon depozit verdik və hər ay 60 min tümən kirayə verməli idik.

Ramazan ayına az qalmışdı. Atamın mağazasından ərzaq götürdüm. Düyü, yağ, qənd, makaron və soya. Hamısını siyahiyə aldım və dedim ki, nə vaxt pulum olsa ödəyəcəm. Evi həvəs və sevinclə döşədik. Qorxularım və nigarançılıqlarım aradan qalxmışdı. Baxmayaraq ki, evin remonta ehtiyacı vardı, amma pulumuz yox idi. Toyumuzun qırmızı xalçasını bir otağa, palazı da digər otağa sərdik. Mətbəx və hamam, həyətdə idi. Ev, bəlkə heç 50 kvadrat metr də deyildi. Əşyalarımızı yığıb sevinc və ümidlə təzə evə yollandıq.

Bacılarımın işlədiyi sexdən 170 min tümənə tikiş maşını aldım və işə başladım. Hər köynəyə 20 tümən alırdım. İş sahibi parçanı gətirirdi və mən tikişi atırdım.

**Xatunun xatirə dəftərindən bir yazı:**

Bu gün, həyatımın səmərəsi, çox sevdiyim oğlum, Həmid Rza haqda yazmaq istəyirəm. Çox çox sevdiyim və özü də çox çox sevimli olan oğlamun iki yaşına az qalıb.

Həmid Rza, dünyaya gəldiyi və gözünü açdığı ilk gündən, həqiqətən də bir kişi kimi idi. Gözəl üzlü və gözəl əxlaqlı bir kişi idi. Onun dünyaya gəlməsi, həyatımızda böyük dəyişiliklər yaratdı. Allah təala, həyatımızın ən pis günlərini, onun gəlişi ilə aradan qaldırıb, düz yolu bizə göstərdi.

O dünyaya gələndə ona demişdim ki, "bu dəyərsiz dünyaya gəlməyə niyə tələsdin, oğlum? Niyə bizi özünə

utandırdın?! Biz özümüzə nə edəcəyimizi bilməzkən, səni də dünyaya gətirdik".

Amma o dünyaya gəlib və atasıyla mənə güc-qüvvə verdi. Bildik ki, ayağa qalxıb "ya Əli" deyərək, Allaha əl uzatmaq lazımdır. Sonra da Allah və arzular qapısı olan imam Rza (ə)-ın köməyilə, həyatımızı düzəltdik. Amma bu, bizə baha başa gəldi...

Xülasə, indi Allaha şükür edir və onun məsləhətinə razıyam. Həmid Rza oğlum, həqiqi bir kişidir. Allah təala məni bu mərd oğula laiq gördüyü üçün, şadam.

Tarix: 18.05.2008

## On beşinci fəsil

Fatimənin artıq 3 yaşı tamamlanmışdı. Şirin dilli və çox bilmiş olmuşdu. Bağçaya getməyi çox istəyirdi. Evin yaxınlığında bir bağça tapdım. Nənəm onu aparır və gətirirdi. Bağçada bir saat qalıb uşaqlarla oynayır və sonra da evə qayıdırdı.

Mən isə hər gün dərzilik edirdim. Hər gün, dağ şəkilində qarşımda olan kəsilmiş parçalara tikiş atırdım. Sahibi də evin önünə gəlib təhvil alırdı. Bəzən mənə pul verirdi, bəzən də tikiş maşının krediti üçün nə qazanmışamsa hamısını alırdı və əli boş qalırdım. Həftəlik maaşım 10 min tümən idi və mən az-az aldığımız borclar üçün onları yığırdım.

İftar vaxtı Əlirza evdə olmurdu. İmsaka da çox vaxt makaron bişirirdim. Deyirdi ki, makaron adamı tox tutur. Baxmayaraq ki, imsaka çox az yeyirdi. Nə qədər çox yesək, o qədər çox acacağımızı düşünürdü. İmsaka bir tikə yedikdən sonra dua və namaza başlayırdı. Mən də onun zümzümələri ilə uşaqları yatızdırırdım. Evimiz huzurlu və aram idi.

Anamla bacılarım bəzən bizə baş çəkirdilər. Anam müxtəlif bəhanələrlə mənə ərzaq gətirirdi. İftara tək qalmayıb onların evinə getməyə israr edirdi. Amma mən, evdə qalıb dərziliyə davam etməyi məsləhət görürdüm. Bir gün iftar vaxtı anam bizə gəldi və mənim iftar süfrəmi görüb ağlamağa başladı. Süfrəmə isti çörək, bir neçə ədəd xurma və bir qırıq kərə yağı qoymuşdum. Anam gələndə süfrəmi tez yığdım ki, görməsin. Amma yenə də gördü və nəylə iftar etdiyimi bildi. Bəhanə gətirib dedim:

-Çöldə idim və iftar bişirməyə vaxtım olmadı. Əlirza da evdə iftar etmədiyi üçün yemək bişirməyə hövsələm yoxdu.

Süd qutularını hər dəfə yuyur və qırağa qoyurdum. Üzü qışa gedirdi və qapının önünə soyuğun qarşısını almaq üçün pərdə tikmək istəyirdim. Səhərlər namazdan sonra yatmır və maşının önündə oturub işə başlayırdım. Maşınımı qonaq otağına qoymuşdum. Sapları və parçaların qırıqlarını yığmaqdan bezmişdim. Buna görə ,k.l;/qırıq parçaları bir-birinə tikib maşının altına palaz kimi sərdim.

Əlirza yardım etmək üçün necə işlədiyimi öyrənməyə çalışırdı. Buna görə də qırıq parçaların tikişini ona tapşırdım. Pis tikəndə, özü deyirdi:

-Hey şagird! Düz-əməlli tik!

Sonra özü başını silkələyib deyirdi:

-Yaxşı, yaxşı. Az əmr ver! Gözlə, mənim növbəm də çatacaq!

Mənim balaca seximdə, hər gün gecə yarısına qədər iş davam edirdi. Bir stulum vardı ki, iki maşın arasında yer dəyiştirirdi. İşlədiyim paltar mağazasıyla yanaşı, bəzən əmimin nəvəsinin mağazasından da yastıq üzü və səccadə də verirdilər ki, onun da ətrafını tikim.

Nənəm bizə çörək alırdı, Fatiməni bağçaya aparırdı, Həmid Rzanı yatırırdı, mağazadan bir şey lazım olanda gedib alırdı, bəzən də hamının gözündən gizli, cibimə pul qoyurdu. Əlirza da bibini çox istəyirdi. Onunla zarafatlaşıb deyirdi ki, "nənə, indi evdə gözünüzü görünmədiyimə sevinirsiniz?!"

Nənə də deyirdi:

-Yaman da gözümə görünmürsən! Özü də hər gün görünürsən!

Həmid Rza çox vaxt beşiyində olurdu. İməkləməyə başlamadan öncə, mən rahat dərzilik edirdim. İməkləməyə başlayanda, Əlirza onu manejə qoyurdu. Əlirza da düz tikiş atmaqda çox məharətli olmuşdu. Çətin olmayan tikişləri bəzən ona tapşırır, özüm isə uşaqlara baxıb ya da yemək hazırlayırdım.

Anam tərəfin qohumları, artıq bizə gəlmirdilər. Evimizin kiçik olması və maddi durmumuzun yaxşı olmamasını nəzərə alıb, artıq bizə gəlmirdilər. Hətta Fitir bayramına da kimsə bizə gəlmədi və bu məni çox qəmləndirmişdi.

Bəxtimizdən, kompüter kursunun da gəliri yox idi. Kursun açılışından 8 ay keçmişdi, amma gəliri müəllimlər və kursa xərclənirdi. Şəriklərin özünə bir şey qalmırdı. Bir müddət sonra, Əlirza gördü ki, həyatımız hələ də çətinliklə keçir və bu qədər çalışmasına rəğmən, heç bir qazancı olmur. Bu səbəbdən işi Qənbəri bəyə buraxıb, özü başqa iş axtarmağa çalışdı. Əlirzanın növbəti işi, keçmişdə etdiyi bina boyaçılığı idi.

Mənim Ramazan ayım, tikmək və uşaq saxlamaqla keçdi. Müstəhəb namazlar qılıb, Quraan oxuyub, ibadət etməyə fürsət olmadı. Başqalarına qibtə edir və deyirdim ki, "xoş halına! Dünya işinə başları qarışmayıb və ibadət

edirlər!” Lakin ürəyimin dərinliyində, ümidvar idim ki, mənim də bu işimi Allah təala ibadət saysın. Bunları Əlirzaya da deyib, ona ürəyimi boşaldırdım. İftar vermək savabından məhrum olduğumuz üçün, ona şikayətlənirdim. Əlirza mənə təsəlli verib dedi:

-Əvvəla ki, iftar verməyə şərtlərimiz uyğun deyil. İkinci də, evimiz kiçik və dardır. Üçüncü də, ac olan kasıb və yoxsullara iftar verməyin savabı var. Sən çox istəyirsənsə, bir qazan yemək hazırla və qapıdan keçənlərə payla.

Parçalardan qalan yararsız qırıqları atmırdım. Onları döşək və yastıq içinə doldururdum. Dərziliklə qazandığım pul ilə, xırda-xırda borclarımızı ödədik və iki il olmadan bütün borclarımız bitdi. Vəziyyətimizin yaxşılaşdığına görə, ucuz bir mağazaya gedib bir parça aldım və özümə təzə köynək-şalvar tikdim.

Mənim xəstəliyim olmasaydı, vəziyyətimiz daha da yaxşı olardı. Şiddətli baş ağrılarım olurdu. Başda, həftədə 2-3 dəfə olurdu, amma zamanla, hər gün başım ağrayırdı. Başımın ağrımadığı bir gün olmurdu. Ağrı elə şiddətli idi ki, uşaqlara da baxa bilmirdim. Səhər yuxudan duranda, çoxlu dua edirdim ki, həmin gün başım ağrımasın. Amma bir saat olmadan, ağrılar başlayırdı. Ağrıkəsici dərmanlar və bitki çayları istifadə edirdim, amma xeyri yox idi.

Bir gün səhər Əlirza işə gedəndə, başımın ağrıları çox şiddətləndi. Axır, Fatiməni qonşuya göndərib dedim ki, “nənənə zəng elə və de ki, anam öldü!”

Bir dəqiqə keçmədən, qonşu gəlib dedi ki, “nə olub?! Bu uşaq nə deyir?!”

Ona dedim:

-Özüm belə dedim ki, anam tez gəlsin və məni həkimə aparsın.

Həkim, baş ağrılarımın psixoloji olduğunu dedi. Özüm isə düşünürdüm ki, Həmid Rza dünyaya gələndə bədənim zəiflədi və qan azlığındandır. Həkimlər, yatdığım yerdə səs-küyün olmaması və qaranlıq olmasını məsləhət gördülər. Gecələr, bir qədər səssizlikdə yatıb başımın ağrısının toxdaması üçün, Əlirza uşaqları başqa otağa aparıb sakitləşdirirdi. Qış boyu bu vəziyyətdə idim. Bayram təmizliyinə halım qalmamışdı. Yeni ilə də həvəsim yoxdu. Təkcə mələfələri yudum.

Bir müddət sonra, bacımın əri Əli, Əfqanistana yollandı. Raziyəyə dedim:

-Maşın sizə lazım deyilsə, bir müddət bizdə qalsın.

Əlirza maşını ustaya aparıb yoxlatdırdı və yağını da dəyişdi. Sonra da bizə dedi ki, “gəlin piknikə gedək.”

Cümə axşamı, axşamüstü, piknik üçün hazırlıq gördüm. Yumurta, pomidor-xiyar, ədyal və bir neçə yastıq götürdüm. Gecəni də orada qalmaq istəyirdik. Qonşumuz, maşın aldığımızı düşünmüşdü. Ona dedim ki, “bu kürəkənimizin maşınıdır. İndi piknikə gedirik. Gecəni də orada qalacıq. Bizim evdən muğayat olun.” Sonra da 500 tümənlik əsginası sədəqə sandığına atıb, yola düşdük.

Əlirza, uzun müddət sonra gəzməyə getdiyimizə çox sevinmişdi. 10 dəqiqə sonra, maşın yellənib qəribə səs çıxarmağa başladı. Əlirza, maşının xarab olduğunu anladı, dərhal sürəti azaltdı. Mən qışqırırdım:

-Uşaqlar! Yaxşı oturub möhkəm tutun bir yerdən! Tərpənməyin! Ya Əli! Özün kömək ol! Ya Əbəlfəzl!

Qəfil maşın yol kənarındakı daşlara dəyib aşdı.

Əlirza dərhal şüşəni təpiklə qırıb pəncərədn çıxdı. Özü çıxandan sonra, tez mənim qapımı da açıb məni çıxardı. Mən yaralanmamışdım, amma özümdə deyildim. Tək Fatimə ilə Həmid Rzanı səsləyir və gözümlə Əlirzanı

axtarırdım. Mən çıxandan sonra, Əlirza uşaqları da çıxarıb onları qucaqladı. Uşaqlar şokda idilər. Bir qədər sonra, ətrafımıza yoldan keçənlər cəmləndi. Xiyar və pomidorlar yola tökülmüşdü. Həmid Rzanın ayağından qan gəlirdi. Çarşabımla ayağının qanını silirdim. Biz sağ idik, amma maşın məhv olmuşdu. Əlirza dedi:

-Allah üzümüzə baxdı və şəhəri çıxmamış maşın aşdı. Şəhərin çölündə aşsaydı, Allah bilir ki, arxamızda və qarşımızdakı maşınlara nə olacaqdı. Qış boyu nə qədər pul qazanmışdıqsa, hamısını Əlinin maşınının təmirinə verdik! Əli qayıdanda, maşın qəzasına görə deyil, təmirin pulunu ödədiyimizə narahat olmuşdu. Deyirdi ki, "təmirinə dəyməzdi, bu şəkildə satardım gedərdi!"

Əlirza Quraan oxumaq nəzir etmişdi. Evdə nəzir süfrəsi aça bilmədiyimiz üçün, Məsciddəki Nüdbə duasının səhər yeməyinin pulunu o ödədi.

Əlirza namaz qılanda, Allaha necə yalvardığını görürdüm. Dua edəndə başını çiyninə tərəf əyir və gözlərini yumurdu. O halda, bədəninin tərpənən hissəsi, tək dodaqları olurdu. Həmin əsnada, orada olmadığını və heç bir şey duymadığını hiss edirdim. Elə uzun çəkirdi ki, yuxuya getdiyini düşünürdüm!

Dərziliklə qazandığım puldan, hər Novruz bayramında bir şey alırdıq. Bir il, pərdə aldıq. Növbəti il, paltar yuyan maşını aldıq. Üçüncü il də, xalça aldıq. Amma evin divarlarını remont edə bilmədik. Ev sahibimiz, yaşlı ər-arvad idi. Onların da remonta imkanları yox idi. Yaxşı insanlar idilər. Bəzən yaşlı qadın bizim evə gələndə, məni tikiş maşınının arxasında görüb deyirdi:

-Qadın, işləməlidir. Kişi də işləməlidir. Yalnız belə, həyat davam edir!

Sonra deyirdi:

-Vaxtıyla, biz də işləmişik. Fəhləlik etmişik. Birlikdə kərpic daşımışıq. Həyatda birlik olmaq lazımdır.

Əlirza, evin kirayəsini ödəməkdə, hətta bir gün də gecikməzdi. Deyirdi ki, "bu yaşlı insanlar, bu pul ilə dolanırlar. Üstəlik biz bu evdə namaz qılırq. Ev sahibi bizdən razı olmalıdır."

Həmişə vaxtından bir gün əvvəl, zəng edib kirayənin hazır olduğunu deyirdim. Yaşlı kişi özü velosipedlə gəlib, pulu Əlirzadan alırdı. Əlirzanın xoşu gəlmirdi ki, mən qapıya çıxıb kişilərə pul verim. Kirayəni də özü ödəyirdi, tikiş sexindəki kişi ilə də özü hesablaşırdı. Kreditə mal satan maşınlardan da nəsə almaqdan acığı gəlirdi. Mənə deyirdi:

-Kredit maşınının hər ay qapımın ağzına gəlməsindən xoşum gəlmir! Pulun varsa nağd al, yoxdursa, alma!

İş axtarmaq üçün getdiyi səfərlər, Təbəs, Gənabad, Həştgerd və Şiraza hələ də davam edirdi. Əfqanistana səfərləri də davam edirdi. Vətəndən uzaq qalmağa dözümü yox idi, həm də qədim dostları onu müxtəlif bəhanələrlə çağırırdılar. Bir neçə ay Əfqanistana getməyəndə, özünü yaxşı hiss etmirdi.

Kitab və qəzet də həmişə yanındaydı. Həmişə qəzet pulunu ayrıca saxlayırdı. Həm də qəzeti oxumadan əvvəl, uşaqların əlinə düşməməsinə çox həssas idi. Mənə deyirdi ki, "bu qəzet, mənim ikinci arvadımdır!"

2009-cu ildə İrandakı iğtişaşlar baş verəndə, daim saytlarda xəbər və qəzet oxuyurdu. O vaxt şəhid düşən hər şəxs haqqında ayrıca araşdırırdı. Hamıdan çox, rəhbərdən ötrü narahat idi. Davamlı deyirdi ki, "rəhbərin bağrı qandır! Onun qədrini bilmirlər. Onu çox incidirlər." Tehrana səfərləri azalmışdı. Onun yerinə, fəhləlik və

boyaçılıq üçün Həştgerdə getdi. 4 ay orada qaldı və o müddətdə telefonla danışır və halını soruşurdum.

Həmin vaxtlarda, iki yaşından bizimlə yaşayan əmim qızı Fatiməyə elçi gəldi. 15 yaşı vardı və çox sayda elçiləri olurdu. Özü bir nəfəri seçdi və atam da qarşı çıxmadı. Fatimə, bacım Zəhrayla eyni yaşda idi. Evin kiçik qızlarıydılar və ev işi bacarmırdılar. Anam, bir il nişanlı qalması və iş öyrənməsinə israr edirdi. Amma elçi gələn ailə razı olmur və özləri ona ev işi öyrədəcəklərini deyirdilər. Fatimənin yoldaşı, ayaqqabı sexində işləyirdi. Əlirza Fatiməylə zarafat edəndə deyirdi:

-Ayaqqabıçı ərinə salam de!

Atam, Fatimənin toyuna heç kimi getməyə qoymadı. Ailəmizdən yalnız mən gedə bildim. Tahranda iğtişaşlara görə qarışıqlıq və aksiylar vardı və atam da nigaran idi. Özümə bir paltar, Fatiməyə də bir cüt ayaqqabı aldım. Dostumdan da bir toy paltarı borc aldım.

Avtobusda, Fatimənin ayaqqabısı yırtıldı və əlimdə qaldı. Tehrana çatanda, ona çəkələk aldım. Əlirza da Həştgerddən Tehrana gəldi. Üzü dəhşətli şəkildə səpmişdi. Bir həddə ki, onu görəndə, qorxdum! Düşündüm ki, bəlkə xəstələnibdir. Amma özü dedi ki, qaldığı yerdə ağcaqanad çoxdur. Fatimənin ayaqqabısını görəndə, əsəbiləşib mənə acıqlandı ki, "bu nə ayyaqabıdır uşağa almısan?!"

Mən, toyda baş verən davaya görə narahat və acıqlı idim. Qohumlarımız Fatimənin toyunu görüb, atamın bəydən heç nə istəmədiyini öyrənəndə narahat olub kinayə ilə dedilər:

-Bu uşaq yetimdir deyə onu belə rahat ərə verdiniz?!

Toydan sonra Əlirzayla, Həzrəti Əbdül-Əzim ziyarətgahına getdik. Orada qəlbim qırıldı və ağlamağa başladım. Özlüyümdə düşünürdüm ki, dünyaya bax! Bu

qədər zəhmət çək, bir uşağı böyüt və öz uşaqlarınla onun arasında heç bir fərq qoyma, amma axırda camaat gəlib belə danışsınlar!"

Əlirza mənə təsəlli verirdi. Qayıdanda da onları nəsihət edib bizi barışdırdı. Sonra özü Həştgerdə qayıtdı, bizi də Məşhədə yola saldı.

**Komandirin məktubu:**

Bacarıqlı əllərinlə yazdığın məhəbbətdolu məktubun, əlimə çatdı və həyatımda ürəyimə ən əziz olan insanların səhhətindən əmin olduğum üçün, indi çox şadam və Allaha şükür edirəm.

Sənin gözəl məktubundan 3 şey anladım və hər birinə aid cavabı açıqlayıram:

1-Yazmışdın ki, mənim işimlə əlaqədar nigaransan. Sənə xatırladım ki, əzizim, Allah təala buyuru:

Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər. (Ət-Təlaq surəsi, ayə 3 )

Həyatda həmişə yalnız Allah təalaya təvəkkül etmək və daim onu yad etmək lazımdır, başqa bir ayədə buyurur:

Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə rahatlıq tapar. (Rəd surəsi, ayə 28)

2-Yazmışdın ki, ayrılığın çətin keçməməsi üçün, özünü bir şeylə məşğul edirsən. Bu barədə də məsumlardan bir hədis demək istəyirəm:

Qiyamətdə insandan 3 şey sual olunar, onlardan biri də insanın ömrünü necə keçirdiyidir. Yəni ömründə verilən zamanını nəyə sərf etdin? Bu haqda heç nə demirəm. Amma səndən xahiş edirəm ki, ömrünü nəyə sərf etdiyinə və özünü nəylə məşğul etdiyinə diqqət yetirəsən.

3-Demişdin ki, bəziləri suallarıyla səni sıxır və əziyyət edirlər. Bu barədə də deməliyəm ki, bu problemi də Allah və əhli-beytdən yardım istəməklə həll etmək mümkündür.

Xacə Şirazdan bir şeir xatırladım[1]:

Dünya üçün qəmlənmə və bu nəsihətimi unudma
Bil ki, bunların hamısı keçicidir
Allah nə qismət edibsə, ona razı ol və qaş-qabaqlı olma
Çünki bu dünyada, çox şey iradəmiz altında deyil.

Xülasə, Allahın məsləhətinə boyun əymək lazımıdr. Bəndələr, öz xeyirlərinin nə olduğunu bilmirlər. Bəlkə, bu da bizim xeyrimizədir...

Həyat yoldaşın, Əlirza
Tarix: 03.06.2002
Qədim Hərat şəhəri

---

[1] Bu yazı, şeirin tərcüməsidir.

# On altıncı fəsil

Fatimənin məktəbə getməyinə, Əlirza məndən daha həvəsli və həyəcanlıydı. Fatimə uniforma geyinəndə Əlirza deyirdi:

-Atasının qızı məktəbə gedir. İndicə qanad açıb uçacam!

Davamlı mənə tapşırırdı:

-Məktəbə nə lazımdırsa al. 10 ədəd qələm, 10 ədəd pozan al! Qətiyyən özünü sıxma! Məktəb üçün rahat şəkildə al-ver et. Qoy uşaqlar məktəb əşyalarının az olduğunu düşünməsinlər.

Təhsil ili sona çatmadan, Əlirza Əfqanistana getmə söhbətini açdı. 2010-cu ilin Aprel ayında, oturumumuzu artırdıq. Həmişəki qaydaya əsasən, iki ay sonra sənədlərimizi geri almalıydıq. Oturumu artırmaqla yanaşı, ölkədən çıxma icazəsi də alacaqdıq. Belə hallarda, sənəd işimizi başqa birinə tapşırırdıq.

İyun, iyul və avqust ayı da keçdi, amma sənədlərimiz gəlmədi. Hər həftənin birinci günü, sənədlərimizlə maraqlanırdıq. Nəhayət bildik ki, sənədləri stolun altındakı rəfə qoyublar və zamanla kağızların altında qalıb! Hətta

işimizlə maraqlanan şəxs də sənədlərimizin necə itdiyinə nigaran olmuşdu. Sənədlərin itməsi, sahibinin kimliksiz olması deməkdir və bu mühacirlər üçün ölkədə qanunsuz yaşamaq deməkdir!

Pasportlar tapılandan sonra, mən də hədiyyə almağa başladım. Topdansatışla uyğun qiymətə çox sayda başörtüyü, bir neçə qutu nabat və kiçik səccadələr aldım. Özümə mavi rəngdə paltar və soğan qabığı rəngdə hicab tikdim. Əlirzaya da əfqan geyimi götürdüm. Evin açarını anama verib Əfqanistana yollandıq.

Bu dəfə, iki uşaqla gömrüyə çatdıq. Əfqanistana ilk səfərimdən 5 il keçmişdi. Heç nə dəyişməmişdi. Bir tikə çörək və ya qəpik istəyən həmin ayaq yalın və yoxsul uşaqlar yenə yolçuların dalınca qaçırdılar. Həmin qup-quru biyaban olduğu kimi qalmışdı və yaşlı kişilər arabayla get-gəl edirdilər. Gömrüyün yorğun əsgərləri və əhalinin rəngarəng geyimləri də əvvəlki kimi idi. Bəziləri ölkəyə daxil olurdu, bəziləri də çıxırdı. Bu dəfə, bir yol yoldaşımız da vardı. Almaniyada təhsil alan əfqanistanlı bir tələbə idi.

Hadi əmi, bizi hamıdan öncə qonaq etmək üçün, İbrahimi bizi qarşılamağa göndərmişdi. Nahara, pomidor cığırtması bişirmişdilər. Əlirza və Hadi əmi, dayanmadan çay süzür və içirdilər. Çaydan boşalırdı, yenə doldururdular! İstəkan boşalırdı, yenə süzürdülər! Əlirza çox sevincliydi. Onun üçün, heç yer Əfqanistan kimi rahatlıq bəxş etmirdi. Hər tərəfdə dost-tanışı vardı və hamıdan Əfqanistanın yenilikləri barədə sual soruşurdu.

Əlirzanın səmimi dostu Seyfi bəy, onun Əfqanistana gəldiyini bilən kimi, işindən icazə alıb Kabildən Hərata gəldi. Kabil şəhərində Hərata, təxminən 11-12 saatlıq yol

idi. Seyfi bəy, hərbiçi idi. Həratda xanımıyla iki ay qaldı. Hər yerə də motorla gedirdilər.

Sabit bir yerdə qalmırdıq. Hardasa ev kirayələməyi də düşünmürdük. Buna, qohumlar da imkan vermirdi. Deyirdilər ki, 1-2 aya görə, ev tutmağa dəyməz. Həm də bizi daha çox görmək istəyirdilər. Həmin əsnada, 3-cü uşağımızın yolda olduğunu anladım. Bu xəbərlə, məndə stres və vahimə yarandı. O səfər şəraiti və onun-bunun evində qalarkən, bir bu əskikdi!

Əlirza bu xəbəri bilən kimi, bir ata gülüşüylə sevincdən qəşş etdi və yenə Əfqanistanın bərəkətli torpağından danışmağa başladı! 18 yaşlı bir gənc kimi sərxoş və şənli idi. Mənə də tapşırırdı ki, Allaha şükür edim. Mənə deyirdi:

-Üçüncü dəfə olaraq, ana olursan! Bu, göydən gələn bir nemətdir! Əlhəmdulillah ki, pis niyyətlərin bu torpaqda zərərsizləşir!

Onun belə rahat və soyuqqanlı olması, mənim əsəblərimə toxunurdu. Buna görə ona dedim:

-Belədirsə, indi də mən artıq heç kimin evində qalmaq istəmirəm! Ya Hacı Əhmədin evinin açarını al, ya da Həlimi bəyin otağını kirayələ!

Başını silkələyib əlini də gözünün üstünə qoydu və dedi:

-Gözüm üstə xatun! Başım üstə!

Hacı Həlimi otağını kirayə verməyə razılıq verdi. Amma bu, Əlirzanın qardaşlarıyla söz-söhbət yaranmasına səbəb oldu. Onların evində qalmayıb özgə evinə getməyimiz, acıqlarına gəlmişdi. Hacı Əhməd, Baqir əmi və Hadi əmi bizdən olduqca incimişdilər. Əlirzaya deyirdilər:

-Sən ayıb nədir bilmirsən? Heç utanmırsan ki, özgədən gedib otaq istəmisən? Bizim evlər yaxşı olmasa da, başınız üstə tavanı vardı! Bu iki ayı dözə bilməzdin burada?!

Hacı Əhməd fəhlələrinə tapşırmışdı ki, tikdiyi 3 mərtəbəli binanın bir mərtəbəsinə tez qapı və pəncərə qoysunlar ki, biz gedib orada qalaq. Ramazan ayı da gəlib çatmışdı. Amma ev hələ hazır deyildi. Həmin əsnada, eltimin atası rəhmətə getdi və yas bozbaşı bütün qohumların evində yenə bərpa oldu! Yenə mən bozbaş qoxusundan haraya qaçacağımı bilmirdim. İmsaka bozbaş, iftara bozbaş! Hava da çox isti idi. İsti külək əsirdi və toz-torpaq ətrafı bürüyürdü.

Bir gün həmin sıxıcı şəraitdə, Həmid Rza da mənə yapışıb deyirdi:

-Ana! Acam, nahar istəyirəm!

Əslində nahar yemişdik. Bəzən nahar, şirin çay və çörək olurdu. Ona dedim:

-Bayaq yediyimiz, nahar idi!

-Yox! O, səhər yeməyi idi. Mən kükü istəyirəm! Babamla parkda yediyim küküdən istəyirəm! Niyə mənə o kükülərdən saxlamadın? Bax, indi yeyərdim onu!

Əlirza da yox idi. 3 gün idi ki, hazırlanan evə yardım etməyə getmişdi. Hər dəfə zəng edəndə də deyirdi ki, "gələcəm, gələcəm!" Belə şərait yarananda, məndən qaçmağa çalışırdı.

Axır bir gün bezdim və səhər yuxudan duran kimi bütün əşyalarımı yığıb hamıya dedim:

-Gecə Əlirza mənə zəng edib dedi ki, onun yanına gedim.

Mənə taksi tutdular və yeni tikilən binalara doğru yollandıq. Əlirza bizi görəndə donub qaldı. Donu açılandan sonra dedi:

-Bu toz-torpağın içinə durub gəlmisən ki, nə edəsən?!

-Sən heç məni düşünmürsən! Mən sənə xatir həmişə yollardayam. Səhər tezdən çıxıb gedirsən. Heç fikirləşmirsən ki, bu arvad, hamilə halıyla, iki uşaqla, orucluğun günündə nə edər?!

-Mən buraya yardıma gəldim ki, ev tez hazırlansın və səni buraya gətirim.

Binada yaşayış yox idi. Hazırlanan ev də pəncərəsiz və havasız idi. Əlirza əlindəki lapatkayla, divarı sökürdü ki, oradan hava gəlsin. Evin kondisioneri də yox idi. Yalnız bir küncə köhnə və tozlu bir xalça sərilmişdi. Ona dedim:

-Mən buradaca qalacam!

Xalçanın üstündə oturub divara yaslandım və bacardığım qədər su içdim. Baqir əminin oğlu Rzayla, bazarlığa getdim. Aldığım ilk şey, bir meşok kartof-soğan və rəndə idi. 3 gün boyu Həmid Rzaya kükü yedizdirdim!

Tikilən evin suyu zəif gəlirdi. Əlirza aşağı düşüb çəlləyi suyla doldurub yuxarı gətirirdi. Yaşama imkanı sıfır olan evdə iki həftə qaldıq. Sonra isə eltimin anasının qırxı üçün Kabilə yollandıq.

Avtobusla getdik. Avtobus, çox pis qoxuyurdu və sanki sərnişinləri neçə ay idi ki, yuyunmamışdılar! Avtobusda qoxu o qədər çox idi ki, su, çörək, meyvə və hər şey iylənirdi! Pərdələr və oturacaq da iylənmişdi. O günədək ömrümdə elə şey görməmişdim. Yol boyu heç nə yemədim. Əslində avtobus bahalı və son model idi, amma sərnişinləri təmizliyə fikir verməmişdilər.

Eltimin oğullarını da maşın tutdu və yol boyu halları pis idi. Anaları da həm yaslı idi həm də südəmər uşağı vardı. Buna görə az qalmışdı huşdan getsin! Əlirzayla qardaşı, uşaqları sakitləşdirməyə çalışırdılar. Birini

sakitləşdirirdilər, digəri başlayırdı. Uşaqların üstü-başı çirklənmişdilər, atalarının paltarlarını da bulamışdılar.

Yol təhlükəli idi və uşaqlara görə avtobus dayana bilməzdi. Dəfələrlə avtobuslara hücum olmuşdu. Bileti alan kimi, sərnişinlərin kimlikləri ifşa olurdu. Bu da, qohumların bizdən ötrü nigaran olmasına səbəb olmuşdu. Bizə davamlı tapşırırdılar ki, heç kimlə danışmayın, hara gəldi getməyin, ağzınıza gələni deməyin və ehtiyatlı olun!

Yolda, çox sayda yanmış avtobuslar və asfaltın deşildiyini gördük. Yolun xarab olması bir həddə idi ki, sürücü məcburən geri qayıdıb başqa yoldan gedirdi. Buna görə də, yolumuz daha da uzun oldu.

Sürücü davamlı tapşırırdı ki, avtobusdan heç kim düşməsin. Namazımızı da avtobusun yanında qıldıq. Digər sərnişinlər rahat get-gəl edirdilər. Biz isə uşaqları bəhanə edib avtobusdan uzaqlaşmırdıq. Bir qədər irəlilədikdən sonra, uşaqların vəziyyəti yaxşılaşdı. Bizim uşaqlar, səfərdə necə davranacaqlarını çox yaxşı bilirdilər. Onlar az yeyib, az tərpənirdilər. Buna görə də halları yaxşı idi. 14 saat çətin və təhlükəli yolu qət etdikdən sonra, nəhayət çatdıq.

İlk dəfə idi ki, Kabili görürdüm. Böyük və izdihamlı şəhəri idi. Havası çirkli və əhalisi də varlıydılar. Yas mərasimindən sonra, Əlirzanın cəbhə yoldaşı olan və Məşhəddə də evinə get-gəl etdiyimiz Natiqi bəyin evinə getdik. Bizi gördüklərinə sevinmişdilər. Orada rahat idim və istədiyimi bişirib sərin ayranla nuş edirdim. Natiqinin xanımı, bayram qabağı təmizliyi edirdi və mən də bacardığım qədər yardım edirdim. Məhəllə əhalisi ona yardım etməyə gəlir və ağır əşyaları birgə qaldırırdılar. Əlirzayla, yalnız yatmaq vaxtında danışa bilirdim. Gün

boyu danışmağa imkan olmurdu. Məni görən kimi, dediyi ilk cümlə bu olurdu:

-Necəsən xatun? Xoş keçir?

Sonra da gün boyu nə etdiyini, İrandan ona zəng gəldiyini və kimlərlə görüşdüyünü mənə deyirdi.

Kabildə qaldığımız müddətdə, Əlirzanın dostlarını görməklə məşğul idik. Luks mağazalar və alış veriş mərkəzlərinə də getdik. Avtobusla "Kartexəsi" ziyarətgahına da getdik. Avtobusdan düşən kimi, Həmid Rza "əlim, əlim" deyə qışqırıb ağlamağa başladı. Böyük bir arı əlini çalmışdı. Əlirza dərhal uşağın əlini ağzına tutub dişlənən yeri sovurmağa başladı. Həmid Rza sakitləşmir və "məni həkimə aparın" deyirdi. Biz də deyirdi ki, "burada həkim nə gəzirdi?!"

Həmid Rzanın əli şişmişdi. Get-gedə şişi də çoxalırdı. Bir yaşlı qadın uşağın əlini görüb dedi:

-Burada bir qadını arı çaldı və qadın öldü! Burada bir molla var ki, sağalda bilir." Əlirza mənə 20 rupiyə verdi və uşağı mollanın yanına apardım. Molla bir dua oxuyub və dodaqaltı dedi:

-İnşallah ki, təhlükə aradan qalxacaq.

Ziyarətgahda namaz qılıb dua edəndə, ikimizin də ağlı Həmid Rzada idi. İstiyə dözmək üçün adam bir dondurma yedik. Ziyarətgahın önündə olan rəngarəng qolbaqlardan da bacılarıma aldım. Çöldə yemək yeyə bilmədik. Restoranlar, kişiylə doluydu və qadının restorana getməsinə yaxşı baxmırdılar.

Qadınların Kabildə geyimi fərqli idi. Borqe geyinmir və hicablı deyildilər. Bəziləri ərəb çarşabı ya da rəngli çarşab taxırdılar. Qadınları əksəri başına şal atmışdı və pencəklə ətək və ağ şalvar geyinmişdilər.

Fatimə hicabsız qadınları görəndə deyirdi:

-Bunlar niyə ev geyimi ilə çölə çıxıblar?!

Kabil səfərimiz sona çatdı. Evində qaldığımız Natiqi xanım, bizə hədiyyə almağa fürsətinin olmadığını dedi və onun yerinə bizə 500 min tümən pul verdi. O pul, bizə çox kömək oldu. Hərata qayıdan yolda, Əlirza uşaqlarla kabab yeməyə endi. Mənə də israr edirdilər ki, onlarla yeyim. Amma o vaxt ət yeyə bilmirdim. Uşaqlar kababı yeyəndən sonra Əlirza mənə dedi:

-Bu canı yanmışlar nə yaman kabab xoşlayırmışlar!

Artıq iki ay olmuşdu və İrana qayıtmaq vaxtıydı. Hamıyla sağollaşıb İrana yollandıq. İrana çatanda, mən 3 gün boyu yatdım! Bədənim çox zəifləmişdi və ayağa qalxmağa halım yox idi. Hətta Əlirza və uşaqlar yanımda bir şey yeyəndə, mədəm bulanırdı. Hər dəfə onlara deyirdim:

-Vay! Yenə mətbəxə gedirsiniz!

Atamgilin evi, babam onlardan ayrıldığı üçün, bir-birinə dəymişdi. Fatimə xalam, babamı məcbur edirdi ki, ona və anasına ayrıca ev tutsun. Xalamla anamın arasında söz-söhbət olmuşdu və hər biri digərini incitməyə başlamışdı. Həll yolu evi satıb pulunu böldüşdürmək idi. Ev, 10 gün müddətində satıldı.

Evin pulu atamın əlinə keçən kimi, qardaşım xaricə getmək həvəsinə düşdü. Onu bu istəyindən daşındırmaq mümkün deyildi. Anam dedi:

-Belədirsə, biz də onunla birgə xaricə gedək.

Ev satılmışdı. Ev əşyalarını da satdılar və bir neçə çanta paltar qaldı. Pulu, bir nəfərə verdilər ki, iki aya onları ölkədən çıxarsın. Həmin şəxs, bu işi qanunsuz şəkildə görürdü. 2-3 ay öz evlərində qaldılar. Amma getmək hələ alınmamışdı. Evi alan, evini istəyirdi. Məcburən bizim evə gəldilər və biz anam, atam, Mərcan, Zəhra və Rzaya

evimizdə yer açdıq. İki ay da bizim evdə qaldılar. Əlirzadan o müddətdə ailəmə qarşı gülərüzlük və həmişəki zarafatlarından başqa heç nə görmədim. Atam və digər ailə üzvlərinin nigarançılığı və çarəsizliyi get-gedə artırdı. Əlirza da bacardığı qədər, onların işiylə maraqlanırdı.

Qanun insanlara həll yolu göstərməyəndə və boşluq yarananda, qanunsuz işlər artmağa başlayır. Dünyaya gəldiyim gündən, o günə qədər, heç vaxt sənəd problemimiz olmamışdı. Həmişə babam və atam vaxtında oturma icazələrimizi artırmışdılar. Atam bizim qaçqın kimi yaşayib didərgin düşməyimizi istəmirdi. Sənədlərimiz əslində bir kağız idi ki, yaşayan bir şəxsin varlığını bildirirdi. Ev satılandan sonra, birdən dollar dəhşətli bahalaşdı və qiyməti qalxdı. Həmin qaçaqçı şəxs, artıq atamdan 3 qat pul istəyirdi. Atam da razılıq vermirdi, amma orta yol da tapmadılar. Bir müddət sonra, bir həll yolu tapmaq ümidiylə Əfqanistana getmə qərarına gəldilər. Əfqanistana yollandılar, amma 2-3 ay sonra geri qayıtdılar. Artıq nə pulları nə də evləri var idi. 2 milyonla onlara ev kirayələdik. Bu stress və təzyiq, 3-cü uşağımla öz səhhətimə fikir verməməyimə səbəb oldu. Uşağın dünyaya gəlmə vaxtı keçmişdi və mən yenə öz ayağımla xəstəxanaya getməliydim. Öncəki dəfələrdəki kimi, vəsiyyətnamə yazıb Quraanın arasına qoydum. Bir qədər İmam Hüseyn (ə) türbəti də hicabımın guşəsinə düyünlədim ki, uşaq dünyaya gələndə ağzına ilk dəyən şey, türbət olsun.

O müddətdəki qələbəliyə rəğmən, uşağa ad seçmişdik. Ad seçimini Əlirza etməliydi. Çünki mənim seçdiyim adları bəyənmirdi. Mənə deyirdi ki, sənin seçdiyin adlar şitdir! Mən, Fərzanə adını çox istəyirdim. Bir gün quraan oxuyanda məni səslədi və dedi:

-Qızımızın adını, Tuba qoyaq.

-Yox, ağır addır. Nənələr yadıma düşür!

-Yox, bu adı Quraandan tapdım.

Ayəsini də oxuyub mənasını dedi. Sonra da "Tuba, yalnız bu ad!" deyə təkid etdi.

31.03.2011 tarixində, Allah Tubanı bizə hədiyyə etdi. Bu dəfə də yanımda yemək aparmamışdım. Anam içəri girəndə, cib telefonuyla uşağın şəkilini çəkib, Əlirzaya göstərdi. Əlirza gözləmə zalında idi. Şəkili görəndən sonra mənə zəng edib dedi:

-Necə də gözəl və nazlı qız dünyaya gətirdin mənim üçün! Sizi görməyə səbirsizlənirəm.

Qızını nazlayanda hər dəfə deyirdi:

-Atasının Tubası, Atasının nazlısı.

Heç kim anlamasa da, mən görürdüm ki, Əlirza Tubaya fərqli məhəbbəti vardı. Onu daha çox qucaqlayır, daha çox səsləyirdi. Özü deyirdi ki, uşaq ağlayanda, Allahı zikr edir. Amma Tubanı ağlamağa qoymur və tez qucağına alırdı.

Maddi durmumuz yaxşı idi. Əlirza artıq fəhlə və şagird boyaçı deyildi. Özü usta idi və öz işini görürdü. Amma mən, yenə də qənaətlə davranırdım. Nə özümə, nə də Əlirzaya paltar almırdım. Biz bir paltar alanda, ömür boyu onu geyinirdik.

Bir gün, atam bizə gəlib çox narahat halda dedi:

-Fılan kəsə olan borcumu ödəyin!

Atamın o dərəcədə narahat olmasına çox pis oldum və dərhal Əlirzaya zəng edib dedim:

-Axşam evə gələndə, fılan kəsə olan 500 min borcumuzu da gətir!

-Hardan tapım o qədər pulu?!

-Bilmirəm! tap və gətir!

Axşam gələndə, başı sarğılıydı! Şoka düşdüm və nə olduğunu soruşdum. Cavabımda dedi:

-Heç nə! Xanım mənə pul tap deyə əmr etdi, mən də fikirli halda düşünürdüm ki, birdən kiriş əyildi və kəlləmə düşdü. Başıma 3 tikiş atdılar. Amma əvəzinə pulu tapıb gətirdim.

Tuba dünyaya gəlmədən öncə, Hadi əmi Əlirza haqqında bir dəfə dedi:

-Niyə bu yazığın bəxti yoxdur?! Nəyə əl atsa, səmərəsiz olur! Dünyanın ən qara bəxtli insanı olub və heç günə çıxmır! Əlirzanın başına gələn pis hadisələr, hamımızı kədərləndirir. Deyirəm ki, gəlin adını dəyişək! Bəlkə adını dəyişsək, taleyi və bəxti də dəyişilər. Qalan ömrünü də rahatlıqla keçirər!

Bir dəfə, İmam Rza (ə)-ın viladətində, hacı Əhmədin ailəsi ilə anamgil bizdə idilər. Yaxşı fürsət tapmışdım və Əlirzanın adını dəyişmək barədə söhbət açdım. Özü gülür və başını silkələyirdi. Amma hamı bu fikirlə razıydı. Hər kəs, bir ad təklif etdi. Mən, Əli Əkbər və İbrahim adlarını təklif etdim. Murtaza, Hamid adını dedi. Atam, Səxi və anam Əhməd adını təklif etdi. Özü gülüb dedi:

-Adımı Saman, ya da Sasan qoyun!

Ona dedim:

-Bax, zarafat etmirik! Samanla Sasan adı bizə yaraşmır!

-Çox da yaraşır. Adımı Saman qoyun ki, həyatım sahmana düşsün!

Adları balaca kağızlara yazıb, Quraanın arasına qoyduq. 3 dəfə Quraanı açıb, kağız götürdük. İlk dəfə Hamid adı gəldi.

İkinci dəfə, yenə Hamid adı gəldi.

Üçüncü dəfə də Hamid adı gəldi!

Əlirza, əfqan geyimini geyinib evdən çıxdı. Bir qutu şirniyyat alıb qayıtdı. Hamımız yeni adını təbrik edib üzərlik yandırıb salavat çəkdik.

**Allahın adı ilə**

Sizə isti salamımı göndərirəm, siz dəyərli insanlara, əziz bacım Bənin can, balaca Fatimə və Təvəssüli bəy. Ümidvaram ki, xoşbəxtliyin işıq saçan günəşi, həyatınıza həmişəkindən daha nurlu və daha isti saçsın. Həmçinin, gözəl günlər keçirdiyinizi və daha gözəl günlərin sizi gözlədiyini ümid edirəm. Mübarək Ramazan ayının gəlişi münasibətiylə sizi səmimi qəlbdən təbrik edirəm. Allah oruc-namazlarınızı qəbul etsin inşallah.

Bizim halımız da yaxşıdır. Şükür, hələ ki, nəfəs alırıq. Amma sizə çox darıxmışıq. Xüsusilə də şirin və dəcəl Fatimə üçün çox darıxmışıq. Siz gedəndə də düz-əməlli sağollaşa bilmədik və təkcə mesajla vidalaşdıq.

Sizin də darıxıb darıxmadığınızı bilmirəm. Amma bizə məktub yazın. İnşallah ki, çox tez zamanda görüşək. Vaxtınızı çox almayım. Fatimə üçün kiçik bir hədiyyə göndərmişik. Ümid edirəm ki, bəyənsin. Bu mübarək gecələrdə, bizləri dualarınızda unutmayın.

Bu arada, demişdin ki, pərdələri və qabları göndərim. Təssüflər olsun ki, evin açarını itirmişəm. Bu səbəbdən qab göndərə bilmədim. Amma pərdələri göndərdim. Həmçinin uşaq yağını da çox axtardım, lakin tapmadım. Fatiməni bizim yerimizə çoxlu öp. Bütün tanışlar və dostlara salamımızı yetir. Kərbəlayi ailəsinə, bibiyə, Fatimənin atasına və digər hamıya salam-dua de. Həlimi bəyin ailəsinə də salam yetir.

Sizi Allaha tapşırıram.

Görüşmək ümidiylə

Raziyə

Tarix: 8.10.2005

## On yeddinci fəsil

2011-ci ildə, çox adam Kərbəla və Suriyaya ziyarətə gedirdilər. Çoxu Əfqanistandan İrana gəlir və sonra ziyarətə yollanırdılar. Hətta Əfqanistanın ən ucqar yerlərindən insanlar mal-qoyununu və ya torpağını satıb Kərbəla və Suriya ziyarətlərinə yollanırdılar. Bəziləri də Kabildən Dubaya təyyarə ilə, Dubaydan İraqa da maşınla gedir və qayıdanda İrandan keçirdilər. Dəstə-dəstə insan, İrana gəlir və gələn kimi bizi axtarmağa başlayırdılar.

Əlirza yenə Əlizadə bəylə fəhləliyə gedirdi. İşdən zəng edib deyirdi ki, “axşama 7-8 kərbəlayi qonağımız olacaq.” Amma qonaqlar gələndə, görürdüm ki, 25 nəfərdirlər! Karvanla birgə gəlirdilər. Onlar deyirdilər:

-Ziyarətə elə həvəsimiz var ki, gözümüzə yuxu getmir! Hətta heç yorulmuruq!

Çoxu da yaşlı qadın və kişilər idi. Oturub öz xatirələrini nağıl edirdilər. Elə həvəs və həyəcanla ziyarətdən danışırdılar ki, bizim də qəlbimiz ziyarət üçün alovlanırdı.

Həmin günlərdə, karvanlardan biri Suriyaya daxil olmadan yarı yoldan qayıtdı. Xəbər vermişdilər ki, Suriyada müharibə başlayıbdır və yollar təhlükəlidir.

Ömrü boyu Əfqanistandan ayağını çölə qoymayan 60-70 yaşlı zəvvarlar, ziyarət arzuları nakam qalıb ağlayır və deyirdilər:

-İndi biz hansı üzlə Əfqanistana qayıdaq?! Fılankəs getdi ziyarətə, amma sıra bizə gələndə vəziyyət belə oldu!

Suriyadakı böhranı və müharibəni ilk belə öyrənmişdik. Hələ televizya və qəzetlər bu barədə heç nə deməmişdi.

O müddətdə, zəvvarların bərəkətindən, evimiz qonaqla doluydu. Təbərrük üçün də bizə möhür və səccadə gətirirdilər. Başqa bir şey almağa da imkan yox idi. Yolları uzun idi və çantaları yüngül olmalıydı. Bu ardıcıl qonaqlıqlarda, anam və bacılarım yardıma gəlirdilər. Hər gecə qonaqlar gedəndə və işlər bitəndən sonra Əlirza mənə təşəkkür edib deyirdi:

-Yorulmayasan Bənin can! Çox əziyyət çəkdin. Əcrini imamların anası, özü versin.

Artıq Əlirza evdən az çıxırdı. Gedəndə də, işə getmədiyi aydın idi. Evdə olanda, çox vaxt xəbər saytlarını oxuyub gün boyu telefonda uzaqda olan dostlarıyla bu xəbərləri analiz etməyə keçirirdi.

Avstraliyada olan dostu Şəfəq müəllim və Danimarkada yaşayan dostu Feyzi müəllimlə əlaqədə idi və gündəmdə olan xəbərləri onlarla danışırdı. Çox sayda qəzet də oxuyurdu. Oxuduğu hər şey, son bir ildə Suriyada baş verən müharibə haqqında idi. Mən isə bu faciə xəbərlərini televizordan izləyirdim. Elə zalimcə cinayətlər baş verirdi ki, o günədək islam dünyasında misli və bənzəri görünməmişdi. Ən pisi də bu idi ki, bu müharibədə, müsəlmanlar, müsəlmanları öldürürdü! Bu necə müsəlmançılıqdır?! Hücum edən düşmən, islamı iddia edirdi, amm həqiqə islamla yerdən göyə qədər uzaq idi!

Əlirza çox iztirablı idi və təşvişini görmək olurdu. Tehrana ardıcıl səfərləri, evdən çıxıb gecə əli boş və toz-torpaqlı olmayan platrala qayıtmaq, qəzetlər və saytlardan bəzi şeyləri dəftərinə yazmaq, hamısı yeni bir şeyin baş verəcəyinin göstərcisi idi. İllər boyu, mənə dağlardaki mübarizəsi haqqında heç nə danışmamışdı, mən də onu sıxmamış və qarşısını almamışdım. Bu dəfə də yalnız sakitcə izləməliydim. Soruşanda ki, "zəng edən kim idi?" Cavabımda deyirdi:

-Güya adını desəm, tanıyacaqsan? Fılan kəs idi!

Dəftərə yazdıqlarını da bəzən oxuyurdum. Uşaqlar yatanda, yorğun və qəmli halıyla mənə Amerika və İsrailin cinayətlərindən, həmçinin bölgədə İranın heybətli duruşundan danışırdı. Amma halı yaxşı deyildi. Televizordakı xəbərlər, İŞİD-in cinayətlərindən video və ya şəkil göstərəndə, halı pis olurdu və yemək yeməyib evdən çıxırdı. 2-3 saat sonra evə qayıdanda, ondan harada olduğunu soruşurdum. Deyirdi:

-Hərəmə gedib tövbə etdim. Biz rahat və yumuşaq yataqlarımızda gecəni yatırıq, bol bərəkətli süfrələrimizdə yemək yeyirik, amma Suriya xalqı çətinlik və ölümlə əlbəyaxadır. Belə olmamalıdır!

Yay gəldi və biz bu dəfə 3 uşaqla Hərata yollandıq. Əlirza çatan kimi Həratda qalmayıb, gecəylə Kabilə yollandı. Avtobuslar yolların gündüzlər təhlükəli olduğu üçün, gecə yarısı yola düşürdü. Bizim də onunla getməyimizi istəyirdi. Mən isə dedim:

-Yox, 3 uşaqla Kabilə getmək çətindir. Hava da istidir. Biz bir neçə gün burada qalaq. Sən gəlməsən, özümüz İrana qayıdarıq. Burada qala bilmərəm. Ramazan ayına da az qalıb.

Uşaqlar, xəstələndilər. Həratın isti havası da çətinliyi artırır və evlərdə sərinkeş tapılmırdı. Hadi əminin evində kondisioner yandırmırdılar. Mağazaları evin yanındaydı və mağazadakı soyuduya görə kondisioneri söndürürdülər.

Əlirza, çox yubandı. Hacı Əhmədə dedim:

-Bizi İrana göndərin.

Mənə dedi:

-Özüm sizi aparacam, hazırlanın.

Əlirzaya, Hacı Əhmədlə İrana qayıtdığımı bildirdim. Hacı Əhməd yolda uşaqların xəstə halını görüb dedi:

-Bu uşaqları niyə bu halda buraxıb gedib?! Kabilə getmək hardan çıxdı?! Bəs deyil bu qədər səfər!? Yetər bu qədər səfər, bu qədər didərginlik...

Əlirza, Ramazanda qayıtmadı. Amma Fitir bayramına gəlib çatdı. Payızda yenə Kabilə getdi və 3 ay orada qaldı. Qış fəsli də gəib çatdı və biz onun yoxluğunun çətinliyi ilə yanaşı, Əfqanistanın kəskin soyuğunda onun səhhətinə görə də nigaran idik. O müddətdə, evimizin kişi işləri, atamın öhdəsinə idi. Qarları evin önündən təmizləyir, həyətdən qapının önünə qədər yol açır və evin istilik sistemini quraşdırırdı.

Bir gün, uşaqlar bir otağın qapısını möhkəm bağlamışdılar və qapı açılmırdı. Həll yolu, usta gətirmək idi. Mən usta gətirməyə qorxurdum. Evə usta gətirmək riskliydi, həm də verəcək pulum yox idi. Məcburən çəkiclə otağın qapısını sındırdım və arasından get-gəl edib paltarlarımızı götürürdük.

Əlirzanın olmadığı müddətdə, uşaqların onu unutmaması üçün əlimdən gələni edirdim. Fatimə məktəbdən qayıdanda ona deyirdim:

-Ata zəng eləmişdi və sənə çoxlu salamı vardı!

Ya Həmid Rzaya deyirdim:

-Ata səninlə danışmaq istəyirdi. Gəl yığım danış.

Ata zəng elədi, atanın salamı var, süfrə başında atanın yeri məlum, ata da südlü aş sevir və bu kimi cümlələri davamlı deyirdim ki, uşaqlar Əlirzanı xatırlasınlar. Bunlarla, ata indi burada olmasa da, varlığını yadlarına salırdım. Hətta bəzən insafsızca onları cəzalandırmaq üçün də atanın gəlməyini gözləyirdim. Fatimə, davamlı atasından danışırdı. Xüsusilə də rəngarəng məktəb əşyaları görür və almağımı istəyirdi, mən alamayanda, atası yadına düşür və deyirdi:

-Neynək! Atam gələndə alacaq!

Nəhayət, Əlirza gəldi. Amma iş-güc yox idi. Qış fəslində, bina tikintisi az olur. Bir neçə həftə sonra tehrana getdi. O vaxtlar, çox özünə qapanmışdı. Öz aləmində yaşayırdı. Hərəmə də tək gedirdi və mənim də onunla getməyimə icazə vermirdi. Həmişəkindən daha yorğun idi və ağızını açıb, narahatçılığının səbəbini demirdi. Mən də çox ilişmirdim. Davamlı səfərdə və yollarda olduğu üçün belə olduğunu düşünürdüm. Bu səfərlər, onun yorğun halını, daha da yorğun edirdi. Dostları evimizə get-gəl etməsəydilər, gecə-gündüzü təkliklə keçirdi.

Xavəri bəy, demək olar ki, hər gün bizə gəlirdi və Əlirza ailə-uşaqlı olmasaydı, gecəni də qalardı. İkisi otaqda danışanda, qapını və pəncərələri bağlayırdılar ki, səsləri eşidilməsin. Bəzən danışanda, pıçıldayaraq danışırdılar. Mən də özümü üçün dərzilik edir və uşaqları saxlayırdım. Tuba, Əlirza və dostlar qonaqlıqlarının sabit üzvü idi. Dağa dırmandığı kimi Əlirzanın dizindən çıxıb çiyninə dırmanırdı. Çiyninə çatanda da hamıya əl sallayırdı. Bəzən, Əlirzanın gün boyu neçə dəfə Tubanın yanağını öpdüyünü sayırdım. bir dəfə bir yanağını 17 dəfə və digərini 13 dəfə ardıcıl öpmüşdü.

2013-cü ilin mart ayı idi. Əlirza evdəydi və balaca evimizin bayram təmizliyinə onu işlətməliydim. Palazları yudu və iri suqızdıranı da tər-təmiz sildi. Otaqları birgə silib süpürdük. Baş verən ən gözəl an, Əlirzanın bizimlə birgə bayram bazarlığı etməsiydi. Uzun müddət sonra özünə təzə pencək-şalvar və mavi köynək aldı. bir şey alanda o qədər endirim üçün çənə vururdu ki, satıcı axırda bezirdi. Hədis də oxuyurdu ki, tərləyənə qədər çənə vurmaq lazımdır! Hansı kitabdan və qaynaqdan bu hədisi oxuduğunu yalnız Allah bilir! Pencək-şalvar onu daha da heybətli və yaraşıqlı göstərirdi.

Əlirza yaşı artdıqca daha da olgunlaşır və püxtələşirdi. Amma o vaxtlardakı səssizliyi, püxtələşdiyinə görə deyildi. Özlüyümdə düşünürdüm ki, bəlkə bir ömür iş dalınca qaçıb və heç nə əldə etmədiyinə görə həyatdan yorulubdur.

Mənim üçün o, bina fəhləsi, boyaçı və ya yer qazan deyildi. Mənim üçün o, həmişə bir komandir idi. Buna inanaraq yaşadım. Yoxsa o çətin illərə dözə bilməzdim. Artıq saçlarının arasında, ağarmış tellər peyda olmuşdu. Saçları düz idi və sağa-sola daranmırdı. Tam ağarmasına da hələ çox qalmışdı.

Bayram günü, Əlirza hamıdan daha yaraşıqlı olmuşdu. Mənim bəyəndiyim kimi boy-buxunlu olmuşdu. Başı aşağı, uca boylu və gülərüz idi. Birgə evdən çıxıb qohumlarla bayramlaşmağa yollandıq. Mən heç nə deməsəm də, özü uşaqları aramıza salmırdı. Biz yan-yana dayanırdıq, Həmid Rza onun yanında və Fatimə də mənim yanımda dayanırdı. Tuba da öndə gedirdi. Yaz aylarının ilk günlərində, Əlirzanın yaraşıqlı halıyla onun yanında gəzmək, mənim haqqım idi. O gün, onun yanında durmaq haqqıma göz yummaq istəmirdim!

Anamgilin evindən də çıxıb, nənəmin evinə getdik. Kişilər öndə gedirdi, qadınlar isə arxada. İki dəstə olmuşduq. Amma mən gözümü Əlirzadan ala bilmirdim. Hətta stili və cüssəsi, Hizbillah qüvvələrini anımsadırdı. Özlüyümdə gülürdüm. Nənəmin evinin önünə çatanda, Əlirza gülüşümü görüb soruşdu:

-Nə olub xatun? Nəyə gülürsən?

-Gülmək də olmaz?

-Niyə, gül. Gülün gülüşü də gözəldir. Amma nəyə güldüyünü soruşuram.

-Arxadan sənə baxırdım və Hizbullah döyüşçülərinə bənzəyirdin.

Gülüb dedi:

-Bəh bəh! Necə də gözəl görünürmüşəm! Mən bu məqamlara laiq deyiləm. Amma sən məni belə görürsənsə, bu sənin üçün yaxşıdır. Bu səhnəni yadında saxla və düşün ki, Hizbullah döyüşçüsünün həyat yoldaşısan. Həmişə ona uyğun davran.

**Xatunun xatirə dəftərindən bir yazı:**

Bir şeydən artıq əminəm...

Əvvəllər sən gedəndə, çox soyuqqanlı davranmağa çalışırdım. Görürdüm ki, gecə-gündüz fikrin oradadır. Bütün işlərin, məqsədin və fikrin orada idi. Səni yanımda saxlamaq üçün, əlimdən heç nə gəlmirdi. Bu səbəbdən, ürəyimin ən dərinliyindən və bütün vücudumla səni İmam Əli (ə), İmam Rza (ə), Həzrəti Zəhra (s.a) və bütün məsumlara əmanət etdim. İnsanın niyyəti xeyir olan zaman, Allah özü bəndəsini qoruyur. Buna görə də arxayın idim və darıxanda da bunu büruzə vermirdim.

Xülasə, hər ötən gün, məsuliyyətlərim çoxalır və ağırlaşır. Düşünürəm ki, özümü problemlərə dözməyə

öyrəşdirməliyəm və daha çətininə də hazırlıqlı olmalıyam. İnşallah.

Tarix: 03.12.2003

Gecə saat 12.

# İkinci hissə:

## Birinci fəsil

Əlirzanın naməlum yerlərə get-gəli çoxalmışdı. Səhər gedirdi və axşama qədər gəlmirdi. Nəylə məşğul olduğunu bilmirdim. Amma başı çox qarışıq idi. Əlirzanın qardaşı, Şir Məhəmmədin xanımı və qızı Qumdan gəlmişdilər və bizim evdə qalırdılar. Şir Məhəmməd əminin oğlu Məhəmməd Rza, xəstəxanada idi. Əlirzanın telefonuna ardıcıl zənglər gəlirdi və uzun söhbətləri olurdu. Evdə olanda, kompüter önündən tərpənmirdi. Xaricdə olan dostlarıyla danışırdı. Söhbət mövzusu da həmişə Suriya müharibəsi idi. Anladım ki, cihad həvəsi edibdir. Amma harada? Suriyada? Mənə bu, çox qəribə gəlirdi. Buna görə də bu fikri ağlımdan uzaqlaşdırırdım.

Bir gecə, yatmadan əvvəl mənə dedi:

-Heç soruşmursan nə olub! Nə etdiyimi bilmək istəmirsən?!

-Həmişəki kimi məşğulsan. Yəqin ki, özünə görə planların var.

Artıq hər şeyi deməyə çox meyilli idi. Qarşısında sakitcə oturub, hər şeyi danışmasını gözlədim.

-Dua elə, Suriyaya getmək istəyirəm.

Düşündüm ki, ziyarət həvəsinə düşüb. Amma Suriyada müharibə idi və ziyarətə macal yox idi. Ona dedim:

-Suriyaya getmək istəyirsən?! Yaxşı fikirdir. Mən də gələrəm. İndiyədək Suriyadakı ziyarətlərə getməmişəm.

Başını yox əlaməti olaraq silkələyib dedi:

-Yox, olmaz. Getdiyim yer qadınlara uyğun deyil. Hal hazırda, dostlarla danışırıq. Hələ heç nə müəyyənləşməyib. Amma getmək vacibdir, şərtsiz və qarşılıqsızca!

Anladım ki, ziyarətə getmir. Amma özümü ələ aldım. Soyuqqanlılıqla soruşdum:

-Kimlərlə gedəcəksən? Orada nə edəcəksiniz?

-Livanın Hizbullahıyla gedəcəyik. Bunu bizim üçün İranın Qüds korpusu edəcək.

Heç tapşırmadı ki, heç kimə demə. Amma özüm bilirdim ki, bundan heç kimə söz etməməliyəm. Telefonda uzun-uzadı danışması və kompüterdə yazışmasının cihad və müharibəyə getmək üçün olduğunu artıq aydın olmuşdu. Bir-bir keçmişdəki cəbhə yoldaşlarını bir araya gətirməyə çalışırdı. Onları bir araya toplamaq çətin idi. Hər biri İranın və dünyanın bir guşəsinə getmişdilər.

Bir həftə sonra, Əlirzanın Suriya barəsində heç nə demədiyini görüb, özüm soruşdum:

-Planlarınız nə yerdədir?

Dərindən bir ah çəkib dedi:

-Hələ ki, heç nə! Bunu yekunlaşdırmaq çox çətindir!

Ürəyimdəki sözləri açıqlamalıydım, ona dedim:

-Mən nigaranam. Sən cəbhədə təcrübəlisən. Özün deyirsən ki, şəhidlər qafiləsindən geri qalmısan. Amma ora Əfqanistan deyil! Oradakı müharibədən nə anlayırsan?! Həm də, sənə bir şey olsa, mən 3 uşaqlı gənc bir qadınam, səndən sonra həyatımızı necə davam edərəm?! Kimə bel bağlayım? Atamın öz ailəsi-uşağı var. Bizə də baxa bilməz. Onlardan bunu gözləmə. Bizi kimə tapşırıb gedirsən? Qoy, bu müharibədən başı çıxanlar getsinlər. Sən getmə!

Başını balışdan qaldırıb oturdu. Dizini qucaqlayıb dedi:

-Sən Allahı tanıyırsansa, mən səni Allaha tapşırıb gedirəm! Yalnız Allaha! Ona buna deyil! Atana və başqa birinə tapşırmıram. Yalnız və təkcə Allaha tapşırıram. Allah, məndən və səndən də uşaqlarımıza daha yaxındır. Boyundakı damardan daha yaxın birini tanıyırsan?!

-Düzdü. Amma ora qərib ölkədir. Biz mühacirik. Özümüzəməxsus problemlərimiz var. Uşaqlarımıza məxsus problemlərimiz də var. Bu müharibə İranda və ya Əfqanistanda olsaydı, sənin döyüşməyini başa düşərdim. Amma uzaq ölkəyə gedirsən. Bu arada, neçə saatlıq yoldur?

-Təyyarə ilə 3 saat. İndi Suriya, bizim üçün Kərbəladır. Bu müharibə də, Aşuradır. Təkfirçi terroristlər deyiblər ki, Həzrəti Zeynəb (s)-nın hərəmini partladıb, xanımın qəbrini qazacaqlar! Dünən xəbərlərdə deyilənləri görmədin? Hucr İbn Adiyin qəbrini qazıblar. İmam Hüseyn (ə)-ın bacısının qəbrini qazacaqlarını təsəvvür edəndə bədənim əsir! İndi, İmam Hüseyn (ə)-ın "mənə kömək edəcək bir köməkçi varmı?" nidasına, ləbbeyk demə zamanıdır! İmamın Aşura günündə etdiyi bu nida, heç vaxt susmayacaq. Nə olsun ki, ora Suriyadır. Nyu-york da olsa, mən oraya gedib döyüşməyi özümə şərən vacib bilirəm. Nə qədər ki, atəş

açа bilirəm, istər qanuni yolla, istər başqa yolla oraya gedib çıxmalıyam.

Başını dizinin üstünə qoydu. Bir qədər sonra çiyinləri titrəməyə başladı. Ağlayırdı, mən də sakit qalmışdım. Divara yaslanıb uşaqlara baxdım. Hər biri bir tərəfdə yatmışdılar. Baxışlarımı onların üstündən gəzdirib, divardakı Kərbəla şəkilində dayandım. Kərbəla...

Bir müddət sonra, dostlarıyla aralarında nə danışdıqlarını anlayırdım. Prosesin hansı mərhələsində olduqlarını da başa düşürdüm. Döyüşçülərdən 70 nəfər, hazırlıqlarını bildirmişdilər. Hər gün Rza Xavəri Əlirzanın dalınca gəlirdi və birgə iclasa gedib döyüşçülərə təlim verirdilər. Digər döyüşçüləri də ondan-bundan soruşaraq tapıb, hamısını iclasa gətirirdilər. Mənə də deyirdi:

-Sən özün üçün işlə. Tikiş maşınını dayandırma ki, dara düşməyəsən. İndiyədək həyatının öhdəsindən gəlibsən. Mən də əlimdən gələni edəcəm. Nə olacağına dair heç bir fikrimiz yoxdur. Bilinmir ki, getsək, bir ay sonra qayıdacayıq ya bir il sonra. Nə olacağını bilmirəm.

Bir müddət sonra, əmim arvadı və anamgil, Əlirzanın səfərə gedəcəyini anladılar. Bu insan, bir yerdə qalan deyildi. O, səfər üçün doğulmuşdu. Çamadanını da hazırlamışdı. Saat neçədə gedəcəkləri məlum deyildi. 3 həftə keçdi və hazır vəziyyətdə bir guşədə gözləyən çamadan hər gün gözümə batırdı. Nəhayət may ayında, əl-vida vaxtı gəlib çatdı.

Günortadan sonra, hamısı qatar stansiyasında toplanacaqdılar. Əlirza getmədən əvvəl, xəstəxanaya gedib Məhəmməd Rzaya baş çəkmək istəyirdi. Bu səbəbdən, xəstəxanada onu Quraanın altından adladıb arxasınca su tökə bilməzdim! Bunu evdən çıxanda etdim. Qapının önündə Quraan tutdum və Əlirza altından keçdi. Arxasınca

da su tökdüm ki, sağ-salamat qayıtsın. Bu hərəkətimə təəccübləndi, amma heç nə demədi. Günorta radələrində, atamla birgə xəstəxanaya getdik. Məhəmməd Rza əmisiylə qucaqlaşıb sağollaşdı. Yağış kimi göz yaşı tökürdü. Qardaşı arvadı Əlirzadan soruşdu:

-Haraya gedirsən inşallah?

Əlirza təbəssüm edib dedi:

-İnşallah Suriyaya.

Atam şoka düşdü. Heç nə demədi. Yalnız sağollaşanda onu qucaqladı.

Əlirzayla birgə, hamıdan ayrıldıq. Rəngi qaçmışdı. Halsızdı və dodaqları qurumuşdu. Səhərdən evdən çıxmışdı və iclasa, hərəmə və sonra da xəstəxanaya gəlmişdi. Axşamüstü saat 4 idi və o vaxta qədər bir stəkan çay da içməmişdi. Məhəmməd Rzanın meyvə sularından birini açıb əlinə verdim. Bir dəfəyə hamısını başına çəkdi.

Xəstəxananın həyətinə çıxanda, Rza Xavəri və başqa bir neçə nəfəri hasarın arxasından gördük. Əlirza davamlı tapşırıqlar edir və deyirdi:

-Ehtimalən bəzi ailələr səndən sual soruşmağa gələcəklər. Onlarla başını ağrıtma. Bir nəfərin nömrəsini verəcəm, adı Rizayidir. De ki, ona zəng edib soruşsunlar.

Maşının önünə qədər onunla birgə getdim. Onları Ayətəl-kürsü ilə yola salıb sədəqə sandığına pul atdım və hamısını İmam Zaman (ə.f)-ə tapşırdım. Onun səfəri, dumanlı bir dərəyə getmək kimi idi. Qarşısında nə olduğu görünmürdü. Mən yenə özümü hər şeyə hazırlamalıydım. Evə qayıdanda, eltim dedi:

-Bəh bəh, Əlirza ziyarətə getdi və inşallah 1-2 həftəyə sağ-salamat geri qayıdacaq.

Başımı yelləyib dedim:

-Ziyarətə? Nə ziyarəti?! Ziyarət üçün getmədi.

-Bənin! Bəs nə üçün getdi?!
Uşaqlar eşitməsin deyə, çox alçaq səslə dedim:
-Müharibə üçün getdilər! Döyüşə!

**Xatunun xatirə dəftərindən bir yazı:**

Səndən tək istədiyim şey, iltimasi duadır. Tək məni deyil, İmam Zaman (ə.f)-ın sağlamlığını və tez zühur etməsini, qələbə çalmağımızı, şəhadətə və əməl-salehə nail olmağımız üçün dua etməni istəyirəm. Başqa nə yazacağımı bilmirəm. Heç bilmirəm ki, bunları sənə tapşırmaq lazım idi ya yox! Bilmirəm ki, demək istədiklərimə qələm dözər ya yox...

Bu qələm, elə bir yerə yazır ki, mənəviyyətin özü, irfanın ruhu və həqiqi eşq oradadır.

Ümidvaram ki, sənin dualarınla mən də sənin yolunu gedib arxanca gəlim və əgər bir gün şəhid olsan, mən də cənnətə laiq olum və Quraanın "onlar üçün cənnətdə, ağacların altından çaylar axar[1]" dediyi yerdə, səninlə orada görüşüm inşaAllah.

Arzuların yolunda səninlə birgə gəlmək istəyən biri,
Bənin
Tarix: 15.09.2013
Saat 1.10
Gecən xeyrə əzizim...

---

[1] Maidə surəsi, ayə 119

# İkinci fəsil

O orada döyüşürdü, mən də burada döyüşməliydim. Heç eşitmədim kimsə desin ki, Allah qorusun əhli-beyt yolunda bu vəhşi müharibəyə gedən gənclərimizi. Hara getsək, hər yerdə söhbət Suriyadan və orada döyüşən əfqanlılardan gedirdi. Döyüşçülərimizə təhqiredici və alçadıcı sözlər deyirdilər. Hər şeyi də pul ilə əlaqələndirib deyirdilər:

-Bunlar pul üçün gediblər. Aralarında oğru və narkoman olan da var. Orada kefə gediblər. Güya işə gediblər, bu da oldu iş!

Bu sözləri eşitməzlikdən gəlməyə çalışırdım. Səssiz qalmalıydım. Hətta bəzi yaxın qohumlarım da Əlirzanın Suriyaya getdiyini bilmirdilər. Heç kimə də demirdik. Kimsə Əlirzanın harda olduğunu soruşanda, deyirdim:

-Həmişəki kimi səfərdədir.

Əlirzanın vaxtı olanda mənə hər şeyi başa salır və səfərinin ayrıntılarından danışırdı. Amma digər döyüşçülər, belə etməmişdilər. Heç kimə heç nə deməyə icazə verilməmişdi və ailələrinə Suriyadan başqa bir yerin adını verməliydilər.

Bir mühacir, evdə olmaması üçün yüzlərcə bəhanə tapa bilər. Şirazda tikinti işində olmaq, Qişmdə bina fəhləliyi etmək, Şimalda yol təmirində işləmək və s...

Döyüşçülər Suriyaya çatıb yerləşəndən sonra, ailələrinə sağ çatdıqlarını bildirmişdilər. Bu da getdiklərindən 15 gün sonra idi. O müddətdə, hamısı bir qərargahda qalırdılar və oradan heç kimlə danışma icazəsi yox idi. 15 gün, ana-ataları və ya xanımları zəng edəndə, cavab vermədilər. Bu, ailələrin qorxmasının ilk qıvılcımı idi, hamı soruşurdu:

-Bu necə fəhləlikdir ki, hamısının telefonu bağlıdır!

Bəzi ailələr bilirdilər ki, oğulları Əlirzayla iş üçün gedib. Amma bu işin nə olduğunu və harada olduğunu bilmirdilər. Oğulları və ya ərlərinin Suriyadan zəng edib sağ olduğunu deyəndə, şoka düşürdülər. Onların müharibəyə getdiklərinə inanmırdılar. O kişilərin əhli-beytə olan eşq və məhəbbətilə maraqlanmırdılar, yalnız niyə müharibəyə xəbərsiz getdiklərini bilmək istəyirdilər.

Suriyadan evlərə zəng gələndə və ailələr uşaqlarının və ərlərinin Əlirza Təvəssüli ilə getdiyini biləndə, axtarıb bizim evi tapdılar. Hər gün ən az bir-iki ailə şikayətlənməyə gəlir və deyirdi ki, sənin ərin bizim oğlumuzu ya da ərimizi niyə aparıb?! Niyə xəbər verməyibsiniz?! Kimsə onları məcburən aparmadığını və özləri də getmək istədiklərini nə qədər başa salmağa çalışsam da xeyri yox idi. Onlara deyirdim ki, “bir kişini zorla qucaqlarına alıb aparmayıblar, yəqin ki, özü getmək istəyib. Mən də sizin kimiyəm və mənim də ərim gedib”. Amma bu sözlərim onları qane etmirdi.

Fədayi adlı bir xanım, Təvəssül duası yığıncaqlarında anamgilin evinin ünvanını soruşmuş və oraya getmişdi. Atam ona təsəlli verib demişdi:

-Nigaran olmayın. Sizin oğlunuz Suriyada komandirdir. Yeri də yaxşıdır.

Fədayi bəy, imanlı, bacarıqlı və təmiz niyyətli hərbiçi idi. Kiçik uşağı Tuba ilə eyni yaşda idi. Özü də uşaqlarına çox bağlıydı. Onun xanımı bizə deyirdi:

-Bunlar niyə yenə müharibəyə getdilər?! Axı bunlar öncədən Əfqanistanda döyüşmüşdülər?! Niyə bu çilə bitmir?!

Əlirzanın cəbhə yoldaşlarından iki nəfər, Haşimi bəy ilə Xordadiyan bəy ona çox darıxmış və onu axtarırdılar. Mən, onların xanımlarıyla dost idim. Bir gün, Haşimi bəyin evində görüş təyin etdik. Haşimi xanım, bizi gülərüz və məhəbbətlə qarşılayıb, qonaqpərvərlik etdi. Haşimi bəy məni görən kimi dedi:

-Bəh bəh! Komandirin xanımı!

Oradaca, ürəyimdə vəlvələ yarandı. Çox iztirablı bir hiss, mənə hakim oldu. Onun danışığında, çoxlu eyham və işarələr vardı və mən hamısını hiss etmişdim. Əsəbləşməyimin bilinməməsi üçün, özümü ələ alıb dedim:

-Suriyaya gedənlər haqqında camaatın reaksiyası barədə siz nə düşünürsünüz?

-Bəziləri, gedənləri danlayırlar. Övladlarının bu yolu getməsinə narazıdırlar. Təvəssüli gedibdir. Mən onu tanıyıram və bilirəm ki, onun məqsədi yalnız Allah rızası və əhli-beyt hərəmini qorumaqdır. Amma insanlar ayırd edə bilmirlər. Hamının pul üçün getdiyini düşünürlər. Bu yol, çətin yoldur. İnsanları başa salmaq və aydınlatmaq asan deyil.

Artıq Əlirzanın səfərindən iki ay yarım keçmişdi və onun üzünü görməyə çox darıxmışdıq. Bir dəfə zəng edib dedi:

-Hərəmin yaxınlığına gedirəm. Orada internet kafe var. Oradan görüntülü zəng eləməyə çalışacam.

Çox sevinmişdik. Əlirzanın qardaşı qızı Məsumənin, Hollandiyadakı nişanlısı Cavidlə görüntülü danışdığını görmüşdük. O vaxtdan Skype programını Əlirza kompüterə yükləmişdi və vebkamerayla dünyanın dörd bir yanındakı dostlarıyla, siyasi məsələlər haqqında görüntülü söhbət edirdi.

Uşaqlar, atalarını görməyi gözləyirdilər. Hamımız onu görmək üçün kompüter qarşısında oturmuş və gözümüzü ekrana zilləmişdik. Nəhayət, zəng qoşuldu və görüntüsü ekrana gəldi. Uşaqlar sevincdən atılıb düşürdülər. Hər biri atasıyla ayrıca danışmaq istəyirdi. Davamlı ona əl sallayırdılar. Mən yalnız “salam” deyə bildim! Dilim tutulmuşdu. Olduğu yer qaranlıq idi və üzü aydın görünmürdü. Amma az görünsə də qəmli və yorğun olduğu aydın idi. Həmişəkindən daha yorğun idi. Hərbi yaşıl uniforma geyinmişdi. Tərslikdən, Tuba çöldə. Mən, ekrana baxa-baxa qalmışdım. O qədər darıxmağımıza rəğmən, görüntülü zəngimiz cəmi 10 dəqiqə çəkdi.

Tuba qayıdanda, atası zəngdən çıxmışdı. Ağlamağa başladı və deyirdi:

-Ata hara getdi? Niyə məni gözləmədi?

Nə etsəm də sakitləşmirdi. Göz yaşlarını dayandırmağa əlimizdən gələni etdik, amma xeyri yox idi. Özünü yerə çırpır və qışqırırdı. Həmin anda Əlirza yenə zəng elədi. Onun ağlamaq səsini eşidəndə, dedi ki, “telefonu ver qızıma.”

Əlirza, Tuba sakitləşənədək onunla danışdı. Mən isə onun geyindiyi hərbi paltarı düşünürdüm. Fikirləşdim ki, uniformanı mənə gətirməsini ona deyim.

Əlirza ilə digər döyüşçülərin gedişindən 4 ay keçmişdi. O müddətdə, nə qədər təhqir olduğumuzu Allah bilir. Fatimiyyun batalyonu ilə tanınan ilk hərəm müdafiəçiləri, əfqanlı döyüşçülərin şəhidləri, media və xalqın səssizliyində gəlib çıxdılar. 4 gənc şəhid, ruhani olan və yaşlı valideyninə baxan şəhid Kəlani, şəhid Vayizi, şəhid Hüseyni və şəhid Həkimi.

Şəhid Hüseyni, Fatimiyyun batalyonunun atası olaraq tanınmışdı. Əlirzanın ilk müavini idi. 60 yaşı vardı və Həzrətin korpusundan o vaxta qədər Əlirzanın cəbhə yoldaşı idi. Bu şəhidlərin cənazələri gətirildi və Fatimiyyun adıyla dəfn edildi. Əlirzanı görəndə, bu ad haqqında ondan soruşacaqdım. Amma oradaca eşitdim ki, bir iclasda şəhid Hüseyni briqadaya bu adı təklif edib.

Bir şəhidin evindəki ağır fəzanı o vaxta qədər görməmişdim. Şəhidlərin ana və atası dərin və səssiz bir matəm yaşayırdılar. Aram görünsələr şokdaydılar. Şəhidlərin qürbətdə ölməsi də onların acısını artırırdı. Bunlar həmin insanlar idilər ki, başqa bəhanələrlə evlərindən çıxmışdılar və bir sonra ailələri onların Suriyada olduğunu anlamışdı. Kimsəyə xəbər vermək və onlar üçün şəhid mərasimi təşkil etməyə də icazə yox idi. Cənazəni, adi bir ölü kimi hərəmin ətrafında təvaf etdirib sükut və qəribcə evinə apardılar. Evdən sonra da Behişti-Rza məzarlığına aparıb orada dəfn etdilər. Hərəmdə heç kim onların şəhadətindən və Həzrəti Zeynəb müdafiəçi olduğundan söz etmədi. Evdə də sadə bir yas tutmağa icazə verilmişdi. Yalnız Gülşəhr məhəlləsinin əhalisi bu tabutların haradan gəldiyini bilirdi. O vaxt, yalnız Rezayi xanım və onun əri döyüşçülərlə ailələrini başa düşür və onlara təsəlli verirdi. Rezayi bəy, ailələrin narazılığını aradan qaldırmaq üçün əlindən gələni əsirgəmirdi.

Bunların hamısı onun öhdəsinə idi. Fatimiyyun batalyonunun təşkil edildiyi ilk gündən onlarla idi. Azyaşlı uşaqları onun işinə amne olmamışdı. Bir ayağı Suriyada, digəri İranda idi. Öz oğlu da 17 yaşında Suriya cəbhəsinə yollanmış və cihad edirdi. Şəhidlərin mərasimləri, yaralıların müalicəsi, ailələrin vəziyyəti və onlara baş çəkmək, hamısı onun öhdəsinə idi. Xanım Rezayi ilə mən, hər yerdə birlikdə idik.

Bir gün avtobusda, xanım Əhmədini gördüm. Ürəyi doluydu, amma tək çarəmiz səbr edib sakit qalmaq idi. Üzü, göz yaşlarıyla islanmışdı və ağlaya-ağlaya deyirdi:

-Xanım Təvəssüli! Bizim kişilər, canlarından keçib və İŞİD canavarlarına qarşı döyüşürlər, amma camaat burada onların kefə-damağa getdiklərini deyirlər!

Bu sözlər, başıma tökülən qaynar su kimi idi. Təhqir və alçatmaq bəs etməmişdi və artıq töhmət də atırdılar. Nə etməliydik? Bəziləri məni hədələyir və deyirdi ki, sənin ərin bizim uşaqları Suriyaya apardı, biz də ona uşaq dağı yaşadacıq! Bu qorxuyla yaşayırdım. Həm də uzun müddət evdə bir kişinin olmaması, ərlərimizin də dünyadakı ən vəhşi insanlarla döyüşdüyünü bilirdik. Hamısına birgə dözmək və səssiz qalmaqdan başqa çarəmiz yox idi. Digər döyüşçülərin xanımlarını da tapdım və zamanla kiçik bir qrup olduq. Suriya müharibəsində yaralanan döyüşçü Ruhullahın anasının evindən yığıncaqlar təşkil etməyə başladıq və bir-birimizə təsəlli olduq. Hər yığıncaqda Ziyarəti-Aşura oxuyur və növbəti yığıncağın nə vaxt olacağını bir-birimizə xəbər edirdik. Rezayi bəy bu yığıncaqları təşkil etməkdə bizə çox yardım edirdi. Zamanla sayımız artdı və 10 nəfərdən 20 nəfərə çatdı.

Rezayi bəy mənə davamlı tapşırırdı ki, “uşaqlarından muğayat ol”. Əlirza da üstü bağlı bunu deyirdi. Hətta

deyirdi ki, “bacarsan, evi dəyiş.” Fatimə və Həmid Rzaya deyirdim:

-Özgələrin əlindən nəsə alıb yeməyin. Hətta zorla ağzınıza qoysalar da, tüpürün. Özgələrlə danışmayın. Atanızın harda olduğunu məktəbdəki uşaqlara deməyin.

Uşaqlar, dediklərimi diqqətlə yerinə yetirirdilər. Amma qorxu və vahimə içində yaşadıqlarını anlayırdım.

Gecələr, həyətin dəmir qapısını içəridən açarla bağlayırdım. Böyük bir bıçaq da yatanda yanıma qoyurdum. Ailə və dost-tanış qonaqlıqlarında iştirak etmirdim. Göz önündə olmaq istəmirdim. Yalnız yas məclisləri olanda, gedib baş sağlığı verib tez qayıdırdım.

Nəzir aşı bişirməkdə profesional olmuşdum. Hər bəhanəylə, xüsusilə də televizor ağır hücumların olduğunu deyəndə qazanı qoyub aşımı asırdım. Əlirzanın olduğu yerə hücum olduğunu eşidəndə, tez gedib çörəkxanadan bir qədər xəmir alıb peraşki bişirib qonşulara paylayırdım. Bizim əqidəmizə görə, qızartma qoxusu və peraşki bişirmək bəlanı uzaqlaşdırıb hacətlərin qəbul olmasına səbəb olur.

Şəhidlər və onların ailələrinin həyat hekayəsini nağıl edən kitabları kitabxanadan əmanət alıb oxuyurdum. Günlük həyatdan uzaqlaşıb, həyatda yalnız çörək dalınca olmayan insanlarla uyğunlaşmaq istəyirdim. Hər bir kitabı oxuduqca, Əlirzaya bir addım daha yaxınlaşıb və onu daha yaxşı anlayırdım. Mənim Əlirzayla həyatımın, digər şəhid ailələrinə nə qədər bənzədiyini axtarırdım. Bəzi kitablarla ağlayırdım və güc-qüvvə alıb aramlıq tapırdım. Bu, həyata dözümümü artırırdı. O kitablardan bəzi yerlərini mesajla Əlirzaya göndərirdim. Mesajların möhtəvası cihad və müqavimət haqqında idi. Bilirdim ki, məni bu əhval-ruhiyyədə görəndə, o da güc-qüvvə tapır.

Bir cümə axşamı, Quraan oxuyanda, bu ayəyə çatdım:

**Möminlərdən – üzürlülər istisna olmaqla –** (evdə) **oturanlarla Allah yolunda öz malları və canları ilə cihad edənlər eyni olmazlar. Allah öz malları və canları ilə cihad edənləri evdə oturanlardan dərəcə etibarilə üstün etdi. Allah onların hamısına ən gözəl nemət vəd etmişdir. Allah mücahidləri evdə oturanlardan böyük bir mükafatla üstün etmişdir**[1]

Mücahidlər kəlməsi üzərində dayanıb, bir qədər düşündüm. Ardınca ayənin mənasını da oxudum. Anladım ki, bu ayə Allah yolunda döyüşənlər haqqında nazil olubdur. Cib telefonumla ayəni, təfsirini və öz anladıqlarımı yazıb, Əlirzaya göndərdim. O da mənə yazdı:

-Nə gözəl iş gördün! Əhsən sənə! Bu ayədən güc-qüvvə aldım.

Bir müddət sonra, Məhəmməd Hüseyn, mənə bir mesaj göndərdi. Mesaj, Əlirzaya göndərdiyim ayə və təfsiri idi. Ayədən sonra da mənim yazdıqlarım vardı:

"Müqavimət edin! Bilin ki, qələbə çox yaxındır. Pərvaz üçün, pərva lazımdır!"

Orada anladım ki, Əlirza mənim ona göndərdiyim mesajları digər döyüşçülərə də göndərir və bu mesajlar bölgədə həmasə və coşqu yaradır.

Bir gün qonşumuz, Əlirzanın Suriyaya getdiyini öyrəndi. Məni xeyli danlayıb dedi:

-Niyə qoydun getsin?! Sənin 3 uşağın var! Oranın necə təhlükəli olduğunu bilmirsən? Necə qoydun getsin?!

Mənə elə baxırdı, sanki yoldaşım bekarçılıqdan oraya gedib! Bir neçə gündən bir gəlib soruşurdu:

---

[1] Nisa surəsi, ayə 95

-Ərindən bir xəbər var?! Hələ gəlməyib?

Sonra da başını silkələyib nıç nıç edərək deyirdi:

-Nəsə lazım olsa de!

Uşaqlar darıxanda, Əlirzaya zəng edirdim ki, atalarıyla danışsınlar. Əlirzanın iki nömrəsi vardı, İran nömrəsini “eşqim” və Suriya nömrəsini “ləbbeykə ya Zeynəb” deyə qeyd etmişdim. Hansı nömrəylə zəng elədiyinə bağlı danışığım dəyişirdi. İran nömrəsiylə zəng edəndə rahat danışırdım, amma Suriya nömrəsilə zəng etsəydi daha rəsmi danışmalıydım.

Ayrılığın müddəti, altı aya az qalmışdı. Bu, Əlirzanın ən uzun müddətli səfəri idi. Tək olanda, Əlirzanın paltarlarını əlimə alıb onlara baxır və nazlayırdım. Sonra yenə qatlayıb səliqəylə qarderoba qoyurdum ki, ertəsi gün yenə götürüm. Pulumu da həmişə onun pencəyinin cibinə qoyurdum. Corablarını görəndə ürəyimdə ona deyirdim:

-Sən bu corablarınla haralara getmisən! Nə addımlar atmısan! Hər gün bu corabları geyinirdin. Allah yolunda bunlarla addımlamısan.

Hətta bir dəfə özünə demişdim:

-Corablarına çox hörmətlə yanaşıram. Onları, pencək-şalvarından da daha çox sevirəm!

O müddətdə, Əlirzanın qardaşı qızı Məsumə, bizim evdə qalırdı. O bizdə olanda, uşaqlardan ötrü nigaran olmurdum. Rahat və arxayın halda hərəmə, yığıncaqlara və şəhid ailələrinin evlərinə gedirdim.

Bir gün qapı döyüldü. Qapının arxasından bir səs, Həmid Rzaya dedi:

-Anan evdədir?

Həmid Rza məni səsləmədən əvvəl, çarşabı başıma atıb qapıya çıxdım. Bir gənc kişi idi və başı aşağı dayanmış gözləyirdi. Mən çatanda hal-əhval tutub dedi:

-Mən Hüseyn Fədayiyəm. Suriyadan təzə gəlmişəm. İlk gündən Təvəssüli bəylə birgə getdik və planları haqqında hər şeyi bilirəm. Həzrət korpus təşkilatında da birlikdə idik. Təvəssülini uzun illərdir ki, tanıyıram. Əfqanistanda dağ-dərə dostuyduq.

Mənə yarımdan xəbər gətirmişdi. Ürəyim təskinlik tapdı. Fədayi bəy bir qədər danışandan sonra, uşaqları göstərib dedi:

-Mənim də 3 uşağım var. Xanımım, oğlum Mahmudu, sizin Tuba kimi təzə süddən ayırıb. Amma mən də Təvəssüli kimi, xanımım qarşı çıxsa da, sağ olduğum müddətcə məqsədlərimə görə bu yolu davam edəcəm. Heç vaxt ailə-uşaq bizə mane ola bilməz inşallah.

Axırda da dedi:

-Bir həftə burada qalıb yenı Suriyaya qayıdacam inşallah. Əgər Təvəssüli bəyə göndərəcəyiniz bir şey varsa, hazırlayın. Gələn həftə almağa gələcəm.

Ertəsi gün, uşaqlarla hərəmə getdik. Bir köynək alıb, hərəmin zirehinə sürtüb təbərrük etdim. Sonra köynəyə ətir vurub kağıza bükdük ki, gələn həftəyə qədər hazır qalsın.

Həmin vaxtlar, internetdə, kitablarda və jurnallarda, özümü axtarırdım. Bir döyüşçünün həyat yoldaşı necə olmalıdır? Nə etməlidir? Onun yolunu burada necə davam etməliyəm? Həmin axtarışlarda, "Fəhimənin məktubları" kitabını tapdım. Məktublardan birini, özüm üçün dəftərimə köçürdüm. Duyğulu, həmasəli və coşqulu bir məktub idi. Məktubun əvvəlindən axırına qədər göz yaşı tökdüm. Bir kəlmə "darıxmışam" sözünü də deməyə imkan verməyən həyata qarşı gileyli idim. Əlirza çox tapşırmışdı ki, telefonda danışanda artıq sözlər istifadə etməyim. Zənglərin dinlənildiyini deyirdi. Çox rəsmi və qısa danışıb

sonra da sağollaşırdı. Axı “çox darıxmışam” və “sənsiz qala bilmirəm” artıq söz idi?! Mənim zənnimcə, əsas sözlər elə bu idi. Amma müharibə belə sözlərə macal buraxmamışdı. Müharibə gələndə, eşq, ümid və bağlılığa yer qalmır. Müharibə, ayaqları altında hər şeyi tapdalayan cüssəli bir canavar kimidir. Həmin günlərdə darıxan və qəmli könlümün pənahgahı, İmam Rza (ə) hərəmi idi. Hərəmə gedir ziyarət etdikdən sonra, hacətimi demək istəyəndə, sanki dilim tutulurdu. Hacətimin nə olduğunu nə qədər düşünsəm də, xatırlamırdım. Niyə İmamdan heç bir istəyim yox idi? Niyə hacətlərimi xatırlamırdım?! Duamı və ziyarətnaməmi oxuyub namazı qılıb, imamla vidalaşırdım.

**Xatunun xatirə dəftərindən bir yazı:**

Gedişindən uzun günlər ötüb... Amma sənin eşqin yadımdan çıxmır, əzizim...

Qonşu arvadı Mərzi xanım deyirdi:

-Allah sənə səbir versin ki, ərinin uzaqlığına dözə biləsən! İnşaallah ki, sağ salamat və üzü ağ qayıtsın.

Bəli, sənin gedişindən cəmi 3 gün keçib. Nə qədər sənin üçün nigaran olduğumu, yalnız Allah bilir. Heç özümdə deyiləm. Baxmayaraq ki, soyuqqanlı görünməyə çalışıram, amma bacarmıram. Sanki çox dəyərli bir itkim var. Həqiqətən də çox dəyərli və bahalı bur itkim var...

Tək olduğum anlarda, burda olmağını çox arzulayıram.

Gün boyu nə etdiyini fikirləşirəm və özlüyümdə düşünürəm, kaş ki, burada olsaydın və özünəməxsus ləhninlə mənə Hafizin şeirlərindən oxuyardın.

Tarix: 27.10.2001

## Üçüncü fəsil

Səfərdə olan şəxsin verə biləcəyi ən yaxşı xəbər, onun tezliklə qayıtmaq xəbəridir. Bir gün Əlirza da xəbər verdi ki, “inşallah bu yaxınlarda qayıdacam.”

Artıq hazırlıq görmək zamanı idi. Özümə təzə köynək tikdim. Bir paltar və çarşab da aldım. Tubaya da gözəl cins don tikdim. Pərdələr və xalçaları yudum. Atama tapşırdım ki, bir qoyun alsın və Əlirza çatanda önündə qurbanlıq kəsək. Özünə demədim, çünki əvvəlcədən tapşırmışdı ki, “mən gələndə şənlik etməyin, qələbəlik də olmasın. Biz şəhid vermişik. Şəhid ailələrinə hörmətlə davranmaq lazımdır. Sevinib şənlik etmək yaxşı olmaz.”

İranda olan bəzi döyüşçülər də onu şənliklə qarşılamaq istəyirdilər. Xavəri bəy, Nəqəvi bəy, Fəsihi bəy və başqa bir neçə nəfər airporta gəlmişdilər. Telefonda onlara da tapşırmışdı ki, “yaslı ailələr var. Biz şəhid vermişik. Qonaqlıq və şənliyə ehtiyac yoxdur.”

Tehrandan zəng edib, saat 2-də Məşhədə çatacağını dedi. Nahar yemədən uşaqlar, anam, atam, babam və bacılarımla birgə airporta yollandıq. Davamlı telefonumla zəng edir nə vaxt təyyarəyə minəcəyini və telefonunun nə

vaxt sönəcəyini yoxlayırdım. Mənə davamlı tapşırırdı ki, “şənlik və qələbəlik olmasın ha!”

Ona dedim:

-Bu nə deməkdir axı?!

-Həqiqi sözümdür! Sənin bu xasiyyətini bilirəm ki, sürpriz etməyi sevirən. Amma digər döyüşçülər də airportdadılar. Özünü ələ al.

Təyyarə iki saat gecikdi və axşamüstü saat 4-də Şəhid Haşimi Nejad airportunda yerə oturdu. Uzaqdan onu görəndə, yuxu olduğunu düşünürdüm. Altı aydan sonra nəhayət gəlmişdi və bizə doğru yaxınlaşırdı! Pencək şalvarda, daranmamış saçlar və yorğun simalı idi. Dostları bizdən aralıda və arxada dayanmışdılar. Öncə ailənin salamlaşıb görüşməsinə macal vermişdilər. Tuba atasını görən kimi, qucağına atladı. Həmid Rza da balaca əlləri ilə, atasının ayağını qucaqlamışdı. Fatimə də özünü atasının qucağına yapışdırmışdı. Mən yaxınlaşdım və əl ilə görüşəndə, qurumuş və qabar bağlamış, lakin güclü olan əlini öpdüm. Mən onun əlini öpmək üçün əyiləndə, o da başımın ortasından öpdü.

Ailə ilə salamlaşıb qucaqlaşmaq bitəndə, dostlarının yanına getdi. Dostları, onu ataları kimi çox istəyirdilər. Hamısının ürəyi doluydu. Yerlilərin söz-söhbətlərindən, bəzi insanların Əlirzaya quyu qazmalarından, insanlar arasında düşmənçilik yaratmaqdan və cəbhədən uzaq düşdüklərinə gileyli idilər. Əlirza, dostları arasında, üzük qaşı kimi parlayırdı. Hamısı onu dövrəyə almışdılar. Fəsihi bəy mərsiyyə oxudu və hamısının ürəyindəki yanğını atəşə çevirdi. İnsanlar, bu balaca dəstəni maraqla izləyirdilər. Çox adam təəccüblə izləyirdi. Zənnimcə, axırda şəhidlərin ruhuna fatihə oxuyanda, insanlar, onların kim olduğunu anladı.

Mərsiyyə qurtaranda, Əlirza bizə yaxınlaşıb dedi:

-Siz evə gedin. Mən dostlarla şəhidlər məzarlığına gedib, sonra evə gələcəm. Birgə gedib nahar yeməyə aman vermədi. Təyyarədə nahar yediyini dedi və 1-2 saat sonra evə gələcəyini bildirdi. Məzarlığa gedib Fatimiyyun şəhidlərinə aid hissəni görüb şəhidlərə də fatihə oxumaq istəyirdi.

Biz evə qayıtdıq. Əlirzanın 2 saatı, oldu 7 saat! Axşam saat 11-də dostlarıyla birgə gəldi. Dostlarının dəstəsini, "qayğılılar dəstəsi" adlandırmışdı. Təxminən 20 nəfər idilər. Bizim kiçik otağın 10 nəfərlik tutumu var, amma onların hamısı sıx şəkildə orada oturdular. Mat-məhəttəl onları izləyirdim. Hətta bəzən 40 nəfərin də o otağa sığdığını görmüşdüm, amma necə? Baş açmırdım!

Hamısının yorğunluğu üzlərindən yağırdı! Əlirza elə yorğun idi ki, mətbəxə girib onlara çay süzməyimi istəyəndə, ağzını zorla tərpədir və gözlərini çətinliklə açıq saxlamışdı. Sonra da mənə dedi:

-Tubanın başına hicab bağla və yanımıza göndər. Uşaqları da yatızdır. Özün də yat. Bizim qonaqlığımız uzun çəkəcək.

Payız idi, amma hava hələ soyumamışdı. Buna görə də pəncərələri açıq idi və söhbətlərini eşidirdim. Tuba içəri girəndə, Əlizadə bəyin səsini eşitdim ki, deyir:

-Əminin nazlı qızı! Şirin qızı! Axı sən bu sevimli uşaqlarını burada qoyub, necə 6 aylıq səfərə gedirsən?! Necə ürəyin gəlir?

Əlirzanın cavabını eşitmək üçün diqqətlə dinlədim:

-Canım sizə desin ki, Allah qəbul etsə, öncə Allaha xatir gedirik. Öncə Allaha xatir, Allaha xatir, Allaha xatir. Amma sonra da, elə bu uşaqlara xatir!

Həmid Rza, atasına yapışmış və yanından tərpənmirdi. Təkcə Fatimə mənim yanımda qalmışdı və səbirsizliklə atasının yanımıza gəlməyini gözləyirdi.

Dosltarının onunla işi vardı və raport verib planlardan danışırdılar. Gecə saat 2-ni keçmişdi ki, Əlirza onlara dedi:

-Sizə də gec oldu, mən də yorğunam. Söhbətlərin qalanı qalsın sabaha.

Başını balışa qoyan kimi yuxuya daldı. Amma mənim gözümdən yuxu qaçmışdı. Həmin gün olanları xatırlayır və ertəsi gün üçün plan tökürdüm. Əlirza yorğunluqdan yuxuda danışır və bəzən ah çəkirdi. Yorğun və incikli olduğu digər vaxtlardakı kimi ayağı titrəyir, çox tərpənir və yuxudan dik atılırdı.

Səhər tezdən, leptopunu yandırıb, bəzi şeylər kağıza yazdı və səhər saat 6-da səhər yeməyi yemədən evdən çıxdı. Qohum-qonşu onu görməyə gəlmişdilər, amma özü evdə deyildi. Hətta qoyunu kəsməyə də gəlmədi. Səhər gedəndə mənə dedi:

-Əti camaata çiy payla. Camaata əziyyət vermə. Hamıya ət göndər. Şənlik keçirməyə ehtiyac yoxdur.

Gələndən iki gün sonra, hərbi paltarı çamadanından çıxarıb bizə göstərdi. Video zəngdə gördüyüm geyim deyildi. Videoda geyindiyi pələngli hərbi paltar idi, gətirdiyi isə dama-dama hərbi uniforma idi. Çıxaran kimi də geyindi ki, əynində görək. Hərbi uniforma ona çıx yaraşırdı. Əlirza, iki geyim növünü çox sevirdi, biri əfqan köynək-şalvarı, digəri isə hərbi geyim idi.

Uniformanı geyinəndə, uşaqlar qucağına tullandılar. Həmid Rza silah oyuncağını gətirib atasının əlinə verdi. Silahı, mən almışdım və Əlirzanın çamadanına qoymuşdum ki, Həmid Rzaya səfər hədiyyəsi olaraq

versin. Suriyadan çıxmadan öncə özü mənə demişdi ki, uşaqlara səfəri üçün hədiyyə alım. Həmid Rza silahı bizə tərəf tutub dedi:

-Əllər yuxarı!

Sonra da bacılarını qovalamağa getdi. Deyirdi ki, “düşmən oyunu oynayırıq!”

Əlirza da oyuna qoşuldu. Həmid Rza, o yan-bu yana tullanırdı və atası onu qovalayırdı. Həmin əsnada, silahın lüləsi bir yerə ilişdi və oyuncaq sındı. Oyuncağa, bir günlük gəlin adı vermişdim!

Həmid Rza, dayanmadan ağlayırdı. Lüləsini yapışqanla yapışdırmağa çalışdım, amma xeyri yox idi. Pis yerdən sınmışdı.

Fatimə də atasının hərbi uniformasını geyinib şəkil çəkdirdi. Əlirzaya dedim:

-Video zəngdəki uniformanı niyə gətirmədin? O sənə daha çox yaraşırdı. Hizbullah döyüşçüləri kimi olmuşdun.

-O uniforma ikinci əl idi. O qədər geyinmişdim ki, axırda köhnəldi və yırtıldı. Adətən bizə ikinci əl uniforma verirlər. Təsadüfən təzə uniforma verirlər. Bunu, neçə həftə öncə verdilər.

-Kaş ki, bu hərbi uniformanı evdə mənimlə qoyub gedəsən.

Uniformanı qatlaya-qatlaya dedi:

-Qoya bilmərəm. Başqa uniformam yoxdur. Bunu da təzə veriblər, başqasını verməzlər.

Həmin günlərdə, Əlirzanı evdə tapmaq olmurdu və bütün günü iclaslara gedirdi.

Hətt mənə hədiyyə gətirdiyi uzun ərəb donunu qarşısında geyinməyə fürsət tapmadım. Hər birimizi Suriyadan bir hədiyyə gətirmişdi, mənə ərəb donu, bacılarıma şal və anam zeytun yağı.

4-cü gün, nəhayət axşam evdə tapıldı. Artıq söhbət etməyə vaxt var idi. Ondan suallarımı soruşmağa başladım:

-De görüm haralarda idin? Nələr gördün? Nələr etdin?

Suallarıma qısa cavablar verirdi. Özü də yuxulu halda cavablandırırdı. Bir qədər Suriya haqqında danışdı və sonra məndən soruşdu:

-Allah mənə indiyədək nə qədər ömür verib?

-42 il.

-Bu 42 il müddətində, axtardığım aramlığı Suriyada tapdım.

Yatmadan öncə də möhkəm tapşıraraq dedi:

-Unutma, sabah şəhid ailələrinə baş çəkməliyik. Birlikdə getməyimizi istəyirəm. Sənin bundan sonra həyatın belə olmalıdır.

Ertəsi gün, şəhidlərin evlərinə getməyə hazırlandıq. Komandirı görmək, şəhid ailələrinə təsəlli bəxş edirdi. Başını aşağı salıb təvazökarlıqla onları dinləyirdi. Şəhidlərin evlərindən qayıdanda, kartof və soğan aldıq. Əlində meşoklarla bir neçə nəfər onu gördü və salamlaşıb hal-əhval tutdular. Onlar gedəndən sonra mənə dedi:

-Ay xanım! Allah sənin canını almasın! Güya mən komandirəm! Sən isə kartof-soğan meşokunu kürəyimə qoymuş mənə daşıtdırırsan. Nə etsəm də evdə komandir sənsən!

Hər gün səhər, mütləq hərəmi ziyarət etməliydi. İclaslar və yığıncaqlardan öncə, hərəmə getməliydi. Həmişə də hərəmin Nəvvab qapısından daxil olmağı sevərdi. Bizim evdən hərəmə gedəndə, yol Tusi qapısına çıxırdı. Amma Əlirza hər dəfə hərəmin ətrafından fırlanıb, aşağı hissədə olan Nəvvab qapısından girərdi. Onunla gedəndə, zirehi ziyarət etdikdən sonra, görüş üçün bir yer təyin edərdik.

Mən ondan öncə çatıb onu gözləyərdim. Həmişə “Allah qəbul eləsin” sözünü öncə deməkdə bir-birimizlə yarışırdıq.

Həmin günlərdə, onun üçün Əfqanistan mətbəxinin soğandağlı südlü plovunu bişirdim. Evə gələndə, ondan iştahla yeyir, bir saat evdə qalır və sonra yenə gecə yarısına kimi çöldə olurdu.

İclaslarda, Əlirza özü və dostlarının etdiyi cihadı müdafiə etməyə fürsəti olurdu. Höccət ləqəbiylə tanınan Rza Xavəri bəy, can yandıraraq müxalif şəxslər və qruplarla iclas təşkil edib Əlirzanı da söhbət üçün oraya dəvət edirdi. Müxaliflərdən bəziləri, ağsaqqal ruhanilər idilər. Onlar Əlirza və onun kallektivinə deyirdilər ki, “sizin cihadınız şübhəlidir!” Qəribə fətvalar da verirdilər. Əlirza onlara deyirdi:

-Təqlid mərcələrinin fətvalarını da nəzərə almasaq, bir insan olaraq, imam Hüseyn (ə)-ın “kömək edəcək bir köməkçi varmı” deyə axtarışına ləbbeyk deməliyik.

Bəzən telefonda dostlarıyla danışanda, o iclaslarda nələr olduğunu anlayırdım. Zənglərdən sonra mənə deyirdi:

-Suriya qərargahında olanda, düşmənlə üz-üzə döyüşürük. Qarşımızdakı düşməndir və əlimizdə silah. Amma burada, öz qardaşların və qohumlarınla döyüşməlisən! Bu döyüş, daha çətindir! Onları yalnız müdafiə üçün getdiyimizə qane etməliyik.

Əlirzanın bu iclasları onu elə məşğul etmişdi ki, uşaqlar da artıq narahat və gileyli idilər. Bir dəfə Həmid Rza dedi:

-Ata evdə olmayanda evdə yoxdur, evdə olanda da yoxdur!

İclasların biri, evdə idi. Onun səsini eşidirdim ki, deyirdi:

-Biz əslində 3 cəbhədə döyüşürük. İlk cəbhə, sevdiklərində və bağlılıqlarından ayrılmaq cəbhəsidir. Arvadından, uşağından, ana və atadan, ev-eşiyindən ayrılmağı bacarasan. İkinci cəbhə, bu məsələyə reaksiya göstərən insanlar, yəni qonşular, qohumlar və dost-tanışdır. Bu, ilk cəbhədən qat-qat daha çətindir. Üçüncü cəbhə, təkfirçilərlə döyüş cəbhəsidir. Bu, öncəki iki cəbhəylə müqayisədə, uşaq işidir.

Əlirzanın bir problemi də, cihad arzusunda olan iranlı gənclər idilər. O, onlara deyirdi ki, "bizim kallektivimizlə çıxa bilməzsiniz. Buna icazəmiz yoxdur. Gedin və öz ölkənizin qruplarıyla çıxın."

Evi dəyişmək də fikrini məşğul etmişdi. Davamlı deyirdi:

-Təhlükəsizlik və dostlarımın get-gəlinə görə evi dəyişməli və mümkünsə daha geniş bir evə köçməliyik.

Özünün ev axtarmağa vaxtı yox idi. Amma bu işi Əlizadə bəyə tapşırmışdı. Əlizadə bəy o müddətdə Əlirzanın şəxsi şoferi və sağ əli olmuşdu. Özü Əlirzaya deyirdi:

-Suriyaya getməyə ləyaqətim yoxdur, ən azından burada sizə qulluq edim.

Əlirza söz vermişdi ki, 10 gün Məşhəddə bizimlə qalacaq və həmin 10 gündən cəmi 2 günü qalmışdı. Nahar bişirib vaxtın necə tez keçdiyini düşünür və ayrılğın yaxınlaşdığına üzülürdüm ki, birdən Əlirza gəlib dedi:

-Bu gün Suriyaya qayıdıram!

-Bu gün?! Söz vermişdin ki, 10 gün qalacaqsan! Hələ iki günü qalıb!

-Yox, getməliyəm. Bizim qərargahın hələ çox işi var. Oranı böyütməliyik. Döyüşçülər də məni gözləyirlər. Orada olmalıyam.

Naharı yedik. Gözü yoldaydım ki, səfərinin ertələndiyini desin. Amma ertələnmədi. Onun döyüşçülərindən ötrü nigaran idim. Amma bir yandan da, evlilik il dönümümüzə az qalmışdı və onun yanımda olmasını istəyirdim. Ona dedim:

-Bu 8 gündə də səni doyunca görə bilmədim.

-Səndən və uşaqlardan xəcalətliyəm. Amma Tehrana getməliyəm. Orada da bir iclasım var. Gecə də Suriyaya uçuşum var.

Yolu üçün toyuq bişirib qoydum. Çamadanını özü hazırladı. Həmid Rzayla Fatimə, suyu tökmək üçün savaşırdılar. Axırda da su, siniyə töküldü. Quraanın altından adladı. Birlikdə airporta gedib Əlirzanı ikinci dəfə olaraq başı bəlalı Şama göndərdik.

**Xatunun xatirə dəftərindən bir yazı:**

Şəhidlərin Allahının adıyla,

Əslində doğum günü, insan övladı üçün bir xatırlatmadır. Həmin gün, insan özünə təkan verməli və ayıq olmalıdır.

Əziz Hamidim, bir neçə aydır ki, illər öncə əldən verdiyin cihadı təzədən qazanıb, axirət səfərin üçün saleh əməl toplamağa Allah sənə yeni bir fürsət veribdir. Sənin addım atdığın bu yol, elə bir yoldur ki, qəlbinin pərdəsini və ruhunun hicabını açsan, ən qısa zamanda və ən tez yolla məqsədinə nail olacaqsan. Sən elə bir yerdəsən ki, sənintək çox adam hicabı dərib irfana yetişiblər. Hicabdan ötəyə getməyin bir çox mərhələsi var və sən sonuncu mərhələlərdəsən. Nə gözəldir ki, sənin haqqında etdiyim dualar, qəbul olurlar!

Bəli, qələbə siz qeyrətli Hizbullah qüvvələrinindir.

Sizin snayperçilər, sizin silahlı qüvvələr, sizin dostlarınızın axan qanı, İslamın qanlı torpaqları və xüsusilə də şiə məzhəbi qələbəni sizə vədə veribdir. İstər ölün və ya öldürün, sonunda siz qalibsiniz!

Bilirəm ki, bu yolda arzun olan şəhadətə çatmasan da, sən ixlaslı bəndə, mömün insan və salehlər arasındasan. Bu, Allahın işidir və mən həmişə Allahdan istəmişəm ki, səni istədiyi kimi bəndə qərar versin.

Tarix: 15.09.2013

## Dördüncü fəsil

Əhmədi bəyin qaynanası Kərbəladan gəlmişdi və onu görmək üçün evlərinə getdik. Yolda, Əlirzaya zəng elədim. Səsi aydın deyildi. Olduğu yerdə çox səs-küy və atışma səsi var idi. Mənə dedi:

-İşin varsa tez de. Mənim indi təcili işim var. Çox danışa bilmərəm.

Ona dedim:

-İndi haradasan?

Əsəbi səslə cavab verdi:

-Hardayam?! Səncə harda olmalıyam?! Bu nə sualdır axı! Həmin yerdəyəm ki, orada olmalıyam!

Sağollaşdıq, amma ürəyimə təşviş və nigarançılıq düşdü. Çantamdan 200 tümənlik əsginas tapdım və qarşıma çıxan ilk sədəqə sandığına atdım. Sonra da ürəyimdə dedim:

-Ya İmam Rza (ə), ya İmam Zaman (ə.f)! Mən ondan ötrü nigaran olmaqdan bezdim. Daha sizə tapşırıram onu. Özünüz muğayat olun ondan.

Əhmədi xanım, döyüşçü ailələrin əlaqələrinin daha da səmimi olduğuna sevinmişdi. Onların evində bəzi

problemlərdən söz düşdü. Mən həmişəki kimi o problemləri Əlirzaya danışmalıydım və o, həll yolu deməli idi. Həmin gün keçdi. Ertəsi gün, axşam Əlirza zəng elədi. Təəccüblənmişdim, çünki heç vaxt axşam zəng eləməzdi. Hal-əhval tutdu, çox aram və dinciliklə söhbət edirdi. Həmişəki kimi deyildi ki, tələsik danışsın və tez söhbəti bitirsin. Öncəki günə görə bir az incikli idim. Məndən "nə xəbər?" Deyə soruşanda, ona dedim:

-Heç nə. Dünən kərbəlayı xanımı görməyə gedirdim və yolda sənə zəng elədim. Sən də heç imkan vermədin və sözümü kəsdin.

-Dünən zəng edəndə, başqa səs də eşitdin?

-Hə, karam ki, eşitməyəm?! Partlayış və atəş səsi gəlirdi.

-Aaa! Deməli sən də eşitmisən! Yəni səsi elə ucaydı ki, Məşhədə qədər çatdı! Yaxşıdır, deməli çox da ağır eşitmirsən!

Axır ki, məni güldürməyi bacardı. Sonra dedi:

-Səsi eşidəndə, narahat oldun?

-Əlbəttə ki, narahat oldum.

-Narahat olub nə etdin?

-Heç nə. Oradaca sədəqə atıb səni imamlara əmanət etdim.

Çox möhkəm və sevincli səslə dedi:

-Əhsən!

-Niyə? Nə olub ki?

-Dünən bir əməliyyatda idi. Çox sayda da yaralı və şəhid var. Hətta yaralılardan birini sən tanıyırsan!

Nigaran halda soruşdum:

-Kimdir o yaralı? Nə olub ona?

-İndi onunla danışdığın şəxsdir.

Ağlıma ondan başqa hamı gəlmişdi. Bədənim əsməyə başladı. Ona dedim:

-Nə olub? Necə yaralandın?

-Önəmli deyil! Qoluma kiçik bir cızıq düşdü. Uşaqlıqda peyvənd olunan həmin yer. Nigaran olma. Özüm sənə dedim ki, başqa birindən eşidib nigaran olmayasan. İndi də nəşəli, sağlam və qıvrağam!

Telefon arxasında mənimlə mehriban danışdığı üçün, mən də fürsəti qənimət bilib dedim:

-Dur gəl evə. Düz deyib deməməyin məlum deyil. Belə mənim fikrim səndə qalacaq.

-Evə gələ bilmərəm. Təzə gəlmişəm buraya və çoxlu işim var.

Fürsətdən istifadə edib dedim:

-Onda mən sənin yanına gələcəm!

-Bu irəlidə ola bilər. Qoy görüm mümkündürsə sənə deyim. Amma indi çox işim var, indi bu işlə maraqlana bilmərəm.

İstəyimi yenə bir pillə aşağı gətirib dedim:

-Onda video ilə zəng elə!

Anladı ki, əl çəkən deyiləm. Sonra dedi:

-Yaxşı, leptopumun interneti var. Amma yanımda deyil. Qoy dostlar gəlsin, özüm sənə bildirərəm.

Möhkəm və qərarlı səslə dedim:

-Mən sənin xəbərini gözləməyəcəm! Sabah tezdən video zəng etməlisən!

O gecə, çətinliklə səhərə qədər gözlədim. Anam və ya başqa biriylə dərdləşə bilməzdim. Hətta uşaqlara da bildirmədim. Səhər saat 5-də kompüter arxasında oturub, ona ardıcıl zənglər edirdim. Mənə deyirdi:

-Dəlilik etmə. Nə vaxt leptopu gətirsələr, sənə deyəcəm.

Səhər saat 8-ə qədər gözlədim. Fatimə ilə Həmid Rza, məktəbə getdilər. Tuba da yatmışdı. Nəhayət saat 8-də gül üzünü göstərdi! Leptopu qoşulanda, dostları otağından çıxdılar. Salamlaşıb dedim:

-Mübarəkdir! Nəhayət məqsədlərindən birinə çatdın! Xoş sənin halına! Şükür ki, indi sağsan və həyatımızda varsan.

Yaranın yerini pencəyin üstündən göstərdi. Ona dedim:

-Pencəyi çıxar yaranı görmək istəyirəm!

-Dəlilik etmə! Dünən axşam əməliyyat otağından çıxmışam və hələ sarğılıdır. Tərpənməməliyəm. İndi də dostlarımın yardımıyla ayağa qalxıb və otururam!

Nigarançılığı daha da artmışdı. Ona dedim:

-Niyə dostların yardımıyla?! Ayağına nə olub ki?! Ayağa qalx baxım!

Bezmiş halda acıqla cavab verdi:

-Qolum sarğılı olduğu üçün yardım edirlər, yoxsa ayağıma heç nə olmayıb.

Sonra da ayaqlarını bir-bir leptopun kamerasının önünə qaldırıb ayaq barmaqlarını da tərpətdi ki, arxauın olum. Corabının deşilən yerini də göstərib dedi:

-Bax bu da sübut! Ayağım da yerindədir, corabımın deşiyi də!

Video zəngi sonlandırmaq istəyəndə dedi:

-Dünəndən qoşuna baş çəkməmişəm. Təvəssüli şəhid olub və Təvəssüli iflic olub deyə şayiələr yayılıb. Döyüşçülər də qorxublar. Getməliyəm ki, sağ olduğumu görsünlər.

-Dünən axşam əməliyyat olmusan. Heç olmaya bir neçə saat dincəl!

-Yox, dincəlməyə vaxt yoxdur. Getməliyəm.

Leptopu bağladı və ekran qaraldı. Mən heç kimə heç nə deməmişdim. Amma çox tez onun yaralandığını bütün Gülşəhr məhəlləsi öyrəndi və sonunda xəbər anamla atama da gedib çatdı. Hətta bacım Məsumə də məktəbdə bu xəbəri eşitmişdi, amma mən heç nə demədiyimə görə xəbərə inanmamışdı. Hər gün Əlirzaya zəng edir və davamlı tapşırırdım ki, dərmanlarını içib bir az dincəldin. Mənə deyirdi:

-Nigaran olma. İki nəfərə tapşırıblar ki, mənə baxsınlar. Hətta bəzən məni otaqda qoyub qapını üzümə bağlayırlar.

-Allah onlardan razı olsun! Sağ olsunlar!

Məhərrəm ayına az qalmış, Suriyadan bir neçə şəhid gətirdilər. Əlirza çox təkidlə tapşırmışdı ki, "get və şəhidlərin yasında iştirak et. Şəhid ailələrinə baş çək. Gör bir ehtiyacları varsa, mənə bildir." Davamlı da məni Suriyaya öz yanına gətirməklə əlaqədar çalışırdı.

Xəbər çatdı ki, Əhmədi bəy Suriyada yaralanıb və İrana qayıdıbdır. Əlirzanın yaralandığı həmin əməliyyatda, o da yaralanmışdı. Onun xanımını dua yığıncağında gördüm. Mənə dedi:

-Əhmədi bəy yaralandığı üçün, ona qüvvəli yeməklər bişirirəm, amma yemir. Deyir ki, mən burada isti və yumuşaq döşəyimdə yeyib içim, amma Təvəssüli və yaralanan digər döyüşçülər yaralı vəziyyətdə orada qalsınlar?!

Döyüşçülərin xanımlarıyla, Əhmədi bəyə baş çəkməyə getdik. Tubanı da özümlə apardım. Əhmədi bəygil, Hərat şəhərindəndirlər. Hərat əhalisi çox zövqlü və əksərən varlı olurlar.

Tuba onların evində, ayaqyolunu bəhanə edib dəfələrlə məni çölə çıxartdı. Əhmədi bəy dedi:

-Əlirzaya evə qayıtması üçün çox israr etdim. Amma dinləmədi. Mən də bir müddət buradayam, sağalım tez qayıdacam.

Söhbət əsnasında, telefonuna zəng gəldi və çölə çıxmaq istədi. O, ayağa qalxanda, xanım pencəyini ona geyindirib üstünü səliqəyə saldı. Onun ərinin yanında olmasına, ona qulluq edib onun üçün yemək bişirməsinə qibtə etdim.

Axşam Əlirza zəng edəndə, ona dedim:

-Xoş Əhmədi xanımın halına! Ərinə qulluq edir və onu sağaldır! Kül mənim başıma ki, isti və rahat evimdə oturmuşam, amma bilmirəm əzizimin halı necədir və nə qədər ağrı çəkir! Əlirza, qəlbim çox qırılıb!

Gülməyə başlayıb dedi:

-Ay Allah! Bizim xatunun ağlına nə qəribə fikirlər gəlir! Bu qədər çox istəyirsənsə, mən də gəlməyə çalışacam. Amma qəlbin qırılanda, buna xanım Zeynəb (s.a)-a yolunda döz.

Sonralar Əhmədi xanım mənə dedi:

-Sən hər dəfə Tubanı çölə aparıb gətirəndə, Əhmədi bəy mənə deyirdi ki, bu azyaşlı körpə, Həzrəti Rüqəyyə kimi 3 yaşındadır və onun kimi atası müharibəyə gedibdir.

İmam Rza (ə)-ın viladəti münasibətiylə, Rezayi bəy, şəhid ailələrinin evlərinə getməyimizi istəmişdi. Həmin ailələrin, əzizlərinin şəhadətindən sonrakı ilk bayramları idi. Başda, Şəhid Həmid Ehsaninin evinə getdik. Bir həftə əvvəl cənazəsi Suriyadan gəlmişdi. Öncə naşılıq edib atasına şəhid olduğunu demişdilər, amma cənazə hələ gəlib çatmamışdı. Buna görə də şəhidin atası xəbərə inanmayıb səbirsizlik edirdi. Davamlı bizdən soruşurdu ki, “mənim oğlum haradadır? Niyə mənə zəng eləmir?!” Bir gün çox hiddətlənib əsəblə dedi ki, “mənim oğlum şəhid olubsa, deyin! Şəhid olmayıbsa da deyin başına nə

gəlibdir! Yoxsa özümü öldürəcəm!” Şəhadət xəbəri dəqiqləşəndə, Rezayi bəy və xanımıyla baş sağlığına getdik. Şəhidin 17 yaşlı gənc həyat yoldaşını və 7 aylıq körpəsini gördüm. Gəlin deyirdi:

-10 gün əvvəl Həmidlə danışdım. Dedi ki, bir həftə sonra məzuniyyətə çıxıram. Bu həftə işlərimi tələsik bitirdim ki, ərim gələcək. Axırda da gəldi və verdiyi sözü tutdu!

Gəlin, qəmli şeirlər oxuyurdu. Onun yaşadıqları və bu halda olması mənə çox pis təsir eləmişdi. Bu, müharibənin amansızlığını və heç kimə rəhm etməməsini göstərirdi. Heç kimə də toxunmayacağına dair söz verməmişdi! Bir gün, mən də həmin gənc qadının yerinə ərimin yasını tutub qəmli şeir oxumağım mümkün idi!

Bir müddət sonra, Şəhid Kamilin cənazəsini də gətirdilər. Hər dəfə şəhidlərin yas məclisi daha yaxşı və keyfiyyətli keçirilirdi. Artıq qəribcəsinə dəfn edilmirdilər. Şəhidlərin yas məclisi yetərli qədər yaxşı və izdihamlı keçirilməyəndə, ailələr narazılıq edirdilər. Qohum-qonşunun tənələri və acı sözləri də onların yarasına duz səpirdi. Bu sözü, bütün şəhidlərin ana və atasına deyirdilər:

-Uşaqlarınızı göndərəməyə dəyərdi axı?!

Ailələrin problemləri və ehtiyaclarını Rezayi bəy və ya Əlirzaya deyirdim, onlar da həlli üçün yardım edirdilər. Bir müddət sonra, düşündük ki, şəhid ailələrinin əhval-ruhiyyəsini dəyişmək üçün bir şey etmək lazımdır. Şəhid ailələri üçün keçirilən ilk konferans fikri burada ağlımıza gəldi. Bütün şəhidlərin ailələri bu konferansa dəvət oldu və Fatimiyyun batalyonunun rütbəli komandirləri də gəldilər. Onlar şəfəqqət və mehribançılıqla şəhid ailələrini

dinləyir, problemlərini həll etmək üçün lazım olan əmrləri verir və suallarla şübhələri cavablandırırdılar.

Rezayi xanım, həmin konferansda mənə dedi ki, onun üçün kağıza bunu yazım:

-Şəhidlərin Allahının adıyla, oğlum Allah yolunda əlil və iflic olubdur. Mən onu, həzrəti Zeynəb yolunda qurban verirəm.

Həmin konferansda, bir yaşlı qadın yolumu kəsib dedi:

-Oğlumu nəsihət edin ki, Suriyaya getməsin. Mənim təkcə bir övladım qalıb və o da müharibəyə getmək istəyir. Bacıları evlənib və ər evinə gediblər. Təzə gəlib cəbhədən, ayağı yaralanıb, amma yenə qayıtmaq istəyir.

Onlara dedim:

-Əhsən sənin iradənə! Əhsən aslan oğlunuza! Allah saxlasın!

Sonra da oğlana dedim:

-Bax indi sağsan, amma cəbhə və cihaddan sonra, bu çubuqla, iki nəfər də sənə yardım etməlidir və əsir olacaqlar!

Bu konferanslar və iclaslardan sonra, şəhid ailələri bir qədər təskinlik tapmışdılar.

Çox yerə Tubanı özümlə aparırdım. Uşaqların atası başı üstündə olmayanda, onların istəkləri fərqli olur. Daha çox bəhanə gətirib boşuna ağlayırlar və həqiqi bir istək olmur. Mən onları dinləməyəndə və ya danlayanda mənə deyirdilər:

-İndi sənin yerinə ata olsaydı, bizi danlamazdı! Sən sərt anasan, ata burada olsaydı istədiklərimizi alardı!

Bir gün Rəcəbgilin evinə getdik. Onlar səfərdən təzə gəlmişdilər və anam onlara baş çəkmək istəyirdi. Rəcəb və ailəsi, 20 ildən sonra Əfqanistana ilk dəfə getmişdilər və xatirə olaraq binalarla görməli yerlərdən video

çəkmişdilər. Anam, həsrət və arzuyla videounu izləyirdi. Kişilər tərəfdə, kişilər uca səslə danışır və gülürdülər. Yaşlı biri uca səslə dedi:

-Məsciddən gəlirəm. Yenə Suriyadan şəhid gətiriblər. Necə də təmtəraqlı yas süfrəsi açmışdılar! Hə, Suriyaya getməlidirlər, bəs nə?! Yaxşı pul alırlar! İşsiz və bacarıqsız insanlar yığılıb oraya gedirlər. İşi-gücü olan düz-əməlli adam oraya getməz ki!

Həmin qoca dayanmadan danışır və mən əsəbdən partlayırdım. Anamla nənəm səssizcə nə edəcəyimi izləyirdilər. Ürəyimdə “ya Əli” və “ya Zeynəb” zikr edirdim ki, döyüşçülərə yaraşmayan şəkildə danışmayım. Rəcəb və digərləri donub qalmış və qocanı necə susduracaqlarını bilmirdilər. Nəhayət Rəcəb dilləndi və dedi:

-Bəli, çətin işdir. Təvəssüli bəy də oradadır. O, çox ixlaslı və bacarıqlı insandır. Hərəmi qorumağa gediblər.

Qonaqlıqda olan digər insanlar da, qocanın tökdüyü zəhəri canımızdan çıxarıb, bir yolla könlümüzü almağa çalışırdılar. Mən isə cavabında dedim:

-Axı pulun nə dəyəri var, qardaş?! Onlar, Həzrəti Zeynəbin hərəmini qorumağa gediblər. İnşallah ki, İmam Əli və Həzrəti Zeynəb, özü onları qorusun. Əgər ki, şəhadət qismət olsa, bundan uca nə səadət ola bilər?!

Qayıdan yolda, anamla nənəm mənim kimi səssiz idilər. Evə çatanda, nənəm dedi:

-Bu sözlərə qəmlənmə. Boş-boş danışan adam çoxdur. Ürəyini sıxma.

Mən ürəyimi sıxmamaq üçün, nə etməli idim? Bir yandan darıxırdım, bir yandan da camaatın tənələri yarama duz səpirdi.

**Xatunun xatirə dəftərindən bir yazı:**

Çox sözlər eşitdim. Çox tənələr duydum. Allahdan gizli deyil, səndən niyə gizlədim? Çox çətinliklər, yorğunluqlar və bəzən şeytanın qəlbimə saldığı ümidsizliklər yaşadım. Amma Allaha şükür ki, bir ilahi qüvvə məni nəvaziş edirdi. Çətinliklərimdə və özümü tək hiss edəndə, Ümmul-məsaib[1] adlı qadının məzlumiyyətini yadıma salırdım. Sonra bütün çətinliklərim, həzrəti Zeynəbin çətinliklərinin qarşısında heç və cılız dururdu. Bütün problemlərimi, Allahın məsləhəti və mənim üçün xeyir olduğunu düşünürəm. Ardınca, Kərbəla səhrasının bəlaları və əhli-beytin çəkdiklərini düşünüb ağlayıram.

Allaha həmişə və hər yerdə yalvarıram ki, ey böyük Allah! Ey əzəmətli Allah! Bu gecənin qaranlığında, bu gecələrin sükutunda, səni birliyinə və təkliyinə and verirəm ki, bizim həyatımızı Həzrəti Zeynəb və Əhli-beyt yolunda qurban qəbul et. Bizi razı olduğun yolda istiqamətli, imanlı və yaxşı aqibətli et. İlahi! Əsgərin olan həyat yoldaşımın aqibətini xeyirli et və ona əməli saleh, İslama və müsəlmanlara xidmət ləyaqəti, həmçinin bərəkətli və izzətli ömür nəsib et. Onu düşmən şərrindən və pis niyyətindən qoru. Ona, arzusunda olduğu şəhadəti qismət et ki, anası və atası, həmçinin məni axirətdə şəfaət etsin.

Tarix: 10.05.2014

Saat 1.40 gecə.

---

[1] Dünya müsibətlərinin anası deməkdir. Həzrəti Zeynəb (s.a)-nın ləqəbidir.

# Beşinci fəsil

Şad xəbərlə Rezayi bəy gəlib dedi:

-Hazırlanın, Suriyaya gedirsiniz.

Əlirza tapşırmışdı ki, atamla gedim. Əvvəlcədən çamadan, uşaqlara uyğun paltar və noğul ilə nabat alıb hazır saxlamışdım. Əlirza, Məşhəd noğullarını çox xoşlayırdı. Özümü tibb bacısı kimi hiss edirdim. Xəyallarımda düşünürdüm ki, onun sarğısını dəyişib, yarasını spirtlə yuyub, dərmanını və suyu əlinə verəcəm. Özüm üçün maraqlı xəyallar qurmuşdum.

Məktəbdən uşaqlar üçün icazə almalıydım. Həmid Rzanın məktəb müdürü dedi:

-Bizim yerimizə də ziyarət edin.

Həmid Rzanın atasının harda olduğunu bilirdi. Buna görə ona çox hörmətlə yanaşırdı. Amma Fatimənim məktəbi icazə vermədi və biz məcburən cümə günü səhər Fatiməsiz yola düşdük.

Suriyaya getmədən əvvəl, Əlirzanın tapşırığına əsasən evi dəyişdim. İki mərtəbəli və həyəti olan bir ev kirayə etdim. Depozit pulunu çətinliklə tapdıq. Bütün əşyalarımızı bir Vanet maşınına yüklədik. Gülşəhrdəki evi

8 illik xatirələri ilə birgə tərk etdim. Bütün gözəl günlər və çətinliklərinə rəğmən, dər-divarına öyrəşmişdim. Amma 8 il sonra, 3 uşaqla o ev ilə vidalaşdım.

Təzə evdə, bir gecədə əşyaları yerinə düzdüm. Baxmayaraq ki, qədim ev idi. Amma divar kağızı və boyası təmiz idi. Üst mərtəbədəki ev, böyük taxta qapıyla, iki hissəyə bölünmüş və iki otaq olmuşdu. Aşağı mərtəbə isə, yalnız bir otaq idi. Mətbəx də, həyətin bir küncündə idi. Bütün əşyaları aşağı düzdüm və yuxarını qonaq üçün boş saxladım. Uşaqlar da həyətini sevmişdilər. Köçməkdən yorğun-arğın halda, bir gün sonra Əlirzanı görəcəyimə sevin-sevinə avtobusa minib Tehrana yollandım. Bu, yanımızda olmadığı ən qısa səfəri idi və getməsindən cəmi 40 gün keçmişdi. Təkrar görüşdə rekord vurmuşduq. Anamın hər il nəzir üçün bişirdiyi qırmızı halvadan Əlirzaya bir az saxlamışdım. Hər il Əlirza, özü halvanın iri qazanını qarışdırıb tək başına dadlı və gözəl rəngli halva bişirirdi.

Tehranda, bir otaq verdilər ki, gecəni orada dincələk və ertəsi gün airporta gedək. Qaldığımız yer, kompüter, faks cihazı və səs cihazlarıyla doluydu. Bir guşədə də bir neçə pencək-şalvar asılmışdı. Zənnimcə, önəmli iclaslarda o pencək-şalvarlardan geyinirdilər. Tehrandakı Əbdül-Əzim ziyarətgahına getməyə vaxtımız var idi. Şənbə günü səhər, yerlərimizi yığıb səfərə hazırlandıq. Amma şənbə günü, heç bir xəbər olmadı. Həmçinin bazar günü də xəbər olmadı. Bazar ertəsi də otaqda oturmuş xəbər gözləyirdik, amma xəbər olmadı. Gözümüz yolda qalmışdı. Əlirzaya zəng edib deyirdim:

-Niyə belə edirlər? Niyə burada oturmuş gözləyirik? Problem nədir?

O da yalnız bunu deyirdi:

-Bilmirəm, mən də maraqlanıram ki, görüm nə olub.

Səfərimizlə bağlı işçilərində tək bir cavabı vardı:

-Həll olacaq inşallah!

Çərşənbə axşamı otağımıza səhər yeməyi gətirəndə dedilər:

-Hazırlanın, saat 9-da airportda olmalısınız.

Yolda Əlirzaya zəng edib dedim:

-Biz indi airporta gedirik. İşlərini indidən bitir ki, biz gələndə işim var deyib getməyəsən!

Airportda anladım ki, biz tək deyilik. Bəzilərinin görünüşündən, döyüşçü olduqlarını anlamaq olurdu. Lövhəyə yazılmışdı : Dəməşq uçuşu, saat 11.

Gördüm ki, döyüşçülər bir-bir yoxlanış qapısından təyyarəyə doğru gedirlər, amma bizə heç kim heç nə demirdi. 3 gün müddətində yaşadığımız yorğunluq və sərgərdanlıqdan boğaza yığılmışdım. Əsəbiləşməyimin qarşısını ala bilmirdim. Təyyarənin işçisi bir-bir döyüşçüləri tapır və onları mindirirdi, sonra bizə bir baş çəkib yenə yox olurdu! Günorta saat 12-də yanımıza gəlib dedi:

-Bağışlayın xanım, bir problem yaranıb. Bu gün getməyiniz mümkün deyil. İnşallah cümə axşamının uçuşuyla gedəcəksiniz.

Sözünü bitirməsinə imkan vermədim. Ona dedim:

-Bu nə vəziyyətdir?! 3-4 gündür burada didərginik! Kiçik bir otağa həbs edilmişik. Uşaqlarım da yorğundur. Məşhəddəki iş-gücümü buraxmış və buraya gəlmişəm, indi də deyirsiniz ki, getmək mümkün deyil?!

-Xeyr, təssüf ki, təyyarə xarab olub.

Bunu eşidəndə, qışqırmaq istəyirdim! Ona dedim:

-Siz uşaq başı aldadırsınız?! Döyüşçüləri təyyarəyə mindirdiyinizi görmədiyimi düşünürsünüz?! Hamısının

qapıdan keçdiyini gördüm! Səsucaldan da Dəməşqə uçuşun saatını indicə elan etdi. Siz isə təyyarənin xarab olduğunu deyirsiniz! Mənə düzünü deyin ki, probleminiz nədir?!

Verəcək cavabı yox idi. Mənə dedi:

-Üzürlü sayın. Gəlin sizi qaldığınız yerə aparım.

Ondan bir qədər uzaqlaşıb, Əlirzaya zəng elədim və dedim:

-Bizimlə maraqlanan bu kişi, təyyarənin xarab olduğunu və uçuşunda ertələndiyini deyir.

-Bu nə deməkdir? O kişi kimdir ki?!

-Cümə axşamına qədər sərgərdan olacayıqsa, mən öz məsuliyyətimlə Məşhədə qayıdıram!

-Uşaq kimi davranma! Gözlə, nə edəcəyimi düşünürəm.

Əlirza müxtəlif şəxslərə zəng edib maraqlanırdı. Həmin şəxs də getməyimizə icazə vermirdi. Çamadanımı götürmüş, Həmid Rzanın da əlindən tutmuş və mənə deyirdi:

-Səbr edin, görüm nə edə bilərəm!

-Yəni təyyarə bir anda düzəldi?!

Utanaraq dedi:

-Mən sizin qarşınızda xəcalətli olmamaq üçün elə demişdim!

Nəhayət, adımızı elan etdilər. Tələsik qaçdıq və yoxlanış qapısından keçdik. Təyyarəyə qaça-qaça gedirdik. Təyyarənin son sərnişinləri idik və uçuş üçün yalnız bizi gözləyirdilər. Hələ oturacağımıza oturmamışdıq ki, təyyarə yola düşdü. 3 boş yer var idi, amma biz 4 nəfər idik. Döyüşçülərdən biri, yerini bizə verdi. Problemin oturacaq azlığı olduğunu anlamışdım. Atamın dərmanını verib dedim:

-Çalış yatasan ata.

Özümdə o qədər yorğun idim ki, gözümü yuman kimi yuxu tutdu. Təyyarə yerə oturdu. Paltomu geyinmək üçün ayağa qalxanda, arxamdakı oturacaqlara göz gəzdirdim. Sərnişinlərin hamısı kişi idi! Əsgər, general və rütbəli zabitlər idilər! Təyyarədəki tək qadın sərnişin, mən idim! Tez yerimə oturdum. Çox təəccüblənmişdim. Əslində bunu bilməliydim ki, müharibə olan ölkəyə qadınlar get-gəl etmir. Orada, Əlirzanın atamın da gəlməsi üçün israrlı olmasının səbəbini anladım. Dəməşq şəhərini ilk görəndə, gözlərimi yumub, əsirlər karvanının ayaq səslərini duymağa çalışdım. İlk dəfə idi ki, bəlalı Şamı görürdüm və Kərbəla əsirlərindən başqa bir şey ağlıma gəlmirdi. Pillədən aşağı enirdik, amma biyabandakı tikanların üstündə gəzdiyimi hiss edirdim. Tubanın əlini tutmuşdum, amma əlimdə yorğun və qəmli 3 yaşlı Rüqəyyənin əlini hiss edirdim. Atamla birgə göz yaşı tökür və dayanmadan ağlayırdıq. Zənnimcə, o da mınim kimi hiss edirdi. Qaçaraq airportun zalına getmək yerinə, ayaqlarımda, əsirlər karvanının ayaqlarındakı zəncirlərin ağırlığını hiss edirdim. Dik durub möhkəm addımlarla zala girmək istəyirdim, amma bu, mümkün deyildi. Ayaqlarımın taqəti yox idi. Ayaqqabım, yerlə sürünürdü. Özümü sevgidolu bir görüşə hazırlamışdım, amma indi, dəvələr qafiləsini Şam darvazasında düşünüb qəm-kədər batmışdım. Lakin qarşımda darvaza yox idi. Qarşımda boş bir biyaban, yanmış təyyarələr, tökülmüş divarlar və küləyin vızıltısı vardı. Sanki orada tək canlı varlıqlar, biz idik.

Əlirza airporta gəlməmişdi. Amma bir nəfərə tapşırmışdı ki, bizi qarşılasın. Airportun zalına çatanda, həmin şəxs dedi:

-Siz burada gözləyin. Hacı özü gəlib sizi aparacaq.

Hamı dağılışdı. Namaz vaxtı idi. Bir saat keçdi. Birdən Əlirzaya gözüm sataşdı. Yenə əlindəki telefonla danışırdı. Digər əlində də çamadan vardı. Hərbi geyim yerinə, pencək-şalvar geyinmişdi. Uşaqlar, qanad açıb uça-uça atalarının yanına getdilər. Fatimənin yeri məlum idi. Atamla da salamlaşıb qucaqlaşdı. Həmişəki kimi bir təbəssüm və baxışla, mənimlə də görüşdü.

Səfərimiz yaxşı nəticələnmişdi və artıq Əlirzanın yanında olduğuma razı idim. Ona, addımlarımın ağırlaşdığını və şəhərin qəm-kədərli olduğundan söz etmədim. Yalnız aram addım ataraq yanında yeriyirdim. Əlirza isə özü mənim heyrət içində və qəmli olduğumu anlamışdı. Mənim əhval-ruhiyyəmi dəyişmək üçün dedi:

-Necə də naz-qəmzəylə addım atırsan, xatun!

Bir maşına mindik və yolda dəqiqə başı maşının önü öz özünə açılırdı. Hər dəfə Əlirza maşından enib önünü bağlayır və yenə yola davam edirdi. Qalacağımız yerə çatanadək, 20 dəfə maşının önü açıldı və onu bağladıq. Airporta yaxın bir oteldə maşından endik. Həmid Rza ilə atam bir otaqda, mən və Tuba da ayrı otaqda qalırdıq. Əlirza pencəyini çıxarmaq istəyəndə, ona yardım etdim. Üzünü sıxırdı. Anladım ki, hələ də ağrayır. Mənə dedi:

-Necə olduğumu bilmək istəmirsən?

-Niyə, soruşacaqdım. Amma tələsdin və aman vermədin!

Köynəyini çıxaranda, iki çiyninin arasında bir dəlik vardı. Yarasının yerini sığallayıb öpdüm. Davamlı ah-nalə edirdi. Uzananda və su butulkasını açanda da ah-nalə etdi. Ona dedim:

-Axı niyə dəqiqə başı ax-uf səsi çıxarırsan?

-Ağrayıram! Sən heç bilirsən güllə hara dəyib? Əsəb damarlarıyla 2 m.m məsafəsi vardı və iflic ola bilərdim!

Güllə, qabırğasının 3 sümüyünü sındırmış və belinə keçmişdi. Sınmış qabırğanın da müalicəsi olmur, yalnız dincəlmək lazımdır. Amma müharibədə dincəlmək, nadir tapılan və ya heç tapılmayan bir şeydir!

Tuba, Əlirzadan qopmur və dayanmadan danışırdı:

-Ata, bura haradır? Biz bayaq airportda idik. Suriyaya, sənin işlədiyin yerə gəlmək istəyirdik. Ata! Fatimə gələ bilmədi və...

Əlirza, onu qucaqlamışdı. Sonra da ona dedi:

-İndi yat və dincəl. Oyananda həzrəti Zeynəbin hərəminə aparacam səni.

-Yox, mənim yuxum gəlmir. Təyyarədə nə qədər yatmışam! 10 saat yatmışam!

Biz çatandan, Əlirza Fatiməni xatırlayır və onun gəlməməyinə narahat olurdu. Davamlı deyirdi:

-Şirin qızımın yeri məlum.

Mən də Fatiməyə darıxmışdım. Artıq 5 gün idi ki, ondan ayrı idim.

Tubanın danışması və oyun çıxarması bitmirdi. Bizə də danışmağa imkan vermirdi. Axır bir bəhanəylə onu qardaşının qaldığı otağa göndərdim. Əlirza, həmişəki kimi yenə arxasına yaslanmışdı. Bir qədər gülüb dedi:

-Bu nə idi?! İki ölkəni bir-birinə qatdın! Sənin əsəbləşməyin də qorxuluymuş! İndiyədək görməmişdim! Əsəbiləşəndə, harda olduğunu və nə etdiyini unudursan! Siz buraya gələnədək mən yerin dibinə girdim! Onların da başqa çarəsi yoxdu. Cəmi 3 oturacaq boş idi və siz 4 nəfər idiniz. İlk dəfə olaraq baş qərargaha getdim və oradan airport işçilərinə bir-bir zəng elədim. Airporta, işçilərə və hətta korpus qərargahına da zəng elədim! Ağlına kim gəlirsə, ondan da kömək istədim! Komandirlik gücümdən istifadə etdim!

Otelin adı, Əl-Mətar idi. Yəni airport. Oteldə suriyalılardan az sayda adam vardı. Hər yer boş idi. Qalmağımıza oranı uyğun görmüşdülər, çünki artilleriyaya yaxın idi və əmniyyətli yer idi. Əlirza ilə söhbətləşirdik ki, atam qapını döyüb dedi:

-Durun gedək hərəmə.

Oradakı unitazların pak olmasından əmin deyildi. Bizi də tələsdirirdi ki, "tez olun! Dəstəmaz almaq istəyirəm."

Ziyarətə çox səbirsizlənirdim. Önü açılan həmin maşına mindik. Hərəmə doğru yollandıq. Yolda, davamlı yoxlanış nöqtəsi ilə qarşılaşırdıq. Çoxu Əlirzanı tanıyır və bizi dayandırmırdılar. Yoxlanış nöqtələrindən birində, maşının önünü açmağa israr etdilər. Önünü açmağa nə qədər çalışdıqsa, bu dəfə tərslikdən açılmadı! Açılmadığını görəndə "eybi yox, gedin" dedi. Təzə yola düşmüşdük ki, öz-özünə açıldı!

**Xatunun xatirə dəftərindən bir yazı:**

Allahın adıyla,

Boğazımda düyünlər var və göz yaşlarım axır. Yazacaq sözüm çoxdur. Gecənin qaranlığında qələmi alıb, gündüztək ağ kağıza ürək sözlərimi yazmaq istəyirəm. Ey yorğun əllərim, mənimlə yola gəlin.

Təxminən bir ildir ki, həyatımın yoldaşı və uşaqlarımın atası, bizdən minlərcə kilometr uzaqdadır. Uzaqlarda işləyir. Amma bu, iş deyil. Mübarizədir, silahdır, müharibədir və ...

Uzun müddət idi ki, artıq əlinə silah almırdı. Amma nə vaxt yatsa, yuxuda cəbhəni və cəbhə yoldaşlarını görürdü...

Müharibə və döyüşmək... Söhbət, həzrəti Zeynəbin hərəmindən gedirdi, Ümmul-Məsaib adlı qadının hörmətindən gedirdi.

İlahi, axı niyə bu qədər ağlayıram? Ey göz yaşlarım! Sizi Allaha and verirəm, aman verin, qoyun ürək sözlərimi yaza bilim...

Tarix: 10.05.2014

Saat 1.40 gecə

# Altıncı fəsil

Həzrəti Zeynəb (s.a)-nın hərəminə gedirdim. Suriya müharibəsindən öncə, ziyarətə gedənlərin xatirələrini o qədər çox eşitmişdim ki, həsrətdən ürəyim yanırdı. Onlar xanımın hərəmindən danışanda,mən dodaqlarımı dişləyib ağlamağa başlayırdım. Çalışırdım ki, həzrəti Zeynəb ziyarətinə olan şövqümü, onun qonaqlarına qulluq etməklə təlafi edim. Şam haqqında eşitdiyim bütün mərsiyyələr, gözümün önünə gəlirdi. Bu yollar və küçələrdən, illər öncə peyğəmbərin ailəsi keçmişdi və bu düşüncədən bədənim əsirdi. Davamlı titrəyirdim. Sanki soyuq, sümüklərimin iliyinədək çatıb və məni silkələyirdi. Əslində o, soyuq deyildi, şövq atəşi idi.

Yollar, cəhalət və fitnədən yanmış halda idi. Hər yer boş və xəlvət idi. Təsadüfən açıq bir mağaza vardı, onun da müştərisi yox idi. Evlər, beton blok idi. Kərpicdən tikilmiş evlər görmədim. Əlirza deyirdi:

-Burada kərpic istehsal olmur. Təkcə blok beton var. Binlar da ya 10 və 7 mərtəbəlidir.

Airport ilə hərəmin məsafəsi az idi. Bağlar və parkların yaşıllığı, atamla məni çox təəccübləndirmişdi. Yaşıllıqlar çox və təravətli idi. Əlirza deyirdi:

-Buradakı bağlar, ildə 3 dəfə məhsul verir. Bura, çox bərəkətli ölkədir. Allah lənət etsin bu ölkədə böhran yaradan muzdlu xainlərə!

Məşhəd və İranın dekabr ayı, quru və kəskin soyuq olur. Amma orada gözəl yaşıllıq vardı. Əlirza, Suriya əhalisinin zənginliyindən danışırdı. Həm iqtisadi, həm də mədəniyyət baxımından zəngindirlər. Binaları dəlik-deşik, yanmış və xarabaya qalmış şəhərin, bağları yam-yaşıl və meyvədolu idi. Bu paradoksa ağzım açıq qalmışdı.

Zeynəbiyyə məhəlləsi, Məşhədin 5 yoluna bənzəyirdi və otellərlə bazarla doluydu. Suriyanın şiələrinin çoxu, həmin məhəllədə yaşayırlar. Orada, ömrü boyu Suriyada yaşayanlarla yanaşı, təzə oraya köçənlər də vardı.

Əfqanlı mücahidlərin Suriyada mübarizəsinin başlamasından 8 ay keçmişdi. Məhəllədəki hər kəs, Əlirzanı tanıyırdı. Amma onu, Əlirza Təvəssüli adıyla deyil, Əbu Hamid[1] ləqəbiylə tanıyırdılar.

Biz heç vaxt onun yeni adı, Hamidə öyrəşə bilmədik. Bəzən yadımda olanda, onu Hamid səsləyirdim. Amma qohumlar və dostların heç vaxt yadında qalmırdı. Əlirzanın cihad adının Əbu Hamid olması, mənə maraqlıydı. Suriyada döyüşçü olan qohumlarımız və tanışlarımızdan, ona Hacı Hamid deməklərini duymuşdum. Amma artıq hamı, ona Əbu Hamid deyirdi. Düşündüm ki, əslində Əbu sözü, Həmidə əlavə olunmalı və Əlirzanın cihad ləqəbi Əbu Həmid olmalıdır. Çox

[1] Hamidin atası deməkdir.

önəmli məsələ deyildi. Heç bu haqda Əlirzayla danışmaq da yadıma düşmədi.

Əlirza dedi:

-Hərəmin arxa qapısından getməliyik. Əsas yoldan getsək, yol boyu tanış adam görəcəm və maşından enib salamlaşmalıyam.

Hərəmə yaxınlaşdıqca, müharibə əsərləri azalırdı. Hələ də hər yerdə güllə izi vardı, amma bina dağıntısı və viran olmuş evlər yox idi. Düşündüm ki, bu məhəllənin əhalisi hərəmə qarşı qeyrətli və həssasdırlar. Buna görə də bir yer xarab olanda, tez təmir edirlər. Əmin idim ki, bu nisbətən gözəl və təmiz qalan məhəllə, qəddar düşmənin mərhəməti və mehribançılığına görə deyil. Onlar, mütləq ki, bu məhəlləyə hər yerdən daha çox atəş ediblər. Amma əhali Şamın bir daha xarabaya dönməsinə mane olublar.

Hərəmin arxa yolu, səhra kimi idi və zibillə doluydu. Atam maşından düşən kimi, dəstəmazxanaya getdi! Uşaqları da özüylə apardı. Qadınlar, giriş qapısından kişilərdən savayı daxil olmalıydılar. Çanta və cib telefonu aparmaq qadağan idi. Hərəmin xadim xanımlar, çarşabımdan zəvvar olduğumu anladılar. Məndən soruşurdular:

-Zəvvar?

Onlara deyirdim:

-Bəli.

Onlara əfqanlı olduğumu deyəndə, onlar da mənimlə Dəri[1] dilində danışmağa başladılar. Eşitmişdim ki, orada hərəm xadimləri əksərən əfqanlıdırlar. Bir nəfər məndən soruşdu:

---

[1] Əfqanıstanda yaşayan taciklərin, həzaraların, aymaqların və digər etnik qrupların dili. Fars dillərindən biridir

-Haradan gəlmisən?
-İrandan.
Bir-birinə baxıb dedilər:
-Rical ilə gəlib.
Sonralar rical sözünün mənasını Əlirzadan soruşdum. “Döyüşçü qüvvələrlə gəldiyini anlayıblar”, dedi.
Şəhərdə və ya hərəmin içində, qadınların çarşab taxdığını görmədim. Hamısı boneli hicablar, böyük şallar, uzun və qara paltarlar geyinmişdilər. Hərəmə yaxınlaşdıqca, bədənim daha çox əsirdi. Əlirza yanımda deyildi ki, əlini tutum və onun köməyilə irəliləyim. İçəri daxil olanda, iki pillə ilə zirehə çatmaq olurdu. Ayaqqabılarımı çıxardım. Yerdə deyil, buludlar üzərində olduğumu hiss edirdim. Hərəmə yaxınlaşırdım. Yaxınlaşa-yaxınlaşa, titrəyən səslə dedim:
-Salam olsun sənə, ey Allahın Rəsulun qızı! Salam olsun sənə, ey Əmirəl-Möminin qızı, Salam olsun sənə, ey Fatimeyi Zəhra qızı!
Zerihə yapışmışdım. Bir qədər sonra, zirehin gözəl bir guşəsində yerə əyləşdim. Nə qədər keçdiyini bilmirəm. Amma birdən, qarşımda Tubanı gördüm. Məni silkələyib deyirdi:
-Ana! Yavaş! Səsin kişilər tərəfə gəlir! Niyə ağlayırsan? Niyə qışqırırdın?
Özümə gəldim və gördüm ki, ətrafımda hamı heyrətlə mənə baxır. Yadıma gələn budur ki, şükür edirdim. Mənə ziyarət etmək nəsib olmuşdu. Üstəlik bu yol və bu vəziyyətlə. Buna şükür edirdim. Bir çox insan, bu ziyarətin həsrətində idi, amma mən gələ bilmişdim. Yuxu və xəyal kimi idi. Əlirza mənə demişdi ki, “mərsiyyə lazım deyil, yalnız xanımın başına gələn bəlaları xatırlamaq kifayətdir.” Düz deyirdi. Mərsiyyəyə ehtiyac

yox idi. Özüm hamının yerinə mərsiyyə oxuyub ağlayırdım.

Hər tərəf sağlam və təmiz idi. Güllə və ya zibildən əsər-əlamət yox idi. Amma xalçalar, divarlar və pərdələr, tozluydu. O toz-torpağı yumaq mümkün görünmürdü. Sanki, onlar da hərəmin bir parçası olmuşdu. Məncə o qəribçilik tozuydu. Qürbət tozunu su yuyub silə bilməz.

Qayıtma zamanıydı. Əlirza yanıma gəlib dedi:

-Allah qəbul eləsin. Xoş keçdi?

Mən hələ gözlərimə inana bilmirdim. Başını mənə yaxınlaşdırdı. Bir an, göz yaşlarımdan öpəcəyini düşündüm. Amma boynunu əyib qulağıma dedi:

-Mənim üçün dua elə!

Hərəmin işıqlarını söndürüb, qapılarını da bağladılar. Müharibəyə görə, hərəmin səhərə qədər açıq qalması təhlükəli idi. Hamını çölə çıxardılar. İlk ziyarətimiz, 3 saat çəkdi. Rezayi xanım, nənəm, anam, bacılarım, qonşular və bütün iltimasi dua deyənlərin niyyətinə namaz qıldım.

Qayıdan yolda, mənim sükutumun səbəbini Əlirza anlayırdı. Atam hərəmdə gördüyü tanışlardan danışırdı. Hərəmdə, zirehin digər tərəfindən gördüm ki, bir neçə nəfər atamı dövrəyə alıb və danışırlar.

Axşam yeməyindən sonra, uşaqları yatızdırdım. Sonra anama zəng edib Fatiməylə danışdıq. Fatimə dedi:

-Getdiyiniz yerlərdən şəkil göndərin.

Əvvəllər atasını görməyən uşaq, indi anasından da uzaq düşmüşdü. Ertəsi gün Hacı Əhmədgilə gedəcəkdilər ki, video zənglə danışıb bir-birimizi görək.

Yatmadan öncə, Əlirza dedi:

-Bura artilleriyaya yaxındır və davamlı atəş səsi gəlir. Gecə qorxmayasan.

Nə vaxt yuxuya getdiyimi anlamadım. Birdən, qapının döyülməyinə yuxudan dik atıldım. Səhər saat 4 idi, biri qapını döyüb Əlirzanı səsləyərək deyirdi:

-Təvəssüli, ay Təvəssüli...

Çox qorxmuş və nigaran halda, düşündüm ki, bəlkə atamın halı pisləşib və kimsə bizə xəbər verir. Amma bir qədər diqqət etdikdən sonra, bu, atamın səsi olduğunu anladım. Qorxmuş və rəngi qaçmışdı. Pencəyini də əyninə geyinmiş və deyirdi:

-Durun, oyanın! Buradan getməliyik! Partlayış səsi gəlir! Qonşuların evinə bomba atəş ediblər, indicə burada edəcəklər!

Əlirza artıq oyanmışdı. Gülüb dedi:

-Mən sizə dedim axı, hacı. Bura, artilleriyaya yaxındır. Üstəlik duyulan səs, bizə çox uzaqdır. Siz onun yaxın olduğunu hiss edirsiz. Bizim həmişə hazır vəziyyətdə olduğumuzu düşmənə bildirmək üçün, davamlı bomba atəş edirik. Siz heç qorxmayın. Gedin yatın.

Atam gedəndən sonra, Əlirza gülüb dedi:

-Qaynatamın başına dönüm! Ona nəsə olmasından necə də qorxur!

Səhər, uşaqların səs-küyü ilə oyandım. Əlirza, məndən sonra oyandı. Uşaqlar ac idilər. Onlardan soruşdum:

-Babanız haradadır?

-Yatıbdır!

Çox qorxdum, Əlirzaya dedim:

-Bəlkə gecə qorxudan infarkt keçirib ölübdür! Qalx ayağa gedək, nə olduğunu görək!
İkimiz də qaça-qaça atamın otağına gedib başı üstə dayandıq. Dünən gecə əyninə geyindiyi pencəklə yatıb qalmışdım. Bir qədər çağırdıq, amma oyanmadı. Dərin yuxuya dalmış və xoruldayırdı. Nəhayət, onu oyada bildik.

Əlirza, gülüşünün qarşısını almağa çalışırdı. Atam oyanıb dedi:

-Gecə yata bilmirdim. Siz o səs-küydə necə yatdınız? Ayaqyolu da yoxdur! Axı bu nə vəziyyətdir?! Tez olun hərəmə gedək!

Oteldən çıxıb Həzrəti Rüqəyyə hərəminə doğru yollandıq. Otel ilə hərəmin arasındakı məsafə, İmam Rza (ə)-ın hərəmindən  Behişti Rza məzarlığındakı məsafə qədərdir. Hərəm, Şamın mərkəzindədir. Orada müharibədən, əsər-əlamət yox idi. Hər şey çox normal idi. Camaat get-gəl edirdilər. Xanımlar açıq paltar geyinmişdilər. Atam oranı görüb dedi:

-Həzrəti Zeynəbin hərəmi hara, bura hara?!

Hər tərəfdə luks binalar, aram və rahat əhali, izdihamlı və rəngarəng bazarlar, qəmsiz və qıvraq uşaqlar vardı. Əlirza, bələdçi olmuşdu! Maşını park edəndən sonra dedi:

-Əməvilər məscidi buraya yaxındır. Qarşıda da Şam bazarıdır. Hərəm, Əməviləri məscidinin düz arxasındadır.

Yoxlanış üçün, xüsusi cihazın altından keçməliydik. İki tərəfində mağaza olan bir küçəyə girdik. Atdığımız hər addımla, cərgəyə düzülən suriyalı əsgərlərin sayı artırdı. Küçələr mənə yenə Şam xarabalığını xatırlatdı. Qadınlara məxsus yoxlanışdan da adladıq. Az adam var idi. Hərəmə daxil olduq. Ağ mərmər daşla tikilmiş fəzası çox gözəl idi. Hərəmin divarları və yeri, mərmər daş idi. Hərəmin içi boş idi. Yalnız biz və xadimlər var idik! Çox təəccüblənmişdim. Əlirzadan soruşdum:

-Niyə hərəm boşdur?!

Əlirza dedi:

-Boşluğunu dərd etmisən! Buraya hücumlar və hörmətsizlik olur. Davamlı buranı sökəcəklərini dair hədə-qorxu gəlirlər! İnsanlar təhlükəyə görə gələ bilmirlər.

Axşam saat 10-da şəhərin işıqları sönür və qaranlıqla sükut hər tərəfi bürüyürdü. Elektrik də tez kəsilirdi. İkinci axşam işıqlar sönüb uşaqlarla atam yatanda, Əlirza mənə Fatimiyyun batalyonu haqqında danışmağa başladı.

Mənə bir sıra şəkil və video göstərdi ki, onları mənə göndərməyi qadağan idi. Əlində yaxşı və sağlam telefon var idi. Mənə dedi:

-Telefonu haradan tapdığımı soruşmayacaqsan?

-Yox, yəqin ki, burada sənə veriblər.

Qəşş edib güldü. Sonra dedi:

-Yox əşi! Burada elə şey yoxdur! Heç kimə telefon vermirlər. Telefon, Fatihindir.

-Fatih kimdir?

-Mənim ikinci müavinim.

Məni Fatimiyyun döyüşçüləri ilə tanış edirdi ki, onların ailələrini tapım və çətin gündə bir-birimizə dəstək olaq. Batalyonun təlim müdürü, logistika müdürü, əməliyyatları planlama müdürü və ilk müavini ilə tanış etdi. Ona dedim:

-Bəs mədəniyyət mərkəzinin müdürü?

Bir ah çəkib dedi:

-Mənim ən böyük dərdim budur ki, mədəniyyət mərkəzimiz aktiv deyil. Heç mədəniyyət mərkəzimiz yoxdur! Döyüşçülərin də buradakı ən böyük narazılığı budur. Mədəniyyət mərkəzimiz olsaydı, təbliğat işləri və medialarımızı aktivləşdirərdik. Beləliklə bizim yükümüzün yarısı azalardı. Heç kim burada mədəniyyət mərkəzi açmaq istəmir. Çox adama deyirəm ki, buraya gəlsinlər və şəraitə baxsınlar. Onları, döyüşə çağırmıram ki. Heç olmasa, ziyarətə gəlsinlər. Amma dinləyən yoxdur, heç kim gəlmir.

-Günü gündən döyüşçülərin sayı artır. Bunları necə toplayıb geri qayıdacaqsınız? Nə vaxt qayıtmağı düşünürsüz?

Yenə dərindən ah çəkib yorğun və yuxulu səslə dedi:

-Hələlik buradayıq. Ya qələbə çalıb qayıdacayıq, ya da şəhadət qismət olacaq.

-Səncə müharibə nə vaxt bitəcək bəs?

-Hələ ki, müharibə davam edir. İnşallah Qüdsü azad edəndə bitəcək. Buradan Qüdsə gedən bir körpü tikəcəyik.

-Yaxşı edirsən! İşində ol! Heç evi-eşiyi və uşaqlarını fikirləşmə.

Əlirza yalnız dinləyirdi, sonra da yuxuya daldı. Amma mən, pərdənin arasından divara düşən ay işığına gözümü zilləmişdim. Müharibə davam edirdi. Şəhid vermək davam edirdi. Aşura davam edirdi. Əsirlik davam edirdi. Yetimlik və ərsiz qalmaq da davam edirdi... Bunları düşünə-düşünə məni də yuxu tutdu.

Məşhəddəkilərə hədiyyə almaq üçün, xüsusilə də Fatiməyə, Həmidiyyə bazarına gedəcəkdik. Məşhəddən özümlə gətirdiyim balaca pul çantasını boynuma keçirdim. Əlirza təəccüblə dedi:

-Bu nədir ay xatun!?

-Boyundan asılan pul çantası. Pullarımı içinə qoyuram ki, itməsinlər.

Çantanı əlinə aldı və İran əsginaslarını görüb güldü. Sonra da dedi:

-Sən nə fərqli və maraqlı qadınsan! Bu qədər pul niyə gətirmisən özünlə!? Bu səfərin mənim öhdəmədir. Pulunu saxla İrana.

Bazarda axtardığımız ilk şey, Tubaya isti jaket idi. Oteldən çıxanda, Əlirza Tubaya jaket sözü verdi. Tubanın əynindəki jaketi onun ad günündə özüm toxumuşdum və o

qədər geyinmişdi ki, qısalıb və görkəmini itirmişdi. O jaketi geyinəndə quzuya bənzədiyi üçün, jaketi quzu adlandırmışdıq. Tubaya bir palto aldıq və oradaca Əlirza quzunu zibil qabına atdı. Fatiməyə də paltar aldım.

Zeynəbiyyə məhəlləsində yaşayan ailələr, Əlirza və Fatimiyyunu yaxşı tanıyırdılar. Əbu Hamidin ailəsinin Zeynəbiyyəyə gəldiyini eşidəndə, bizimlə görüşmək üçün çox həvəsli idilər və otelə gəlmək istəyirdilər. Təhlükəli şəraitdə, onlara əziyyət vermək istəmirdik. Əlirzaya dedim:

-Gəl biz gedək Zeynəbiyyəyə və orada qalaq. Oteldən daha yaxşıdır. Tanıdığın ailələrin yanında bizə də daha çox xoş keçəcək.

Ummu Əlinin evini bizim qalmağımıza uyğun görmüşdülər. O da Dəri dilində danışırdı. Hər gün, bir neçə ailə, bizi görməyə gəlirdi. Hamısı döyüşçülərin canına dua edirdi. Onlar üçün yaratdıqları əmn-amanlığa minnətdar idilər. Ummu Əli deyirdi:

-Əfqanlı, iranlı vəlivanlı döyüşçülər gəlmədən öncə, hər gün səhər qorxu və vahiməylə yuxudan oyanırdıq. Davamlı bir evdən qışqırtı səsi duyulurdu və bir ailə üzvünün kəsilmiş başını ailəsi qapının önündə ya da küçədən tapırdı. Buraya ardıcıl atəş edilirdi. Düşmən o qədər çox idi ki, hərəmə getməyə cürət etmirdik. Onlar, qadın, uşaq və yaşlıya da rəhm etmirdilər. Amma Fatimiyyun gələndən və Əbu Hamid bu işə başlayandan, Allaha şükür ki, əmn-amanlıqdır. Hər həftə, döyüşçülər və mücahidlərin sağlamlığı üçün nəzir-niyaz edirik.

Əlirza ailələrin dəstə-dəstə mənim görüşümə gəldiyini görəndə gülüb deyirdi:

-Sənin başın məndən də qarışıqdır ki!

Hədiyyə almaq üçün, Ummu Əlinin qızıyla bazara getdik. Əlirza pulu, qızın əlinə verdi. Mənim Suriya lirasından başım çıxmırdı. Bir neçə dəst yastıq üzü və nalça üzü özümə, anama və Hacı Əhmədin xanımına aldım.

Suriyada beş gün qaldıq və bu beş gün, çox tez keçdi. Əlirza da sağalmışdı və baxıcıya ehtiyacı yox idi. Həmin neçə gündə də, onun baxıcıya deyil, mənim təsəlliyə ehtiyacım var idi. Artıq səhər saat 11-də Dəməşq airportunda olmalıydıq. Səhər tezdən, vidalaşmaq üçün hərəmə getdik və çox az vaxtımız var idi. Davamlı da Əlirzaya zəng edib ona ehtiyac olduğunu deyirdilər. O da, "baş üstə, gələcəm" deyirdi.

Airportda, uşaqlara meyvə suyu və keks almağa getdim. Satıcının dilini anlamırdım, o da məni anlamırdı. Məcburən pulumun hamısını önündəki masaya tökdüm. O da barmağıyla iki qəpiyi özünə tərəf çəkdi və mənə başa saldı ki, gerisini toplayım.

Əlirzanın uçuş bileti yox idi, amma airportdakı son qapıya qədər bizimlə gəldi. Tubanı onu buraxmaq istəmirdi. Atasının pencəyindən yapışmış və bizdən uzaqlaşmasına imkan vermirdi. Əlirza Tubaya görə nigaran idi. Davamlı atam və mənə qaş-göz edərək onu ayırmağımızı istəyirdi, amma Tuba bunu anlamışdı. Buna görə atasından bir saniyə də olsun əl çəkmirdi. Yeməli şeylərlə də fikrini yayındırmaq olmurdu. Döyüşçülər, Əlirzanı gözləyirdilər. Nə edəcəyimizi bilmirdik. Hərbi bölgələrin uçuşlarında həmişə ertələnmə olurdu və biz bilirdik ki, hələ neçə saat gözləməliyik. Amma Əlirza bizimlə qalıb gözləyə bilməzdi. Həzrəti Rüqəyyəyə təvəssül etdim. Əlirza məcburən ayaqyolunu bəhanə etdi. Tuba ona deyirdi:

-Yox, sən qaçmaq istəyirsən.

-Yox, sən get babanın qucağına, mən tez qayıdacam.

Nəhayət razı oldu və atamın qucağına gəldi. Atamın qucağına gedən kimi, boynunu əyib, başını atamın çiyninə qoydu və yatdı! Hələ ayaqları Əlirzanın qucağında idi ki, yuxuya dalmışdı! Orada, Həzrəti Rüqəyyənin möcüzəsini gördüm. İmam Hüseynin 3 yaşlı qızı, başqa bir üç yaşlının atasının ayrılığına ağlamasına dözümü yox idi.

Tuba, uçuş boyu yatdı. Atamla Həmid Rza da yatdılar. Mən isə, bu şirin səfəri düşünür və qarşıdan gələn Novruz bayramı üçün ağlımda plan çizirdim. Əlirza söz vermişdi ki, bayrama gələcək.

**Xatunun xatirə dəftərindən bir yazı:**

Nəhayət 8 aydan sonra, onu görməyi bəhanə edərək, Ummul-Məsaib xanımın ziyarətini Allah mənə nəsib etdi.

Orada o, yaxşı sözlər danışdı. Mənə dedi:

-Mən, aramlığı və xoşbəxtliyi burada tapmışam. Burada, həyatdakı məqsədlərim mənim üçün aşkarlanıbdır. Bura, bəlalar ölkəsi Şamdır. Bura, elə bir yerdir ki, ləyaqətin olsa, mütləq fərqli bir insan olacaqsan. Bu sənin özünə bağlıdır ki, düzgün yolu seçəsən.

Tarix: 10.05.2014

Saat 1.40 gecə

# Yeddinci fəsil

Yeni ilə az qalmışdı[1]. Əlirzanı görmək üçün getdiyim səfərdən qalan xoş əhval-ruhiyyə ilə, bayram hazırlıqlarını edirdim. Bu enerji və sevinci ailəmə də bəxş edirdim və hamımız çox qıvraq və şənliydik. Evin təmizliyə ehtiyacı yox idi, amma bayram abu-havasına görə, yenə də bayram təmizliyi etdim. Əlirza söz vermişdi ki, bayrama yanımızda olacaq və mən də onun verdiyi sözə əsasən, bayram süfrəsi sərmişdim.

Axşam saat 9-da il dəyişdi və yeni ilə daxil olduq. Əlirza, yeni ildən öncə çatmağa çox çalışmışdı, amma yeni il girəndən sonra airporta çatdı. Həmişəki kimi, kiçik və böyüklərdən təşkil olunmuş bir qoşunla, onu qarşılamağa getdik. Yenə dostlarından bir dəstə də airportun bir guşəsində onu gözləyirdilər. Əlirza gələndən sonra, hamıyla salamlaşıb qucaqlaşdı və hal-əhval tutdu. Sonra isə, ertəsi gün dostlarıyla toplanıb bayram münasibətilə şəhid ailələrinə gedəcəklərini dedi.

---

[1] İran tarixinə əsasən, Novruz bayramı il dəyişilir.

Əlirzanın təzə evimizi görməmişdi və bu onun evimizə ilk girişi idi. Girişdə ona üzərlik yandırıb başının ətrafına fırladım. İlk baxışda, evi bəyəndi. Amma bir az sonra, evin balaca olduğunu dedi. Xüsusilə də mətbəxin həyətdə olmasını bəyənmədi. Bayramımızın ilk qonağı, Hacı Əhməd idi. Nəşəli halıyla evə girib səs-küy edərək “Ya Allah, Ya Allah” deyir və evdəkilərin bir-bir adını səsləyirdi. Əlirza onu qarşılamağa çıxdı. Keçən il aldığım pencək-şalvarı geyinmişdi. Ucuz qiymətə almışdım onu və artıq bir il idi ki, onu geyinirdi. Buna görə də rəngi qaçmış və keyfiyyətsizliyi üzə çıxmışdı. Hacı Əhməd onu görüb dedi:

-Nə gündə geyinmisən, hacı! Sən indi ali rütbəlisən, qəşəng paltarlar geyinməlisən!

Əlirza gülərək dedi:

-Yox, elə bu da yaxşıdır. Qəşəng paltarı neynirəm.

Amma Hacı Əhməd əl çəkmədi. Hətta çay içib şirniyyat yeməyə də əyləşmədi. Ona israr edərək deyirdi:

-İndi bu dəqiqə gedib sənə pencək-şalvar almalıyıq.

Əlirza məndən soruşdu:

-Nə qədər pulun var?

Bank kartımı verib dedim:

-İçində 200 min tümən var.

Murtazayla Həmid Rza da onlarla birgə getdilər və iki saat sonra, bəy bazarlığı ilə gəldilər. Qəhvəyi rəngdə pencək, 2-3 ədəd köynək, kəmər, corab və şalvar almışdılar. Ona dedim:

-Yalnız Hacı Əhmədin sənə gücü çatır!

Həmin il, Tubanın ad gününə, Əlirza evdə idi. Kiçik bir tort alıb, Tubanın 3 yaşını birgə qeyd etdik. Şirniyyat və meyvələri özüm almışdım. Əlirza mənim necə meyvə aldığımı görüb gileylənərək dedi:

-İri və yetişmiş meyvələri götür!

-Vallah ən yaxşı meyvələr elə budur. Sənin damaq dadın dəyişib. Suriyanın meyvələrinə öyrəşmisən və indi bunlar sənə dadsız gəlir.

Suriyada çiyələk portağal boyda idi. Həm də sulu və çox dadlı olurdu.

Qonaqlarımız bayramlaşmağa evimizə gəlirdilər. Bəziləri bayramlaşaraq deyirdilər:

-Bizim uşaqları Suriyaya aparmayın.

Bu hallarda, Əlirza nə deyəcəyini bilmirdi. Cavabı, həmişə eyni idi:

-Məcburiyyət yoxdur. Özləri getmək istəyirlər. Siz özünüz mane ola bilmirsinizsə, mən nə edə bilərəm?! Mən nə desəm, mənə deyirlər ki, bəs özün niyə gedirsən? Mən Həzrəti Zeynəbin hərəmini qorumaq istəyən gənclərin qarşısını ala bilmərəm.

Bir gün, gümüş mağazasının önündən keçdim. Uzun müddət idi ki, bir sırğa bəyənmişdim. Nəhayət pulum var idi və 18 min tümənə onu alacaqdım. Ötən il, iki qızılımı itirmişdim. Avtobusda onu çantamdan oğurlamışdılar. Bacım Mərcan deyirdi:

-Sən pintiliyindən itirdin onları! Yoxsa səndən başqa kim qızılı çantasında o yan-bu yana aparır?!

Qızılla birgə pasport və pulumu da oğurlamışdılar.

Bunu Əlirzaya deyəndə, mənə dedi:

-İşlətmədiyin qızıl, elə oğrunun payıdır!

Məni qətiyyən danlamadı.

Gümüş sırğanı qulağıma taxıb ona dedim:

-Sırğalarımın gözəl olduğunu deməyəcəksən?

-Sən boynuna və qulağına nə taxsan gözəldir. Amma evin küncündə və ya mağazada olanda gözəlliyi itir.

Həmin günlərdə, evdə 4-cü uşaq haqqında söhbət gedirdi. Yaralananda deyirdi:

-Nasiri bəy mənə deyirdi ki, niyə özünü bu hala salmısan?! Mən sənin üçün livanlı qız tapmışdım! Mən də ona dedim ki, çox yaxşı! Tapdığın qızın Cəbəl Amil bölgəsindən olduğunu ümid edirəm, çünki əsil şiələr oradandır.

Mən qaş-qabaqlı halda dedim:

-Söhbətə bax! Bir daha Nasiri bəylə dostluq etmə! O, yaxşı dost deyil.

Nasiri bəyin xanımı, livanlı idi. Əlirza, yenə uşağımızın olmasını istəyirdi. Amma mən razı olmurdum. Narazılığımın səbəbi, uşağa baxmaq, özünün evdə olmaması, 9 ay çətinlik çəkmək və atamgilin bizim əziyyətimizi çəkməsiydi. Ona dedim:

-ÖZün gəlib bizim başımızın üstündə olacaqsansa, baş üstə. İldə bir uşağa da razıyam. Amma sən səfərdə olanda, mənim də 3 uşaqla yanaşı, 4-cü uşağı da dünyaya gətirməyim, mümkün deyil.

Mənə, uşaq dünyaya gətirməyin əhəmiyyəti haqqında hədis oxuyurdu və deyirdi ki, müsəlmanların sayını artırmaq lazımdır. Sonra da deyirdi:

-Niyə qadınlar tənbəllik edir və qəribə bəhanələr edirlər?! Bizim analarımız mal-qoyun saxlayıb əkinçilik edərək 10-12 uşaq dünyaya gətirirdilər.

Bayramda, çox yağış yağdı. Havanın təmizliyi ruhumu təzələndirirdi. Həmin günlərdəki ən gözəl şey, Əlirzayla birgə yağışlı havada hərəmə getmək idi. Heç yorulmurdum. Əlirzanın dəstə-dəstə gələn dostlarına yemək bişirir və heç bir əskikliyin olmamasına çalışırdım. Onun qonaqları üst mərtəbəyə çıxırdılar. Yağış yağanda, həyətin küncündəki otaqdan mətbəxə tez-tez qaçaraq

gedirdim və yeməyə baxırdım. Yağış bəzən elə çox yağırdı ki, bir az yubansam başdan-ayağa islanırdım. Üst mərtəbədə ayaqqabı dolabı yox idi. Qapının önündə ayaqqabıların dağ olması, Əlirzanın acığına gəlirdi. Hər gələn, ayaqqabısını digər ayaqqabıların üstündə çıxarırdı. Gedəndə də bir saat ayaqqabılarının tayını axtarırdılar.

Dostlarının bu şəkildə ayaqqabı çıxarması, Əlirzanı narahat edirdi. Bir axşam qonaqlar gedəndə dedi:

-Qadın nə bilir ev tutmaq nədir? Ayaqqabı dolabı yox, adam kimi mətbəxi yox, düz-əməlli otağı da yox!

-Qadın ev tuta bilmirsə, otur yerində özün ev tut.

Bir gün səhər, zəng elədi ki, qonağım var 10 nəfər. Mən də 10 nəfərlik plov və toyuq bişirdim. Gələndə gördüm ki, Əlizadə bəyin əlində iki yemək bağlaması var. Birini mənə verdi və böyük bağlamanı üst mərtəbəyə apardı. Bağlamadan kabab iyi gəlirdi. Əlirza aşağı düşüb dedi:

-Əlizadə kabab alıb gətirib!

-Niyə? Mənim bişirdiklərimi kim yeyəcək?

-Yağış yağırdı. Düşündük ki, bu havada yemək bişirmək istəsən, davamlı yağışın altında evdən mətbəxə getməlisən. Ona görə sənə əziyyət vermək istəmədik.

-Sən məni tanımırsan? Belə dəymə-düşər deyiləm ki, yağışa görə qonağımı ac saxlayım.

-Axşam gəlib sənin bişirdiklərini özüm yeyəcəm.

Uşaqlar da mənim yeməyimdən deyil, kababdan yemişdilər. Yeməklər, qazın üstündə qaldı. Mən də mətbəxin qapısını bağladım ki, pişik girməsin.

Əlirzanın yaraları sağalmışdı, amma ağır iş görə bilmirdi. Ağır bir şey qaldıranda, nəfəsi daralırdı. Hələ də qabırğaları ağrayırdı. Köklüyü də əziyyət edirdi. Baxmayaraq ki, az yeyirdi, amma tez kökəlirdi. Mən

ondan ötrü nigaran idim və kökəlməsini istəmirdim. O da mənə deyirdi:

-Bənin! Vallah mən kök deyiləm, sadəcə sümüyüm ağırdır!

Bayramda, Hacı Əhmədin təzə aldığı bağ evinə getdik. İçində hələ remont gedirdi. Amma bizi bayram üçün kababa dəvət etmək istəmişdi. Hava sərin və yaxşı idi. Nahardan sonra, kişilər şahmat oynadılar. Əlirzanı şahmatda uduzdurmaq mümkün deyildi. Bağda, bir pişikdən çox qorxdum. Əlirza qorxularıma pis baxır və deyirdi:

-Anasansa, qorxaq olmamalısan!

Dama çıxmaqdan qorxurdum. Hətta sudan da qorxurdum! O deyirdi:

-Belə hər şeydən qorxmağın, əsəblərinin pozulduğuna görədir.

Amma son zamanlar, qorxmaz olmuşdum. Pəncərədən dama dırmanıb televizor antenasını düzəldirdim. Hətta bir neçə dəfə açarı evdə unudanda, qapıdan dırmanıb həyətə keçmişdim. Əlirza artıq qorxaq olmadığımı görüb deyirdi:

-Əhsən! Bax ana belə olar! Qorxaq olmamalısan!

Suriyadan gəlməsindən 13 gün sonra, axşamüstü qayıtmalıydı. Biz də onunla birgə airporta getdik. Airportda, bayram süfrəsi və Bəqi məzarlığının maketini düzəltmişdilər. Onun yanında şəkil çəkdirdik. Uçuşun vaxtını gözləməkdən uşaqların yorulmaması üçün, dondurma da yedik. Əlirza, Fatimiyyə günlərinə görə, qara köynək geyinmişdi.

Əlirza Suriyaya getdi və biz evə qayıtmalıydıq. Uşaqlar, birdən susmuşdular. Hər biri, öz fikirlərinə dalmışdı. Bəlkə də Tuba, atasının belinə minib at çapmağı, Fatimə, atasının dərsləri və imtahanları haqqındakı

tövsiyələrini və Həmid Rza atasının belə deməyini düşünürdü:

-Sən bu evin kişisisən! Anan və bacılarına muğayat ol. Artıq işıqları söndür və qapıları kilidlə.

Mən də yorğun idim. Yorğunluğu təzə hiss edirdim. İki həftə dayanmadan işləmiş, bazarlıq etmiş, bişir-düşür etmiş və bayram qonaqlarını qarşılamışdım. Əlirza bizdən ayrılıb təyyarəyə gedəndə mənə dedi:

-Get dincəl, daha rahat ola bilərsən!

Amma o olmayanda, rahatçılığın bir anlamı yox idi. Hələ evə çatmamışdıq ki, qəlbimə qəm-kədər doldu.

Hər dəfəki kimi, nəzir aşı bişirib qonşulara paylamağa başladım. Əməliyyat olanda, Əlirza bunu parol ilə mənə deyirdi. Nə vaxt "iş başındayıq" desə, əməliyyat olacağını bilirdim. Qonşular qabları geri qaytaranda, ürəyim daha da çox darıxırdı. Aşın qabı, mənə səfərdəki müharibə döyüşçüsünü xatırladırdı.

Uşaqların imtahanları başlamışdı və Əlirza telefon arxasından bəzən tapşırır və bəzən yalvarırdı ki, dərs oxuyun! Həmid Rza, atasının tapşırıqlarını ciddiyə alırdı. Bəzən qonşular deyirdi:

-Səhər çağı özümüz gedib çörək almağa tənbəllik edirik, qaldı ki, uşaqlarımız! Sənin oğlun necə səhər çağı hər gün çörək almağa gedir?

Onlara deyirdim:

-Atası tapşırıb ona. Evin bütün bazarlığını o edir.

Bilirdim ki, bəzən axşam namazı vaxtı, atasının evdə olmasına və birgə məscidə getmələrinə darıxırdı. Atası evdə olanda, ona deyirdi:

-Atanın gül oğlu! Azan oxundu, dur gedək məscidə.

O da cəld dəstəmaz alıb atasıyla sevincək məscidə yollanırdı. Tubanın da daha atı yox idi! Atası kimi böyük

və kök bir atı əldən vermişdi! Fatimə də atası evdə olanda, müxtəlif bəhanələrlə dil tökərək ondan əsginas alırdı. Pul istəyəndə o qədər dağdan-dərədən danışıb müxtəlif bəhanələr edirdi ki, axırda atası deyirdi:

-Ata qurban, sözünü de! Nə lazımdır? Pul istəyirsən?

Qonşuların evində keçirilən mərasimlərdə davamlı iştirak edirdim. Yas məclisi və ya Quraan oxuma məclisinin mənim üçün fərqi yox idi. Bir nəfər mənə deyirdi:

-Sizin Quraan oxumağınız xoşuma gəlir. Mən məhz buna görə gəlirəm.

Xanımların hamısı get-gəl etmək istəyirdilər və mən bacardığım qədər evimin qapısını hamısının üzünə açıq qoyurdum. Bəzən tənələr və söz-söhbətlər arasında, qonşulardan biri məhəbbətli bir söz deyirdi və o söz ürəyimdəki yanğına sərin su kimi təsir edirdi. Bir dəfə biri dedi:

-Allah sizi qorusun. Allah ərini də qorusun. Mən həmişə ərimə və uşaqlarıma deyirəm ki, onlar olmasaydılar, biz belə əmn-amanlıqda yaşaya bilməzdik.

**Xatunun xatirə dəftərindən bir yazı:**

Mənim əziz Əlirzam, sədaqətli, ixlaslı və dəyərlim. Bil ki, Allahın rızası üçün səni seçən həyat yoldaşın, artıq istəyir ki, Allah yolunda addım atasan.

Əslində bilirəm ki, sən onsuz da Allah yolundasan və mənim deməyimə ehtiyac yoxdur. Amma bunu bilməyini istəyirəm ki, çox şadam və qəlbim çox rahatdır. İnan ki, bəzən bu halıma görə Allaha şükür səcdəsi edirəm və dua edirəm ki, bu mənəviyyatım və imanım daha da qüvvətli olsun.

Mən səninlə birgə, sənin məqsədlərinə doğru addımlamaq istəyirəm.

Tarix: 15.09.2013

Saat 1.10

## Səkkizinci fəsil

Novruz bayramında, Əlirza iranlı bir gəncin Suriyaya getmək istədiyini və ondan əl çəkməməyindən danışırdı. Mənə deyirdi:

-Ona dedim ki, bu mümkün deyil. Bizim vasitəmizlə gedə bilməz. Dedim ki, get və öz qruplarınızla cəbhəyə yollan.

Amma bu iranlı gənc, heç bir şəkildə fikrindən daşınmırdı. Bir yolla, Suriyanın Hələb şəhərinə gedib çıxmışdı. Bir neçə gün sonra, şəhadət xəbəri gəldi. Şəhid Həsən Qasimi Dana, ilk iranlı hərəm müdafiəçisi şəhidi idi.

Bir gün bazara getmişdim və taksinin radiyosu, hərəm müdafiəçiləri və şəhidləri haqqında danışırdı. Bunu eşitdiyimə sevinmişdim. Müharibə günü-gündən çətinləşirdi və əvvəlkindən daha çox sayda döyüşçüyə ehtiyac var idi. Ailələrin problemlərini həll edəndə və ya ən azından onları dinləyib təsəlli verici bir söz deyəndə, faydalı insan olduğumu hiss edirdim. Bir döyüşçünün oğlu, təhsilini buraxmış və Suriyaya getmək istəyirdi.

Anası bu məsələ haqqında çox narahat idi. Həmin oğlanla söhbət etdim.

Bir müharibə əlili də vardı ki, müalicə olmaq üçün maddi köməyə ehtiyacı var idi və ailəsi kimə müraciət etsələr də nəticəsi olmamışdı. Həmin müharibə əlilinin müalicəsi üçün də çox maraqlanırdım. Ailələrə baş çəkir, onların sənəd işləri haqqında maraqlanır və lazımlı şeyləri vəzifəlilərə bildirirdim.

Həmin vaxtlarda, Əfqanistandan qonağım gəlmişdi. Qonağım Əfqanistanda olduğum vaxtlarda mənə yardım edən Xadim Hüseyn idi. Artıq, 21 yaşlı gənc oğlan olmuşdu. Qardaşı İbrahim və onun xanımı Raziyə ilə birgə, İrana gəlmişdilər. Onların oturum sənədlərini mən düzəldirdim.

İrana gəlməkdən məqsədləri, Suriyaya getmək idi. Bunu gömrükdə bildirməməli idilər, amma təəssüflər olsun ki, səhvən bildirmişdilər. Gömrükdə, onlardan İrana niyə getmək istədiklərini soruşanda, onlar da "Suriyaya getmək istəyirik" deyə cavablandırmışdılar! Bu cavaba görə, gömrük onlara çıxış icazəsi verməmişdi. Mən Əlirzaya zəng edib baş verənlərini ona izah etdim. O da dedi:

-Bir neçə gün sonra gömrükdəkilər onları unudacaq. O vaxt bir daha gəlməyə cəhd etsinlər.

İkinci dəfə gəlmək istəyəndə, rahat şəkildə adlamışdılar.

Xadim Hüseyn, artıq həmin 4-cü sinif uşağı deyildi ki, mənim üçün ev süpürüb, qab yuyur və çörək alırdı. Artıq cüssəli bir gənc idi və əlinə silah alıb döyüşmək istəyirdi. Onunla oturub keçmişi xatırladıq. Fatimə o vaxt 2 yaşlıqdı və Xadim Hüseynlə ondan da danışdıq. Əlirza demişdi ki, tez zamanda ziyarətə getsinlər və qohumlarla da

görüşsünlər, çünki Suriyaya getməyə az qalmışdı. Onlar Qum və Tehrana getdilər. Tehrandan da Suriyaya yollandılar. İbrahim, xanımını Məşhədə göndərdi və Raziyə uzun müddət bizdə qalıb bizimlə yaşadı. Baxmayaraq ki, hamilə idi. Amma ev işində, mənim işləməyimə imkan vermirdi. Raziyə çox cəld idi və ona görə ev həmişə təmiz və səliqəli idi.

Məsumə ilə Raziyə, mənim evimdə qalırdılar. Onlara çətin keçməməsi üçün, əlimdən gələni edirdim. Pul olmayanda, qonaqlarıma ucuz yeməklər, olanda isə bozbaş və makaron bişirirdim.

2014-cü ilin Ramazan ayına az qalmışdı. Əlirza, Qədir gecələrinə gələcəyini demişdi. Sözünü tutdu və gəldi. Ramazan ayının 17-si gəlib çatdı. Saat 11-də airporta çatacaqdı. Evdən tələsik çıxdıq, amma airporta gec çatdıq. Əlirza airportdan çıxmış və taksilərin dayandığı yerə gəlmişdi. Biz çatanda, taksidən düşməyimizə mane oldu. Hava isti idi və biz də oruc idik. Özü qabaqda oturdu və Tubanı qucağına aldı.

Əlirzanın içində leptopu olan çamadanı, itmişdi. Airportda yüklər gələndə, onun çantası orada deyilmiş. Biz o qədər gec çatmışdıq ki, o gedib ərizə də yazmış çantasını axtarışa vermişdi. Çox nigaran idi. Hətta rütbəli komandirlərə də zəng edib leptopunun itdiyini onlara bildirdi.

Tuba, Əlirzanın qucağında oturmuşdu. Airportdan bir qədər uzaqlaşandan sonra, atasına dedi:

-Ata, biz airporta səni qarşılamağa gedirik, sən də bizimlə gəlmək istəyirsən?

Hamımız güldük. Həmişəki kimi airporta girmədən, oturacaqlarda gözləmədən və Əlirzanın uzaqdan gəldiyini

görmədən evə qayıtdığımız üçün, nə baş verdiyini hələ anlamamışdı. Əlirza onu öpüb dedi:

-Canı yanmış! Niyə gec dedin axı? Airport geridə qaldı, yoxsa hamı gedərdik məni qarşılamağa!

Sürücü də bizimlə gülüb Əlirzadan soruşdu:

-Haradan gəlirsən hacı?

-Tehrandan gəlirəm.

-Yox hacı! Bu sevinclə qarşılama və şövq, Tehrandan gəldiyin üçün ola bilməz!

Günorta saat 1-də evə çatdıq. Hamımız halsız idik və yatdıq. İftara yaxın, Əlirza bizi oyatdı. Əynində, çöl paltarı vardı. Mənə dedi:

-Dur bir şey hazırla, iftara az qalıb.

Anladım ki, biz yatandan sonra hərəmə gedib. Həm də şəhid Kəlaninin atası və Rezayi bəylə də görüşdüyünü dedi. Süfrə başında, evi dəyişmək istədiyini dedi. Məşhəddə olduğu müddətdə Əlizadəylə birgə yeni ev axtramaq istəyirdi. Bir yandan da Tehrana getməli idi. Mənim narahat olduğumu görüb dedi:

-Axşama qədər qayıdacam. Tapşırmışam ki, qayıdış bileti də alsınlar, bu neçə günü ailəmin yanında olmaq istəyirəm. Tehrandan qayıdanda yenə airporta getmək qərarına gəldik ki, Tuba qarşılamaq mərasimini yerinə yetirsin!

Nənəm də bizim evdə idi. Bizim hazırlandığımızı görüb, hara getdiyimizi soruşdu.

Ona dedim:

-Əlirza gəlir. Uşaqları airporta aparıram ki, atalarını qarşılasınlar.

-Elə iki gün əvvəl qarşılamağa getmişdiniz! Belə şit-şit hərəkətlər eləməyin! Özü gələcək, niyə dəqiqə başı qarşılayırsınız ki!?

Həmin əsnada, Əlirzanın itən çamadanı da tapıldı. Üstündə Kirmanşah yapışqanı vardı! Səhvən Kirmanşaha getmişdi.

Həmin günlər, iftar qonaqlıqları verməklə keçdi. Əlirza, Əlizadə ilə ev də axtarırdı. Amma bizim pula uyğun ev tapılmırdı. Bizə deyirdi:

-Evləri ya mən bəyənmirəm, ya da evlər məni bəyənmir!

Böyük bir evi bəyənmişdi. Amma kirayəsi baha idi. Ona dedim:

-Bu evə ən az 10 xalça lazımdır! Haradan bu qədər xalça tapım? Mən belə böyük evdə qorxaram! Lazım deyil bu ev!

Gülüb dedi:

-Hə, onlar evi bizə vermişdi, qaldı sənin bəyənməyin!

O müddətdə, çox təzyiq altında idim. Ev dəyişmək, Fatimə vəTubanın suçiçəyi tutması, Əlirzanın qardaşı uşaqlarının toyu üçün Quma səfər etmək və hamısından sonra da, Raziyənin uşağının dünyaya gəlməsi. Bütün işlər elə düyünlənmişdi ki, yalnız Əlirza o düyünləri aça bilərdi. Bu problemlərin hamısının səbəbi, onun yanımızda olmaması idi. Telefon arxasında mənə təsəlli verməyə çalışırdı. Mən isə təsəlliyə deyil, onun özünə ehtiyacım vardı ki, bu vəziyyəti sahmana salsın. Hadi əmiyə şəraitimin necə olduğunu deyəndə, mənə demişdi:

-Qohum və tayfada, səndən çox dərd çəkən və çətinlik yaşayanını görməmişəm!

Əlirza zəng edib, yaxında gələcəyini bildirdi. Yenə mənə tapşırdı ki, uşaqlara hədiyyə alım və onun çamadanına qoyum. Uşaqlar, təzə evi sevmişdilər. Möhkəm ev idi və uşaqlar qaçanda qonşuya səs getmirdi.

Böyük otağı Tuba və Fatiməyə verdim. Kiçik otaq mənim oldu. Həmid Rza da salonda yatırdı.

Həmid Rzanın dəcəlliklərinə ata lazım idi ki, ondan qorxub sakit otursun. Xüsusilə də əsəbiləşəndə, əsəbini divara və qapılara yumruq vuraraq boşaldırdı. Bir dəfə qapını elə möhkəm çırpdı ki, qapının şüşəsi sındı və töküldü. Belə hallarda, aşağı qaçıb Raziyənin arxasında gizlənirdi və Raziyə onu vurmamam üçün mənə yalvarırdı. Əsəbləşməyib dözümlü olmağa çox cəhd göstərirdim. Amma bəzən uşaqlar tutumumdan çox məni yorurdular və onları danlamaq məcburiyyətində qalırdım. Həmid Rzanı əsəbdən qovalayanda, Fatimə ikimizi də bir yerdə əyləşdirib sakitləşdirməyə çalışırdı. Hətta Həmid Rza ilə Tubanın arasındakı davaları da sakitləşdirirdi ki, mən eşitməyim. Ataları zəng eləyəndə, mənim onları necə danladığım və acıqlanmağımı ona danışırdılar. O da həmişəki kimi deyirdi:

-Təəssüflər olsun ki, heç nə edə bilmərəm! O sizin ananızdır, bala!

İlk dəfə idi ki, Əlirza səhər çatırdı. Təzə evin ünvanını ona verməmişdim və özüm airporta dalınca gedəcəkdim. Amma özü söhbətlərimdən, evin harada olduğunu anlamışdı. Birdən gördüm ki, pillələri qalxır! Tehrandan avtobusla gəlmişdi. Deyirdi ki, "qatar və ya təyyarə bileti axşama idi, amma mən öz məsuliyyətimlə Tehranın 3 yolundan avtobusa minib gəldim ki, tez çatım."

Uşaqlar, məktəbdə idilər. Tuba da yatmışdı. Təzə evə göz gəzdirib dedi:

-Bax artıq adam kimi ev tapmağı öyrənmisən!

Evə və otaqlara baxandan sonra dedi:

-Heç kimə gəldiyimi demə. Heç kim bilməsin.

Elə dediyini görə, bütün günü dincəlmək istədiyini düşünmüşdüm.

Əlirza, böyük bir arzumun gərçəkləşdiyini dedim:

-Yerin məlum! Nəzir aş bişirdim. Hamı gəlmişdi. 8 metrlik böyük süfrə alıb, salona sərdim. Bir neçə dəst qaşıq, çömçə və iri kasa da aldım. Daha anamın evindən gedib borc almağa ehtiyac qalmadı!

Mən uşaqlar kimi həvəs və parlayan gözlərlə ona bunları danışırdım, o da yorğunluğuna rəğmən, mənə baxıb təbəssüm edirdi. Sonra da dedi:

-Necə də qane və hər şeyə razı bir qadınsan! Deyirsən böyük evimiz var, duyan da evin salonunda 6 xalçı və 5 otağı olduğunu düşünür! Bütün bu evə, cəmi iki ədəd xalça sərmisən. Allah məni bağışlasın ki, indiyədək sənə istədiyin kimi bir ev tapmamışam.

-Mən səninlə sevincimi və xoş anlarımı bölüşürəm. Səni narahat etmək üçün danışmadım.

-Bilirəm. Sənin sevincli olmağını görə bildiyim üçün Allaha şükür edirəm. Həmişə bacardığım qədər çalışmışam.

Belini evin ortasındakı dirəyə sökəyib, ayaqlarını da uzatdı və mənim söhbətlərimin davamını dinlədi. Evin ortasındakı dirək, Əlirzanın sabit yeri oldu. Həmişə orada oturub yaslanar və bir qab günəbaxan tumunu, işıq sürətiylə qabıq dağına çevirərdi. Oradaca oturduğu halda, qoyardı ki, uşaqlar başına-belinə dırmansın və dirəyin ətrafına fırlanıb qaçsınlar. O da onların əli və ayağı arasından xəbər və ya futbol izləyərdi. Mən də mətbəxdən, həyatımdakı bu nadir səhnəni izləyərdim. Bir neçə ayda həyatımda bir dəfə təkrarlanan bu səhnə, mənə həqiqi bir ailə olduğumuzu hiss elətdirirdi. Yaslanmış bir ata, Səs-küylü uşaqları, açıq televizor, günəbaxan tumunun qabı və

axşam süfrəyə isti-isti bolanı bişirən mənim xəmirli əllərim...

Əlirza, evimizin dirəyi idi. Evdə olanda və olmayanda da o, evimizin dirəyi idi.

**Xatun və Komandirın Telegramda mesajlaşması:**

-Salam qəhrəmanım.

-Əleykum salam.

-Yorulmayasan.

-Necəsən?

-Allaha şükür. İmam Zaman (ə.f) əsgərlərinin sağlığı üçün dua edirik.

-Allah razı olsun.

-Şu əxbarik?[1]

-Əlhəmdulillah. Uşaqlar necədir?

-Yaxşıdırlar. Əlindən öpür və yolunu gözləyirlər.

-Onların dərslərinə diqqət yetirirsən?

-Bəli, dünən oğlunun məktəbinə getmişdim.

-Ey yar, şəhidlərin xəncərinə çək salavat
Başsız qalan bədənlərə çək salavat!

-Hərəmin üçün darıxıbdır könlüm,
daş atmasınlar günbəzinin alnına!

-Qəlbimə yenə qəm-kədər dolubdur,
bu gecə şəhidlər üçün könlüm tutulubdur.
Bir az əvvəl, ürəyim soyuq bir məzar idi,
amma indi gəlişinlə cənnət olubdur.

---

[1] Ərəb dilində, nə xəbər deməkdir.

# Doqquzuncu fəsil

Məhərrəm ayı gəlib çatmışdı. Əlirza İranda idi və axşamlar, məclisə gedirdik. Gündüzlər də iclası bitəndə evə gəlirdi. Bədəni evdə, amma fikri başqa yerdə idi. Məclisdə də bizdən aralıda otururdu. Cəmi iki dəfə bizi özüylə məclisə apardı.

Bir gün xəbər gəldi ki, Məşhədin yaxınında olan Səbzevar bölgəsində bir hərəm müdafiəçi şəhidinin yas mərasimi olacaq. Səbzevardakı yas mərasimindən sonra, şəhidi Məşhədə gətirib Behişti-Rza məzarlığında dəfn edəcəkdilər. Şəhid ailələrindən bir neçə ailə də dəvət olmuşdu.

Hava soyuq idi. Özümə və Fatiməyə jaket almaq istəyirdim. Digər ər-arvadlar kimi bazara getmək arzusu ürəyimdə qalmışdı. Amma hər dəfə Əlirza üzür istəyib deyirdi:

-Sən məni elə belə qəbullanmısan. Səninlə bazara gəlməyimi məndən gözləmə.

-Mən səni qəbullanmışam və başa düşürəm. Amma Fatimə səninlə bazara getmək istəyir. Atasıyla birgə paltar

və ayaqqabı almaq istəyir. Burada bazara yaxındır. Tez gedib gəlin.

Heç nə demədiyi üçün, razılaşdığını düşündüm. Amma səhv düşünmüşdüm. Gedənə yaxın dedi:

-Özünüz gedin. Mənim olmadığımı düşünün!

Ertəsi gün, Səbzevar karvanına çatmaq üçün, səhər tezdən oyandıq. 2-3 avtobus və bir minik maşını ilə gedəcəkdik. Şəhid Məhəmməd Rza Hüseyni, karvan başçısı idi. Şəhidin anası, iranlı idi. Halı çox pis idi. Səbzevar yaxınlığında, Fatihə oxumaq üçün şəhidlərin məzarlığında endik və gül ilə çəfiyə şalı paylandı. Həmin əsnada, şəhidin anasının halı daha da pis oldu və huşunu itirdi. Buna görə, şəhidin ailəsinin Məşhədə qaytarmaq qərarı alındı.

Şəhidin mərasimi çox təmtəraqlı keçdi. Əlirza fikirli və qəmliydi, sanki üzərində dünyanın yükü vardı. Ətrafında nə baş verdiyini anlamırdı. Fikrinin başqa yerdə olduğunu anlaya bilirdim. Bədəni bizimləydi amma ruhu başqa yerdə idi. Özündən və ətrafında elə uzaqlaşmış və fikirlərində qərq olmuşdu ki, Həmid Rza bir ziyarətgahda itirdi. Hamımız Həmid Rzanı axtarırdıq. Yanımızdakı xanımlardan biri dedi:

-Atası necə də məsuliyyətsizdir!

Atası məsuliyyətsiz deyildi. O heç burada deyildi! Bu izdihamın içində, uçub getmişdi bilmədiyim yerlərə. Nəhayət Həmid Rza tapıldı və Əlirza cəmi bir cümlə dedi:

-Mənim oğlum itməmişdi. Baxın, özü gəldi.

Həmid Rza atasının yanında dayanırdı, amma o, uşaqdan aralı qalmağa çalışırdı. Mən də narahat idim. Özlüyümdə düşünürdüm ki, heç olmasa burada uşağı saxlasın, mən də rahat nəfəs ala bilim. Əslində haqqlı idim. Amma Əlirza o haldaykən, ondan nəsə istəyəndə,

məndən də uzaqlaşacaqdı. Ziyarətgaha daxil olanda, stulda oturdu. Gedib yanında oturdum. Dərhal ayağa qalxdı. İncidim, amma camaatın önündə büruzə vermədim. Maşında da yol yoldaşlarıyla danışırdı. Onlardan biri, Suriyaya getmək üçün israr edən iranlı ruhani idi.

Axşam, təmiz bir oteldə qaldıq. Gecə Əlirzanı gördüm. Otelin lobisində oturmuş, boynunu əymiş və gözünü yerə zilləmişdi. Ona yaxınlaşıb otağa niyə çıxmadığını soruşacaqdım ki, öz aləmində fikirlərə daldığını gördüm. Yanına getmək istədim, amma görəndə ki, şəhid ailələri ona tərəf yaxınlaşırlar, dayandım. Əlirza çox ədəbli və təvazökarlıqla ayağa qalxıb hal-əhval tutdu. Sonra da əllərinə bir zərf verib iltimase dua dedi. Bəzən görürdüm ki, bəzi ailələrə zərf verir və özünəməxsus sözlərlə onlara məhəbbətini göstərirdi. Zərf almayan şəxslər, naraht olmuşdular.

Bir qədər yaxınlaşdım və Əlirzanın nə dediyini eşitdim:

-Bu zərflər, təşkilatın deyil. Şəhidin əmanətidir və mən söz vermişdim ki, əmanəti ailəsinə çatdırım. İndi də fürsət var idi və əmanəti sahibinə verdim.

Mərasimdə, aparıcı səsucaldanla bir-bir şəhidlərin adını deyir və ailələrinə bir bağlama hədiyyə edirdilər. Birdən aparıcı dedi:

-Şəhid Əlirza Təvəssüli.

Dik atıldım. Bir an, ürəyim üzüldü və məni tər basdı. Əlirzanı axtarmağa başladım. Ön sırada kişilərin yanında oturmuşdu. Aparıcının yanına çıxıb gülə-gülə hədiyyəni aldı. Yanındakılar deyirdilər:

-Bu axı şəhid deyil! Canlı şəhiddir?!

Mən də hamıya qoşulub güldüm. Halbuki nəfəsim daralmışdı və halım pis idi.

Məşhədə qayıdan yolda, Neyşaburda dayandıq. Bir qədər gəzmək üçün, Əttar Neyşaburinin məzarında dayandıq. Əlirzanın yanında günün altında əyləşmək istəyəndə, qoymadı. Ayağa qalxdı və başqa tərəfə baxa-baxa mənə dedi:

-Bu səfərdə, şəhidlərin xanımları da var. Səni mənim yanımda görüb, qəlbləri qırılar və qəmlənərlər. Çalış mənə yaxınlaşma!

Mat-məhəttəl baxa-baxa qalmışdım. Ayağa qalxıb dedim:

-Baş üstə!

-Həmid Rzaya mane ol, dəqiqə başı “ata, ata” deyə qışqırıb məni axtarmasın! Onu məndən uzaqlaşdır. Ataları şəhid olan uşaqları düşün, əzizim.

Səfər üçün bizə və Rezayinin ailəsi, bir minik maşını vermişdilər. Maşının içində, yanında oturmaq istəyəndə ona dedim:

-Burada heç kim yoxdur, yanında oturmaq olar?

-Yox, heç kim yoxdur. Amma oturma ki, qoy sonra öyrəşməyəsən.

Evimizin aşağı mərtəbəsi, qaraj idi. Bizim maşınımız yox idi. Buna görə, oranı Əlirzanın qonaqları üçün, döşəmək qərarını aldım. Xalça sərib, nalça da düzdüm. Qarajın hər tərəfi təmiz idi və yaxın qonaqlara da uyğun idi. Qapısı da çölə açılırdı və get-gəl etmək rahat idi. Oranı döşəyəndən sonra, Əlirza vaxtının çoxunu orada keçirirdi. Adətən də Əlizadə ya da Höccəti bəy orada yanında olurdu.

İnanması çətin olsa da, Əlirza İranda bir ay qaldı. Yatsaq, yuxuda da bir ay yanımızda qalacağını görməzdik! Baxmayaraq ki, çox vaxt evdə olmurdu, evdə olanda da yazmaqla məşğuldu və ya leptopunda iş görürdü.

Əlirzanın inzivaya çəkildiyini görüb nigaran olmuşdum. Belə olmasının səbəbi, işin çoxuluğu, müharibə yorğunluğu və ya başqa bir səbəb olduğunu bilmirdim. Tək bunu bilirdim ki, bu problem, Əlirzanı zərrə-zərrə məhv edirdi.

Bir gün cürətlənib ondan soruşdum:

-Nə olub sənə?! Hansı fikir sənə hər şeyi unutdurub?! Qorxuram belə depressiyaya düşəsən və ya altsheymer olasan! Bəlkə də intihar etməyi düşünürsən? Özünə zərər vermək istəyirsən? Niyə özünü məhv edirsən?! Danış sən Allah! Ürək sözlərini mənimlə bölüş. Sənin gündə yüz dəfə gördüyün səhnələrə heç kim dözməz! Bunlar igidin də axırına çıxar! Camaatın gül kimi balasının başının kəsilməyini görüb yenə də dözürsən! Niyə içinə atırsan və mənə demirsən? Danışmayan dərman tapmaz! Hər şeyi içinə atsan, ürəyin ağırlaşar! Mən səni bu şəraitdə tək buraxmaq istəmirəm. Sən gələndən mənimlə danışmağını gözləyirəm. Fürsət olmurdu, amma indi var. Bir neçə gün sonra, yenə gedəcəksən. Bu halla getsən, öləcəyindən qorxuram!

Başını qaldırıb dedi:

-Sən nigaran olma. Bu dediklərinin hamısı nemətdir! Hamısı ləyaqət istəyir və ruzidir! Mən fikir verirəm..

Sözünü kəsib dedim:

-Fikir verirsən?! Sən Allah nəyə fikir verirsən?! İndi təxminən bir il tamam olub! Çox dəyişilmisən. Qocalmısan! Ən az atam qədər saçın ağarıb! Babam qədər qırış düşüb üzünə! Əvvəllər başında 1-2 dənə ağ tel var idi, amma indi gözünün qırağında 5-6 qırış var! Mən bunları görürəm, anlayıram!

Hətta bir dəfə, özü dostlarına deyirdi ki, “saçlarım ağarıb, qocalmışam.” O bunu anlamadan əvvəl, mən

görmüş və anlamışdım. Yaşından 10 yaş daha yaşlı görünürdü. Bir o qədər də, hövsələsiz olmuşdu və uşaqlara acıqlanıb qışqırmışdı. Telefon arxasında da bəzən əsəbiləşib səsini qaldırırdı. Ona deyirdim ki, "əsəbiləşəcəksənsə, telefonlara cavab vermə!" O da deyirdi ki, "cavab verməmək mümkün deyil."

Mətbəxdə kranın xarab olduğunu bəhanə edib, onu qarajdan çıxardım ki, kranı təmir etsin. Ona dedim ki, "qab-qacaq yığılıb, yuya bilmirəm. Suyu açmıram. Gəl düzəlt."

Mətbəxə gəldi və qollarını çırmalayıb yerə əyləşdi. Boruları açdığı anda, telefonuna zəng gəldi. Telfonla nə danışdısa, dərhal yerindən atıldı və dedi:

-Baş üstə. İndi yola düşürəm.

Sonra da mənə dedi:

-Paltarlarımı gətir. Taksi də çağır.

-Bəs kran?

-Bağışla, getməliyəm!

O gedən getdi və gecə yarısı qayıtdı. Ona dedim:

-Getməyə necə də hazır idin!

Gülüb dedi:

-Həmişə hazır vəziyyətdə olmalıyıq. Kranı düzəldim?

-Düzəlib artıq! Amma içindəki pis qoxudan mədəm bulanır.

-Xatunlar belə nazlı olurlar və tez mədələri bulanır!

Anam, Əlirzaya çox bağlanmışdı. Mən darıxanda büruzə vermirdim, amma o, rahat şəkildə ağlayır və darıxdığını bildirirdi. Anam, Əlirzaya tərpənməyə də imkan vermirdi. Məni də danlayıb deyirdi:

-Görürsən ki, onun işi başından yağır! Sən niyə artıq iş tapşırırsan ona? Özün həll et, ya da mənə, atana və bacılarına tapşır!

Bacılarım, Əlirzanın mehribançılığına öyrəşmişdilər. Hər birinə də ayrıca ad qoymuşdu. Məsuməyə, gülərüz olduğu üçün, şəngül xala, Zəhraya balaca xala, Mərcana, general xala deyirdi və Rzaya, Rza xan deyirdi. Həmişə onlara deyirdi:

-Mənim gəlinimi incitməyin!

Bəzən məni, gəlinim deyə səsləyirdi. Bacılarımla dalaşanda, qapının arxasından çıxıb deyirdi:

-Ay xalalar! Mənim gəlinimi təkləmisiniz?!

Mərcan Əlirzaya, Mirza bəy deyirdi, amma digər bacılarım onu Təvəssüli bəy çağırırdılar. Onun tam olaraq nə işlədiyini bilməsələr, ali vəzifəli olduğunu bilirdilər.

Bir dəfə Məsumə, bibim qızlarımdan eşitmişdi ki, "Təvəssüli bəy Suriyada ali vəzifəlidir və orada əlindən hər iş gəlir!"

Məsumə də onlara demişdi:

-Biz nə işlədiyini bilmirik. Amma Hacı ümumiyyətlə belə şeyləri danışan biri deyil. O, təcrübəli insandır və yəqin ki, önəmli vəzifəsi də var.

Əlirza Əfqanistana səfərlərini dayandırıb cihad və döyüş işindən kənara çəkilib tikinti və fəhləlik işlərinə başlayanda, anam ondan soruşmuşdu ki, "niyə təşkilat işindən çıxdın? Sənin üçün həmişə iş var idi."

O da demişdi:

-Yox, düşmənlə müharibə davam etdiyi müddətdə, mən də əlimə silah almışdım və hərbi uniformamı çıxarmırdım. Amma indi Əfqamistanda, qardaş-qardaşını öldürür! Bu, müharibə deyil. Cəhalət və güc davasıdır. Mən belə işlərə qarışmıram.

Fatimə bacılarımla mübahisəsi olanda və onlardan Əlirzaya şikayətlənəndə, Əlirza qaş-qabaq edib ona deyirdi:

-Xala, ana yarısıdır!

O da küsüb deyirdi:

-Sən niyə xalalarımın tərəfini saxlayırsan?

Biz evlənəndən sonra, bacılarım məni adımla deyil, Fatimənin anası deyə çağırırdılar. Tuba dünyaya gələndən sonra da, Tubanın anası deyə çağırırdılar. Bu hörmət bilmək, Əlirzanın xoşuna gəlirdi. Özü də mənə hörmət qoymalarına səbəb olurdu. Qızlar sözümə qulaq asmayanda, onlara deyirdi:

-Xalalar! Xatunumun xətrinə dəyməyin!

Yazılmamış bir qayda var idi ki, Bəninə hamı hörmətlə yanaşmalıdır.

Bir gün, ona iqtida edərək, namaz qılırdım. Ondan bir neçə addım geridə idim. Əllərini qulağına qaldıranda, birdən mənə tərəf dönüb dedi:

-Namazını xarab eləmə, get özün üçün tək qıl, canım.

-Xarab olmaz. Sən nigaran olma.

Əlirza evdə olanda və mənim də başım qarışıq olmayanda, fürsətdən istifadə edib namazımı onunla camaat qılırdım.

Bir gün səhər hərəmdən qayıdırdıq. Kitab almağa getdik. Mənə, Molla Əhməd Nəraqinin 40 hədis kitabını aldı. Mən isə, vəsiyyətnamə kitablarından alamğa israrlı idim. Vəsiyyətin bütün ayrıntıları içində yazılmışdı. İsrar etdim və axırda razı oldu. Kitabların həmişə olduğu rəfə baxdım, boş idi. Çox axtarıb tapmayandan sonra,satıcıdan soruşdum. Satıcı kitabın bitdiyini dedi. Evə qayıtdıq. Tuba, atasının qucağına qaçdı. Ağlıma düşmüşdü ki,

vəsiyyətnamə yazaq. Hər ikimizin də yazmasını istəyirdim. Əlirzaya dedim:

-Vəsiyyətnamə kitabçasını tapmadığımıza görə, gəl sadə kağıza vəsiyyətnamə yazaq. Sənin səfərlərin, normal səfər deyil. Heç burada da sabah nə olacağını bilmirik, qaldı ki, müharibə və cəbhədə! Hər dəfə bir şəhidin tabutu arxasında gedəndə, özümü onun ailəsinin yerinə qoyuram. Belə fikirləşmək istəmirəm, amma fikirləşməmək mümkün deyil. Vəsiyyətnamə yazmaq, ömrü uzadır. Yaz ki, məndən də çox yaşayasan.

Əlirza dinləyəndən sonra, başını qaldırıb dedi:

-Sən yaz. Ürəyin nə istəyirsən yaz, mən imzalayacam.

Qıcıq olmuşdum dediyi sözə. Mənim ən ciddi sözümü zarafatla qarşılamışdı. Əsəbi halda dedim:

-Bu nə deməkdir?! Elə şey olar?! Mən yazım və sən imzalayasan!

-Mən vəsiyyətnamə yazmağı lazım görmürəm.

Gözlərim doldu. Təxminən bir il idi ki, onun yanında ağlamamışdım. Ona dedim:

-Mənə bir vəsiyyətnaməni də çox görürsən.

Yalvararaq dedi:

-Yox, çox görmürəm. Amma mənim vəsiyyətim aydındır. Bismillah, mən filan kəs oğlu filankəsəm yazmaq, mənlik deyil. Məndən belə şey istəmə. Bu vəsiyyətnamə özümü göstərmək kimi olacaq. Çox israrlısansa, özün yaz. Yaz mən filankəsəm, vəsiyyətim budur ki, məndən sonra mənim yolumu davam edin və silahım yerdə qalmasın. Yaz, mən də imzalayım.

Narahat olub yanından qalxaraq dedim:

-Bu, zorla alınan bir şey deyil.

Qayıdanda, gördüm ki, yatıb. Başı üstə oturub, onu izləməyə başladım. Ağ saçlarına, göz altı qırışlarına,

seyrək saqqalına, üzündəki eynək izinə və qaşlarına diqqətlə baxırdım. Ürəyim, məhəbbət və hörmətlə doldu. Özümü danlayaraq dedim:

-Niyə onu narahat etdin? Niyə xətrinə dəydin? Qədrini bil,bir neçə günə gedəcək və aylarca həsrətini çəkəcəksən. İndi yanındaykən, 2-3 ay əvəzinə doyunca bax. Payızda, evini onun nəfəs səsiylə doldur ki, qışda evin isti olsun. Ruhunu böyüt ki, onun böyük ruhunu anlaya biləsən. Bir neçə günə gedəcək və sən yenə tək qalacaqsan.

Əlirzanın getməsinə 17 saat qalmışdı. Mənimlə danışmasını səbirsizliklə gözləyirdim. Bilirdim ki, deyəcək sözü çoxdur, amma deyə bilmirdi. Məktub da yazmırdı. O danışmayanda, özümü ləyaqətsiz hiss edirdim. O isə mənə deyirdi:

-Sən ləyaqətsiz deyilsən. Özünə belə sözlər demə. Əksinə, sən çox ləyaqətlisən. Həmişə naqislik məndən olub.

Uşaqlara, atalarının səhər gedəcəyini deməmişdim. Son saatları, fikir çəkmədən və qəmlənmədən atalarının yanında olmaqlarını istəyirdim. Son gecənin iztirab və çətinliyini tək özümə saxlamışdım. Əlirza Tubanın saçını aramlıqla sığallayır və sakitcə Həmid Rza ilə Fatimənin söhbətlərini dinləyirdi.

Uşaqların gözündən gizlin, onun çamadanını bağladım. Səhərdən yuyub ütülədiyim geyimini çamadanına qoydum. Uşaqlar yatdılar. Yatmadan əvvəl, səhər saat 5-ə taksi çağırdım. İki nəfərlik çay süzüb pıçıltıyla danışırdım. Uşaqların oyanmasını istəmirdim. Əlirza çayını içib, çamadanına göz gəzdirib sonra da yatdı.

Azandan əvvəl, oyandım. Çaydanın altını yandırdım. Əlirza da oyandı və dəstəmaz alıb səccadəsinin üstündə namaza dayandı. Yenə arxasında dayanıb, namazımı

camaat qıldım. Onunla keçən bir saniyəni də əldən vermək istəmirdim. Paltarlarını geyinirdi. Mənim üçün nəfəskəsən dəqiqələr başlamışdı. Çöldə tufan olduğunu və ağacların əsdiyini hiss edirdim. Canıma qorxu düşmüşdü. Onun platar geyinməsi, sürəti yavaşlayan video kimi idi. Sanki zaman dayanmışdı. Külək və ildırım səsi gəlirdi. Pəncərəyə tərəf gedib çölə baxdım. Küçə səssiz-sədasızdı və işıqları zəifdi. Əslində külək və tufan yox idi. İldırım da yox idi. Bunların hamısı, mənim içimdə baş verirdi.

Əlirza, uşaqlarının yanına getdi. Yerə əyləşib Fatiməni, ardınca da Tubanı öpdü. Onların saçlarının iyini, içinə çəkdi. İlk dəfə idi ki, uşaqlar, atanın ardınca tökülən su və Quraan üstə savaşmırdılar. Həmid Rzanın yanında, dizi üstə əyləşdi. Başını sığalladı. Onun günahsız üzünə uzun-uzadı baxdı. Dodaqaltı bir şeylər zümzümə edirdi. Oğlu üçün dua oxuduğunu düşündüm. Həmid Rzanın yanında, daha uzun müddət dayandı. Taksinin siqnal səsi gəldi. Saat düz 5 idi.

Çarşabımı başıma atıb pillələri onunla birgə düşdüm. Əlini tutmuşdum, aşağı çatanda, əlini çəkdi. Sanki onu saxlamaq istəyirdim. Göz-gözə gəldik. Bir kəlmə də demədən, vidalaşmadan getdi. Hətta ona "özündən muğayat ol" demədim. O da "sən də özündən və uşaqlardan muğayat ol" demədi. Mənim igid həyat yoldaşım, gedirdi. Nəfəsimizdən çıxan duman, havada idi. Taksi yola düşdü və mən qaranlıqda, arxasınca su tökdüm. Gün çıxanadək, bu su buza dönəcəkdi və onun getdiyi yolu mənə bir daha göstərəcəkdi.

Getdi və mənim içim, içimi yeyirdi. Dağlar qədər dərd ürəyimdə ağırlıq edirdi. Özlüyümdə düşünürdüm:

-Niyə onunla airporta getmədim? Niyə onu yola salmağa getmədik? Gələndə də qarşılamamışdıq. Niyə belə oldu?

Bu fikirlərlə ürəyim ağrıyaraq, yuxuya getdim. Bir saat sonra, telefonumun zənginə oyandım. Əlirza zəng eləmişdi və dedi:

-Tehrana çatdım. Burada iki günlük işim var. Sonra Dəməşqə gedəcəm. Tez getməyə çalışacam. Burada yubanmaq istəmirəm.

**Xatunun Xatirə dəftərindən bir yazı:**

Şəhidləri yaradan Allahın adıyla,

Saatlarca cəhd edəndən sonra, nəhayət, sevdiyimlə telefonda danışa bildim. Fevral ayıdır, qohum-qonşular həmişəki kimi, Novruz bayramı təmizliyi və bayram bazarlığı edib təzə geyimlər alırlar. Biz də həmçinin, hazırlıqlarımızı edirik. Qızım artıq özünə görə xanım olub və hər şeydə fikir söyləyir. Amma içimdən bir hiss, hələ onun üçün tez olduğunu deyir. Ürəyimdə deyirdim ki, inşallah özü gələndə soyuducu alarıq. Onunla yanaşı, özüm üçün uzun siyahi hazırlamışdım və günlük işlərimi görürdüm. Bayram tətilində, onun yanına gedib bayramı bir yerdə keçirəcəkdik.

Xülasə, günortadan sonra saat 2.42-də dəfələrlə uğursuz zəngdən sonra, canım həyat yoldaşımın səsini eşidə bildim. Axı onun işi və məsuliyyətləri çoxdur və zəng edə bilmir. Mən də internetdə onunla yazışmağa kifayətlənib həyatımdakı problemlərdən və xırda şeylərdən ona danışmıram. Sadəcə salamlaşıb, hal-əhval tuturuq.

Alo, alo? Salam! Necəsən? Yorulmayasan! Yaxşısan?

Bu tərəfdə dayanmadan danışırdım, halbuki səsimi eşitmədiyini bilmirdim. Mənim üçün artıq adiləşən,

döyüşçülərin atəş səsi gəlirdi. Həmin səs-küy arasında, sevdiyim dedi:

-Allah səni qorusun, Əlhəmdulillah, yaxşıyam. Dostlar da yaxşıdır. Biz hündür və gözəl havası olan bir təpənin üstündəyik. Bizdən ötrü nigaran olma. Yalnız dua elə. Yüksəkliyə görə səsin yaxşı gəlmir. Allah amanında qal.

Bir qədər gözlədim, gördüm ki, zəngi sonlandırıb. Həmişəki kimi, səsini eşitdiyimə enerjili və sevincli idim. Üzü əvəzinə, telefonun ekranını dəfələrlə öpdüm.

Tarix:

28.02.2015

## Onuncu fəsil

Bir xəbər yayılmışdı və bütün evlərədək çatmışdı. Mühacirlər arasında, bir xəbərin bu qədər ağızdan-ağıza gəzdiyini və hamını narahat etdiyi heç görünməmişdi. Önəmli bir məsələ və dəhşətli bir faciə, 30 ildən sonra ifşa olmuşdu. Ən çox, Təvəssüli qohumları bu xəbərdən təsirlənmişdilər. Xəbər, facebook-dan yayılmışdı. Kabildə həbsxanada işləyən qadınlardan biri, illər öncə baş vermiş bir cinayəti ifşa edərək, Təvəssülilər ailəsinə abır və hörmət qazandırdı. Hadisədən, 30 ildən çox keçmişdi. İranda baş vermiş inqilabla eyni tarixə malik idi.

Nurəq qəsəbəsi, Təvəssülilərin doğma vətənidir. Bu qəsəbə, Əfqanistanın Meydanşəhr bölgəsindədir. Həmin illərdə, Əfqanistanın digər bölgələri kimi, orada da dövlət, insanları həbs edib öldürürdü.

Günlərin birində, dövlət məmurları Təvəssüli mollanın evinə hücum edərək, onun Məhəmməd Əmin Təvəssüli adlı oğlunu döyüb və sonra özləri ilə aparıblar. Heç bir günahı olmadan və cinayət işləmədən, həmin şəxsi aparmışdılar. O vaxt, Əlirza 5-6 yaşlı imiş.

Məhəmməd Əmin, digər əfqanlı kişilər kimi, işləyirmiş, arvadı və 3 uşağı da varmış. Onun yaşlı ana və atası, kimə müraciət etsələr də, oğullarını azad edə bilməyiblər. Kənd əhalisi isə, onları tənə və acı sözlə əziyyət edib deyirmişlər ki, "oğlunuzun necə namussuzluq etdiyini və ya cinayət işlədiyini yalnız Allah bilir! Yoxsa onu dövlət niyə belə aparsın və yoxa çıxartsın?! Bəlkə də oğlunuz oğru və ya qatilmiş ki, indi də ondan bir xəbər ala bilmirsiniz!"

Bu töhmətlər və danlaqlar bir həddə çatır ki, kənd əhalisi Təvəssülilərin evinə get-gəli kəsir, onların məhsullarından almır, onlara heç nə satmır, küçədə görəndə salam vermir və hətta salam verilsə də cavabını vermirmişlər!

Məhəmməd Əminin anası, oğlunun dərdindən və camaatın zəhərli sözlərindən infarkt keçirərək ölüb, ata da digər övladlarını toplayaraq, gecəylə qəsəbədən qaçıb.

Məhəmməd Əminin arvad-uşağı Qəndihara gediblər və bir müddət sonra, hamısı qətlə yetirilib. Baxmayaraq ki, heç kimin Məhəmməd Əmindən bir xəbəri yox idi və nəyə görə yaxalanıb itkin düşdüyünü bilmirdilər, amma Təvəssüliləri heç kim rahat buraxmırdı və uzun illər bu hadisəyə görə tənə eşidiblər. Uzun illər, tənə edənlərin nəsilləri, Təvəssülilərin nəsilləri ilə düşmənçilik və namərdlik etmişdir.

2014-cü ilin son günlərində, facebook bu xəbərlə partladı:

Kabil həbsxanasında işləyən və hal hazırdı Avropada yaşayan qadın, dövlət tərəfindən canlı-canlı kütləvi məzarda basdırılan şəxslərin adını ifşa etdi. Həmin şəxslərin adı və günahlarının nə olduğu, internetdə yayıldı. Qadın qeyd etmişdi ki, gecəylə Kabil biyabanlığında kütləvi məzar qazılıb və həmin şəxsləri diri halda, fəryad

və nalə səsləri duyularaq, o məzarda basdırıblar. Qadın, onların fəryad səslərini unuda bilmədiyini və hətta 30 ildən sonra hələ də vicdan əzabı yaşadığını vurğulamışdı. Demişdi ki, Əfqanistandan Almaniyaya qaçdım və rahatlıq tapacağımı sanmışdım, amma olmur. Bu adları da, günah hissinin azalması üçün ifşa etmişdi.

Siyahidəki şəxslərdən biri, Məhəmməd Hüseyn oğlu, Məhəmməd Əmin Təvəssüli idi və qarşısında günahının “Xomeyniçi olması” yazılmışdı.

Uzun illər zülm yaşayan Təvəssülilərin qəlbinə sərin su töküldü. Sanki damarlarındakı qan, təzələnmişdi. Sevincdən, uçmaq istəyirdilər. Nəhayət qardaşlarının məzlum və günahsızca qətlə yetirilməsi aşkarlanmışdı. Məhəmməd Əmin, İmam Xomeyniyə olan məhəbbətindən oğurlanmış və kütləvi bir məzarlıqda şəhid olmuşdu.

Sanki Hacı Əhməd, Baqir əmi və Hadi əmiyə ikinci bir həyat bəxş edilmişdi. Onların üzündə və səsində, o günədək misli-bənzərini görmədiyim sevinc və nəşə var idi. Əlirza da xəbəri facebook-da görmüşdü. Bütün mühacirlər və əfqanlılar da görmüşdülər. Əfqanlıların hamısı, facebook sosial şəbəkəsindən çox istifadə edirlər. Hacı Əhməd, Əlirzaya zəng edib dedi:

-Tez dur buraya gəl! Pis niyyətli insanların acığına, 30 ildən çoxdur bizim ürəyimizə dağ çəkən düşmənlər və namərdlərin acığına, şənlik keçirməli və başımızı uca tutmalıyıq! Sizin qardaşınız, nə oğru, nə namussuz və nə qarətgərmiş. Onun tək günahı, Xomeynini sevməsi imiş. Buraya gəl, gərək bunu qeyd edək!

Əlirza bu xəbərə sevinmişdi, amma ailənin digər üzvləri kimi coşqulu deyildi. Hacı Əhmədin cavabında dedi:

-Mən təmtəraqlı şənlik keçirməyi məsləhət görmürəm. Düşmənlər və kin bəsləyənlər bir səhv ediblər, indi də peşmandırlar. Allaha şükür ki, biz üzü ağ çıxdıq. Atan üçün hər vəfat il ildönümü mərasimi keçirirsən, bu il onunla yanaşı, Məhəmməd Əmin Təvəssüli üçün də keçir. Elə tək bu, bizim dünya və axirətimiz üçün yetərlidir.

Həmin vaxtlarda, birdən, Məhəmməd Əminin uşaqları hamının yadına düşmüşdü. Hamı soruşurdu ki, “o uşaqlar hardadır? Neçə yaşları var? Necə yaşayırlar? Əldə olan tək məlumat, onları Qəndihara köçməsi idi. Amma başqa xəbər yox idi. Ailənin tək arzusu, onun uşaqlarını tapmaq olmuşdu.

O müddətdə, Əlirza ilə internetdə danışırdıq. Ciddi və rəsmi mesajlar göndərirdi. Eşq-məhəbbətdən, səni sevirəm və darıxmışam kimi sözlərdən xəbər-ətər yox idi. Məndən necə olduğumu soruşurdu, mən də yaxşıyam deyəndə, deyirdi ki, “Allaha şükür ki, ən yaxşıların yaxşısı, yaxşıdır!” Bu onun o vaxtlarda dediyi ən gözəl söz idi. Uşaqların şəkillərini çəkib ona göndərirdim və o da sevinirdi. Tubayla Fatimə, şəkildə qəşəng dururdular, amma Həmid Rza şəkil çəkdirməkdən acığı gəlirdi və qaçırdı. Mən də bir neçə dəfə gizlicə şəkilini və videosunu çəkib, atasına göndərdim. Bir dəfə, hərəmdə ziyarətnamə oxuyanda çəkdim. Bir dəfə də idmana onu izləməyə gedəndə video çəkmişdim. Uzaqdan, mübarizəsinin videosunu çəkib, Əlirzaya göndərdim.

Həmin günlərdə, Şəhid Qasimi Dananın anası, məni “Şəhidlər yolunu gedənlər” qrupuna əlavə etdi. Şəhidlərin ailələri ilə əlaqələrim qüvvətlənmişdi və onlarla daha da səmimiləşmişdik. Şəhid Qasimi Dananın anası, Kərbəla ziyarətindən qayıdanda, Əlirzadan icazə alıb evlərinə getdim. Əlirza dedi:

-Çox gözəl. Gedəndə, mənim adımdan da salam de.

Şəhid anası, məni gülərüzlə qarşıladı. Şəhidin sözləri və rəftarlarından bizə danışırdı. Sağollaşanda, Əlirzanın mənə verdiyi əmanət zərfi, ona verdim. Şəhid anası mənə dedi:

-Təvəssüli bəyə yaxşı bax. Həmişə ona yaxşı yoldaş ol. Onun üçün dua elə və sağlığı üçün sədəqə ver.

Əlirza, Şəhidin anasının bu sifarişindən xoşu gəlmişdi və mənə dedi:

-Salamımı Şəhidin anasına çatdır və de ki, mənim üçün dua etsin.

İkinci dəfə Şəhid Qasimi Dananın evinə gedəndə, Həmid Rzanı da özümlə apardım. Əlirzaya dedim:

-Həmid Rzanı da özümlə apardım ki, Şəhidin anası onun üçün də dua etsin.

Onların evindən qayıdanda, Həmid Rza mənə dedi:

-Ana, sən bu xanımın şəhid anası olduğundan əminsən? Axı çox gəncdir!

-Bəli, şəhid anasıdır. Uşaqları onu incitməyib, o da cavan qalıb.

-Amma bu xanım, əri şəhid olmuşa bənzəyir! Üstəlik oğluna da şəhid olmaq yaraşmır, axı çox gənc idi!

Fürsəti qənimət bilib, ona Suriyadakı müharibə və atasının orada nə etdiyindən danışdım. Hər şeyi biləndən sonra dedi:

-Deməli mənim atam indi Suriyadadır. Şəhid Qasimi Dana da atamın döyüşçülərindənmiş. O, atanın indi olduğu yerdə, şəhid olub. Müharibə və cihad, həmişə şəhid tələb edir. Mən də ata istədi deyə şəhid anasını görməyə gəldim.

Sonra birdən gözləri parladı sevincdən və dedi:

-Mənim atamın gör necə döyüşçüləri var! Güclü, şücaətli və iranlı!

-Bəli oğlum. Atan və bu döyüşçülər, İslama və bizə xatir döyüşürlər. Onlar üçün çoxlu dua etməliyik.

**Komandirin məktubu:**

Salam əzizim, məni bağışla ki, uzun müddətdir halını soruşmuram. Halının yaxşı olmasını, qadir Allahdan istəyirəm və dua edirəm ki, Allah mənim gül xanımımı bəlalardan qorusun. İnşallah həmişə xanım Zəhra (s.a) pənahında və imam Zamanın sayəsində yaxşı olasan.

Ümidvaram ki, dünya istədiyin kimi olsun və Allaha yaxşı bəndə, əhlibeyt davamçısı olasan və təqva libası, hər zaman üzərində olsun. Çünki Allah təala Quraanda buyurur:

-Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək libas və bəzək-düzək nazil etdik. Təqva libası isə daha xeyirlidir[1].

Həmçinin, iffət ziynəti ilə bəzəklənməyini arzulayıram. Çünki "qadının ziynəti iffətdir" deyə buyrulub.

Məktubunu oxudum. Yazmışdın ki, cihadda bir payın olmadığı üçün qəmlənmisən. Qəmlənməyə haqlısan. Cihad, həqiqətən müqəddəs və dəyərlidir. Amma bunu bil ki, cəbhədə döyüşmək, kiçik cihaddır. Əsas cihad, içimizdəki düşmənlə mübarizə etməkdir. Nəfsimizlə savaşmaq, ən böyük cihaddır. Buna görə də, böyük cihadda müvəffəq olmağa çalış.

Səni sevən, Əlirza Təvəssüli

Tarix: 12.10.2001

---

[1] Əraf surəsi, ayə 26.

# On birinci fəsil

Əlirza ilə telegramda mesajlaşmaq davam edirdi. O da bizə şəkil göndərirdi. Şəkillərin, yalnız arxası fərqli idi. Hamısında, iri eynəyinin arxasında gözləri gizlənmişdi, hərbi geyimi vardı və yorğunluq üzündə aydın şəkildə görünürdü. Çox dəyişiklik etmək istəyəndə, fərqli şəkildə dayanırdı. Amma şəkillərin hamısında, siması eyni idi, təbəssümlü, yorğun və ciddi.

Bizə göndərdiyi səslərlə ürəyimiz xoş olur və zövq alırdıq. Hər birimiz üçün, ayrıca bir səs göndərərdi. Məsələn Tubaya deyərdi:

-Salam atasının Tubası, atasının şirini!

Tuba da ona səsli mesajda şeir oxuyub göndərirdi. “Hamımız sənin Abbasın kimiyik ya Zeynəb” şeirini çox şirin oxuyurdu.

Gecəni səhərə qədər, bir-birimizə göndərdiyimiz mesajları dəfələrlə oxuyurdum və təzə mesaj yazırdım ki, xəttə olanda oxusun. Rəsmi danışmaq, həmişəki qaydamız idi. Baxmayarq ki, bəzi şəxsi sözlər yazanda, uşaqlıq etdiyimi düşünürdü. Belə hallarda, yenə ciddi və rəsmi şəkildə cavab verərək deyirdi:

-Uşaqlıq eləmə!

Son səfərindən 4 ay keçmişdi. O müddətdə, Əlirzanı yalnız telefon kadrında görmüşdük və səsini atəş səslərinin arasından eşitmişdik. Söz vermişdi ki, yeni ilə gələcək.

Yeni ilə alacağım hər şeyin mavi rəngdə olmasını istəyirdim. İkimizin də ən sevdiyimiz rəng, mavi idi. Axrıncı səfərdən mənə ərəb donu gətirmişdi. Mənə hədiyyə gələn parçadan, özümə çarşab tikdim. Tubaya da ağ çarşab və baş örtüyü tikdim. Şəkilini də Əlirzaya göndərdim. Altına da yazdım ki, “Tuba qara çarşab istəmirdi, ona ağ çarşab tikdim.” O da yazdı ki, “bəli, düzdür. Mələklər ağ geyinər. Mənim gözəl qızım, daha da gözəl olub.”

Həmin vaxtlarda, xəbərləri oxuyurdum. Cihad Muğniyə ilə General Allahdadinin şəhadət xəbəri, cəbhədəki döyüşçülərə çox pis təsir etmişdi. İsrail, Cihad Muğniyəni terror etmişdi. İki həftə sonra, Livan Hizbullahı, onun intiqamını almaq üçün İsrail mövqelərini ağır atəşə tutdu. Hizbullah döyüşçülərinin intiqam aldığını duydum. Əlirzadan soruşdum:

-Hizbullah döyüşçüləri öz qərargahlarındadır ya qayıtdılar Livana?

-Qayıdıblar Livana.

-Sizin planınız nədir?

-İşlərim bir az azalsın, inşallah ki, Hacı Həsənin yardımına gedəcəm.

Bir müddət sonra, mesajda bunu yazdı:

-Livana getməyi arzulayıram. Düşmənin müzdlü əsgərləri ilə deyil, özüylə döyüşməyin ayrı ləzzəti var!

-Xeyirdir inşallah.

Kiçik və böyük hərbi əməliyyatlar davam edirdi. Əməliyyat olanda, bunu heç vaxt mənə demirdi və

deməməli idi. Telefon xəttləri və ya internetə güvən yoxdur və ifşa oluna bilər. Bəzi xüsusi sözlərindən və ya uzun müddət onlayn olmamasından anlayırdım ki, əməliyyat olacaq və danışmağa vaxtı yoxdur.

Bir axşam, Hacı Əhməd bizi evinə dəvət etmişdi. Əlirza zəng etdi və bir-bir hamı onunla danışdı. Həmid Rza atasından soruşdu:

-Ata, nə vaxt gələcəksən?

Düz-əməlli bir cavab verməyib, söhbəti dəyişməyə çalışdı. Mən də mesajlarda yazmışdım ki, “sənin qədim cəbhə yoldaşlarından biri Məşhədə gəlibdir və səni görmək istəyir. Nə vaxt gələcəyini soruşur, nə deyim?”

Mesajda da mənə cavab verməmişdi. Tuba da atasından nə vaxt gələcəyini soruşdu, ona da cavab vermədi. Narahat olub telefonu aldım və dedim:

-Sən nə cəbhə yoldaşının cavabını verdin, nə Həmid Rzaya cavab verdin, heç olmaya Tubaya cavab ver! Axı o uşaqdır, bir cavab verməlisən”

Əlirza da narahat olub dedi:

-Mən gəzməyə gəlmişəm buraya?! Nə vaxt gəlib gedəcəyim öz əlimdədir ki, vaxtını bilim?! Sən özün bu vəziyyəti yaxşı bilirsən. Uşaqların cavabını sən verməlisən. Onlar, ata nə vaxt gələcək deyə soruşanda, sənin verəcək bir cavabın olmalıdır! Heç bu sualı soruşmağa imkan verməməlisən. Bu sənin vəzifəndir!

Əlirzanın bu sözlərini fikirləşərək, səhərə qədər yata bilmədim. Axı mən, uşaqların bu sualının qarşısını necə ala bilərdim?! 4 ay atadan uzaq qalmaq, onu görməmək və darıxmaq, uşaqlar üçün asan deyildi. 4 ay, bi ilin 3-də biri idi. Son iki ildə, evdə olduğu vaxt, heç 3 ay da olmazdı. Buna baxmayaraq, uşaqların “ata nə vaxt gəlirsən” sualı da qadağan idi. Bu sualı verməmək üçün, uşaqların ataya

olan məhəbbətini aradan qaldırmalıydım və bu mümkün deyildi. Axı mən nə etməliydim, komandir bəy?! Ataya olan məhəbbət qalsın, 4 ay uşaqlar səni görməsin, amma səndən nə vaxt gələcəyini də soruşmasınlar! Bunu necə etməliydim?!

Şənbə günü idi, günorta radələrində mələfələri və pərdələri yumuşdum. Mətbəxin mebellərini də töküb təmizləyirdim. Ədyallarla yastıqlar da təmizlənməliydi. Otaqların xalçası da təmizlikdən təzə gəlmişdi. Evdə, səliqəli bir yer tapmaq mümkün deyildi. Mən də bir əlimdə telefonla Əlirzaya zəng edirdim, digər əlimlə bir tərəfdə uşaqlara nahar süfrəsi sərdim. Özümün zərrə qədər iştahım yox idi. Zənglərimə cavab vermədiyi üçün çox nigaran idim. 3 gün idi ki, cavab vermirdi. Nəhayət saat 2-də cavab verdi. Danışmağına macal verməyib özüm dedim:

-Salam, yaxşısan? Hardasan bu qədər vaxt? Niyə onlayn olmursan? Niyə cavab vermirsən? 3 gündür ki, zəng edirəm amma...

Əlirza sözümü kəsib dedi:

-Alo... Alo... Səsim gəlir? Sənin səsin gəlmir!

Sanki başıma buzlu su töküldü. Davamında dedi:

-Səsin gəlmir. Biz gözəl havası olan bir təpənin üstündəyik. Yüksəklik və küləyə görə, sənin səsin gəlmir.

Külək və partlayış səslərini aydın şəkildə eşidirdim. Əlirza, qışqıraraq deyirdi:

-Səsimi eşidirsənsə, biz yaxşıyıq! Hamıya salamımı çatdır. Dostlara dua edin. Telefonumun iki saatlıq batareyası var. Nə vaxt elektrik tapıb yenidən şarj edəcəyim məlum deyil. İlk fürsətdə sizə zəng edəcəm.

Son cümləni deyib, zəngi sonlandırdı.

“Dostlara dua edin” cümləsi, əməliyyat olduqları demək idi. “Telefonumda iki saatlıq batareya var”. Bu nə deməkdir?! Görəsən hardadır? Necə bir yerdədir? Bəlkə, mühasirə olub! Bəlkə, başına pis bir şey gəlib! Əlirzanın telefonu heç vaxt batareyası boş olmazdı. Həmişə yanında daşıyıcı şarj aləti[1] vardı. Belə zamanlar üçün, ehtiyatlı davranardı. Nəyə görə “Nə vaxt elektrik tapıb yenidən şarj edəcəyim məlum deyil” dedi? Yəni hardadır?!

İçimdəki bu təlatümlə, uşaqlara nahar verib sədəqə atdım. Axşam namazında İmam Rza (ə) hərəminə gedib, orada imamdan yardım istəyərək təvəssül edib dedim:

-Ya imam Rza! Sən özün şəraiti bilirsən! İslamın bütün əsgərlərini özün qoru! Əlirzanı da qoru. Biz bir yana, amma ona bir şey olsa, döyüşçülər atasız və yetim olacaq! Başları üstə kimsə olmayacaq. İlahi! Sənin məsləhətin və hikmətin nə olursa, olsun. Mən razıyam. Amma bu insan, tək bizə lazım deyil. Yalnız mən və uşaqlarım üçün lazımlı deyil! Yüzlərcə canından keçmiş gənc döyüşçünün də ona ehtiyacı var. İslamın da ona ehtiyacı var. Özün hamısını qoru!

Bazar günü, Allaha təvəkkül edərək oyandım. Əlirza hələ də onlayn deyildi. Zəng elədim, amma cavab vermədi. Mənə gələn zənglərə və ya mesajlara cavab verməyə hövsələm yox idi. Telefonu söndürüb həyətə getdim və yumalıları yumağa başladım. Su soyuq idi, ədyalları suda ayağımla tapdalayırdım. Fikirlərə dalmışdım. Ağlım başqa yerdə idi və aftamatik olaraq ədyalları tapdalayıb, ləyənin suyunu dəyişir, ədyalları suya çəkir və qurumaq üçün çarpayıya düzürdüm. Ağlım, Əlirzanın orada olduğu, küləkli və gözəl havası olan

---

[1] Pover bank

təpədə idi. Xəyallarımda, döyüşçülərini cərgəyə düzdüyünü təsəvvür edirdim. Hər cərgəyə, “get” əlaməti verirdi. Simsiz telefonu ilə danışırdı. Saatına baxırdı. Təpənin aşağısında olan düşmən mövqelərini nişan alıb atəş edirdi. Fikirlərim oraya uçub getmişdi. Hətta, düşündüm ki, mənim üçün o təpədə şəkil çəkdirməsini istəyim. Yəqin ki, çox gözəl şəkil olacaq. Yaraşıqlı komandir, döyüş təpələrinin başında və çəfiyəsinin küləklə rəqs etməsi. Mütləq ki, çox gözəl şəkil olacaqdı.

5 ədyal, mələfələrin hamısı, palaz və mətbəxin xırda əşyaları yuyuldu. Bir an düşündüm ki, hamısını mən yumuşam?! Uşaqlar da yardım etmişdilər, amma kim, nə yardım etmişdi, xatırlamırdım! Hətta anam da gəlmişdi. Axşamüstü saat 4-də, soyuq hava ilə sudan donmuş və qızarmış vəziyyətdə evə girib sobaya sığındıq. Mən nahar yeməmişdim. İsti çay ləzzət elədi və canımız isindi. Telefonu yandırdım. 7-8 saat idi ki, xəbərlərdən uzaqlaşmışdım. Həmid Rza yanımda oturmuş və dərs yazırdı.

Əlirzadan mesaj gəlməmişdi. Buna görə də Şəhid ailələrinin qruplarına baxdım. Mesajları bir-bir oxuyaraq, şok edici bir suala çatdım:

-Fatimiyyun briqadasının komandiri, şəhid olub?

Dizlərimi vurub qışqırdım:

-Ya Abəlfəzl Əl-Abbas!

Həmid Rza yerindən atılıb soruşdu:

-Nə olub, ana?!

Tez özümü ələ alıb dedim:

-Heç nə! Telefonda qorxulu bir şəkil gördüm və qorxdum.

Mesajı sildim. Amma ürəyimə qurd düşmüşdü və içim-içimi yeyirdi. Həmin suala cavab verənlərin mesajını oxudum:

-Bu nə sualdır?!

-Burada onun ailəsi var!

-Ay qardaş, bu nə sual idi?!

-Zəhmət olmasa, sual vermədən əvvəl, bir az fikirləşin.

-Niyə belə sual verdiniz? Nə olub?

**Xatunun xatirə dəftərindən bir yazı:**

Hələ də telefonuna zəng edirəm və şəkili ilə danışıram:

-Hardasan, əzizim? Nə olub sənə? Sən doğrudan da şəhid olmusansa, mən nə edərəm?! Belə tez gedəcəyini deməmişdin! Mən Tubaya nə deyəcəm?! Atasını istəyəndə, ona nə cavab verəcəm?!

Göz yaşlarım dayanmadan axırdı. Amma sonra, içimdən bir hiss məni silkələyərək dedi:

-Ayağa qalx! Bu nə hərəkətdir?! Ağlın hardadır?! Şəhid olubsa, bu Allahın məsləhətidir. Özü də arzusuna çatıb! Dur ayağa! Hazır vəziyyətdə ol. Tutaq ki, şəhid olub. Hətta 99% səhv olsa da, sən o 1% üçün hazırlıqlı olmalısan! İki il əvvəl, ilk hərəm müdafiəçisi şəhidləri gələndə, sən özünü onların ailələrinin yerinə qoyurdun və dəfələrlə hazırlıqlı olmaq qərarını almışdın.

Düşündüm ki, mən, bir mücahidin həyat yoldaşı və bir ana olaraq, özüm onu yola salmışam və Quraanın altından keçirərək arxasınca su tökmüşəm. Onu Allaha və İmam Zaman (ə.f)-ə tapşırıb, cəbhəyə özüm göndərmişəm. Buna görə də özümə söz verdim ki, 1% şəhid olubsa, o 1% üçün özümü ruhi baxımdan hazırlayım.

Bir qədər sakitləşdim. Artıq uşaqların yatmaq vaxtı idi. Ayağa qalxıb qalan işlərimi sahmana saldım və iki gün

müddətində edəcəyim işləri siyahiyə yazdım. Düşündüm ki, belə oturub ağlamağımdan Allahın xoşu gəlməz, həmçinin həyat yoldaşımın da. Həm də həmişə özü bunu mənə deyib:

-Dostlarımla mənim tutduğumuz bu yol, müharibə yoludur! Bu yolda, hər şey mümkündür, əsirlik, yaralanmaq, əlil olmaq və çox ləyaqətimiz olsa, Allah da məsləhət bilsə, ən yaxşı halda şəhid olacıq! Sən mənim həyat yoldaşım olaraq, rəftərına və dediklərinə fikir ver. Tutduğumuz yola yaraşmayan şəkildə danışma.

Bunu xatırlayaraq, əvvəlkindən də iradəli və güclü oldum. Gecə saat 1-dir. Yuxum gəlmir. Bəzi sözləri ağlımda hazırlayıram və bir-bir nə edəcəyimi düşünürəm. Bu xəbər düzdürsə, ilk edəcəyim şey nədir? İlk nə deyim?

Bunları düşünüb sonra telefonumun internetini bağladım və gözümü yumub sakitləşməyə çalışdım.

Səhər saat 4-də oyandım, sübh azanı idi. Namazımı qıldım, amma hələ də halım yaxşı deyil...

tarix: 28.02.2015

## On ikinci fəsil

Qrupda, xəbərin səhv və ya düz olduğu haqda heç bir şey yox idi. Həmin sualı göndərən şəxs də, verilən cavablardan sonra dəfələrlə üzr istəyib sözünü geri aldı. Amma mənim ürəyimdəki təlatüm, təskinlik tapmırdı. Bir yerdə otura bilmirdim. Evin içində davamlı təşvişlə gəzirdim. Nə olduğunu bilmədiyim üçün əsəbi idim. Səbəbsizcə ev əşyalarını götürüb başqa yerə qoyurdum ki, uşaqlar halımın pis olduğunu anlamasınlar.

Ürəyimdə deyirdim:

-Axı kimə zəng edim? Kimdən soruşum? Əlirza! Onlayn ol! Əlirza! Cavab ver! Cavab ver, qoy qrupa girib yazım ki, xeyr! Komandir sağdır və İslam döyüşçülərinə xidmət edir. Ya da belə yazım, xeyr! Komandir hal hazırda həzrəti Zeynəb hərəmini qoruyur və Ümmul-məsaib müdafiəçisidir! Bəlkə də belə yazsam ki, İslam düşmənlərinin acığına, İslam bayrağı Fatimiyyun komandiri, Əlirza Təvəssüli vasitəsilə hələ də zirvədədir!

Həmin saatlarda yaşadığım hiss üçün, ağlını itirmək də azdır. Məsumə zəng elədi və dedi ki, bizə gəlib Tubanı gecə saxlamaq üçün anamgilə aparmaq istəyir. Bu mənim

üçün yaxşı idi, azından daha rahat ola bilərdim. Məsumə gələndə, baxışlarının fərqli olduğunu hiss etdim. Özlüyümdə düşündüm ki, bəlkə də üzümdən nigaran olduğumu anladığı üçün elə idi. Yenə ev işləri görməyə davam etdim ki, rəftarlarımdan kimsə şübhələnməsin. Məsumə yardım etdi və birgə pərdələri asdıq, mələfələri tikdik, xalçaları sərdik və sonra Tubanı da götürüb getdi. Kaş ki, Fatimə və Həmid Rzanı da aparsaydı...

Həmin əsnada, otağa gedib Əlirzanın çərçivədəki şəkilinin qarşısında dayanır və onunla danışırdım. Şəkili qucaqlayıb ona deyirdim:

-Axı sən hardasan? Sənə nə olub? Bunlar nə deyirlər? Sən şəhid olmusansa, mən nə edərəm?!

Bir az sonra, Məhəmməd Rza Qumdan zəng edib soruşdu:

-Hacıdan nə xəbər?

-Axırıncı dəfə onunla dünən danışdım. Amma o vaxtdan daha bir xəbərim yoxdur. Sizin xəbəriniz var?

-Yox, mənim də əmiylə işim vardı. Sizə zəng etsə, deyin ki, mənə də zəng etsin.

-Suriyadan bir xəbərin var?

-Hə, bir az qarışıqlıqdır, amma siz nigaran olmayın.

İki saat sonra, Məhəmməd Rza yenə zəng elədi və eyni sualları soruşdu! Yata bilmirdim, rahat da ola bilmirdim. Ev işlərinin canına daraşmışdım. Fatimə və Həmid Rza yatandan sonra, gecə yarısına qədər işlədim. Tör-töküntülü evi gül kimi təmizlədim. 3 nəfərlik işi, tək başıma etdim. Gecə saat 1-də, sobanın yanında oturub telefonuma baxdım. Heç bir xəbər yox idi. Nə zəng, nə də mesaj vardı. Gözlərim ağırlaşmışdı. Yorğunluqdan yatıb qaldım.

Yarı oyaq-yarı yatmış vəziyyətdə, qollarım və ayaqlarımın ağrısını hiss edirdim. Başımın içində su və

ədyal tapdalamaq səsi gəlirdi. O səs kəsiləndə, pərdə asmaq üçün mismarla çəkic səsi gəlirdi. Sabun, xlor və yuyucu toz qoxusu da burnumdan getmirdi. Üzümün və əllərimin dərisinin quruluğunu da hiss edirdim. Ayıq vəziyyətdə, beynimdə qabların və mətbəx mebellərinin açılıb bağlanma səsi də yayılırdı.

Telefonumun zəngli saatının səsiylə oyandım. Səhər saat 4 idi. Sübh namazımı qılıb, telefonumu əlimə aldım və həmin qrupa baxdım. İlk qarşıma çıxan şeyi görəndə, başımdan ayaqlarıma bir titərəmə keçdi və telefon əlimdən düşdü. Yıxıldım və başım divarın küncünə dəydi. Bədənimdə qəribə və şiddətli bir göynəmə hiss etdim. Bir tikə ət kimi, yerə sərildim. Həmin anda, yalnız bunu deyə bildim:

-İnna lillah və inna iləyhi raciun.[1]

Gördüyüm şey, Əlirzanın şəkili idi. Əynində yaşıl pələngli uniforma, ayaq üstə dayanmış, həmişəki eynəyi ilə, əlində simsiz telefon və üzündə təbəssüm vardı. Şəkilin altına yazılmışdı:

-Allah yolunda şəhid olan komandir, Şəhid Əlirza Təvəssüli.

Səbzevardakı aparıcının səsi beynimdə təkrarlanmağa başladı:

Şəhid Əlirza Təvəssüli, Şəhid Əlirza Təvəssüli.

Özümə gəlməyim nə qədər çəkdi, heç bilmirəm. Başımı divardan ayırıb dodaqaltı dedim:

-Xoş sənin halına... Xoş halına ki, şəhadətlə Allahın görüşünə nail oldun! Hamımız Allahdanıq və ona doğru qayıdacağıq...

---

[1] Hamımız Allahdanıq və Allaha doğru da qayıdacağıq. Bəqərə surəsi, ayə 156

Taqətsiz əlimlə, telefonu buraxdım. Həmin şəkilin ardınca, hamı baş sağlığı mesajı və Əlirzayla olan xatirələrini yazmışdı. O qrupda gün boyu, çox az sayda mesaj olurdu. Amma gecə saat 1-də mən yatandan, saat 4-ə qədər, yüzlərcə mesaj gəlmişdi. Həmin anda, Fatimənin oyanmağını hiss etməmişəm. Namazını qılıb mənim yanıma gəldi və soruşdu:

-Ana! Nə olub?! Dünəndən dəqiqə başı telefona baxırsan! Ver telefonu, görüm nə olub!

Özümə də təəccüblü gələn soyuqqanlı halda, Fatiməni qarşımda oturtdum. Onun pak və uşaq baxışlarıyla baxan gözlərinin içinə baxaraq dedim:

-Xoş şəhidlərin halına, qızım! Xoş şəhidlərin ailələrinin halına! Xoş o kəsin halına ki, şəhadətlə bu əzab-əziyyətli dünyadan köçür! Səbir, həzrəti Zeynəbin şəhid ailələrinə verdiyi ən böyük hədiyyədir. Xüsusilə də, onun hərəminin müdafiəçisi olan şəhidlərin ailələrinə verir bu hədiyyəni.

Fatimə, mat-məhəttəl dinləyirdi. Daha davam etməyə gücüm qalmamışdı, bir başa söhbətə girib dedim:

-Bilmirəm düz xəbərdir ya yox, amma qrupda deyirlər ki, atan şəhid olubdur.

Fatimə, yerə uzandı. Sanki taqəti çəkildi. Dayanmadan, yağış kimi göz yaşı tökürdü. Qışqırmadan, fəryad etmədən və isyan etmədən, yalnız göz yaşı tökürdü. Onun göz yaşlarına mane olmadım. Necə də iri göz yaşları tökürdü! Sanki inci və mirvari idi gözündən tökülən. Çox tez, gözlərini qan qoydu. Əlləri də titrəyirdi. Azyaşlı, günahsız və yetim qızım! Atası ilə olmağa, Allahdan cəmi 11 il pay almışdı. Daha, nazını çəkəcək və saçını sığallayacaq atanın bir tək şəkilləri qalmışdı. Yəqin ki, şəkillərə baxıb "ata can" deyəcək. Ata can, artıq geri dönüşü olmayan bir səfərə getmişdi.

Telefonu Fatiməyə verdim ki, mesajları oxusun. Şəkillərə və mesajlara baxıb, yenə göz yaşı tökürdü.Mən ağlamamalıydım, amma bu necə mümkün ola bilər?! Özümü zəif göstərməməli idim. Amma bu da mümkün deyildi. Bundan sonra, mən ana, həm də ataları olacaqdım. Bunu bacarmaq mümkündür?! Bunu, bacarmalıyam. Gərək ana, həm də ata olam! Əlimi süstləşən dizlərimə qoyub ayağa qalxaraq "Ya Əli" dedim. Fatiməni də qaldırdım. İkimiz, evi hazırlamalıydıq. İkimiz də necə də yorğun idik! Dünyanın ən yorğunu idik. Birdən, Əlirzanın yorğun siması yadıma düşdü və dedim:

-Əlirzanın yorğunluğuna qurban olaram! Onun yorğun gözlərinə fəda olaram! Yorulmayasan, mənim igidim!

Qərara gəldik ki, Həmid Rzaya deməyib onu məktəbə yollayaq. O, oyananda, normal davranmağa çalışdıq. Hacı Əhmədin xanımına da mesaj yazdım:

-Hacıya de ki, bu gün işə getməsin. Onunla işim var.

Həmid Rza məktəbə gedənə qədər, Fatiməylə mən, ölüb ölümdən qayıtdıq. Ağlamağımızın tutmaması üçün, onun üzünə baxmırdıq. Boğazımızdakı düyün hiss olunmaması üçün, alçaq səslə danışırdıq. Növbəylə otağa girib, göz yaşlarımızı silirdik. Nəhayət, Həmid Rza məktəbə yollandı.

Birdən, qara paltar geyinmək lazım olduğu yadıma düşdü. Hamımızın qara geyinməsi, xoşuma gəlmirdi. Amma Əfqanistan mədəniyyəti, yasda başqa rəng geyinməyi qəbullanmır. Düşünürdüm ki, bu xəbər düzdürsə, qara paltarı nə edim? Baxmayaraq ki, xəbərin düz olması aydın idi, amma yenə də dua edirdim ki, biri çıxıb yalanlasın. Özlüyümdə, Əlirzanın sözlərini yadıma salırdım. Sanki səsucaldanla başımın içində əks-səda edirdi:

-Hər bir hadisəyə hazırlıqlı olmalısan. Mən müharibəyə gedirəm. Müharibədə əsir düşmək, yaralanmaq və insanın ləyaqəti varsa, şəhadət də var. Sən mənim həyat yoldaşım və uşaqlarımın anası olaraq, həmişə hər şeyə hazır olmalısan.

İndi də bu xəbərin düz olmasına hətta 1% ehtimal varsa, mən də buna hazır olmalıydım.

Evə lazım olanları almaq üçün, hazırlanıb evdən çıxdım. Fatimə üçün tək qalmağa yaxşı fürsət idi. Özüm arzusunda olduğum təkliyi, ona bəxş etdim. Bankdan pul çəkib yas mərasimi üçün evə kağız dəsmal, qənd, çay və xurma aldım. Mən evə çatanda, Hacı Əhmədlə xanımı da təzə çatmışdılar. Qapını açanda, özümü ələ ala bilmədim. Nalə çəkib dedim:

-Hacı, əmin arzusuna çatdı! Şəhid oldu, rahat oldu...

İkisi də təəccüblənib dedilər:

-Sənin xəbərin var imiş?

Mən də onlara dedim:

-Sizin də xəbəriniz var imiş?!

Hacının xanımını qucaqlayıb hönkür-hönkür ağlayaraq deyirdim:

-Əlirza getdi, ona telegramda Tubanın “hamınız sənin Əbbası kimiyik ya Zeynəb” oxumasını göndərmişdim, onu dinləməyə fürsəti olmadı. Keçən ay, şəhid ailələri üçün keçirilən mərasimdə, utana-utana oturmuşdum. Düşünürdüm ki, axı mən şəhid ailəsi deyiləm. Amma indi şəhid xanımıyam! Fəxrlə deyirəm ki, şəhid xanımıyam. O, arzusuna çatdı...

Səhər saat 10 olmadan, evimiz adamla doldu. Anamın halı, bizdən daha pis idi və çox ağlayırdı. Ağlamaqdan taqəti çəkilmişdi və qışqıraraq deyirdi:

-Ləyaqətli oğlum vay... Gözəl, uca boy oğlum vay...

Anamın oxşama oxuması, hamımızın dərdli ürəyini daha da yandırırdı. Hamımızı od vurub yandırırdı. Hamıdan çox, mən ağlamaq istəyirdim, amma özümü ələ almışdım. İçimdən, fəğan etmək gəlirdi. Üzümü cırmaqlayıb, saçımı yolmaq istəyirdim. Amma ağır başlı davranıb səssizcə göz yaşı tökürdüm. Uzun müddət gözəllik salonuna getməmişdim ki, bayramda Əlirza gələndə gedim. Amma artıq getməli idim. Çox dəyərli qonağım yoldaydı. Çox uzaqlardan, qonağım gəlirdi.

Hacı Əhmədin xanımına tapşırdım ki, mən qayıdanadək qonaqlara baxsın. Gözəllik salonun da adam çox idi və yubandım. Gözəllik salonunda həmişəki kimi, hamı sevincli idi. Keçmişdəki xatirələrim yadıma düşdü. İlk dəfə gözəllik salonuna getməyimi xatırladım. Nişan və kəbinim üçün getmişdim. Çox əfsuslanıb dərindən ah çəkdim. O, ilk dəfə idi və bu son dəfədir. Aradakı 13 il, necə də tez keçmişdi! Necə də az idi! Necə az, sevə bildim onu! Nə qədər az, görə bildim onu! Birgə yaşadığımız həyat, necə də qısa idi! Tək 13 il?! Mənim ömrümün qalanı, görəsən nə qədərdir?! Artıq onsuz ötən hər saniyə, bir il kimidir. Bəs mən, onsuz keçən illəri nə edəcəm?!

Evə qayıdanda, izdihamdan ev qaynayırdı. Vəzifəli şəxslər, müxbirlər, kameramanlar, qohumlar, qonşular, dostlar və şəhid ailələri ilə ev dolmuşdu. Aşağı mərtəbədə kişilər, üst mərtəbədə qadınları qarşıladıq. Birdən, Həmid Rza yadıma düşdü və ona bu xəbəri necə verəcəyim barədə nigaran oldum.

Həmin əsnada, dedilər ki, Həmid Rza məktəbdən gəlibdir. Onlara dedim:

-Gətirin yanıma.

Salonun ortasında oturmuşdum. Həmişə Əlirzanın yaslandığı dirəyə yaslanmışdım. Qapıyla üz-üzə idim. Bu

ev, necə də ləyaqətsiz idi! Əlirza bu evə cəmi bir dəfə gəlmişdi! İkinci dəfə olaraq, nəşi gəlirdi. Həmid Rzanın gəlişini gözləyirdim. Qəmli, itgili, 3-cü sinif şagirdi olan oğlan uşağı, yüzlərcə sual işarəsi və kədərlə mənə gəlirdi. Belimi dirəyə daha da möhkəm sökədim. Sanki arxamda Əlirza dayanmış, çiyinlərimdən möhkəm tutaraq mənə deyirdi:

-Güclü ol, Xatun! Dik dayan!

Həmid Rza yanıma çatdı və qarşımda əyləşdi. Matməhəttəl halda soruşurdu:

-Ana! Nə olub?!

Çantasını kürəyindən çıxarıb dedim:

-Qonaqları görürsən?

-Hə.

-Ağlayırlar.

-Hə.

-Ata cəbhədə idi.

-Hə.

-Ata şəhid olub.

Başı ətəyimə düşdü. Alnını dizimə yapışdırıb ağlamağa başladı... Mən isə ağlamadım. Hönkürtü səsini eşitdim. Yenə ağlamadım. Nalə çəkməyə başladı və mən yenə ağlamadım. Yarım saat, mən onun çiynini üstə idi, o da mənim ətəyimdə ağlayırdı. Səhərdən ağlamamışdım. Qonaqlar, anam, vəzifəli şəxslər, müxbirlər və Əlirzanın dostları yanında ağlamaq istəmirdim.

Həmid Rza başını ətəyimə qoyanda, mən atasız qalan Fatimiyyun döyüşçülərini fikirləşirdim. Nə vəziyyətdə olduqları barədə nigaran idim. Necə narahat olduqlarını təsəvvür edirdim. Düşünürdüm ki, komandirə əzadarlıq onları döyüşdən yayındırmamalıdır. Əlirzadan sonra, onların vəziyyətinin necə olacağını fikirləşirdim. Hamısı

qayıdacaqlar ya başqa komandir təyin edəcəklər? Onlara yazığım gəlirdi. Özlüyümdə deyirdim:

-Mən indi əmn-amanlıqda fəxr edirəm ki, şəhid yoldaşıyam. Amma onlar nə haldadır?

Tubanın 4 yaşının tamam olmasına, bir ay qalmışdı. O, şokda idi. Nə olduğunu anlaya bilmirdi. Uşaqlar, mənə yapışmış və ayrılmırdılar. Sanki atasız qalmaqlarının dərdinə, ana dərman ola bilərdi. Həm də qorxurdular. Onlara xatir, özümü ələ almağa və aram olmağa çalışırdım. Bilirdim ki, mənim pis olduğumu görsələr, onlar da çökəcəklər.

Ertəsi gün, Həmid Rzayla Fatiməni məktəbə göndərdim. Onları belə qane etdim ki, "ata həmişə dərsinizi ciddiyə almağınızı istəyib. İndi də ona xatir getməlisiniz." İstəmirdim ki, məktəbə getməmək adiləşsin. Belə, davamlı məktəbə getməmək üçün bəhanə tapacaqdılar.

Günorta radələrində, Həmid Rzanın müəllimməsi zəng edib dedi:

-Təvəssüli xanım! Bu uşaq nə deyir belə?!

-Nə deyir?

Təəccüb və hüzünlü səslə dedi:

-Deyir ki, atam şəhid olub!

-Bəli, düz deyir. Atası şəhid olub.

-İlahi! Mən nə edim indi?!

-Heç nə, həmişəki kimi ona dərs verin.

Evdə və küçəmizdəki izdiham, məni fikirlərimdən yayındıra bilmirdi. Əlirzanın xatirələri, izdihama baxmırdı. Bir xatirə gedir, digəri gəlirdi. İki nəfər olduğumu hiss edirdi. Biri, qonaqlara qulluq edən sakit, ağırbaşlı və səliqəli, digəri isə yas tutan əzalı, pənahsız və

aşüftə idi. Mən, ikinci şəxs olduğumu görürdüm, digərləri isə birincini.

**Komandirin məktubu:**

Salam, yüzlərcə salam olsun mənim gözəl, nazlı, mehriban və təkliyimin sirdaşı olan həyat yoldaşıma.

Darıxan aşiqin ürəyinin dərinliyindən çıxıb canımın bütün damarlarına axan və sonra qələmlə kağıza tökülən salamımı sənə göndərirəm.

O salamı, çox sevdiyim, yaşam səbəbim olan sənə hədiyyə edirəm. Evimin işığı, salam!

Halımın necə olduğunu bilmək istəyirsənsə, belədir:
Canım, dilbərimdən uzaq düşdüyü üçün yanır,
Cananımın gözəlliyindən canım yanır.
Nə etdiyimi də bilmək istəsən, budur:
Sənin xəyalın hər daim mənimlədir,
düşüncələrim daim səninlədir.
Duam isə sənin haqqında budur:
Heç vaxt həkimə ehtiyacın olması
və gözəl canın heç vaxt inciməsin.
Dünyanın sağlığını sənin sağlığında görürəm
Heç bir acı və çətinlik görəməyəsən.

Həyat yoldaşın, Əlirza
Qədim Hərat şəhəri
Tarix: 3.06.2002

# On üçüncü fəsil

2 gün sonra, Əlirzanın nəşi Məşhədə gətirildi. Airporta getməliydik. Maşında, anam öndə oturmuş və oxşama oxuyurdu:

-Ay gözəl oğlum... Gözümün işığı... Ürəyimin taqəti... Sağ əlim idin mənim... Sən bizi kəfənləyib dəfn edəcəyini ümid etmişdik, indi isə biz səni dəfn etməliyik... Gözəl oğlum vay, ləyaqətli oğlum vay... Bizim fəxrimizsən sən! Necə də tez getdin... Necə də tez şəhid oldun...

Uşaqlarla mən, arxada oturmuşduq. Anam və uşaqlara görə, ağlaya bilmirdim. Ürəyimdə nigarançılıq və fəxrlə qürur hissinə qarışmış təklik hiss edirdim. Özlüyümdə deyirdim:

-Son dəfə onu qarşılamağa gedirəm. Son dəfə olaraq, ona “xoş gəldin” deyəcəm. Dəməşqdən həyat yoldaşımı gətirən son uçuşdu və son görüşdü...

Biz airporta çatanda, şəhidlərin nəşini gətirmişdilər. Tabutları yaşıl bayraqla örtmüşdülər. İran bayrağı, iranlı şəhidlərin və yaşıl bayraq, Fatimiyyun şəhidlərinin üzərində idi. Hər şəhidin şəkili də öz tabutunun üstündə vardı. Əlirza ilə Şəhid Fatehin nəşini, digər şəhidlərdən

ayrı qoymuşdular. Şəhid Fateh, Əlirza ilə birgə həmin gözəl havası olan təpənin üstündə, yəni Təl-Qərin bölgəsində şəhid olmuşdu.

Fatehin ədəbinə və vəfasına, ürəyimdə “əhsən” deyirdim. İki həftə əvvəl, onu bir konferansda, pillələri düşərkən görmüşdüm. Sanki, ətrafında nurdan bir çərçivə vardı. Əlirzaya demişdim:

-Xoş o şəxsin halına ki, bu gənc onun kürəkəni olacaq!

Amma Fateh, bu dünyada evlənmədən və bəy xalatını geyinmədən, şəhadət xalatını geyinmişdi. Baş sağlığı vermək üçün Fatehin anasıgilə getməyə hələ vaxtım olmamışdı. Fateh və Əlirza ilə yanaşı, Nemətullah Nəcəfi, Seyid Hüseyn Hüseyni, Məhəmməd Həkimi və Cavid Yusifi də, Təl-Qərin şəhidləri adıyla tanınırlar.

Hamıdan əvvəl, ailələrin yaxınlaşmasına icazə verdilər. O qədər insan və kamera önündə özümü ələ almalıydım. Tabutun yanında əyləşib, bunu dedim:

-Salam mənim igidim! Təbrik edirəm! Şəhadətin mübarəkdir. Xoş sənin halına! Arzuna çatdın və əcrini aldın. Amma döyüşçülərin üçün dua elə! Uşaqlarımıza dua elə! İmam Zaman (ə.f) üçün dua elə! Qurban olum İmam Zamanın bütün müsibətlərə dözən ürəyinə! Onun gənc döyüşçüləri bir-bir uçub gedirlər!

Həmid Rza, tabutu qucaqlamışdı. Hüseyni xanımonu yanıma gətirib dedi:

-Bu uşağı sakitləşdir, halı çox pisdir.

Həmid Rza ilə birgə, izdihamdan uzaqlaşdıq. Onu bir tərəfə aparıb qucaqladım. Tabutu açmaları üçün, çox israr etdim. Amma razı olmadılar. Sonra da tabutu Behişti-Rza məzarlığının məscidinə apardılar. Məscid cəmiyyətlə doluydu. Orada tabutu açdılar, amma kəfəni kənara çəkməyə qoymadılar. Əlirzanın boyunun qısaldığını hiss

etdim. Əslində o, uzunboylu və cüssəli idi. Amma nəşi qısa idi. Başını qucağıma almaq istəyirdim. Son dəfə olaraq, başımı sinəsinə qoyub sakitləşmək istəyirdim. Alnından öpüb ona laiqli şəkildə vidalaşmaq istəyirdim. Amma onlarca kamera və yüzlərcə insanın qarşısında bunu etməyə utandım. Rezayi bəyə dedim:

-Tək qala bilərəm burada?

-Xeyr, mümkün deyil.

Kəfəni açmağımdan qorxurdular. Dodağım qabıq-qabıq olmuş və qurumuşdu. Üzüm sarı rəngdə idi. Ağlamırdım, sadəcə donub qalmışdım.

Səbzevari məscidində mərasim keçirildi. Camaat, mərasim üçün əllərindən gələni etmişdilər. Mərasimdən sonra, evə qayıtdıq. Mərasimdən sonra, evə qayıtdıq. Uşaqlar, qorxmuş cücə kimi məndən ayrılmırdılar. Anam paltarlarımı alıb, yumağa apardı. Adətə əsasən, yası olan ailə yemək bişirməz və paltar yumaz. Uşaqlar, gecəni məndən ayrı yatmağa razı olmadılar. Təzə aldığım mavi ədyalı uşaqlarla üstümüzə sərdim. Hacı Əhmədn xanımı, ədyalı təzə aldığımı anladı. Ədyalın altında doyunca ağladım. Arzularım və ümidlərim yadıma düşmüşdü. anam və evdəkilərin anlamaması üçün, səssiz ağladım. Uşaqların nəfəs səsi, dərdimi təzələyirdi. Hamı oyaq idi. Biri çarşabımı yuyur, biri hamam getmək istəyir, digəri mətbəxi təmizləyirdi və...

Nə vaxt yuxuya getdiyimi anlamadım.

Həratdan gələn qonaqlar da çatdılar. Əlirzanın qardaşları, ən kiçik qardaşlarının ölümünə qara geyinmiş və çox qəm-kədərli idilər. Hamımız çətin anlar yaşayırdıq, amma səbirdən başqa çarəmiz yox idi...

Ertəsi gün günorta, mərasim Əl-Ola məscidində keçirildi. Televizorda və xəbərlərdə elan olduğu üçün,

dost-tanış hamı gəlmişdi. Bacım Məsumə dəfələrlə ürəyi getdi və onu xəstəxanaya apardılar. Zəhra da davamlı halsız olurdu. Fatimə və Tuba mənim yanımda idilər. Amma Həmid Rzanı dayısı və atasının dostları aparmışdılar. Məsuməni xəstəxanaya apardılar. Daha onu məscidə gətirməyəcəkdilər. Amma yenə qaçıb gəlmişdi və üz-gözünə vuraraq ağlayıb yenə huşunu itirirdi.

Tabutu təzə gələn şəhidlərin ailələri də gəlmişdi. Hər biri, öz qohumlarıyla oturmuşdu. Qadınların olduğu hissəyə də bir neçə tabut qoyulmuşdu. Şəhid Fatehin anası, şok yaşayırdı. Oğlunun şəhid olacağını gözləmirdi. Fatehin, komandir müavini olduğunu bilmirdi. Əlirza ilə birgə şəhid düşənlərin ailələrini görüb baş sağlığı verməyə fürsətim olmamışdı. Fatimiyyun şəhidləri üçün belə təmtəraqlı mərasimlər keçirildiyinə qürrələnmişdim. Fatimə ağlayırdı, mən də ona Quraan oxumasını deyirdim.

Ertəsi gün, dəfn mərasiminə getməliydik. Səhər tezdən, öncə hərəmə, sonra da Behişti-Rza məzarlığına getməliydik. Əlimə bir stəkan soyuq su verdilər. Stəkanı əlimdə saxlamağa gücüm yox idi. Əlim titrəyə-titrəyə içməyə başladım. Ürəyim çırpınırdı. Əlirza ilə birgə gəldiyim son hərəm ziyarəti idi. Bu dəfə, yenə mən ondan əvvəl “Allah qəbul eləsin” dedim.

Şəhid Qasimi Dananın anası mənə yaxınlaşıb dedi:

-Möhkəm və səbirli ol. Sənin güclü olmağın, pul üçün gedirlər deyənlərin ağzına möhkəm yumruq kimidir. Narahat olmamalısan! Bir şəhid xanımı kimi davran. Əbu Hamidin bəyəndiyi kimi olmalısan.

Suriyada olan döyüşçülərin xanımları da ərləri tərəfindən baş sağlığı verməyə gəlirdilər. Onlara deyirdim:

-Mənim salamımı da döyüşçülərə çatdırın və qoymayın ki, Fatimiyyun bayrağı yerə düşdün!

Ziyarəti-Aşura oxudum. Həyətə çıxanda, cəmiyyətin çoxluğuna ağzım açıq qaldı. O günədək, hərəm müdafiəçilər üçün gələn bu izdiham görməmişdim. Kameralar, hər tərəfdən məni çəkirdi. Rahat ola bilmirdim və istədiyim kimi son iki nəfərlik ziyarətimizi edə bilmədim. Şəhidləri hətəmin ətrafında təvaf etdirdikdən sonra, namaz qılındı və oxşama oxuyub sinə vurdular. Cəmiyyət bir səslə deyirdi:

-Bu solmuş gül hardan gəlib? Şami-bəlalardan gəlib.

Maşına mindim. Fəsihi bəy hərəmin çıxışında mərsiyyə oxuyurdu. Həmin əsnada tama və vəzifəli şəxslərə dedim:

-Göy yerə gəlsə, yer göyə getsə də tabutu evə gətirib son dəfə evinə girməlidir. Bu ev, təbərrüklənməlidir.

Çox dedilər ki, "cəmiyyət var, insanlar gözləyir. Yollarda izdiham var". Onlara dedim:

-Mən bilmirəm! İndi də evə gedirəm və tabutu evə gətirməlisiniz.

Nəhayət, tabutu təcili yardımlar maşını ilə evə doğru gətirdilər. Əlirza, öndəki təcili yardımlar maşınında gəlirdi və mən arxasındakı maşınla gedirdim. Həmişəki kimi birgə evimizə gedirdik. Tək fərq bu idi ki, yan-yana getmirdik. Dodaqaltı zümzümə edirdim:

-Öz gözümlə, canımın çıxdığını, canımın getdiyini görürəm...

Evdən və küçədən üzərlik iyi gəlirdi. İlk dəfə olaraq, onun gəlişi üçün aldığımız qurbanlığı ayağı önündə kəsdik. Şəhərin dörd bir yanından "hamımız sənin Əbbasınıq ya Zeynəb" səsləri gəlirdi. Tabutu daşıyanlara dedim:

-Onu öz otağına gətirin.

Səfərindən öncə, onun üçün döşədiyim həmin otağa gətirildi. Yenə ev, cəmiyyətlə doluydu. Tək qalmağımıza

imkan olmadı. Başı üstə oturdum və tabutu açmaları üçün israr etdim, amma yenə razı olmadılar. Əlirzayla danışaraq dedim:

-Əlirza, dostlarının ardınca gedib məni untmayan ha! İşlərinin dalınca gedib bizi yaddan çıxarmayasan ha! Mənim üçün dua eləməsən, gözün üzərimdə olmasa, özün bilirsən ki, nə olar!

Rezayi bəyin yorğun simasını cəmiyyətin arasında dəfələrlə görmüşdüm. Onun yenə bir dostu getmişdi. Bir-bir dostları və cəbhə yoldaşları şəhid olurdular. Hər dəfə də dəfn mərasimini və bütün işləri özü irəli sürməli idi.

Təcili yardımlar maşını Behişti-Rzaya yollandı. Avtobuslar və digər maşınlar da ardınca yola düşdülər. Fəsihi bəyin həzrəti Zeynəb üçün oxuduğu oxşama, Əlirzanın dostlarının yarasına duz basmışdı. Tabutu dövrəyə almış və üz-gözlərinə vururdular. Günorta idi və namaz üçün Fatiməni səslədim. Bir neçə nəfər dedilər ki, sonra namazınızı qılarsınız! Mən isə onlara dedim:

-Xeyr! Biz məhz belə şeylərə görə şəhid vermişik!

Cəmiyyətin son sıralarında dayanmışdım. Ürəyimdə o qədər insanın oraya yığışmasını, təqdirəlaiq görürdüm. Dəfələrlə cəmiyyətin arasından çıxmağa çalışdım, amma çıxa bilmədim. Dəfn anını görə bilmədim. ön sırada kişilər vardı və döyüşçülər tabutu dövrəyə almışdı. Təkcə səsucaldanla bunu eşitdim ki, "Şəhid Təvəssüli torpağa tapşırıldı". Ardınca da "Şəhid Fateh torpağa tapşırıldı" duyuldu.

Cəmiyyət, nəhayət bir yol açdı və mən şəhidimin məzarına çata bildim. Soyuq torpağın yanında əyləşdim. Hava da soyuq idi, amma məni tər basmışdı. Cümə axşamı idi və ürəyimdə ona dedim:

-Xoş halına! İmamın yanında, bizi unutma! Cümə axşamıdır, bizi yaddan çıxarma!

Anam və uşaqlar, torpağın üstünə atılmışdılar. Tubanı da gətirmişdim ki, atasının torpağa tapşırılmasını görsün və onu bir daha görə bilməyəcəyini anlasın.

Evə qayıdanda, hər şey qəribə gəlirdi. Sanki o günədək o yolları görməmişdim. Keçdiyim küçələri, ilk dəfə olaraq gördüyümü hiss edirdim. Hər şey dəyişmişdi. İşıqfor, bir canavar kimi qırmızı gözlərlə baxırdı. Divarlar da eyni canavar kimi ağız açmış, iti dişlərini çıxarmış və dilini çölə atmışdı. Mağazalar, elektrik dirəkləri, prospektin hasarları, divarlar, evlər və hər şey, canavar kimi idi. Hər şey, vəhşi heyvanlara bənzəyirdi. Gözlərimi bağlayıb, bu kabusun bitmək ümidiylə bir daha açdım. Lakin, bitməmişdi... Hər tərəf canavar, canavar və canavar idi...

Çatanda, özümü tez evə atdım. Hələ dirəyə yaslanmamışdım ki, məni çağırdılar. Küçəyə çıxdım və yenə canavar var idi. Gözlərimi yumdum. Əlirzasız bu dünya mənim üçün canavar kimi idi. Dodaqaltı zikir edir və deyirdim:

-Ya Əli, ya Əli... Bunları məndən uzaqlaşdır. İlahi, özün kömək et.

Şəhid Qasimi Dananın anası tapşırmışdı ki, dözümünün olmadığını hiss edəndə, Səbir qüslü al. Mən də 3-cü dəfə olaraq gedib səbir qüslü aldım.

Günlər, sürətlə keçirdi. Məhəmməd Hüseyn, İbrahim və Xadim Hüseyn, atasız qalmış yetim uşaq kimi idilər. Suriyadan, Əlirzanın dəfn mərasimi üçün gəlmişdilər. Onlar, komandirləri, həm də mehriban və məzlum əmilərini əldən vermişdilər.

Bəziləri bəzən, mənim səbrimə təəccüblənirdilər. Anam qətiyyən məni düşünmür və davamlı oxşama oxuyub ağlayırdı. Sonra da mənim soyuqqanlılığımı görüb deyirdi:

-Bu gənclərin səbri, bizdən daha çoxdur!

Qohumlara və dostlara dedim:

-Bayrama az qalıb. Bizə görə yubanmayın. Gedin bayram təmizliklərinizi və hazırlıqlarınızı edin.

Hamısı da deyirdilər:

-Bizim üçün daha bayram yoxdur ki, gedib təmizlik də edək!

Əlirzanın şəhadətindən 12 gün sonra, xəbər gəldi ki, çantası Suriyadan bu gün gəlir. Döyüşçülərdən biri, çantanı gətirəcəkdi. Hamı, Əlirzanın vəsiyyətnaməsini səbirsizliklə gözləyirdi. Hadi əmi ilə kərbəlayı əmi, hamıdan çox vəsiyyətnaməni gözləyirdilər. Görürdüm ki, fərqli bəhanələrlə kitabların arasına baxırlar və bəzən məndən də vəsiyyətnamə haqda soruşurlar. Amma mənim verəcək heç nəyim yox idi. Əlirzanın gələn çantası, vəsiyyətnamə həvəsini hamıda təzələdi. Mən isə, Əlirzanın son xatirələrini görəcəyimi düşünürdüm. Nə edəcəyimi, həmin əşyaları görəndə necə davranacağımı, o qədər insan və uşaq arasında necə reaksiya göstərəcəyimi fikirləşirdim. Amma sonra özümü danlayaraq dedim:

-Nə olub sənə?! Zül-cənahın[1] xeymələrə qayıtdığı anı yadına sal! Tək başına xeymələrə qayıtması və qadınlarla uşaqların son ümidinin itməsini xatırla! Həzrəti Zeynəb (s.a)-nı yadına sal! Qardaşından qalan son şeyi gördüyü anı təsəvvür et. Ona bax və möhkəm ol, səbirli davran!

Çanta gəlib çatdı. Ondan geri qalan paltarlar, yanmış kamera, Məfatihul-cinan kitabı, Quraan, bir neçə yazılı

---

[1] İmam Hüseynin (ə) atı.

kağız və yanmış telefon. Bunlar, Əlirzanın dünya malından irs buraxdığı var-dövlətinin hamısı idi. Əşyaların arasında vəsiyyətnamə də yox idi. Çantanı gətirən döyüşçü dedi:

-Hacıya aid olan hər şeyi toplayıb gətirdim. Tək leptopunu gətirmədim.

Gecə saat 2-də il dəyişiləcəkdi. Şəhidlər məzarlığında, yeni il mərasimi keçiriləcəkdi. Adətə görə, yeni ildə əriştə aşı bişirib qarışdırırıq ki, yeni ildə işlərimiz dolaşmasın və rahat oldun. Anam, bu adətə görə evdə qalıb gəlmədi. Bayramda Suriyaya gedəcəkdik və yeni ili onun yanında qeyd edəcəkdik. Birdən yadıma düşdü ki, mənə demişdi:

-Hələ məlum deyil. Amma siz, hazırlıqlı olun. Mənim gəlməyimə və ya öz gəlməyinizə, hər halda hazırlıqlı olun.

Amma artıq gecə yarısında, ilin dəyişdiyi saatda, onun məzarının yanında olmaq üçün Behişti-Rzaya gedirdik. Bayram süfrəsinə düzülən əşyaları, səməni, meyvə və halvanı da özümüzlə apardıq. Halım çox pis idi. Həmin günlərdə basdırdığım bütün göz yaşları, birgə üzə çıxmaq istəyirdi. Behişti-Rzaya yaxınlaşdıqca, halım daha da pis olurdu. Artıq göz yaşlarım, hönkürtüyə çevrilmişdi. Maşın Behişti-Rzaya girən kimi, fəryadım ucaldı. Çatan kimi, özümü məzarın üstünə atdım. Artıq özümü ələ ala bilmirdim. Özümü sıxıb ağırbaşlı davrandığım günlərin təlafisi olaraq, artıq yüngülləşmək istəyirdim.

Namaza dayandım. Tuba, təzə öyrəndiyi "Qul huvəllahu əhəd" zümzümə edirdi. Həmid Rza, Ziyarəti-Aşura oxuyurdu və Fatimə Quraan oxuyaraq özünə təskinlik verməyə çalışırdı. Şəhid ailələri də əzizlərinin məzarının yanında idilər və məzarlıq qələbəlik idi. Hacı Murtəzəvi bəy də gəlmişdi. Fatihə oxuyandan sonra, bizə dedi:

-Mart ayının axırı üçün hazırlanın. Sizi Həzrəti Zeynəb (s.a) ziyarətinə göndərmək istəyirlər. Amma tapşırıblar ki, Əbu Hamidin böyük qardaşı və sizə məhrəm olan bir kişi də yanınızda olmalıdır.

Əlirzanın şəhadətindən 18 gün keçmişdi. Məzar daşını qoymuşdular. Biz də daşı gülabla yuduq.

**Komandirin məktubu:**

**Bismillah**

Allaha, bizə həyat bəxş etdiyi üçün şükürlər olsun. Bəşəriyyəti cəhalət zülmətindən və qaranlıqdan iman aydınlığına hidayət edən peyğəmbərinə salam olsun.

Bütün Əhlibeytə, xüsusilə də son imam, həzrəti Mehdiyə (əc) salam olsun.

Salam gözəl cananım! Tanış gül ətri qədər gözəl salamlar sənin olsun! Ürəyimin ən dərinliyindən və sənə darıxdığım qədər böyük salam, sənin olsun!

İxlas və bir dünya eşqim sənin olsun, dünyanın ən yaxşı, ən gözəl xanımı və yol yoldaşım.

Uzun müddət idi ki, yarımın vüsalı həsrətində, ayrılıq səhrasında xəstə yatağa düşmüşdüm. Amma birdən, xilasedici mələk, bal ilə dolmuş bir qədəh şirin şərbət verdi əlimə və o, ömrümün ən şirin içkisi idi. Həmin qədəh, yarımdan gələn eşqdolu məktub idi və yorğun canıma yeni ruh, ümidsiz könlümə yar görüşünün ümidini bəxş edib, hicran gecələrinin bitəcəyini vədə verdi.

Dərslərini ciddiyə aldığına sevindim. Mən sənin uğurlu olmağın üçün əlimdən gələn duaları edəcəm. Ümidvaram ki, ciddi şəkildə dərsi davam edəsən və Allaha təvəkkül edərək tutduğun yolu sona çatdırasan.

Gecən xeyrə, əzizim

12.10.2001

# On dördüncü fəsil

Qara bayram qonaqlıqları başlamışdı. Bütün günü, qonaqlıq paltarındaydıq. Qonaqlardan hər biri, sırayla şəhidlər haqqında bir söz danışırdı. Ən gözəli, bu cümlə idi:

-Allah, onun yolunda şəhid olan möminlərə, onların ailə və uşaqlarını öhdəsinə alacağını vədə veribdir. Ürəyinizdə qorxuya yol verməyin, sizin uşaqlarınızın kəfili, Allahdır. Mart ayının 26-a qədər, günümüz qonaqlıqlarla keçdi. 26-cı gün isə təyyarədə əyləşəndə, halım dəyişdi. Suriyaya olan axrıncı səfərimdə Əbu Hamidi görmək üçün necə sevincli və həyəcanlı olduğum yadıma düşdü. Uşaqların göz yaşımı görməməsi üçün, üzümü pəncərəyə çevirdim. Anamla atam, bizdən bir neçə oturacaq aralıda oturmuşdular. Bir an, sanki başıma bir udar dəydi və özümü danlayaraq dedim:

-Utan! Nə olub sənə?! Ziyarətə getdiyini unutma! Üstəlik, şəhid xanımı olaraq gedirsən! Həzrəti Zeynəbin Kərbəlada 40 gün boyu yaşadığı müsibətləri xatırla və özünə gəl! Xanım əsir düşəndə, daha onu dəvəyə endirəcək qardaşı yox idi! Nə müsibətlər yaşadı və heç

narazılıq etmədi! Amma sən, oxşama oxuyub özünü yazıqlığa vurursan! Özünü ələ al!

Həzrəti Zeynəbə təvəssül edərək dedim:

-Ya Həzrəti Zeynəb! Özün yardım et mənə. Belə günlərin bir qadın üçün nə qədər çətin olduğunu, özün bilirsən. Məni tək qoyma.

Bir anlıq, bu səfərə çıxdığım üçün peşman oldum və təyyarənin geri qayıtmasını arzuladım.

Təyyarədən düşəndə, hamıdan çox atamın halı pis idi. O da öncəki səfərimizi xatırlamışdı. Kərbəlayı əminin də çiyinləri silkələnirdi. Məhəmməd Hüseyn və başqa bir neçə döyüşçü, bizi qarşılamağa gəlmişdilər.

Airportun salonuna girdik. Dəstə-dəstə suriyalı, iraqlı, iranlı, Zeynəbiyyun və digər qrupların komandirləri bizi qarşılamağa və baş sağlığı verməyə gəlmişdilər. Airportun böyük zalı, dəfələrlə cəmiyyətlə dolub boşaldı. Həmid Rzayla Tuba davamlı ötən səfərin xatirələrini xatırlayıb Fatiməyə danışırdılar:

-Bax, ata burada oturmuşdu. Ata məni burada qucaqladı. Buradan bizə su aldı.

Axşam, döyüşçülər bizim qaldığımız yerə gəlib Əlirzayla olan xatirələrini danışırdılar.

Ertəsi gün səhər, Həzrəti Rüqəyyənin hərəminə getdik. Hərəmdə, uşaqların əlindən tutub dedim:

-Ya Həzrəti Rüqəyyə! Bu üç uşaq, şəhidin yetim qalan uşaqlarıdır. Özün hamıdan yaxşı bilirsən ki, yetimlik necə çətindir! Uşaqlarımı sənə tapşırıram. Onlara dua elə. Mən nə edəcəyimi bilmirəm. Özün bunları böyüt.

Həzrəti Zeynəb (s.a) ziyarətinə getdiyimiz axşam, hərəmin idarəsindən xəbər verdilər ki, gecəni hərəmdə qala bilərik. Xanımın hərəminin bayrağını da bizə hədiyyə

etdilər. Bayrağı qucaqlayıb, məni buna laiq bildiyi üçün Həzrətdən təşəkkür etdim.

Oradakı ailələr də Əlirza üçün bir mərasim keçirdilər. 2-3 saat çəkdi. Oxşama oxundu, söhbət oldu və ardınca xatirələrini danışdılar. Fatimə də Zəhra xalasıyla birgə yazdığı ürək sözlərini orada oxudu.

Əlirzanın şəhid olduğu yeri görməyə çox israr etdim, amma alınmadı. Məhəmməd Baqir dedi:

-Ora hələ də təhlükə altındadır. Boş bir biyabandır və oradan keçən hər maşını partlayır. Hərbi bölgədir və minayla doludur.

Səfərimiz sona çatdı. Yükümüz yüngüldü amma səfərdən qazandığımız bir töhfə ilə qayıdırdıq. Həzrəti Zeynəb (s.a)-dan mənə səbir dənizindən bir damla bəxş etməsini istəmişdim və artıq Əlirzanın 40-ı üçün səbirlə hazırlıqlarımı görürdüm. Həzrəti Zeynəbin günbəzinin bayrağını qonaqlara açırdım və bütün ziyarət arzusunda olanlar, onu öpürdü.

Qırxın mərasimini keçirdik. Bir gün, avtobusdan enəndə, ayağım burxuldu. Tuba da qucağımda idi. Ayağımın əzələsi şiddətli zərər görmüşdü və bir müddət əsayla gəzməliydim. Ayağım çox ağrayırdı, amma şəhidlər üçün keçirilən yığıncaqları əldən vermək istəmirdim.

Əlirza şəhid olandan, sanki mən daha ciddi olmuşdum. Tanıdığım və tanımadığım yerlərdən, şəhidlər üçün keçirilən mərasimlərə dəvət olurdum. Mən də ayağımın vəziyyətinə baxmayaraq, bütün dəvətlərə gedirdim. Fatimiyyun döyüşçülərinin ailələri, problemlərini həll etmək üçün mənə müraciət edirdilər. Onların arasında, itkin düşən döyüşçü ailələrinin dərdi, hamısından daha böyük idi.

İtkin düşənlərin ailələri, çox gileyli idilər. Qohum-qonşu söz-söhbətləri və gözü yolda olmaqdan çox əziyyət çəkirdilər. Hər dəfə telefonlarına zəng gələndə və ya qapı səsi eşidəndə, xəbər olduğunu düşünürdülər. Qohum və qonşu da onlara tənə vuraraq deyirdi ki, "ərlərinizin harada olduğu bilinmir! Avropaya gediblər və sizə yalandan, Suriyada olduqlarını deyiblər!" Hətta ana-ataları da onları sözlə incidir və deyirdilər ki, "ərini haraya göndərmisən? Nə oyun açmısan başına?!"

Cümə axşamları, Quraan oxumaq üçün döyüşçü xanımlarıyla bir araya gəlirdik. Həmin yığıncaqlardan birinə, döyüşçülərdən birinin xanımı, 3 azyaşlı uşaqla gəldi. Halı çox pis idi. Mənə dedi:

-Ərim neçə aydır ki, itkindir. Ondan heç bir xəbər yoxdur. O qədər ağlamışam ki, südüm quruyub və uşağa verəcək südüm yoxdur. Qayınanam məni incidir. İnsanlar da tənə vururlar. Məni narahat edirlər. Artıq hamıdan və hər şeydən qorxuram. Heç kimə güvənə bilmirəm.

Həmin pənahsız qadına nə cavab verməliydim?! Mənim əlimdən nə gəlirdi ki?! Yalnız Rezayi bəyə zəng edib, bu xanımın problemlərini deyib və onu insanların söz-söhbətindən xilas etmək üçün yardım istəyə bilərdim. Digər şəhidlərin xanımları da insanların acı sözlərindən şikayətlənirdilər. Onlara deyirdim:

-Heç kimə telefon nömrənizi verməyin. Hətta əgər, ərinizin dostu olduğunu desə də, inanmayın. Tanıdığınız döyüşçülərdən başqa heç kimə güvənməyin.

Gənc və ərsiz qalan qadınlar, qohum və qonşu kişilərinin gözündən qaçmırdı. Evlilik bəhanəsi ilə onları narahat edirdilər. Çoxu bunu rütbəli şəxslərə də bildirmirdilər. Amma mən özüm yardım edib onları həmin kişilərin şərrindən xilas edirdim.

Uşaqlarım, getdiyim səfərlərə görə narazı idilər. Ata artıq şəhid olmuşdu, anadan bir şəhərdən digər şəhərə səfər edirdi. Davamlı müxtəlif şəhərlərdə şəhidlər üçün keçirilən konferanslar və yığıncaqlara qatılırdım. Anamla bacılarım, uşaqlara baxırdılar. Sırayla ya anam, ya da bacılardan biri bizdə qalırdı. Fatimə, mənim səfərlərimdən qardaşı və bacısından daha çox bezib, bir daha heç yerə getməməyimi istəyirdi. Uşaqları başa düşürdüm, amma bu səfərlər mənə imkan yaradırdı ki, Fatimiyyun döyüşçülərinin haqlı olmasını sübut edim və mən bu fürsəti əldən vermək istəmirdim. Dəfələrlə onlara və özümə Əlirzanın bu sözünü təkararlayırdım:

- Biz əslində 3 cəbhədə döyüşürük. İlk cəbhə, sevdiklərində və bağlılıqlarından ayrılmaq cəbhəsidir. Arvadından, uşağından, ana və atadan, ev-eşiyindən ayrılmağı bacarasan. İkinci cəbhə, bu məsələyə reaksiya göstərən insanlar, yəni qonşular, qohumlar və dost-tanışdır. Bu, ilk cəbhədən qat-qat daha çətindir. Üçüncü cəbhə, təkfirçilərlə döyüş cəbhəsidir.

Əlirza bu cümləni təkrarlayırdı:

-Üçüncü cəbhə, ən çətin olanıdır!

Mən də, 3-cü cəbhədə, atəş etmədən və yaralanmadan mübarizə edirdim.

Artıq Əlirzanın şəhadətindən 2 ay keçmişdi və hamı, hər yerdə, məni Şəhid Əbu Hamidin xanımı olaraq tanıyırdı. İlk dəfə, Əbu Hamid adını, Şəhid Xavərinin dilindən eşitmişdim. O vaxt Xavəri bəy, əməliyyatda yaralanmış və Məşhədə qayıtmışdı. Mən ona baş çəkməyə gedəndə, vəziyyəti ağır idi. Anası, oğlunun ölməməsinə davamlı Allaha şükür edirdi. Onun yaşlı ana və atasına, həmin oğul baxırdı. Suriyaya aid xəbərlər və məlumatları, Xavəri bəy mənə deyirdi. Bir dəfə mənə dedi:

-Biz Suriyaya ilk gedəndə, sayımız çox az idi. Hamı bizi lağa qoyurdu. Bizə deyirdilər ki, bu az sayınızla güya nə edə biləcəksiniz?! Başda 22 nəfər idik. Bəzi döyüşçülər, belə rəftarlarla qarşılaşanda, İrana geri qayıdırdı. Əbu Hamid isə hamımızı həvəsləndirir və mənəvi güc-qüvvə verirdi.

İsfahan şəhərində şəhidlər üçün keçirilən konferansdan qayıdanda, ağlıma gəldi ki, Həmid Rzanı bu gündən etibarən "Hamid" səsləyək. Zənnimcə, gözəl fikir idi. Həmid Rza başda təəccübləndi. Mənim təklifim barədə bir qədər düşünüb dedi:

-Olsun. Problem deyil.

Düşünməsi 10 dəqiqə də çəkmədi. Zamanla ailə üzvlərimiz və dost-tanış, onun təzə adına öyrəşdi. Fatimə isə bəzən onu Həmid deyə səsləyir. Amma bizə bu ad, daha sevimlidir və mənəvi rahatlıq bəxş edib.

**Xatunun xatirə dəftərindən bir yazı:**

Şəhidlərin Allahının adıyla

Bu gün, 04.03.2017 tarixidir. İgid həyat yoldaşımın şəhadətindən 2 il keçibdir. Bir neçə gün öncə, onun şəhadət il dönümünü keçirdik. İki ildir ki, gözəl səsini duymamışam. İki ildir ki, mənə ürəyə yatan nəsihətlərindən etməyib. Baxmayaraq ki, xatirələri yadıma salaraq, öncədən etdiyi nəsihətlərə həyatımda əməl etməyə çalışıram. Ona çox darıxmışam, ürəyim onu istəyir. Oğlum deyir ki, "şəhid ailəsi olmaq necə də çətindir! İnsan daim rəftarına fikir verməlidir." Məncə də düz deyir.

Fatimə, əvvəldən də xasiyyətdə atasına bənzəyir. Onun kimi təhsilə çox önəm verir, danışmadan əvvəl düşünür və ağırbaşlıdır. Hətta atası kimi ucaboyludur və hər dəfə ona

baxanda, onunla qürrələnirəm. O, mənim təkliyimə, yorğunluğuma və tənhalığıma ən gözəl təsəllidir.

Bu iki il müddətində, çox gözəl şeylər baş verib və zənnimcə bu, möcüzədir. Başda, qərib və kimsəsiz olan mühacirlər, bu əziz döyüşçülərin şəhadəti nəticəsində birlik oldular və bir-birini dəstəklədilər. Mən də özümə görə çox çətinliklər və müsibətlər yaşadım. Baxmayaraq ki, bu Həzrəti Zeynəbin çəkdiyi çətinliklər və müsibətlər qarşısında bir heçdir, amma özümə görə, çətin idi. Allaha şükür ki, mənə iki dəfə Suriya ziyarəti və iki dəfə Kərbəla ziyarəti qismət oldu. Bunlar mənim üçün çox faydalı və dəyərli səfərlər idi. Onlara getməsəydim, nə olardı, heç bilmirəm.

Allaha minlərcə şükür olsun.

## On beşinci fəsil

Səhər tezdən, qapı döyüldü. Qapını açdım, Əlirza gəlmişdi. Ayaqqabılarını çıxarmaq istəyəndə, yenə qapı döyüldü. Əlirza getmək istəyirdi. Mən çox narahat oldum. Mənə dedi:

-Bir yerə gedib, sonra evə qayıdacam.

Ona dedim:

-Mən də gəlirəm.

-Gəl.

Qapıdan çıxan kimi, onu gözləyən 70-80 nəfəri gördüm. Qadın-kişi, yaşlı-gənc və uşaq, hamı gəlmişdi. Bəzilərinin qucağında uşaq, bəzilərinin əlində kürək və külüng vardı. Hamı onu gözləyirdi. Əlirza dedi:

-Burada yer yoxdur, məscidə gedək.

Əlirza yola düşdü və ardınca cəmiyyət də gəlirdi. Mən də onunla gedirdim. KÜçələrin arasıyla keçirdik. Əlirza, bir küçəyə daxil oldu və biz də onun ardınca həmin küçəyə girdik. Mən hamıdan axırda gedirdim və hamını görə bilirdim. Hər dəfə bir küçəyə girəndə, görürdüm ki, 1-2 nəfər yolunu bizdən ayırır. Get-gedə cəmiyyət azalırdı. Cərgənin önünə gedib oradan yola davam etdim, amma

hər addımla, ayaq səslərindən sayımızın azaldığını anlayırdım.

Özümü Əlirzaya çatdırıb dedim:

-Sayımız azalır!

Arxaya və ya mənə dönüb baxmadan, yolunu davam edərək dedi:

-Eybi yoxdur.

Məscidin önünə çatdıq. Gülşəhr məhəlləsindəki Məhəmməd Rəsulullah məscidi idi. Dönüb arxama baxdım. Cəmi 5-6 nəfər qalmışdı. Sayımızın az olduğuna nigaran oldum. Tək 5-6 nəfər idik! Əlirza dayanmışdı. Əllərini belinin arxasından bir-birinə keçirmiş və bizə baxırdı. Sonra sanki təsdiqləyərək başını aşağı-yuxarı təkan verdi. Birdən, küçənin digər tərəfindən çox sayda insanın bizə doğru gəldiyini gördüm. Yaxınlaşaraq deyirdilər:

-Biz də varıq!

Əlirzanın şəhadətindən bir il keçəndən sonra, onun şəhadət ildönümündə, məzarı yanından qayıdanda, bu yuxunu görmüşdüm. Əlirzanın şəhadət xəbərini gördüyüm həmin şəkili, böyük ölçüdə sifariş verib, evin önündən asdım. Həmin şəkildə, Əlirza ayaq üstə dayanıb və sanki bizə baxır.

Bir dəfə anam dedi:

-Bu şəkili götür buradan. Uşaqlar görəndə qəmlənirlər.

-Niyə qəmlənsinlər ki?! Uşaqlar bu şəkili sevirlər. Səhər məktəbdən gələndə, ataya salam verirlər. Çölə çıxanda, atayla sağollaşırlar.

Həmin ildə, qərara gəlmişdim ki, Fatimiyyun bayrağını şəhər-şəhər gəzdirim. Hansı şəhərə dəvət olurdumsa, gedirdim. Nə qədər insan evimə gəlmək istəsəydi, gülərüzlə qarşılayırdım. Nə mən, nə də uşaqlarım,

özümüzü pərişan etmədik. Haraya getdimsə, Fatimiyyunun məqsədlərindən və fəaliyyətlərindən danışdım. Ayda, 3-4 dəfə yaxın və ya uzaq olan müxtəlif şəhərlərə gedirdim. Dəstə-dəstə də qonağım gəlirdi. Dövlət adamları, əhali, hərbiçilər, yaşlı-cavan, qadın-kişi və uşaq, hamı qonaq gəlirdi. Uşaqları da anamla bacılarıma tapşırırdım.

Fatimə, bacım Zəhraya demişdi:

-Atam şəhid oldu. Anam da daim səfərdədir. Biz çox tək qalmışıq. Axı niyə anam həmişə səfərə gedir?

Fatiməyə deyirdim:

-Fatimiyyun briqadası, atandan sonra unudulmamalıdır. Döyüşçülərin şücaətlə mübarizəsi yaddan çıxmamalıdır. Mən əgər bu səfərlərə getməsəm, bir il keçmədən şəhidlər unudulacaqdır.

Bir müddət sonra, Fatimə bacım Zəhraya demişdi:

-İndi anlayıram ki, əgər anam bu səfərlərə getməsəydi, atam unudulardı.

Fatimənin bu sözü, məni daha da iradəli etmişdi.

Həmişəki kimi, Fatimiyyun döyüşçülərinin ailələri, problemlərini mənə danışırdılar. Şəhidlər və itkinlərin xanımlarının müraciət yeri olmuşdum. Səhər evdən çıxıb, axşama qədər bir neçə ailəyə baş çəkib onlara təsəlli olmağa çalışırdım. Komandir xanımının onlarla maraqlanması, onlar üçün önəmli idi. Bu da onları arxayın edirdi.

Öz haqqımda danışacaq bir şeyim yox idi. Onlara Əlirza və digər hərəm müdafiəçi şəhidlərindən danışırdım. Həmçinin, tənə yarasını, döyüş yarasıyla birgə daşıyan iddiasız Fatimiyyun gənclərindən də danışırdım.

Həyatımda ilk dəfə olaraq, Kərbəla ziyarəti qismət oldu və anamla birgə Ərbəinə yollandıq. Ah kərbəla, ah kərbəla...

Səfər boyu dəfələrlə, Əlirzanı yanımızda hiss etdik. Hər yerdə onun yerinə namaz qılıb, ziyarət edirdim və addımlarımın savabından ona da hədiyyə edirdim. İraq dövləti, yalnız Ərbəin vaxtında əfqanlı mühacirlərə İraqa giriş icazəsi verir. Kərbəla həsrətində olanlar nə qədər həsrət çəksə də, əfqanlı mühacirlərin həsrəti və problemləri daha böyükdür.

Bizim səfərdən qayıtdığımız gün, atam infarkt keçirmişdi və onu xəstəxanaya aparmışdılar. Mənə heç kim heç nə deməmişdi. Amma davranışlarından pis bir hadisə baş verdiyini anladım. Tez, xəstəxanaya getdim. Dua edərək Allaha yalvarırdım:

-İlahi, sənin məsləhətinə razıyam. Amma atamı bizə geri ver. Bu kişi, mən və uşaqlarımın tək arxa-dayağıdır. Bizim ondan başqa sığınacağımız yoxdur.

Atam sağaldı və Allahın köməyilə müalicədən sonra yenə ayağa qalxdı. Bəzən qulağıma çatırdı ki, insanlar deyirlər:

-Hacı Əxlaqi, Bənin və onun uşaqlarının dərdini çəkməkdən bu günə düşdü.

İnkar etmirəm ki, Əlirzanın şəhadəti atam və anama çox ağır müsibət idi. Ətrafımızdakı insanları bu sözü, çox da yersiz deyildi.

Uşaqlarım yeniyetmə olublar və gəncliyə doğru gedirlər. Tək mənim övladlarım deyil, bütün şəhidlərin övladları atasız böyüyüb, atasız təhsil alıb və atanı yalnız məzar daşında görürlər. Onların hamısı pələngli uniforma geyinib, hər gün boylarını ölçür və ata boyda olanda, atanın yolunu davam etməyi arzulayırlar.

Fatimə mənə deyir ki, həkim olmaq istəyir və axırda da şəhadətə nail olmaq arzusunda olduğunu deyir. Hamid, döyüşçü olub Livana gedəcəyini deyir. Tuba isə deyir:

-Mən gəlin olmayacağam ki, anam tək qalmasın!

Günlər keçir və hər gün uşaqlar, atanın şəkili qarşısında ona salam verirlər. Hər rəftarlarında, atanın şəkili gözləri önündədir.

Təklik, çox çətindir. Əlirzanın şəhadətindən əvvəl də tək qalırdım. Amma onun səsini eşitmək və ya üzünü görmək, bütün təkliyimi yuyub aparırdı. Amma pənahsızlıq duyğusunu, onun şəhadətindən sonra hiss etdim. Həyatımdakı kor düyünlər, yavaş-yavaş açılır və onsuz həyata öyrəşmək, ən az bir ilimi aldı.

Hər yerdə, uşaqlarıma çətinliklərimizin səbəbini xatırladıram. Hər dəfə onlara deyirəm:

-Ata deyirdi ki, həmişə hər şeyə hazırlıqlı olmalıyıq.

Uşaqlar, getdiyim yolda mənə yardım etməyi qəbullanıblar. Amma mən onları məcbur etmək istəmirəm.

Hər səfərdə Fatiməyə tapşırıram:

-Mən səfərə gedirəm, geri qayıtmağım Allahın əlindədir. Əgər başıma bir iş gəlsə, uşaqlara sən analıq et. Onlara fikir ver. Hamid, qürurludur, onun qürurunu sındırma. Tuba emosionaldır. Onun duyğularına fikir ver.

Hər dəfə boynumdan qucaqlayıb asılaraq deyir:

-Ana, sən Allah belə danışma! Sən belə deyəndə ürəyim əsir. Çətinliklərimiz azdır ki, sən də belə danışırsan?!

Fatiməyə ilk dəfə elçi gələndə, sanki dünya başıma yıxıldı. Qızlarımın evlənəcəyini düşünəndə, qorxuram. Hamid üçün də nigaranam, amma həm də gəlin gətirməyə həvəsliyəm!

Şəhidlərin ana-ata və xanımları ilə görüşəndə, güc-qüvvə tapıram. Onların bizə həmişə məhəbbəti olubdur. Həmin ailələrin bəzilərinin maddi durumu yaxşı deyil. Gənc oğulları, ya da ərləri şəhid olub və evə çörək gətirən kimsələri yoxdur. Özləri işləməyə çalışırlar. Bir mühacirin işləyə biləcəyi işlərdən görürlər, qulluqçu, dərzi, fəhlə, zəfəran təmizləmək, tərəvəz yetişdirmək, pomidor əkmək və s...

Amma başqalarının məhəbbəti, yardımı və mehribançılıqları, onları səmimi qəlbdən sevindirir.

Döyüşçülər artıq qayıdırlar. Suriyadan İŞİD qovuldu və daha hərəm müdafiəçilərinə orada ehtiyac yoxdur. Cihad və müharibə peşəkarı olan gənclər, cəbhə yoldaşları və dostlarının şəhadətinin dərdiylə yanaraq qayıdırlar. Bu təcrübələr, boşa getməməlidir.

Hərəm müdafiəçi döyüşçüləri geri qayıdanda, daha maaş alan hərbiçi sayılmırlar. Hər şeyə sıfırdan başlamalıdırlar. Onlar da fəhləlik, tikinti işləri və qarolçuluğa üz tuturlar. İşləmək ayıb deyil. Amma onların öyrəndiklərindən faydalanmadığımız üçün heyiflənirəm. Müsəlman gənclər, Suriyada yeniyetmə bir qrupla döyüşmədilər. Onlar, bütün dünya ilə mübarizə apardılar!

Əlirzanın yolundan öz payıma düşəni davam edirəm. Fatimiyyunun haqlı olması, daha heç kimə gizli deyil. Amerika, Fatimiyyun briqadasının üzvlərini terroristlər siyahisinə daxil edəndə, Fatimiyyunun İslam döyüşçüləri olması bir daha təsdiqləndi. Zühura doğru gedən bu zəmanədə, Əlirza və onun dostlarının yeri məlumdur. Onun boş yerini, uşaqlarımla doldurmağa çalışır və şəhidlərin xatirəsini canlı tutmağa çalışıram.

Hələ də şəhidlər karvanı davam edir və İranla Məşhədin küçələrində lalə ətri yayılır. Körpələr, atalarının şəkil

vəvideolarıyla böyüyür və cana gəlirlər. Mənim uşaqlarım da ataları haqqında düzələn sənədli filmlərlə və videolarla sevinir və hər dəfə xatırlayırlar ki, ömrü cihad və mübarizədə keçən mücahid şəhidin övladıdırlar.

Mən Ümmul-Bənin Hüseyni, Şəhid Əlirza Təvəssülinin həyat yoldaşıyam. Dünyanın dörd bir yanında şəhid düşən övladlarının qanı ilə bəzənən əziz vətənim Əfqanistana olan eşqimlə, evlilikdən öncəki xatirələrimdən bir parça, İgid şəhidimlə yaşadığım 13 il evlilik həyatımızın xatirələri və onsuz keçirdiyim 5 ilin hekayəsi burada sona çatdırıram.

Əlirza vəsiyyətnamə yazmadı. Amma illər öncə yazdığı bu məktub, mənim üçün vəsiyyətnaməsi hökmündədir. Sanki onu, mənim bu günüm üçün yazıbdır. Məktubu, ayrılıq iyi verir. Həmin gün bunu niyə anlamadığımı bilmirəm. Son cümlələri vidalaşmaqdır. Uzun bir vidadır ki, bu dünyada vüsal ilə sonlanmayacaq...

**Komandirin məktubu:**

Gecə saat 12-dir. Radioda, İran-Bəhreyn futbol raporunu dinləyirəm. İran 1 qol, Bəhreyn isə 3 qol vurub və bu mənim fikrimi məşğul edir. Bu gün, cəbhədən qərargaha qayıtdıq. Bədənim yorğun və gözlərim yuxuludur. Amma bir yandan da qələmi yerə qoymağa ürəyim gəlmir. Çünki bu həyatda mənə ən əziz olan şəxsə məktub yazıram. Buna görə də ey yorğun əllərim, bir neçə sətir yazmaqda mənə yardım edin.

Gözəl cananım! Halımı bilmək istəyirsənsə, yaxşıyam Allaha şükür və sizdən ayrı qalmaqdan başqa bir dərdim yoxdur. Məndən ötrü nigaran olma. Burada hər şey qaydasındadır.

Şirinim mənim! Burada boş vaxtlarım, sizi düşünməklə keçir. Burada olmaq yaxşı fürsətdir ki, insan keçmişinə, əməllərinə və düşüncələrinə nəzər salıb özünü düzəltsin. Mən də bunu etdim və nəticə aydın şəkildə budur ki, sən həmişə gül, mən isə tikan idim. Amma bu təbiətin qanunudur ki, sənintək gül, mənimtək tikana dözməlidir və bu qanundan qaçış yolu yoxdur.

Ürəyimin sevimlisi, indi harada olduğun və nə etdiyini bilmirəm. Evin vəziyyəti necədir? Səndən məktub almaq üçün, gözüm yollarda qalıb.

Ötən məktublardakı kimi, bu məsələləri bir daha vurğulayıram:

1-Kimsə gəlməsə, nigaran olma. Bir gün özüm, bütün məktublarımı sənə gətirəcəm.

2-Mənə necə olduğunu, ev haqqında, maddi problemlər və borclarımız haqqında zəhmət olmasa məlumat ver.

3-Mənim xüsusi salamımı anaya, nənəyə, ataya, bacılara, Rza xana, Xavərigilə, Təvəssülilərə, Əhmədiyə, Hüseynpura, Səccadiyə, Əlizadəyə və digər dostlara çatdır.

4-İlahi təqva, əvvəl vaxt namaz, hər gün Quraan oxumaq, İmam Rza (ə) hərəmini ziyarət etmək, düz danışmaq, yaxşı davranmaq, ana-ataya yaxşılıq etmək, din haqqında mütaliə etmək, dərslərə ciddi yanaşmaq və ərinlə valideynin üçün dua etməyi heç vaxt unutma.

Pərakəndə şeylər yazdığım üçün, məni bağışla, çox yuxulu idim.

Ananın əllərini mənim yerimə öp və özündən muğayat ol.

Günlərin xoş olsun. Həyatın istədiyin kimi olsun və Allah sənə tofiq versin.

Ən dəyərlimi uzaqda olsam da, bütün qəlbimlə Allaha tapşırıram və Allahdan onun üçün can sağlığı və səadət arzulayıram.

Vəssəlam, yoldaşın Əlirza

Tarix: 22.10.2001

Gecə saat 12.30

# Mündəricat


Birinci hissə:....................5
Birinci fəsil....................5
İkinci fəsil....................17
Üçüncü fəsil....................23
Dördüncü fəsil....................31
Beşinci fəsil....................37
Altıncı fəsil....................45
Yeddinci fəsil....................52
Səkkizinci fəsil....................60
Doqquzuncu fəsil....................64
Onuncu fəsil....................74
On birinci fəsil....................80
On ikinci fəsil....................85
On üçüncü fəsil....................97
On dördüncü fəsil....................106
On beşinci fəsil....................115
On altıncı fəsil....................125
On yeddinci fəsil....................137
İkinci hissə:....................145
Birinci fəsil....................145
İkinci fəsil....................151
Üçüncü fəsil....................162
Dördüncü fəsil....................172
Beşinci fəsil....................182
Altıncı fəsil....................191
Yeddinci fəsil....................203
Səkkizinci fəsil....................212
Doqquzuncu fəsil....................220
Onuncu fəsil....................233
On birinci fəsil....................239

On ikinci fəsil ....................................................................247
On üçüncü fəsil ....................................................................257
On dördüncü fəsil ..................................................................267
On beşinci fəsil.....................................................................274